MİLLİ AZLIQLARIN HÜQUQLARI:
BEYNƏLXALQ AKTLAR VƏ GÜRCÜSTAN QANUNVERİCİLİYİ

X911
M62

MİLLİ AZLIQLARIN HÜQUQLARI: BEYNƏLXALQ AKTLAR VƏ GÜRCÜSTAN QANUNVERİCİLİYİ

245727

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Adiloğlu" nəşriyyatı
Bakı 2008

Layihənin müəllifi: Gültəkin Hacıbəyli

Redaktor: Kamran Ramazanlı

Çevirənlər: Ayvaz Əlləzoğlu
Nəsib Nəsibov
Elman Mustafaoğlu

MİLLİ AZLIQLARIN HÜQUQLARI: BEYNƏLXALQ AKTLAR VƏ GÜRCÜSTAN QANUNVERİCİLİYİ
Bakı, «Adiloğlu» nəşriyyatı, 2008, 368 səh.

Kitab Gürcüstanda yaşayan azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyası məqsədilə nəşr edilmişdir. Kitabda Gürcüstan Konstitusiyası, təhsil və torpaq haqqında qanunlar, habelə milli azlıqlarla bağlı beynəlxalq aktlar, konvensiyalar toplanmışdır. Kitab ali məktəb müəllimləri və tələbələri, Gürcüstanda yaşayan soydaşlarımız, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

წიგნი იბეჭდება,საქართველოში მცხოვრები აზერბაიჯანელების ქართულ საზოგადოებაში ინტეგრაციის მიზნით.წიგნში შესულია საქართველოს კონსტიტუცია, განათლებისა და მიწის შესახებ კანონები, აგრეთვე ეთნიკურ უმცირესობათა შესახებ საერთაშორისო აქტები და კონვენციები. წიგნი გათვალისწინებულია უმაღლესი სასწავლებლების მასწავლებელ – სტუდენტთვის და აგრეთვე ფართო აუდიტორიის მკითხველთათვის.

G $\frac{1203000000}{121\text{-}2008}$ qrifli nəşr

© Hacıbəyli G., 2008

ÖN SÖZ

Azərbaycan və gürcü xalqları arasında dostluqdan çox danışmaq olar. Bu xalqlar son iki əsrdə eyni taleyi bölüşməyə məhkum olmuşlar. Öncə Rusiyanın işğalına məruz qalaraq müstəqilliklərini itirmiş, sonra tarixin qısa kəsimində müstəqilliklərini yenidən əldə etmiş, azadlığın şirin dadını duymuş, az sonra yenidən sovet Rusiyasının işğalına məruz qalmışlar. Hər iki xalq Sovetlər Birliyinin çökməsi ilə öz müstəqilliyini bərpa etmişdir. Bu vaxtdan etibarən Azərbaycan-Gürcüstan münasibətlərində yeni era başlanmışdır. İki Güney Qafqaz dövlətinin müstəqilliyi ilə barışmaq istəməyən qüvvələr onları öz təsir dairəsində saxlamaq məqsədilə hər iki ölkə üçün demək olar ki, eyni problemlər yaratmış, buradakı separatçı qüvvələrə dəstək verməklə regionun siyasi, sosial və iqtisadi müstəqilliyinə mane olmağa cəhd etmişlər. Lakin zaman-zaman özünü daha qabarıq büruzə verən təzyiqlərə baxmayaraq, bu ölkələr qarşılarına çıxan maneələri aşaraq, öz gələcəklərinə doğru gedirlər.

Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya problemlərinin eyni mərkəzdən idarə edilməsi heç kimdə şübhə doğurmur.

Terrora, etnik separatçılığa və təcavüzə məruz qalan hər iki ölkə üzləşdikləri bütün çətinliklərə baxmayaraq, problemlərin həllində addım-addım irəli gedir, beynəlxalq layihələri gerçəkləşdirir və Avropaya inteqrasiya edir. Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum və Nabukko qaz, Bakı-Axalkalaki-Qars dəmir yolu layihələrinin gerçəkləşdirilməsi regionun gələcək intibahının təməlini qoydu. Məhz iqtisadi əməkdaşlıq siyasi əlaqələrin genişlənməsinə güclü təkan verdi. Bu gün Azərbaycan və Gürcüstan GUAM-ın aparıcı qüvvəsidir. Azərbaycan və Gürcüs-

tan bütün sahələrdə, istər iqtisadi, sosial, humanitar, siyasi, istərsə də hərbi sahədə uğurla əməkdaşlıq edir. Bu əməkdaşlıq hər iki ölkənin münasibətlərini strateji müttəfiqlik səviyyəsinə gətirib çıxarmışdır.

Beynəlxalq-siyasi müstəvidə, eləcə də iqtisadi layihələrin gerçəkləşməsində hər iki ölkənin bir-birinə dəstək verməsi, bölgədəki münaqişələrin beynəlxalq hüququn prinsipləri əsasında həlli zərurəti ilə bağlı ortaq mövqeyi Güney Qafqazda sülhün, əmin-amanlığın, dinc quruculuğun, iqtisadi irəliləyişin və tərəqqinin bərqərar olmasına xidmət edir.

Hər iki ölkənin liderləri- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Gürcüstan Prezidenti cənab Mixail Saakaşvilinin səyləri məhz buna yönəlib. Sirr deyil ki, Qafqaz çoxmillətli, müxtəlif etnosların birgə yaşadığı bölgədir. Azərbaycan və Gürcüstanda çoxsaylı milli azlıqlar yaşamaqdadır. Onların dilinin, milli özgürlüyünün, mədəniyyətinin qorunub saxlanması, təhsilinin inkişafı, hüquqlarının təminatı hər iki ölkənin böyük önəm verdiyi məsələlərdəndir. Gürcüstanda yaşayan soydaşlarımızın Avropa Konvensiyasında təsbit olunmuş hüquqlarının qorunması, onların vətəndaş cəmiyyətinin fəal hissəsinə çevrilməsi; milli-mədəni özgürlüklərini qoruyub inkişaf etdirmələri, gürcü cəmiyyətinə inteqrasiya olunaraq, ölkənin tamhüquqlu vətəndaşlarına çevrilmələri Avropa Şurasının üzvü olan hər iki ölkə üçün, eləcə də, mahiyyət etibarilə demokratiya və insan hüquqları təşkilatı olan Avropa Şurası üçün çox önəmlidir. Bu şərtlərin reallaşmasında hər iki ölkənin xalqları və siyasi rəhbərliyi maraqlıdır. O da sirr deyil ki, Gürcüstanda yaşayan azərbaycanlılar bu ölkənin müstəqilliyinin bərpasından sonrakı ilk illərdə bir sıra haqsızlıqlarla üzləşmiş, etnik zəmində təqiblərə məruz qalmışlar. Gürcüstanda demokratiyanın təntənəsi soydaşlarımızın həyatına da müsbət təsirini göstərməyə başlamışdır. Bu sahədə əvvəlki illərlə müqayisədə xeyli iş görülsə də, bəzi sahələrdə, xüsusilə, təhsil və torpaq islahatı sahələrində ciddi problemlər hələ də qalmaqdadır.

Bəzi hallarda bu problemlərin yaranmasına soydaşlarımızın bir qisminin gürcü dilini yetərli səviyyədə bilməməsi üzündən Gürcüstanda gedən ictimai-siyasi və sosial-iqtisadi proseslərə müdaxilə imkanlarının məhdudluğu səbəb olur.

Bu kitab bizim mövcud problemi həll etmək istiqamətində istəyimizdən doğan ilk təşəbbüsdür.

Kitabda milli azlıqların hüquqları haqqında bir sıra beynəlxalq aktlar, konvensiyalar, Gürcüstan Konstitusiyası və Gürcüstanın təhsil və torpaq haqqında qanunları toplanmışdır. Düşünürük ki, bu sahədə mövcud boşluğu doldurmağa yönələn bu ilk təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir. Ümid edirik ki, kitab soydaşlarımızın maarifləmməsinə və gürcü cəmiyyətinə daha dərin inteqrasiyasına yardım edəcəkdir.

İnanmaq istərdik ki, Azərbaycan va Gürcüstan arasında mövcud olan əlaqələr və dostluq münasibətləri nəinki Güney Qafqaz, həmçinin daha geniş çevrədə bölgəmiz üçün modelə çevriləcəkdir. Bu amala çatmaq üçün hər birimiz hələlik mövcud problemlərin həllində öz məsuliyyətimizi sonadək dərk etməli və vətəndaş borcumuzu yerinə yetirməliyik.

Gültəkin Hacıbəyli
Millət vəkili, Azərbaycan Respublikası
Milli Məclisinin Avropa Şurası Parlament
Assambleyasındakı nümayəndə heyətinin üzvü

I BÖLMƏ.
MİLLİ AZLIQLARLA BAĞLI BEYNƏLXALQ AKTLAR

AVROPA ŞURASININ NİZAMNAMƏSİ
London, 05.05.1949

Belçika Krallığı, Danimarka Krallığı, Fransa Respublikası, İrlandiya Respublikası, İtaliya Respublikası, Luksemburq Böyük Hersoqluğu, Niderlandiya Krallığı, Norveç Krallığı, İsveç Krallığı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökumətləri,

Ədalətə və beynəlxalq əməkdaşlığa əsaslanan sülhün möhkəmləndirilməsinin insan cəmiyyətinin və sivilizasiyanın saxlanılması üçün həyati zəruriliyinə uyğun gəldiyinə inanaraq,

xalqlarının ümumi sərvəti, istənilən həqiqi demokratiyanın əsasını təşkil edən şəxsiyyət azadlığı, siyasi azadlıq və hüququn aliliyi prinsiplərinin əsl qaynağı olan mənəvi və əxlaqi dəyərlərə öz bağlılıqlarını yenidən təsdiq edərək,

bu idealları qoruyub saxlamaq üçün və sosial və iqtisadi tərəqqinin mənafeyi baxımından bu görüşlərə şərik olan bütün Avropa ölkələrinin daha sıx birliyinə tələbatın olduğuna əmin olaraq,

öz xalqlarının aydın ifadə olunmuş niyyətlərinə cavab olaraq, Avropa dövlətlərini daha sıx birliyə yaxınlaşdıra biləcək bir təşkilatın təxirə salınmadan yaradılmasını vacib hesab edərək,

bunun əsasında, hökumət nümayəndələri Komitəsindən və Məsləhətçi Məclisdən ibarət olan Avropa Şurasını təsis etməyi qərara aldılar və bu məqsədlə hazırkı Nizamnaməni qəbul etdilər.

I FƏSİL - Avropa Şurasının Məqsədi

1-ci Maddə

a. Avropa Şurasının məqsədi ümumi sərvətləri olan idealların və prinsiplərin qorunması və həyata keçirilməsi naminə Üzvləri arasında böyük birliyə nail olmaq, onların iqtisadi və sosial tərəqqisinə kömək etməkdir.

Avropa Şurası orqanlarının səyləri nəticəsində ümumi maraq doğuran məsələləri müzakirə etməklə, sazişlər bağlamaqla və iqtisadi, sosial, mədəni, elmi, hüquqi və inzibati sahələrdə birlikdə hərəkət etməklə, həmçinin insan hüquqlarını və əsas azadlıqları müdafiə etmək və sonra da həyata keçirmək yolu ilə bu məqsədə nail olunacaqdır.

j. Üzv dövlətlərin Avropa Şurasının işində iştirakı Birləşmiş Millətlər Təşkilatının və daxil olduqları digər beynəlxalq təşkilat və birliklərin fəaliyyətinə verdikləri tövhəyə mənfi təsir göstərməməlidir.

d. Milli müdafiə ilə bağlı məsələlər Avropa Şurasının səlahiyyətlərinə daxil deyildir.

AVROPA SOSİAL XARTİYASI
18 oktyabr 1961-ci il

Avropa Şurası tərəfindən Turində qəbul edilmişdir.

26 fevral 1965-ci il tarixdə qüvvəyə minmişdir.

1 yanvar 1989-cu il tarixli vəziyyətə görə 15 iştirakçı.

sosial hüquqların həyata keçirilməsi, irqi, dərinin rəngi, cinsi əlamətlərə, dini, siyasi görüşlərə, milli mənsubiyyətə, yaxud da sosial mənşəyə görə heç bir ayrı-seçkiliyə yol vermədən təmin edilməli olduğunu hesab edərək,

müvafiq idarələrin və fəaliyyətin kömək liyi ilə həm şəhər, həm də kənd əhalisinin həyat səviyyəsini yüksəltmək və sosial rifahını təmin etmək üçün birlikdə hər cür səy göstərmək qərarına gələrək.

BÖLGƏ DİLLƏRİ VƏ AZLIQLARIN DİLLƏRİ HAQQINDA AVROPA XARTİYASI

Strasburq, 5. XI. 1992

Preambula

Bu Xartiyanı imzalayan dövlətlər - Avropa Şurasının üzvləri

Avropa Şurasının əsas məqsədinin üzv dövlətlər arasında, xüsusən, onların ümumi sərvəti olan idealların və prinsiplərin qorunması və inkişafı naminə daha sıx birliyin yaradılması olduğunu nəzərə alaraq;

bölgə və azlıqların zaman keçdikcə itə biləcək dillərinin qorunmasının Avropa mədəni ənənəsinin və mədəni sərvətinin mühafizəsinə və inkişafına kömək etdiyini nəzərə alaraq;

şəxsi və ictimai həyatda bölgə və azlıqların dillərini işlətmək hüququnun mülki və siyasi hüquqlar haqqında BMT-nin Beynəlxalq paktındakı prinsiplərə, insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının ruhuna uyğun ayrılmaz hüquq olduğunu nəzərə alaraq;

ATƏM çərçivəsində görülmüş işləri, xüsusilə, 1975-ci il Helsinki Müşavirəsinin Yekun Aktını və 1990-cı il Kopenhagen görüşünün sənədini nəzərə alaraq;

çoxdilliliyin və mədəniyyətlər arasında qarşılıqlı təsirin əhəmiyyətini qeyd edərək, həmçinin bölgə və azlıqların dillərinin qorunması və inkişaf etdirilməsinin rəsmi dillərin və onları öyrənmə zərurətinin zərərinə həyata keçirilməməli olduğunu nəzərə alaraq;

Avropanın müxtəlif ölkələrində və bölgələrində bölgə dillərinin qorunması və inkişaf etdirilməsinin milli suverenlik və ərazi bütövlüyü çərçivəsində demokratiya və mədəniyyət müxtəlifliyi prinsiplərinə əsaslanan yeni Avropa quruculuğuna mühüm töhfə olduğunu dərk edərək;

Avropa ölkələrində hər bir rayona xas olan səciyyəvi xüsusiyyətləri və tarixi ənənələri nəzərə alaraq, aşağıdakılar haqqında razılığa gəlmişlər:

I Hissə. Ümumi Müddəalar

1-ci Maddə - Tərifllər

Bu Xartiyanın kontekstində:

a) "bölgə dilləri, yaxud azlıqların dilləri" termini aşağıdakı dillərə münasibətdə işlədilir:

dövlətin əsas əhalisindən sayca az qrup təşkil edən vətəndaşları tərəfindən həmin dövlətin ərazisində ənənəvi olaraq işlədilir və bu dövlətin rəsmi dilindən (dillərindən) fərqlənir; bu termin əsas dilin (dillərin) dialektlərinə və mühacirlərin dilinə aid edilmir;

b) "bölgə dilinin, yaxud azlıqlar dilinin işləndiyi ərazi" termini altında elə joğrafi məkan başa düşülür ki, həmin dil bu Xartiyada dilin qorunması və inkişaf etdirilməsi nəzərdə tutulan müxtəlif tədbirlərin görülməsinə haqq qazandıracaq sayda şəxslərin ünsiyyət vasitəsinə çevrilsin;

j) "ərazisi olmayan dillər" terminiylə dövlətin vətəndaşları tərəfindən işlədilən və əhalinin qalan hissəsinin işlətdiyi dildən (dillərdən) fərqli olan dillər başa düşülür, ancaq bu dillər ənənəvi olaraq dövlətin ərazisində işlənsə də bu ərazidə konkret bir coğrafi məkana bilavasitə bağlana bilməz.

2-ci Maddə - Öhdəliklər

1. Tərəflərin hər biri II hissənin müddəalarını 1-ci Maddənin tərifləriə uyğun olan, ərazisindəki bütün bölgə, yaxud azlıqların dillərinə tətbiq etməyi öhdəsinə götürür.

2. 3-cü Maddəyə uyğun olaraq, təsdiq, qəbul, yaxud bəyənilmə anında göstərilən hər hansı bir dil barəsində Tərəflərin hər biri bu Xartiyanın III hissəsindən azı otuz beş paraqraf, yaxud abzas, o cümlədən, 8-ci və 12-ci Maddələrin hər birindən azı üç 9-cu, 10-cu, 11-ci və 13-cü maddələrin isə hər birindən bir paraqraf yaxud abzas tətbiq etməyi öhdəsinə götürür.

3-cü Maddə - Gerçəkləşdirmə üsulları

1.Razılığa gəlmiş dövlətlərdən hər biri 2-ci maddənin 2-ci paraqrafına uyğun olaraq seçilmiş müddəaların tətbiq ediləcəyi hər bir bölgə, yaxud azlığın dilini və ya onun bütün ərazisinə daha az yayılmış hər bir dili, yaxud onun rəsmi dilinin hissəsini Xartiyanın təsdiqi, qəbulu, yaxud bəyənilməsi haqqında sənəddə göstərməlidir.

2.Bundan sonra Tərəflərin hər biri Xartiyanın təsdiqnaməsində, yaxud qəbulu və ya bəyənilməsi haqqında sənəddə göstərilməyən istənilən digər paraqrafını müddəalarından irəli gələn öhdəlikləri qəbul etdiyini və ya bu maddənin 1-ci paraqrafına hər hansı digər bölgə dilinə, yaxud azlığın dilinə və ya onun bütün ərazisinə daha az yayılmış dilə, yaxud onun rəsmi dilinin hissəsinə tətbiq edəcəyini istənilən vaxt Baş Katibə xəbər verə bilər.

3. Əvvəlki paraqrafda nəzərdə tutulan öhdəliklər təsdiqin, qəbulun, yaxud bəyənilmənin tərkib hissəsi sayılacaq və bildiriş anından eyni hüquqi nəticələrə malik olacaqdır.

4-cü Maddə - Mövcud müdafiə mexanizmləri

1. Bu Xartiyanın heç bir müddəası insan hüquqları haqqında Avropa Konvensiyası tərəfindən təminat verilən hüquqların məhdudlaşdırılması, yaxud istisna edilməsi (ondan geri çəkilmə) kimi yozula bilməz.

2.Bu Xartiyanın müddəaları artıq Tərəflərin birində qüvvədə olan, yaxud müvafiq ikitərəfli və ya çoxtərəfli beynəlxalq sazişlərdə nəzərdə tutulan və bölgə dillərinin, yaxud azlıqlarının dilinin statusunu və ya azlığa mənsub olan şəxslərin hüquqi statusunu qaydaya salan daha əlverişli müddəalara zərər yetirmir.

5-ci Maddə - Mövcud öhdəliklər

Bu Xartiyanın heç bir müddəası Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsədlərinə, yaxud dövlətlərin suverenlik və ərazi bütövlüyü prinsipləri də daxil olmaqla, beynəlxalq hüquq üzrə digər öhdəliklərə zidd fəaliyyətlə məşğul olmaq və hər hansı bir hərəkəti etmək hüququnu nəzərdə tutduğu kimi yozula bilməz.

6-cı Maddə - Məlumat

Tərəflər bu Xartiyada təsdiq edilən hüquq və vəzifələr haqqında müvafiq orqanların, təşkilatların və şəxslərin məlumat almasını nəzarətdə saxlamağı öhdələrinə götürürlər.

II Hissə. 2-ci Maddənin 1-ci Paraqrafına Uyğun Məqsədlər və Prinsiplər

7-ci Maddə - Məqsədlər və Prinsiplər

1. Ərazilərində işlədilən bölgə, yaxud azlıqların dillərinə münasibətdə və hər bir dilin statusuna müvafiq olaraq Tərəflər öz siyasətini, qanunvericiliyini və öz əməli fəaliyyətini aşağıdakı məqsəd və prinsiplərə uyğun olaraq qurmalıdırlar:

a) bölgə dillərinin, yaxud azlıqların dillərinin mədəni sərvətin ifadə vasitəsi olduğunun etiraf edilməsi;

b) mövcud, yaxud gələcəkdə ola biləcək inzibati bölgünün bölgə və ya azlıqların dilinin inkişafına maneələr yaratmamasına diqqət yetirməklə, hər bir bölgə və ya azlıqların dilinin joğrafi məkanına riayət edilməsi;

j) bölgə dillərinin, yaxud azlıqların dillərinin qorunub saxlanması məqsədilə bu dillərin inkişaf etdirilməsi üçün qəti əməllərin zəruriliyi;

d) ictimai və şəxsi həyatda bölgə dillərinin və ya azlıqların dillərinin şifahi və ya yazılı şəkildə işlədilməsinə yardım və yaxud bu işlədilməyə təşviq etmə;

e) bu Xartiyanın tətbiq dairəsinə daxil olan sahələrdə bölgə, yaxud azlıqların dilini işlədən qruplar, həmin dövlətin eyni dildə, yaxud yaxın dildə danışan digər qrupları arasında əlaqələrin dəstəklənməsi və inkişaf etdirilməsi, eləcə də dövlət daxilində başqa dilləri işlədən digər qruplar ilə mədəni əlaqələrin qurulması;

f)bütün təhsil mərhələlərində bölgə dillərinin, yaxud azlıqların dillərinin tədrisinin və öyrənilməsinin müvafiq forma və vasitələrinin verilməsi;

g) bölgə, yaxud azlıqların dilinin işləndiyi yerdə yaşayan, ancaq bu dildə danışmayanlara, onu öyrənmək istədikləri halda onlara vəsaitlərin ayrılması;

h) universitetlərdə və ya anoloji təhsil müəsisələrində bölgə dillərinin, yaxud azlıqların dillərinin öyrənilməsi və araşdırılmasının inkişafına yardım göstərilməsi;

i) iki və ya daha çox dövlətdə eyni, yaxud yaxın formada işlənilən bölgə dilləri, yaxud azlıqların dilləri üzrə bu Xartiyanın tətbiq dairəsinə daxil olan sahələrdə millətlərarası mübadilənin müvafiq formalarının inkişaf etdirilməsi;

2. Tərəflər bölgə dilinin, yaxud azlıqların dilinin işlədilməsiylə bağlı özünü doğrultmayan fərqlərin, istisnaların, məhdudlaşdırmaların və ya üstün tutulmanın dilin qorunub saxlanılmasının və ya inkişaf etdirilməsinin təşviqinə qarşı, yaxud şübhə altına qoyulmasına yönəlikli istənilən formalarını aradan qaldırılmayıbsa, aradan qaldıracaqlarını öhdələrinə götürürlər. Bölgə dillərində, yaxud azlıqların dillərində danışanlar ilə əhalinin qalan hissəsi arasında böyük bərabərliyə nail olmaq üçün və ya bölgə, yaxud azlıqların dillərində danışanların xüsusi statusu nəzərə alınmaqla bu dillərin xeyrinə xüsusi tədbirlərin görülməsi daha geniş yayılmış dillərin daşıyıcılarına qarşı ayrı-seçkilik hərəkəti sayılmır.

3. Tərəflər, xüsusilə bölgə dilləri, yaxud azlıqların dilləri barəsində hörmət, anlaşma və dözümlülüyü dövlətin təhsil və peşə hazırlığının məqsədlərindən biri kimi qəbul edərək, ölkənin bütün dil qrupları arasında böyük qarşılıqlı anlaşmaya müvafiq tədbirlərin köməyilə yardım etməyi, eləcə də bu məqsəd üçün kütləvi kommunikasiya vasitələrinin inkişafını təşviq etməyi öhdələrinə götürürlər.

4. Bölgə dilləri, yaxud azlıqların dilləri sahəsində öz siyasətlərini müəyyənləşdirərkən Tərəflər bu dilləri işlədən qrupların ehtiyac və istəklərini nəzərə almağı öhdələrinə götürürlər. Lazım gələrsə Tərəflərin bölgə dillərinə, yaxud azlıqların dillərinə aid bütün məsələlər üzrə hakimiyyət orqanlarına məsləhətlər verə bilən orqanlar yaratması alqışlanır.

5.Tərəflər bu maddənin 1 və 4-cü paraqraflarında ifadə edilən prinsipləri ərazisi olmayan dillərə mutatismutandis (lazımi dəyişikliklər irəli sürərək) tətbiq etməyi öhdələrinə götürürlər. Ancaq bu dillərin konkret hallarında bu Xartiyanı həyata keçirmək məqsədilə görülən tədbirlərin xarakter və miqyası belə dillərdə danışan qrupların ehtiyac və istəkləri nəzərə alınmaqla, onların ənənələri və səciyyəvi xüsusiyyətləri gözlənilməklə çevik şəkildə müəyyən edilməlidir.

III Hissə. Bölgə Dillərinin, yaxud Azlıqların Dillərinin Ictimai Həyatda İşlədilməsinə Dair, 2-ci Maddənin 2-ci Paraqrafı üzrə Öhdəliklərə Uyğun Olaraq Görülən Tədbirlər

8-ci Maddə - Təhsil

1. Təhsil sahəsində Tərəflər bu dillərin hər birinin statusunu nəzərə almaqla, eləcə də dövlətin rəsmi dilinin (dillərinin) tədrisinə ziyan vurmadan, bölgə dillərinin işləndiyi ərazilər barəsində aşağıdakı öhdəlikləri götürürlər:

a) I müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində məktəbəqədər tərbiyənin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

məktəbəqədər tərbiyənin xeyli hissəsinin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində həyata keçirmənin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

bu maddənin I və II yarımbəndlərində nəzərdə tutulan tədbirlərin hər hansı birini ən azı ailəsi istəyən və sayları kifayət qədər olacaq uşaqlara tətbiq etmək; yaxud

dövlət hakimiyyəti orqanlarının məktəbəqədər təhsil sisteminə bilavasitə təsiri yoxdursa, bu Maddənin I-III bəndlərində nəzərdə tutulan tədbirlərin tətbiqinə kömək etmək və yaxud təşviq etmək; yaxud

b) ibtidai təhsilin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində mümkünlüyünü nəzərdə tutmaq; yaxud ibtidai təhsilin xeyli hissəsinin müvafiq bölgə dillərində, yaxud

azlıqların dillərində həyata keçirilməsinin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

ibtidai təhsil çərçivəsində müvafiq bölgə dillərinin, yaxud azlıqların dillərinin öyrənilməsinin tədris proqramının tərkib hissəsi kimi cədvələ daxil edilməsini təmin etmək; yaxud

I-III bəndlərində nəzərdə tutulan tədbirlərin hər hansı birini ən azı ailəsinin istəyinə uyğun olaraq və sayları kifayət qədər olacaq şagirdlərə tətbiq etmək;

j) orta təhsilin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində mümkünlüyünü nəzərdə tutmaq; yaxud

orta təhsilin xeyli hissəsinin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində həyata keçirilməsinin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

orta təhsil çərçivəsində bölgə dillərinin, yaxud azlıqların dillərinin tədrisini tədris proqramının tərkib hissəsi kimi nəzərdə tutmaq; yaxud

I-III bəndlərində nəzərdə tutulan tədbirlərin hər hansı birini ən azı bunları istəyən, yaxud zəruri halda bunları ailəsi arzulayan və sayları kifayət qədər olacaq şagirdlərə tətbiq etmək;

d) texniki və peşə təhsilinin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində mümkünlüyünü nəzərdə tutmaq; yaxud

texniki və peşə təhsilinin xeyli hissəsinin müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində həyata keçirmənin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

texniki və peşə təhsili çərçivəsində müvafiq bölgə dillərinin, yaxud azlıqların dillərinin tədrisini tədris proqramının tərkib hissəsi kimi nəzərdə tutmaq; yaxud

bu Maddənin I-III bəndlərində nəzərdə tutulan tədbirlərdən hər hansı birini, ən azı, bunları istəyən, yaxud zəruri halda bunları ailəsi arzulayan və sayları kifayət qədər olacaq şagirdlərə tətbiq etmək;

e) universitet təhsilini və ali təhsilin digər formalarının bölgə dillərində, yaxud azlıqların dillərində tədrisinin mümkünlüyünü nəzərdə tutmaq; yaxud

bu dillərin öyrənilməsini universitet, yaxud başqa ali təhsilin fənlərindən biri kimi nəzərdə tutmaq; yaxud

ali təhsil müəssələrinə münasibətdə dövlət statusuna görə I və II bəndləri tətbiq oluna bilmədikdə universitet təhsilinin, yaxud başqa ali təhsilin bölgə dillərində, yaxud azlıqların dillərində aparılmasına kömək etmək və / yaxud icazə vermək və ya bu dillərin universitetlərdə, digər ali təhsil müəssələrində öyrənilməsinə vəsait ayırmaq;

f) tədrisi başlıca olaraq və ya tamamilə bölgə dillərində, yaxud azlıqların dillərində aparılan yaşlı kurslarının və ya fasiləsiz təhsilin təşkilinə dair tədbirlər görmək, yaxud

yaşlıların öyrənməsi üçün və fasiləsiz təhsil çərçivəsində bu dilləri ayrıca fənn kimi təklif etmək; yaxud

dövlət hakimiyyət orqanları yaşlılar üçün təhsil sahəsinə bilavasitə təsir hüququna malik olmadıqda yaşlılar üçün təhsil və fasiləsiz təhsil çərçivəsində bu dillərin tədrisinə kömək və / yaxud təşviq etmək;

q) müvafiq bölgə dillərində, yaxud azlıqların dillərində ifadə edilən tarix və mədəniyyətin tədrisini təmin etmək sahəsində tədbirlər görmək;

h) Tərəfin razılığı olduğu halda a-dan q-yə qədər paraqrafların tətbiqi üçün müəllimlərin lazımi həcmdə ilkin və fasiləsiz peşə hazırlığını təmin etmək;

i) qəbul edilən tədbirlərin icrasına və bölgə dillərində, yaxud azlıqların dillərində tədrisin həyata keçirilməsi və inkişaf etdirilməsi sahəsində nailiyyətlərə nəzarəti yerinə yetirmək və bütün bunlar haqqında sonradan dərc ediləcək müntəzəm hesabatlar hazırlamaq üçün bir və ya bir neçə nəzarət orqanı yaratmaq.

2. Bölgə dillərinin, yaxud azlıqların dillərinin ənənəvi şəkildə işlənmədiyi ərazilərdə tədrislə bağlı olaraq, bu dillərdə danışanların sayı tədris üçün kifayət qədər olduğu halda, Tərəflər həmin dildə tədrisə, yaxud müvafiq təhsil mərhələlərində həmin dilin tədrisinə icazə verilməsini, onun təşviqini və ya tətbiq edilməsini öhdələrinə götürürlər.

9-cu Maddə - Ədalət məhkəməsi

1. Bölgə dillərində yaxud azlıqların dillərində sayı kifayət qədər danışanlar yaşayan ərazilərdə məhkəmə orqanları ilə əlaqədar nəzərdə tutulan aşağıdakı tədbirlərin həyata keçirilməsini doğrultmaq üçün Tərəflər bu dillərdən hər birinin statusuna uyğun olaraq və məhkəmənin bu paraqraflarda verilən imkanları ədalət məhkəməsinin normal həyata keçirilməsinə maneə hesab etməməsi şərtilə, aşağıdakıları öhdələrinə götürürlər;

a) cinayət məhkəmə icraatında:

tərəflərdən birinin xahişi ilə təhqiqatını bölgə dillərində, yaxud azlıqların dillərində aparılmasının mümkünlüyünü nəzərdə tutmaq; və yaxud

müttəhimə öz bölgə dilində və yaxud azlıqların dilində fikrini başa salmaq hüququna təminat vermək; və yaxud

yazılı, yaxud şifahi formada ərizə və dəlillərin yalnız bölgə dilində, yaxud azlıqların dilində ifadə olunduğuna görə qəbul edilməməsinə yol verməmək,

məhkəmə təhqiqatına aid sənədləri xahiş olduğu halda müvafiq bölgə dilində, yaxud azlıqların dilində tərtib etmək;

zəruri hallarda tərcüməyə ehtiyacı olanlar üçün əlavə xərclərə yol vermədən şifahi, yaxud yazılı tərcüməçiyə müraciət etmək,

b) mülki məhkəmə icraatında:

tərəflərdən birinin xahişi ilə təhqiqatın bölgə dillərində, yaxud azlıqların dillərində aparmasının mümkünlüyünü nəzərdə tutmaq; və yaxud

mübahisədə tərəf məhkəməyə şəxsən gəlməli olduqda, onun əlavə xərj çəkmədən öz bölgə dilində, yaxud azlıqların dilində fikrini başa salmasına icazə vermək; və yaxud

sənəd və dəlillərin bölgə dillərində, yaxud azlıqların dillərində təqdim edilməsinə icazə vermək;

zəruri halda şifahi, yaxud yazılı tərcüməçiyə müraciət etmək,

j. inzibati icraatda:

tərəflərdən birinin xahişi ilə təhqiqatın bölgə dillərində, yaxud azlıqların dillərində aparılmasının mümkünlüyünü nəzərdə tutmaq; və yaxud

mübahisədə tərəf məhkəməyə şəxsən gəlməli olduqda onun əlavə xərj çəkmədən öz bölgə dilində, yaxud azlıqların dilində fikrini başa salmasına icazə vermək; və yaxud

sənəd və dəlillərin bölgə dillərində, yaxud azlıqların dillərində təqdim edilməsinə icazə vermək;

zəruri halda şifahi, yaxud yazılı tərcüməçiyə müraciət etmək,

d) bu Maddənin b) və j) paraqraflarının I və III bəndlərinin tətbiqinin və tərcüməçiyə mümkün müraciətin və yazılı tərcümələrdən istifadənin tərcüməyə ehtiyacı olanlar üçün əlavə xərj yaratmaması üçün tədbirlər görmək.

2. Tərəflər aşağıdakıları öhdələrinə götürürlər:

a) dövlətdə hazırlanmış hüquq aktların yalnız bölgə dilində, yaxud azlıqların dilində tərtib edildiyinə əsaslanaraq etibarsız hesab etməmək;

24572

b) dövlətdə hazırlanmış hüquqi aktları yalnız bölgə dilində, yaxud azlıqların dilində tərtib edildiyinə əsaslanaraq tərəflər arasında etibarsız hesab etməmək və həmin dillərdə danışmayan maraqlı tərəf kimi üçüncü şəxslər tərəfindən təqdim edilən aktların məzmunu onların nəzərinə çatdırılacağı halda hüquqi qüvvəyə malik olacağını nəzərdə tutmaq; yaxud

j)dövlətdə hazırlanmış hüquqi aktları yalnız bölgə dilində, yaxud azlıqların dilində tərtib edildiklərinə əsaslanaraq tərəflər arasında onları etibarsız hesab etməmək.

3.Tərəflər dövlətin ən mühüm qanunvericilik aktlarını eləcə də bu dilllərdə danışanlara xüsusi aidiyyatı olan, ancaq başqa yolla onların sərəncamına hələlik daxil olmayan sənədləri bölgə dillərində, yaxud azlıqların dillərində tərtib edilməsini öhdələrinə götürürlər.

10-cu Maddə - İnzibati hakimiyyət orqanları və dövlət xidmətləri

1. Bölgə dillərində, yaxud azlıqların dillərində kifayət qədər danışan olan dövlət inzibati dairələrində aşağıda göstərilən

Axundov adına Azərbaycan Milli Kitabxanası

tədbirləri doğrultmaq üçün və hər bir dilin statusundan asılı olaraq, Tərəflər mümkün dərəcədə aşağıdakıları öhdələrinə götürürlər:

a) I bu inzibati hakimiyyət orqalarının bölgə dillərini, yaxud azlıqların dillərini işlətməsinə diqqət yetirmək; yaxud

II orqanların ictimaiyyətlə əlaqədə olan əməkdaşlarının onlara bölgə dillərində, yaxud azlıqların dillərində müraciət edən şəxslərlə ünsiyyət zamanı həmin dilləri işlətməsinə diqqət yetirmək; yaxud

III bölgə dillərində, yaxud azlıqların dillərində danışanların yazılı və şifahi ərizələrlə müraciət edə bilmələrinə və bu dillərdə cavab ala bilmələrinə diqqət yetirmək; yaxud

IV bölgə dillərində, yaxud azlıqların dillərində danışanların bu dillərdə şifahi, yaxud yazılı ərizələrlə müraciət edə bilmələrinə diqqət yetirmək; yaxud

V bölgə dillərində, yaxud azlıqların dillərində danışanların bu dillərdə tərtib edilmiş sənədləri müəyyən edilmiş qaydada təqdim edə bilmələrinə diqqət yetirmək;

b) əhali üçün xidmət kitabçalarını, yaxud cari inzibati sənədləri bölgə dillərində, yaxud azlıqların dillərində və ya iki dildə buraxmaq;

j) inzibati hakimiyyət orqanlarına sənədləri bölgə dillərində, yaxud azlıqların dillərində tərtib etmələrinə icazə vermək.

2. Bölgə dillərində, yaxud azlıqların dillərində danışanların sayı aşağıda göstərilən tədbirlərin tətbiqi üçün kifayət qədər olan ərazilərdəki yerli və bölgə hakimiyyət orqanlarına münasibətdə Tərəflər aşağıdakılara icazə verməyi və yaxud təşviq etməyi öhdələrinə götürürlər:

a) bölgə dillərinin, yaxud azlıqların dillərinin bölgə, yaxud yerli inzibati fəaliyyət çərçivəsində işlədilməsi;

b) bölgə dillərində, yaxud azlıqların dillərində danışanların bu dillərdə şifahi, yaxud yazılı ərizələr təqdim etməyin mümkünlüyü;

j) bölgə hakimiyyət orqanları tərəfindən rəsmi sənədlərin həmçinin bölgə dillərində, yaxud azlıqların dillərində dərc edilməsi;

d) yerli hakimiyyət orqanları tərəfindən rəsmi sənədlərin həmçinin bölgə dillərində, yaxud azlıqların dillərində dərc edilməsi;

e) seçkili orqanlarda müzakirələrin gedişində dövlətin rəsmi dilinin (dillərinin) işlədilməsini istisna etməməklə, bölgə dillərinin, yaxud azlıqların dillərinin bölgə səviyyəsində işlədilməsi;

f) seçkili orqanlarda müzakirələrin gedişində dövlətin rəsmi dilini (dillərini) işlədilməsini istisna etməməklə, bölgə dillərinin, yaxud azlıqların dillərinin yerli səviyyədə işlədilmsi;

q) zəruri hallarda rəsmi dildəki adları ilə birlikdə ənənəvi düzgün toponimika adlarının bölgə dillərində, yaxud azlıqların dillərində işlədilməsi, yaxud tətbiq edilməsi.

3) İnzibati hakimiyyət orqanları, yaxud onların adından hərəkət edən şəxslər tərəfindən göstərilən dövlət xidmətlərinə münasibətdə Tərəflər bölgə dillərinin, yaxud azlıqların dillərinin işləndiyi ərazilərdə və hər bir dilin statusuna uyğun olaraq, eləcə də mümkün dərəcədə aşağıdakıları öhdələrinə götürürlər:

a) xidmət göstərilərkən bölgə dillərinin, yaxud azlıqların dillərinin işlədilməsinə diqqət yetirmək; yaxud

b) bölgə dillərində, yaxud azlıqların dillərində danışanlara ərizələri bu dillərdə tərtib etməyə və bu dillərdə də cavab almağa icazə vermək; yaxud

j) bölgə dillərində, yaxud azlıqların dillərində danışanlara ərizələri bu dillərdə tərtib etməyə icazə vermək.

4) Tərəflər 1-ci, 2-ci və 3-cü paraqrafların razılığa gəldikləri müddəalarının tətbiqi üçün aşağıdakı bir və ya bir neçə tədbiri görməyi öhdələrinə götürürlər:

a) lazım gəldikdə yazılı, yaxud şifahi tərcümə;

b) dövlət əməkdaşlarının və digər dövlət qulluqçularının kifayət miqdarda toplanılması, zəruri hallarda isə hazırlanması;

j) bölgə dillərini, yaxud azlıqların dillərini yaxşı bilən dövlət qulluqçularının bu dillərin işləndiyi ərazilərə təyinatlar verilməsi haqqında xahişlərini mümkün qədər təmin etmək.

5. Tərəflər maraqlı şəxslərin bölgə dillərində, yaxud azlıqların dillərində soyadı işlətməsi, yaxud götürməsi xahişinə icazə verməyi öhdələrinə götürürlər.

11-ci Maddə - Kütləvi İnformasiya vasitələri

1. Tərəflər bölgə dillərində, yaxud azlıqların dillərində danışanların maraqları naminə onların yaşadıqları və bu dillərin işləndiyi ərazilərdə, dövlət hakimiyyəti orqanlarının bilavasitə və ya dolayısilə səlahiyyətinin, hüququnun, yaxud müəyyən rolunun olduğu dərəcədə hər bir dilin statusunu nəzərə almaqla, kütləvi informasiya vasitələrinin müstəqillik və sərbəstlik prinsipinə əməl etməklə:

aşağıdakıları öhdələrinə götürürlər:

a) radio və televiziyanın dövlət xidməti funksiyasını yerinə yetirdiyi dərəcədə;

i bölgə dillərində, yaxud azlıqların dillərində verlişlər verən ən azı bir radio stansiyanın və bir televiziya kanalının yaradılmasını təmin etmək; yaxud

II bölgə dillərində, yaxud azlıqların dillərində verilişləri verən ən azı bir radio stansiyanın və bir televiziya kanalının yaradılmasını təşviq etmək və ona kömək etmək; yaxud

III teleradio verilişlərinin bölgə dillərində, yaxud azlıqların dillərindəki bəzi verlişləri öz proqramına daxil etməsi üçün müvafiq tədbirlər görmək;

b) I bölgə dillərində, yaxud azlıqların dillərində veriliş verən ən azı bir radiostansiyanın yaradılmasını təşviq etmək və yaxud ona kömək etmək; yaxud

II bölgə dillərində, yaxud azlıqların dillərində verilişləri müntəzəm şəkildə radioproqrama daxil edilməsinə təşviq etmək və yaxud ona kömək etmək;

j) I bölgə dillərində, yaxud azlıqların dillərində ən azı bir televiziya kanalının yaradılmasına təşviq etmək və yaxud ona kömək etmək; yaxud

II bölgə dillərində, yaxud azlıqların dillərindəki verilişləri müntəzəm şəkildə televiziya proqramına daxil edilməsinə təşviq etmək və yaxud ona kömək etmək;

d) bölgə dillərində, yaxud azlıqların dillərində radio və televiziya üçün əsərlərin yazılmasını, radio və televiziya ilə verilməsini təşviq etmək və yaxud buna kömək etmək;

e) I bölgə dillərində, yaxud azlıqların dillərində ən azı bir mətbuat orqanının yaradılmasına və yaxud saxlanmasına təşviq etmək və yaxud bu buna kömək etmək;

II mətbuatda bölgə dillərində, yaxud azlıqların dillərində məqalələrin müntəzəm şəkildə dərc edilməsini təşviq etmək və yaxud buna kömək etmək;

g) I qanunvericilik kütləvi informasiya vasitələrinə maliyyə yardımını ümumiyyətlə nəzərdə tutursa, bölgə dillərini, yaxud azlıqların dillərini işlədən kütləvi informasiya vasitələrinin əlavə xərcini öz üzərinə götürmək; yaxud

II mövcud maliyyə yardımı tədbirlərini bölgə dillərindəki, yaxud azlıqların dillərindəki audiovizual məhsullara aid etmək;

h) bölgə dillərini, yaxud azlıqların dillərini işlədən kütləvi informasiya vasitələri üçün curnalistlərin və digər əməkdaşların peşə hazırlığına dəstək vermək.

2. Tərəflər öz ölkələrindəki bölgə dilləri, yaxud azlıqların dilləri ilə eyni və ya oxşar olan dildə radio və televiziya verlişlərinin qonşu ölkələrdən sərbəst birbaşa qəbulunu və qonşu ölkələrdən həmin dildə radio və televiziya verlişlərinin retransliyasiyasına mane olmamağı öhdələrinə götürürlər. Tərəflər eləcə də, ölkələrindəki bölgə dilləri, yaxud azlıqların dilləri ilə eyni və ya oxşar dildə ifadə azadlığına və məlumatların sərbəst mübadiləsinə yol verilməyən heç bir məhdudlaşdırmanın kütləvi informasiyanın çap vasitələrinə də tətbiq edilməməsinə diqqət yetirməyi öhdələrinə götürürlər. Yuxarıda adları çəkilən və müəyyən öhdəliklər və məsuliyyət ilə bağlı azadlıqların həyata keçirilməsi qanunda nəzərdə tutulan və milli təhlükəsizliyi, ərazi bütövlüyünü, yaxud ictimai təhlükəsizliyi, ictimai asayişin mühafizəsini və cinayətkarlığın qarşısının alınmasını, sağlamlığın və ya mənəviyyatın qorunmasını,

digər şəxslərin nüfuz və hüququnun qorunmasını, məxfi məlumatların açılmasına yol verməmək, yaxud məhkəmə hakimiyyətinin nüfuz və qərəzsizliyini təmin etmək üçün demokratik cəmiyyətdə vacib tədbirlər olan bəzi rəsmiyyətlər, şərtlər, məhdudiyyətlər, yaxud sanksiyalar ilə şərtləndirilə bilər.

3. Tərəflər bölgə dillərində, yaxud azlıqların dillərində danışanların mənafelərinin kütləvi informasiya vasitələrinin azadlıq və plüralizmin təminatı haqqında qanuna uyğun olaraq yaradıla biləcək strukturlar çərçivəsində təmsil edilməsinə, yaxud nəzərə alınmasına nəzarət etməyi öhdələrinə götürürlər.

12-ci Maddə - Mədəni fəaliyyət və mədəniyyət müəssisələri

1. Tərəflər mədəni fəaliyyət və mədəniyyət müəssisələrinə, xüsusilə, kitabxanalara, videotekalara, mədəni mərkəzlərə, muzeylərə, arxivlərə, akademiyalara, teatrlara və kinoteatrlara, eləcə də, ədəbi əsərlər və kinomatoqrafiya məhsullarına, xalq yaradıcılığına, festivallara, sənətlərə, o cümlədən ən yeni texnologiyanın istifadəsinə münasibətdə, haqqında danışılan dillərin işləndiyi ərazilərdə və dövlət hakimiyyət orqanlarının səlahiyyəti, hüquqi, yaxud rolu dairəsində aşağıdakıları öhdələrinə götürürlər:

a) özünüifadə imkanını təşviq ktmək və bölgə dillərinə, yaxud azlıqların dillərinə aid olan təşəbbüsləri dəstəkləmək, eləcə də, bu dillərdə olan əsərlərdən istifadəni asanlaşdıran müxtəlif imkanlara yardım göstərmək;

b) tərcümə, dublyaj, postsinxron tərcümə və subtitrləndirmə sahəsində fəaliyyəti dəstəkləyərək və inkişaf etdirərək bölgə dillərində, yaxud azlıqların dillərində yaradılan əsərlərdən başqa dillərdə istifadəyə yol tapmaq üçün müxtəlif imkanlara kömək etmək;

j) tərcümə, dublyaj, postsinxron tərcümə və subtitrləndirmə sahəsində fəaliyyəti dəstəkləyərək və inkişaf etdirərək başqa dillərdə yaradılan əsərlərdən istifadəyə bölgə dillərində, yaxud azlıqların dillərində yol tapmaq üçün müxtəlif imkanlarla kömək etmək;

d) müxtəlif növ mədəni tədbirlərin keçirilməsinə və ya onlara kömək edilməsinə məsul olan təşkilatların təşkil etdikləri, yaxud dəstəklədikləri tədbirlərdə bölgə dillərinə və mədəniyyətlərinə aid biliklərin və təcrübənin, eləcə də onların özlərinin təşkil etdikləri, yaxud da dəstəklədikləri tədbirlərdə azlıqların dillərinin və mədəni ənənələrinin müvafiq həcmdə təmin etmələrinə diqqət yetirmək;

e) bölgə dillərini, yaxud azlıqların dillərini əhalinin qalan hissəsinin danışdığı dillə bərabər yaxşı bilən əməkdaşların mədəni tədbirlərin təşkili, yaxud onlara dəstəklənməsi ilə məşğul olan təşkilatların işinə cəlb edilməsinə kömək etmək;

f) bölgə dillərinin, yaxud azlıqların dillərinin daşıyıcılarının nümayəndələrinin mədəniyyət müəssisələrinin işində, yaxud mədəni tədbirlərin planlaşdırılmasında bilavasitə iştirakına kömək etmək;

g) bölgə dillərində, yaxud azlıqların dillərində olan əsərlərin toplanması, saxlanmaq üçün müəyyən bir yerə verilməsi, təqdimatı, yaxud dərc edilməsi ilə məşğul olan bir və ya bir neçə orqanın yaradılmasını təşviq etmək və yaxud yaradılmasına yardım göstərmək;

h) bölgə dillərinin, yaxud azlıqların dillərinin hər birində lazımi inzibati, ticari, iqtisadi, sosial, texnoloji, yaxud hüquqi terminologiyanı dəstəkləmək və inkişaf etdirmək üçün terminologiyanın tərcüməsi və hazırlanması üzrə xidmət yaratmaq və yaxud bu xidməti inkişaf etdirmək və maliyyələşdirmək.

2. Tərəflər, bölgə dillərinin, yaxud azlıqların dillərinin ənənvi olaraq işlənmədiyi ərazilərdə, əvvəlki paraqrafa uyğun olaraq, bölgə dillərinin, yaxud azlıqların dillərinin daşıyıcılarının sayı haqq qazandırdığı halda mədəni fəaliyyətin, yaxud mədəniyyət müəssisələrinin müxtəlif növlərinə icazə verməyi, dəstəkləməyi və /yaxud nəzərdə tutmağı öhdələrinə götürürlər.

3. Tərəflər xarici mədəni siyasətlərində bölgə dillərinə, yaxud azlıqların dillərinə və onların ifadə vasitəsi olduqları mədəniyyətə lazımi yer ayırmağı öhdələrinə götürürlər.

13-cü Maddə - İqtisadi və sosial həyat

1. Tərəflər iqtisadi və sosial fəaliyyətlə əlaqədar bütün ölkə miqyasında aşağıdakıları öhdələrinə götürürlər:

a) iqtisadi və sosial həyata aid sənədlərdə, o cümlədən əmək sazişlərində və məhsulun, yaxud avadanlığın bu və ya digər növünün tətbiq qaydası kimi texniki sənədlərdə bölgə dillərinin, yaxud azlıqların dillərinin işlədilməsini heç bir səbəb olmadan yasaq edən, yaxud məhdudlaşdıran istənilən müddəanı qanunvericiliyindən çıxartmaq;

b) bölgə dillərinin, yaxud azlıqların dillərinin, ən azı eyni dilin daşıyıcıları arasında işlədilməsini istisna edən, yaxud məhdudlaşdıran bəndlərin müəssisələrin daxili qaydasına, yaxud xüsusi aktlara daxil edilməsini yasaqlamaq;

j) iqtisadi, yaxud sosial fəaliyyət çərçivəsində bölgə dillərinin, yaxud azlıqların dillərinin işlədilməsindən imtinaya yönəlikli təcrübəyə yol verməmək;

d) yuxarıda sadalananlardan savayı bölgə dillərinin, yaxud azlıqların dillərinin işlədilməsinə başqa üsullarla kömək etmək və yaxud buna təşviq etmək.

2. Tərəflər bölgə dillərinin, yaxud azlıqların dillərinin işləndiyi ərazilərdə dövlət hakimiyyəti orqanlarının səlahiyyəti dairəsində və mümkün dərəcədə iqtisadi və sosial fəaliyyət sahələri üzrə aşağıdakıları öhdələrinə götürürlər:

a) ödəmə tapşırıqlarını (çek, veksel və s.) və ya başqa maliyyə sənədlərini hazırlayarkən bölgə dillərinin, yaxud azlıqların dillərinin ticarət qaydaları ilə uyğunlaşa bilən şəraitdə istifadə olunması üçün maliyyə və bank qanunvericiliyində konkret imkanları müəyyənləşdirmək, yaxud zəruri halda, belə müddəaların qəbulunu təmin etmək;

b) iqtisadi və sosial bölmələrdə bölgə dillərinin, yaxud azlıqların dillərinin işlədilməsinə yönəldilən birbaşa, yaxud nəzarət edilən (dövlət bölməsi) tədbirlər keçirmək;

j) xəstəxana, qocalar evi, yetimxanalar kimi sosial sahə müəssisələrinin sağlamlıq durumuna, yaşına görə qayğıya ehtiyacı olan bölgə dillərinin, yaxud azlıqların dillərinin

daşıyıcılarının öz dillərində danışmaqla, onları qəbul və müalicə etmək imkanı ilə təmin etmək;

d) təhlükəsizlik təlimatının, həm də bölgə dillərində, yaxud azlıqların dillərində müvafiq vasitələrlə nəşr edilməsini təmin etmək;

e) istehlakçıların hüququna dair səlahiyyətli orqanlardan alınan məlumatları bölgə dillərində, yaxud azlıqların dillərində asan anlaşılan şəkildə vermək.

14-cü Maddə - Sərhədyanı əlaqələr

Tərəflər,

a) mövcud ikitərəfli və çoxtərəfli sazişləri dilin eyni və ya oxşar formada işləndiyi dövlətlərə tətbiq etməyi, yaxud zəruri halda, eyni dilin daşıyıcıları arasında mədəniyyət, təhsil, məlumat, peşə təhsili və fasiləsiz təhsil sahəsində əlaqələrə yardım etmək məqsədilə belə dövlətlərlə sazişlər imzalamağa cəhd göstərən dövlətlərə tətbiq etməyi;

b) bölgə dillərinin, yaxud azlıqların dillərinin maraqları naminə sərhədyanı əməkdaşlığa, o cümlədən eyni və ya oxşar formada eyni dil işlədilən ərazilərdə yerli, yaxud bölgə qurumları arasında əməkdaşlığa kömək etməyi və yaxud təşviq etməyi öhdələrinə götürürlər.

IV Hissə. Xartiyanın Tətbiqi

15-ci Maddə - Vaxtaşırı məruzələr

1. Tərəflər, bu Xartiyanın II hissəsinə uyğun olaraq yürüdülən siyasət və III hissənin razılaşdıqları müddəalarını həyata keçirmək sahəsində gördükləri tədbirlər haqqında, Nazirlər Komitəsinin müəyyən etməli olduğu formada məruzələr hazırlayıb, vaxtaşırı Avropa Şurasının Baş Katibinə təqdim etməlidirlər Birinci məruzə Xartiyanın Tərəflərdən konkret birinə münasibətdə qüvvəyə minməsindən sonra bir il müddətində, sonrakı məruzələr isə birinci məruzədən sonra üç il fasilə ilə təqdim edilməlidir.

2. Tərəflər öz məruzələrini dərc etməlidirlər.

16-cı Maddə. Məruzələrə baxılması

1. 15-ci maddəyə əsasən Avropa Şurasının Baş Katibinə təqdim edilən məruzələr 17-ci Maddəyə əsasən yaradılan ekspertlər komitəsi tərəfindən baxılacaqdır.

2. Tərəflərin birində qanuni əsaslarla yaradılan orqanlar və ya assosasiyalar ekspertlər komitəsinin diqqətini bu Xartiyanın III hissəsinə əsaslanaraq, həmin Tərəfin qəbul etdiyi öhdəliklərlə bağlı məsələlərə cəlb edə bilərlər. Həmin Tərəflə məsləhətləşmədən sonra ekspertlər komitəsi bu məlumatı bu Maddənin 3-cü paraqrafında nəzərdə tutulan məruzə hazırlanarkən nəzərə ala bilər.

Bundan başqa bu orqanlar və ya assosiasiyalar, III Hissəyə müvafiq olaraq Tərəfin yeritdiyi siyasətlə bağlı bəyanat verə bilərlər.

3. Ekspertlər komitəsi 1-ci paraqrafda nəzərdə tutulan məruzələr və 2-ci paraqrafda nəzərdə tutulan məlumatlar əsasında Nazirlər Komitəsinə məruzə hazırlayır. Tərəfə təklif edilən qeydlər bu məruzəyə əlavə edilir. Məruzə Nazirlər Komitəsi Tərəfindən dərc edilə bilər.

4. 3-cü paraqrafda nəzərdə tutulan məruzə Nazirlər Komitəsinin zəruri halda bir və ya bir neçə Tərəfə istənilən tövsiyəsini hazırlamaq məqsədilə, ekspertlər komitəsinin Nazirlər Komitəsinə təkliflərindən ibarət olmalıdır.

5. Avropa Şurasının Baş Katibi Xartiyanın tətbiqinə dair Parlament Assambleyasına iki illik ətraflı məruzə hazırlayır.

17-ci Maddə - Ekspertlər Komitəsi

1. Ekspertlər komitəsi, yüksək əxlaqi keyfiyyətli və Xartiyada əksini tapmış məsələlərlə bağlı bacarığı etiraf olunmuş şəxslərin maraqlı Tərəfin təqdim etdiyi siyahısı əsasında Nazirlər Komitəsi tərəfindən Tərəflərin hər birindən bir nəfər olmaqla təyin olunan nümayəndələrdən təşkil edilir.

2. Komitənin üzvləri 6 il müddətinə təyin edilir, onların səlahiyyət müddəti təzələnə bilər. Komitə üzvlərindən hər hansı biri öz vəzifəsini yerinə yetirə bilmədikdə, 1-ci paraqrafda nəzərdə tutulan proseduraya uyğun olaraq əvəzlənməlidir

və onun yerinə təyin edilən komitə üzvü öz vəzifəsini sələfinin səlahiyyət müddəti bitənə qədər yerinə yetirəcəkdir.

3. Eksperlər komitəsi öz daxili reqlametini qəbul edir. Komitə katibliyinin işini Avropa Şurasının Baş Katibi təmin edir.

V Hissə. Yekun müddəaları

18-ci Maddə

Bu Xartiya Avropa Şurasının üzv dövlətləri tərəfindən imzalanmaq üçün açıqdır. O, təsdiq edilməli, qəbul olunmalı, yaxud bəyənilməlidir. Təsdiqnamələr və qəbuletmə, yaxud bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə təhvil verilir.

19-cu Maddə

1. Mövcud Xartiya, Avropa Şurasının beş üzv dövləti 18-ci maddəyə uyğun olaraq, Xartiya ilə bağlılıqlarına razılıqlarını bildirəcəkləri gündən üç aylıq vaxt bitdikdən sonra ardınca gələn ayın birinci günü qüvvəyə minir.

2. Xartiya ilə bağlılıqlarına sonradan öz razılığını bildirən hər bir üzv dövlətə münasibətdə Xartiya təsdiqnamənin, yaxud qəbul etmə və ya bəyənmə haqqında sənədin saxlanılmaq üçün təhvil verildiyi gündən üç ay vaxt bitdikdən sonra, ardınca gələn ayın birinci günü qüvvəyə minir.

20-ci Maddə

1. Bu Xartiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən dövlətə Xartiyaya qoşulmağı təklif edə bilər.

2. Qoşulan istənilən dövlətə münasibətdə Xartiya, qoşulma haqqında sənədin saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə təhvil verilməsindən üç aylıq vaxt bitdikdən sonra ardınca gələn ayın birinci günü qüvvəyə minir.

21-ci Maddə

1. İstənilən dövlət öz təsdiqnaməsini, qəbul etmə, bəyənmə və yaxud qoşulma haqqında sənədini imzalayarkən, yaxud saxlanılmaq üçün təhvil verərkən, bu Xartiyanın 7-ci Mad-

dəsinin 2-dən 5-ə qədər paraqraflarına bir və ya bir neçə düzəlişlər edə bilər. Başqa heç bir düzəlişə yol verilmir.

2. Əvvəlki paraqrafa əsasən düzəliş etmiş istənilən razılığa gələn dövlət Avropa Şurasının Baş Katibinə xəbərdarlıq məktubu göndərərək, bu düzəlişi tamamilə və ya qismən geri götürə bilər. Geri götürmə Baş Katibin xəbərdarlıq məktubu aldığı andan qüvvəyə minir.

22-ci Maddə

1. Tərəflərdən hər biri istədiyi vaxt bu Xartiyanı Avropa Şurasının Baş Katibinə xəbərdarlıq məktubu göndərərək etibarsız elan edə bilər

2. Etibarsız elan etmə Baş Katibin xəbərdarlıq məktubunu aldığı gündən altı aylıq vaxt bitdikdən sonra, arxasınca gələn ayın birinci günü qüvvəyə minir.

23-cü Maddə

Avropa Şurasının Baş Katibi bu Şuranın üzv dövlətlərinə və bu Xartiyaya qoşulmuş hər bir dövlətə aşağıdakılar haqqında məlumat verir:

a) istənilən imzalanma haqqında;

b) istənilən təsdiqnamənin, yaxud qəbul etmə, bəyənmə və ya qoşulma sənədinin təhvil verilməsi haqqında;

j. 19-cu və 20-ci Maddəyə uyğun olaraq, bu Xartiyanın qüvvəyə mindiyi hər bir tarix haqqında;

d) 3-cü Maddənin 2-ci paraqrafına əsasən alınan hə bir xəbərdarlıq məktubu haqqında;

e) bu Xartiyaya aid olan istənilən başqa akt, xəbərdarlıq məktubu və ya məlumat haqqında;

Təsdiq etmək üçün lazımi vəkaləti olan aşağıda imza edənlər bu Xartiyanı imzaladılar.

5 noyabr 1992-ci il tarixdə Strasburqda fransız və ingilis dillərində hazırlanmış və hər iki mətn eyni qüvvəyə malikdir, tək bir nüsxəsi saxlanılmaq üçün Avropa Şurasının arxivinə verilir. Avropa Şurasının Baş Katibi Xartiyanın imza və möhürlə təsdiq edilmiş surətlərini Avropa Şurasının hər bir üzv dövlətinə və bu Xartiyaya qoşulmaq təklifi edilən hər bir dövlətə göndərir.

MİLLİ AZLIQLARIN MÜDAFİƏSİ HAQQINDA ÇƏRÇİVƏ KONVENSİYASI

Strasburq, 1. II. 1995

Bu Çərçivə Konvensiyasını imzalayan Avropa Şurasının üzv dövlətləri və digər dövlətlər,

Avropa Şurası üzvlərinin ümumi sərvəti olan ideal və prinsiplərin müdafiəsi naminə onların arasında daha sıx birliyə nail olmağı Avropa Şurasının məqsədi hesab edərək,

İnsan hüquqları və əsas azadlıqların himayə edilməsi və gələcəkdə də həyata keçirilməsini bu məqsədə çatmağın vasitələrindən biri hesab edərək,

9 oktyabr 1993-cü il tarixdə Vyanada qəbul edilən Avropa Şurasının üzv dövlətlərinin dövlət və hökumət başçılarının Bəyannaməsindəki müddəaları inkişaf etdirməyi və həyata keçirməyi arzu edərək,

öz müvafiq ərazilərində milli azlıqların mövcudluğunu müdafiə etmək əzmində olduqlarını bildirərək,

Avropa tarixində baş verən sarsıntıları, Avropa qitəsində sabitlik, demokratik təhlükəsizlik və sülh üçün milli azlıqları müdafiə etməyin zəruri olduğunun nümayişi hesab edərək,

plüralist və həqiqi demokratik cəmiyyətin milli azlıqlara mənsub istənilən şəxsin nəinki etnik, mədəni, dil və din özünəməxsusluğuna hörmət etməli, həm də bu özünəməxsusluğu ifadə etməyə, qoruyub saxlamağa və inkişaf etdirməyə imkan verən şərat yaratmalı olduğunu nəzərə alaraq,

mədəniyyət müxtəlifliyinin hər bir cəmiyyətin parçalanmasının deyil, zənginləşməsinin mənbəyi və amili olması üçün dözümlülük və dialoq şəraitinin yaradılmasının zəruri olduğunu nəzərə alaraq,

dözümlü və çiçəklənən Avropanın inkişafının nəinki dövlətlərarasındakı əməkdaşlıqdan asılı olduğunu, həm də, hər bir dövlətin konstitusiya və ərazi bütövlüyünə əməl etməklə yerli və regional hakimiyyətlər arasında sərhədyanı əməkdaşlığa əsaslandığını hesab edərək,

insan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Kovensiyanı və ona əlavə Protokolları nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının konvensiya və bəyannamələrindəki, Avropada təhlükəsizlik və əməkdaşlığa dair Müşavirənin sənədlərindəki, xüsusilə, 29 iyun 1990-cı il tarixli Kopenhagen sənədindəki milli azlıqların müdafiəsinə dair öhdəlikləri nəzərə alaraq,

üzv dövlətlərdə və bu sənədin iştirakçısı ola biləcək digər dövlətdlərdə hüququn aliliyinə əməl, ərazi bütövlüyünə və dövlət suverenliyinə hörmət etməklə milli azlıqların və onlara mənsub hər bir şəxsin hüquq və azadlıqlarının səmərəli müdafiəsini təmin etmək üçün əməl edilməli prinsipləri və onlardan irəli gələn öhdəlikləri müəyyənləşdirmək əzmində olduqlarını bildirərək,

bu çərçivə Konvensiyasında təsbit edilən prinsipləri milli qanunvericilik və müvafiq dövlət siyasəti əsasında həyata keçirmək əzmində olduqlarını bildirərək,

aşağıdakılar haqqında razılığa gəldilər:

I Bölmə

1-ci Maddə

Milli azlıqların və bu azlıqlara mənsub şəxslərin hüquq və azadlıqlarının müdafiəsi insan hüquqlarının beynəlxalq müdafiəsinin ayrılmaz tərkib hissəsidir və bu keyfiyyətdə beynəlxalq əməkdaşlıq sahəsidir.

2-ci Maddə

Bu çərçivə Konvensiyasının müddəaları vicdanla anlaşma və dözümlülük ruhunda dövlətlər arasında mehriban qonşuluq, dostluq münasibətləri və əməkdaşlıq prinsiplərinə əməl etməklə həyata keçirilir.

3-cü Maddə

1. Milli azlıqlara mənsub istənilən şəxs ona bu cür baxılıb baxılmamasını sərbəst seçmək hüququna malikdir və bu seçim, yaxud bu seçimlə bağlı hüquqların həyata keçirilməsi həmin şəxsi təhqir etməməlidir.

2. Milli azlıqlara mənsub şəxslər bu Konvensiyada təsbit edilmiş prinsiplərdən irəli gələn hüquq və azadlıqlardan fərdi qaydada, eləcə də, başqa şəxslərlə birlikdə istifadə edə bilərlər

II Bölmə

4-cü Maddə

1. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin qanun qarşısında bərabərlik və qanunla bərabər müdafiə olunmaq hüququna təminat verməyi öhdələrinə götürürlər. Bununla əlaqədar milli azlıqlara mənsubluğa əsaslanan istənilən ayrı-seçkilik yasaq edilir.

2. Tərəflər bütün iqtisadi sosial, siyasi və mədəni həyat sahələrində milli azlıqlara mənsub şəxslər ilə əhalinin əsas qrupuna mənsub şəxslər arasında tam və həqiqi bərabərliyi təşviq etmək üçün zəruri halda lazımi tədbirlər görməyi öhdələrinə götürürlər. Bununla əlaqədar Tərəflər milli azlıqlara mənsub şəxslərin xüsusi vəziyyətini lazımi qaydada nəzərə alırlar.

3.Əvvəlki bəndin müddəalarına uyğun olaraq, qəbul edilən tədbirlərə ayrı-seçkilik aktı kimi baxılmır.

5-ci Maddə

1. Tərəflər milli azlıqlara mənsub şəxslərin öz mədəniyyətlərini dəstəkləmək və inkişaf etdirmək, eləcə də, onların özünəməxsusluğunun əsas ünsürlərini, yəni: din, dil, ənənə və mədəni irslərini qoruyub saxlamaq imkanlarını təmin etmək üçün lazım olan şəraitin yaradılmasına kömək etməyi öhdəlrinə götürürlər.

2. Tərəflər öz ümumi inteqrasiya siyasətlərinin inkişafı üçün gördükləri tədbirlərə zərər vurmadan milli azlıqlara mənsub şəxslərin iradələrinin ziddinə onların ascimlyasiyası məqsədi daşıyan hər hansı siyasi və praktiki hərəkətlərdən çəkinirlər və bu şəxsləri belə assimilyasiyaya yönəldilmiş hər bir hərəkətdən qoruyurlar.

6-cı Maddə

1. Tərəflər mədəniyyətlər arasında dözümlülük ruhunu və dialoqu təqdir edirlər, eləcə də, ərazilərində yaşayan bütün şəxslər arasında, onların dilindən etnik, mədəni, yaxud dini

mənsubiyyətindən asılı olmayaraq, xüsusən təhsil, mədəniyyət və informasiya vasitələri sahəsində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığa kömək edən səmərəli tədbirlər görürlər.

2. Tərəflər etnik, mədəni, dil, yaxud din mənsubiyyətlərinə görə ayrı-seçkilik təhlükəsinin, yaxud aktlarının, düşmənçiliyin, yaxud zorakılığın qurbanı ola biləcək şəxslərin müdafiəsi üçün bütün lazımi tədbirləri görməyi öhdələrinə götürürlər.

7-ci Maddə

Tərəflər milli azlıqlara mənsub hər bir şəxsin dinc yığıncaqlar keçirmək azadlığı və assosiasiyalar azadlığı, fikrini ifadə etmək azadlığı və düşüncə, vicdan və din azadlığı hüquqlarına hörməti təmin edirlər.

8-ci Maddə

Tərəflər milli azlığa mənsub hər bir şəxsi öz dininə açıq şəkildə etiqad etmək, yaxud əqidəsini açıq şəkildə ifadə etmək hüququnu, eləcə də, dini müəssisələr, təşkilatlar və assosiyasiyalar yaratmaq hüququnu qəbul etməyi öhdələrinə götürürlər.

9-cu Maddə

1. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin öz fikrini sərbəst ifadə etmək hüququna hər hansı bir fikrə tərəfdar olmaq və ictimai hakimiyyət orqanlarının müdaxiləsinə məruz qalmadan və dövlət sərhəddindən asılı olmayaraq azlıqların dilində məlumat və yaxud ideyalar almaq və mübadilə etmək azadlığının daxil olduğunu qəbul etməyi öhdələrinə götürürlər. Tərəflər hüquq sistemləri çərçivəsində milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrindən istifadəyə yol tapmaq məsələsində ayrı-seçkiliyə məruz qalmamalarını təmin edirlər.

2.Əvvəlki bənd hər hansı bir ayrı-seçkiliyə yol vermədən və obyektiv meyarlar əsasında radio və televiziya verlişlərini, yaxud kinomatoqrafiya müəssisələrini lisenziyalaşdırmada Tərəflərə maneçilik törətmir.

3.Tərəflər milli azlıqlara mənsub şəxslərin informasiya çap vasitələrini yaratmalarına və onlardan istifadə etmələrinə mane olmurlar. Radio və televiziya verlişlərinin hüquqi əsasları çərçivəsində onlar mümkün dərəcədə və əvvəlki bəndin müd-

dəalarını nəzərə almaqla, milli azlıqlara mənsub şəxslərin öz informasiya vasitlərini yaratmaq və onlardan istifadə etmək imkanını təmin edirlər.

4.Tərəflər hüquq sistemləri çərçivəsində dözümlülüyü təqdir etmək və mədəni plüralizmi təmin etmək məqsədilə milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrindən istifadəyə yol tapmalarını yüngülləşdirmək üçün lazımi tədbirlər görürlər.

10-cu Maddə

1. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin öz azlıqlarının dilində şəxsi həyatda və ictimai yerlərdə şifahi və yazılı olaraq sərbəst və maneəsiz istifadə etmək hüququnu qəbul etməyi öhdələrinə götürürlər.

2. Milli azlıqlara mənsub şəxslərin xeyli sayda, yaxud ənənəvi olaraq yaşadıqları bölgələrdə bu haqda həmin şəxslər xahiş etdikdə və belə xahişlər real tələbata uyğun olduqda Tərəflər onlarla inzibati hakimiyyət orqanları arasındakı münasibətlərdə azlıqların dilindən istifadəyə imkan verən şəraiti mümkün dərəcədə təmin etməyə çalışacaqlar.

3. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin həbs edilməsinin səbəbləri, xarakteri və ona qarşı irəli sürülən istənilən ittihamın səbəbi haqqında qısa müddət ərzində başa düşdüyü dildə məlumat almaq, eləcə də lazım gəldikdə tərcüməçinin köməyindən pulsuz istifadə etməklə bu dildə öz müdafiəsini təşkil etmək hüququna zəmanət verməyi öhdələrinə götürürlər.

11-ci Maddə

1. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin öz soyadını, adını və atasının adını bu azlıqların dilində işlətmək hüququnu, eləcə də hüquq sistemlərində təsbit edilmiş tələblərə uyğun olaraq, onların rəsmi şəkildə tanınmaq hüququnu qəbul etməyi öhdələrinə götürürlər.

2. Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin ictimai yerlərdə öz azlıqların dilində lövhələr, yazılar və xüsusi xarakterli digər informasiyalar yerləşdirmək hüququnu qəbul etməyi öhdələrinə götürürlər.

3. Milli azlıqlara mənsub şəxslərin xeyli sayda və ənənəvi olaraq yaşadıqları rayonlarda Tərəflər zəruri halda digər dövlətlərlə sazişlərə də daxil etməklə, hüquq sistemləri çərçivəsində konkret şəraiti nəzərə almaqla kifayət qədər ehtiyac olarsa, həm də azlıqların dilində ənənəvi yerli adlara, küçə adlarına və əhali üçün digər topoqrofik məlumatlara dair göstəricilərin qoyulmasını təmin edirlər.

12-ci Maddə

1. Tərəflər, zəruri halda həm öz milli azlıqlarının, həm də əhalinin əsas qrupunun mədəniyyəti, tarixi, dil və dini ilə bağlı bilikləri yaxşılaşdırmaq üçün təhsil və elmi araşdırmalar sahəsində tədbirlər görürlər.

2. Bu kontekstdə Tərəflər xüsusən müəllimlərin hazırlanması, məktəblərin dərsliklərlə təmin edilməsi və müxtəlif icmalardan olan şagird və müəllimlər arasında əlaqələrin yaxşılaşdırılması üçün lazımi şəraiti yaradırlar.

3.Tərəflər milli azlıqlara mənsub şəxslərin bütün səviyyələrdə təhsildən istifadəyə yol tapmaları üçün onları eyni imkanlarla təmin etməyi öhdələrinə götürürlər.

13-cü Maddə

1. Tərəflər öz təhsil sistemləri çərçivəsində milli azlıqlara mənsub şəxslərin təhsil sahəsində özəl müəssisələri yaratmaq və onları idarə etmək hüququnu qəbul edirdilər.

2. Bu hüququn həyata keçirilməsi Tərəflər üçün heç bir maliyyə öhdəliklərini irəli sürmür.

14-cü Maddə

1.Tərəflər milli azlıqlara mənsub istənilən şəxsin öz azlıqların dilini öyrənmək hüququnu qəbul etməyi öhdələrinə götürürlər.

2.Tərəflər mümkün dərəcədə öz təhsil sistemləri çərçivəsində milli azlıqlara mənsub şəxslərin xeyli sayda, yaxud ənənəvi olaraq yaşadıqları bölgələrdə buna kifayət qədər tələbat olduqda, bu azlıqlara mənsub olan şəxslərin öz azlıqlarının dilini öyrənmək, yaxud bu dildə təhsil almaq üçün lazımi imkanlara malik olmalarını təmin etməyə çalışırlar.

3. Bu maddənin əvvəlki bəndinin müddəaları rəsmi dilin öyrənilməsinə, yaxud bu dildə tədrisə zərər yetirmədən həyata keçirilir.

15-ci Maddə

Tərəflər, milli azlıqlara mənsub şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, eləcə də, dövlət işlərinin, xüsusən onların mənafeyi ilə bağlı olan dövlət işçilərinin idarə olunmasında səmərəli iştirak etmələri üçün lazımi şəraitin yaradılmasını öhdələrinə götürürlər.

16-cı Maddə

Tərəflər milli azlıqlara mənsub şəxslərin yaşadığı hər hansı bir bölgədə əhalinin struktur tərkibini dəyişərək, bu Çərçivə Konvensiyasında ifadə edilən prinsiplərdən irəli gələn hüquq və azadlıqlarını məhdudlaşdırmaq məqsədi güdən tədbirləri görməkdən çəkinirlər.

17-ci Maddə

1. Tərəflər milli azlıqlara mənsub şəxslərin başqa dövlətlərin ərazilərində daimi yaşayan şəxslərlə, xüsusən ortaq etnik, mədəni, dil və ya din mirasına malik şəxslərlə sərhədyanı azad və dinc əlaqələr qurmaq və bu əlaqələri davam etdirmək hüququnun həyata keçirilməsinə maneçilik törətməməyi öhdələrinə götürürlər.

2. Tərəflər milli azlıqlara mənsub şəxslərin qeyri-hökumət təşkilatlarının fəaliyyətində istər milli, istərsə də beynəlxalq səviyyədə iştirak etmək hüququnun həyata keçirilməsinə maneçilik töətməməyi öhdələrinə götürürlər.

18-ci Maddə

1. Tərəflər müvafiq milli azlıqlara mənsub şəxslərin müdafiəsini təmin etmək üçün zəruri halda başqa dövlətlərlə, o cümlədən qonşu dövlətlərlə ikitərəfli və çoxtərəfli sazişlər imzalanmasına səy göstərirlər.

2. Zəruri halda Tərəflər sərhədyanı əməkdaşlığın təşviqinə yönəlikli tədbirlər görürlər.

19-cu Maddə

Tərəflər zəruri halda yalnız beynəlxalq hüquq sənədlərində, xüsusilə insan hüquqlarının və əsas azadlıqların müdafiəsi

haqqında Konvensiyada nəzərdə tutulan məhdudlaşdırmalara və ya geri çəkilmələrə bu çərçivə Konvensiyasındakı prinsiplərdən irəli gələn hüquq və azadlıqlara aid olduqları ölçüdə yol verməklə, göstərilən prinsiplərə əməl etməyi və onları həyata keçirməyi öhdələrinə götürürlər.

III Bölmə

20-ci Maddə

Bu çərçivə Konvensiyasında ifadə edilən prinsiplərdən irəli gələn hüquq və azadlıqlar həyata keçirilərkən, milli azlıqlara mənsub hər bir şəxs milli dövlət qanunvericiliyinə əməl edir və digər şəxslərin, xüsusilə əhalinin əsas qrupuna, yaxud başqa milli azlıqlara mənsub şəxslərin hüquqlarına hörmət göstərir.

21-ci Maddə

Bu çərçivə Konvensiyasında heç nə ayrılıqda hər hansı bir şəxsin beynəlxalq hüquq prinsiplərinə, xüsusən, dövlətin suveren bərabərlik, ərazi bütünlüyü və siyasi müstəqillik prinsiplərinə zidd hər hansı bir fəaliyyətlə məşğul olmaq və ya hər hansı bir hərəkətə yol vermək hüququnun nəzərdə tutulması kimi yozula bilməz.

22-ci Maddə

Bu çərçivə Konvensiyasında heç nə Razılığa gəlmiş Tərəflərdən hər hansı birinin qanunvericiliyinə, yaxud həmin Tərəfin iştirakçısı olduğu istənilən başqa bir Müqaviləyə uyğun olaraq insan hüquqlarından və əsas azadlıqlardan hər hansı birinin məhdudlaşdırılması, yaxud pozulması kimi yozula bilməz.

23-cü Maddə

Bu çərçivə Konvensiyasında ifadə edilən prinsiplərdən irəli gələn hüquq və azadlıqlar insan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın, yaxud ona əlavə edilən protokolların predmeti olduğu dərəcədə sonuncu sənədlərin müddəalarına uyğun hüquq və azadlıqlar kimi başa düşülür.

IV Bölmə

24-cü Maddə

1. Bu çərçivə Konvensiyasının Razılığa gəlmiş Tərəflər tərəfindən həyata keçirilməsinə nəzarət etmək səlahiyyəti Avropa Şurasının Nazirlər Komitəsinə verilmişdir.

2.Avropa Şurasının üzvü olmayan Tərəflər Konvensiyanın həyata keçirilməsi mexanizmində müəyyənləşdiriləcək şərtlərlə iştirak edirlər.

25-ci Maddə

1. Bu çərçivə Konvensiyasının Razılığa gəlmiş Tərəflərdən hər hansı birinə münasibətdə qüvvəyə minməsindən sonra bir il müddətində həmin Tərəf bu Konvensiyada ifadə edilən prinsiplərin həyata keçirilməsi üçün qəbul edilən qanunvericilik tədbirləri və digər tədbirlər haqqında Avropa Şurasının Baş katibinə tam məlumat verir.

2.Sonralar hər bir Tərəf vaxtaşırı və hər dəfə Nazirlər Komitəsindən müvafiq xahiş gəldikdə bu çərçivə Konvensiyasının həyata keçirilməsi ilə bağlı istənilən məlumatı Baş Katibə verir.

3. Bu maddənin müddəalarına uyğun olaraq Baş Katib verilən bütün məlumatları Nazirlər Komitəsinə göndərir.

26-cı Maddə

1. Bu çərçivə Konvensiyasında ifadə edilən prinsiplərin həyata keçirilməsi üçün hər hansı bir Tərəfin qəbul etdiyi tədbirlərin adekvatlığı qiymətləndirilərkən, Nazirlər Komitəsinə milli azlıqların müdafiəsi sahəsində səriştəsi olan üzvlərdən təşkil edilmiş məsləhət Komitəsi kömək edilir.

2.Məsləhət komitəsinin tərkibi, eləcə də, onun iş proseduru bu çərçivə Konvensiyasının qüvvəyə minməsindən sonra bir il müddətində Nazirlər Komitəsi tərəfindən müəyyən edilir.

V Bölmə

27-ci Maddə

Bu çərçivə Konvensiyası Avropa Şurasının üzv dövlətləri tərəfindən imzalanmaq üçün açıqdır.

Konvensiyanın qüvvəyə mindiyi tarixə qədər, Nazirlər Komitəsinin Konvesiyanı imzalamağı təklif etdiyi istənilən digər bir dövlət üçün də imzalanmağa açıqdır. O, təsdiq edilməli, qəbul edilməli və bəyənilməlidir. Təsdiq etmə, qəbul etmə və bəyənmə haqqında sənədlər saxlanmaq üçün Avropa Şurasının Baş Katibinə təhvil verilir.

28-ci Maddə

1. Bu çərçivə Konvensiyası Avropa Şurasının on iki üzv dövlətinin 27-ci maddənin müddəalarına uyğun olaraq bu çərçivə Konvensiyası ilə bağlı olmağa razılıqlarını bildirdikləri tarixdən üç ay vaxt bitdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Sonralar bu çərçivə Konvensiyası ilə bağlı olmağa razılaşdığını bildirən hər hansı bir üzv dövlət üçün bu çərəivə Konvensiyası, təsdiq etmə, qəbul etmə, yaxud bəyənmə haqqında sənədlərin saxlanmaq üçün təhvil verdiyi tarixdən üç ay vaxt bitdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

29-cu Maddə

1. Bu çərçivə Konvensiyası qüvvəyə mindikdən və razılığa gəlmiş dövlətlərlə məsləhətləşmədən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının Nizamnaməsinin 20-ci Maddəsinin (d) bəndində nəzərdə tutulduğu kimi, özünün əksəriyyət tərəfindən qəbul olunan qərarına əsasən Avropa Şurasının üzvü olmayan və 7-ci maddənin müdəalarına uyğun olaraq, Konvensiyanı imzalamaq təklifini alan, ancaq onu hələ imzalamamış istənilən bir dövlətə, həmçinin Avropa Şurasının üzvü olmayan istənilən digər dövlətə bu çərçivə Konvensiyasına qoşulmağı təklif edə bilər.

2. Qoşulan hər bir dövlət üçün bu çərçivə Konvensiyası qoşulma haqqında sənədin Avropa Şurasının Baş Katibinə saxlanmağa verildiyi tarixdən üç ay vaxt bitdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

30-cu Maddə

1. İstənilən dövlət təsdiq etmə, qəbul etmə, bəyənmə, yaxud qoşulma haqqında sənədi imzalayarkən, yaxud saxlanılmağa təhvil verərkən beynəlxalq münasibətlərinə görə

məsuliyyət daşıdığı və bu çərçivə Konvensiyasının tətbiq ediləcəyi ərazini və ya əraziləri göstərə bilər.

2. İstənilən dövlət sonralar istənilən vaxtda Avropa Şurasının Baş Katibinin adına göndərdiyi ərizədə bu çərçivə Konvensiyasının tətbiqini ərizədə göstərdiyi istənilən başqa bir əraziyə aid edə bilər; həmin ərazidə bu çərçivə Konvensiyası belə bir ərizənin Baş Katib tərəfindən alındığı tarixdən üç ay vaxt bitdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bəndin müddəaları əsasında istənilən ərazi barəsində verilən istənilən ərizə Baş Katibə xəbərdarlıq məktubu göndərmək yolu ilə geri götürülə bilər. Geri götürülmə qərarı Baş Katibin belə xəbərdarlıq məktubunu aldığı tarixdən üç ay vaxt bitdikdən sonra gələn ayın birici günü qüvvəyə minir.

31-ci Maddə

1. İstənilən Tərəf istədiyi vaxt Avropa Şurasının Baş Katibinə xəbərdarlıq məktubu göndərərək bu çərçivə Konvensiyasını etibarsız elan edə bilər.

2. Bu etibarsız elan etmə Baş Katibin belə xəbərdarlıq məktubunu aldığı tarixdən altı ay vaxt keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

32-ci Maddə

Avropa Şurasının Baş Katibi Avropa Şurasının üzvü olan dövlətlərə, bu çərçivə Konvensiyasını imzalayan başqa dövlətlərə və ona qoşulan bütün dövlətlərə aşağıdakılar haqqında xəbər verir:

a) istənilən imzalanma haqqında;

b) təsdiqetmə, qəbuletmə, bəyənmə, yaxud qoşulma haqqında istənilən sənədin saxlanılmağa verilməsi haqqında;

j) bu çərçivə Konvensiyasının 28, 29 və 30-cu maddələrinə uyğun olaraq, onun qüvvəyə mindiyi hər bir tarix haqqında;

d) Bu çərçivə Konvensiyasına aidliyi olan istənilən digər akt, xəbərdarlıq, yaxud məlumat haqqında.

Bu çərçivə Konvensiyasını buna səlahiyyəti olan aşağıdakılar təsdiqləmək üçün onu imzaladılar.

1995-ci il fevralın 1-də Strasburqda ingilis və fransız dillərində hazırlanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir; tək bir nüsxədə saxlanılmaq üçün Avropa Şurasının arxivinə verilir. Avropa Şurasının Baş Katibi imza və möhürlə təsdiq edilmiş surətləri Avropa Şurasının üzvü olan hər bir Dövlətə, eləcə də bu Konvensiyanı imzalamaq, yaxud qoşulmaq təklifi edilən hər bir dövlətə göndərir.

İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYAYA ƏLAVƏ EDİLƏN 12 N-LI PROTOKOL

Roma, 4 noyabr 2000-ci il

1-ci Maddə. Ayrı-seçkiliyin ümumi qadağanı

1.Qanun tərəfindən qəbul edilmiş istənilən hüquqdan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər əqidələr, milli, yaxud sosial mənşə, milli azlığa mənsubiyyət, əmlak vəziyyəti, doğum əlamətinə, yaxud istənilən digər cəhətlərə görə heç bir ayrı-seçkiliyə yol verilmədən təmin edilməlidir.

2.Heç kəs bu maddənin 1-ci bəndində göstərilən əlamətlərə görə ictimai hakimiyyət orqanları tərəfindən ayrı-seçkiliyə məruz qoyula bilməz.

ATƏM-in İNSAN ÖLÇÜSÜ KONFRANSINA DAİR KOPENHAGEN MÜŞAVİRƏSİNİN SƏNƏDİ

Avropada Təhlükəsizlik və Əməkdaşlığa
Dair Müşavirənin 35 iştirakçı dövləti tərəfindən
1990-cı il iyunun 29-da qəbul edilmişdir.

25. İştirakçı dövlətlər, insan hüquqlarına və əsas azadlıqlara aid olan öhdəliklərdən fövqəladə vəziyyət şəraitində istənilən geri çəkilmənin beynəlxalq hüququn, o cümlədən iştirakçıları olduqları beynəlxalq vasitələrin, xüsusən geri çəkilmənin mümkün olmayacağı hüquqların nəzərdə tutduğu sərhədlər daxilində tam qalmalı olduğunu təsdiq edirlər. Onlar həmçinin təsdiq edirlər ki:

25.4. - belə tədbirlər yalnız irqi mənsubiyyətə, dərinin rənginə, cinsə, dilə, dinə, sosial mənşəyə, yaxud azlıqlara mənsubiyyətə əsaslanan ayrı-seçkiliyə səbəb olmur.

30. İştirakçı dövlətlər milli azlıqlara aid olan məsələlərin yalnız qanunun aliliyinə əsaslanan demokratik siyasi çərçivələrdə, müstəqil məhkəmə sisteminin fəaliyyəti şəratində qənaətləndirici tərzdə həll edilə biləcəyini qəbul edirlər. Bu çərçivələr insan hüquqlarına və əsas azadlıqlara tam hörmətlə yanaşmaya, bütün vətəndaşların bərabər hüquq və vəziyyətlə təmin edilməsinə onların öz qanuni maraqlarını da, arzularını da sərbəst ifadə etmələrinə, dövlət hakimiyyətindən sui-istifadənin yoluna təsirli əngəllər qoyan hüquq normalarının yerinə yetirilməsinə, siyasi plüralizmə və sosial dözümlülüyə təminat verirlər.

Onlar həmçinin dözümlülüyün, mədəniyyət müxtəlifliyinin təşviq edilməsində və milli azlıqlarla bağlı məsələlərin həllində siyasi partiyalar, həmkarlar ittifaqları, insan hüquqları üzrə təşkilatlar və dini qruplar da daxil olmaqla, qeyri-hökumət təşkilatlarının mühüm rol oynadığını qəbul edirlər.

Onlar daha sonra, hamılıqla qəbul edilmiş insan hüquqlarının tərkib hissəsi kimi milli azlıqlara mənsub şəxslərin

hüquqlarına hörmətlə yanaşmanın iştirakçı dövlətlərdə sülhün, ədalətin, sabitliyin və demokratiyanın mühüm amili olduğunu təsdiq edirlər.

31. Milli azlıqlara mənsub şəxslərin öz insan hüquqları və əsas azadlıqlarını heç bir ayrı-seçkiliyə yol verilmədən və qanun qarşısında tam bərabərlik şəratində tamamilə və səmərəli şəkildə həyata keçirmək hüququ var.

İştirakçı dövlətlər insan hüquqlarının və əsas azadlıqların həyata keçirilməsində və onlardan faydalanmaqda milli azlıqlara mənsub şəxslərin digər vətəndaşlarla tam bərabərliyinə təminat vermək məqsədilə zəruri halda xüsusi tədbirlər görəcəklər.

32.Şəxsin milli azlıqlara mənsubiyyəti onun şəxsi seçimidir və belə bir seçimin həyata keçirilməsi heç bir mənfi nəticələr doğura bilməz.

Milli azlıqlara mənsub şəxslərin öz etnik mədəniyyət, dil, yaxud din özünəməxsusluğunu azad surətdə ifadə etmək, qoruyub saxlamaq və inkişaf etdirmək, öz iradəsinin əksinə olaraq, heç bir assimilyasiya təşəbbüsünə məruz qalmadan bütün cəhətləriylə öz mədəniyyətini azad surətdə dəstəkləmək və onu inkişaf etdirmək hüquqları var. Xüsusilə onlar aşağıdakı hüquqlara malikdirlər:

32.1 - şəxsi və ictimai həyatda öz ana dilindən azad surətdə istifadə etmək;

32.2 - milli dövlət qanunvericiliyinə uyğun olaraq könüllü maliyyə yardımını və digər yardımları, eləcə də dövlət dəstəyi axtara biləcək xüsusi təhsil, mədəniyyət və dini müəssisələrini, təşkilat və ya assosiyasiyalarını yaratmaq və dəstəkləmək;

32.3 - öz dininə etiqad etmək, o cümlədən, dini materialı əldə etmək, ona sahib olmaq, ondan istifadə etmək və öz ana dilindəki təhsil sahəsində dini fəaliyyəti həyata keçirmək;

32.4 - öz ölkəsinin hüdudları daxilində öz aralarında, eləcə də digər dövlətlərin ümumi etnik və ya milli mənşəyi, mədəni mirası və ya dini etiqadı olan vətəndaşları ilə maneəsiz əlaqələr qurmaq və əlaqələri davam etdirmək;

32.5 - öz ana dilində məlumatı yaymaq, ondan istifadə yoluna malik olmaq və məlumat mübadiləsi etmək;

32.6 - öz ölkəsinin hüdudları daxilində təşkilatlar, yaxud assosiasiyalar yaratmaq və dəstəkləmək, beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətində iştirak etmək.

Milli azlıqlara mənsub şəxslər öz hüquqlarını həyata keçirməkdə və onlardan istifadə etməkdə fərdi qaydada, eləcə də öz qrupunun digər üzvləri ilə birlikdə həyata keçirə bilərlər. Belə hüquqlardan istənilən birinin həyata keçirilməsi və ya keçirilməməsi milli azlıqlara mənsub şəxslər üçün heç bir mənfi nəticələr doğura bilməz.

33. İştirakçı dövlətlər öz ərazilərində milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluqlarını müdafiə edəcək və bu özünəməxsusluqları təşviq etmək üçün şərait yaradacaqlar. Onlar bu məqsədlə hər bir dövlətin qərar qəbulu prosedurasına uyğun olaraq belə azlıqların təşkilatları və ya assosiasiyaları ilə əlaqələr də daxil edilməklə, lazımi məsləhətləşmələr keçirdikdən sonra zəruri tədbirlər görəcəklər.

İstənilən belə tədbirlər müvafiq iştirakçı dövlətin digər vətəndaşlarına münasibətdə bərabərlik və ayrı-seçkiliyə yol verməmək prinsiplərinə uyğun olacaqdır.

34. İştirakçı dövlətlər, milli azlıqlara mənsub şəxslərin, müvafiq dövlətin rəsmi dilini, yaxud rəsmi dillərini öyrənməyin zəruriliyindən asılı olmayaraq öz doğma dilini öyrənmək, yaxud öz doğma dilində təlim almaq, həmçinin bunun mümkün və vacib olduğu yerdə milli dövlət qanunvericiliyin tətbiqinə uyğun olaraq, dövlət orqanlarında öz doğma dilindən istifadə etmək üçün lazımi imkanlara malik olmalarına təminat verməyə çalışacaqlar.

Onlar həm də tədris müəssisələrində tarix və mədəniyyətin tədrisi kontekstində milli azlıqların tarix və mədəniyyətini nəzərə alacaqlar.

35. İştirakçı dövlətlər milli azlıqlara mənsub şəxslərin belə azlıqların özünəməxsusluğunun müdafiəsi və təşviqi işlərində iştirak da daxil olmaqla, dövlət işlərində səmərəli iştirak etmək hüququna hörmət göstərəcəklər.

İştirakçı dövlətlər müəyyən milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunun təşviqi üçün bu məqsədlərə çatmağın mümkün vasitələrindən biri kimi maraqlı dövlətin siyasətinə uyğun lazımi yerli və muxtar idarəetmə orqanları ilə belə azlıqların konkret tarixi və ərazi şəraitinə cavab verən şərati yaratmaq və müdafiə etmək məqsədilə göstərilən səyləri qeyd edirlər.

36. İştirakçı dövlətlər onların arasında milli azlıqların məsələləri üzrə əməli əməkdaşlığın inkişaf etdirilməsinin xüsusi əhəmiyyət daşıdığını qəbul edirlər. Belə əməkdaşlıq qarşılıqlı anlaşmaya və etimada, dostluq və mehriban qonşuluq münasibətlərinə, beynəlxalq sülhə, təhlükəsizliyə və ədalətə kömək etmək məqsədini güdür.

Hər bir iştirakçı dövlət onun ərazisində yaşayan bütün şəxslər arasında, etnik, yaxud milli mənşə və ya din fərqi qoymadan qarşılıqlı hörmət, anlaşma, əməkdaşlıq və həmrəylik ab-havasına kömək göstərəcək və qanunun aliliyi prinsiplərinə əsaslanan dialoqun köməyi ilə problemlərin həllini təşviq edəcəklər.

37. Bu müddəalardan heç biri Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərindən, dövlətlərin ərazi bütünlüyü prinsipi də daxil olmaqla beynəlxalq hüquq üzrə digər öhdəliklərə, yaxud Yekun aktının müddəasına zidd olan hər hansı bir fəaliyyətlə məşğul olmağa və ya hər hansı bir hərəkəti həyata keçirməyə yol verən hər hansı bir hüquq kimi şərh edilə bilməz.

38. İştirakçı dövlətlər milli azlıqlara mənsub şəxslərin hüquqlarının müdafiəsi və təşviqinə dair öz səylərində insan hüquqları üzrə mövcud konvensiyalar və digər müvafiq beynəlxalq vasitələr üzrə öz öhdəliklərinə tam əməl edəcək və ayrı-ayrı şəxslərin şikayət hüququnu nəzərdə tutan konvensiyalar da daxil olmaqla, əgər hələ qoşulmayıblarsa, müvafiq konvensiyalara qoşulmaq haqqında, məsələlərə baxacaqlar

39. İştirakçı dövlətlər Birləşmiş Millətlər Təşkilatı və müvafiq hallarda Avropa Şurası da daxil olmaqla, üzvü olduqları səlahiyyətli beynəlxalq təşkilatlarla onların milli

azlıqların məsələləri ilə bağlı gördükləri işləri nəzərə almaqla sıx əməkdaşlıq edəcəklər.

Onlar milli azlıqlar barəsində məsələni hərtərəfli müzakirə etmək üçün ekspertlər müşavirəsini çağırmaq məsələsinə baxacaqlar.

40. İştirakçı dövlətlər totalitarizmi, irqi və etnik ədavəti, antisemitizmi, kimə qarşı olursa olsun ksenofobiyanı və ayrı-seçkiliyi, eləcə də dini və ideoloji səbəblərə görə təqibi dəqiq və qeyd-şərtsiz pisləyirlər. Bu kontekstdə onlar həmçinin xüsusi roman (qaraçı) problemini qəbul edirlər.

Onlar bu halların bütün formaları ilə mübarizədə öz səylərini fəallaşdırmaq üçün qəti niyyətdə olduqlarını elan edirlər və buna görə də:

40.1 - şəxslərə və ya qrupa qarşı antisemitizm də daxil olmaqla, milli, irqi, etnik və ya dini ayrı-seçkiliyə, düşmənçiliyə və ya nifrətə əsaslanan zorakılığa təhrikçilik olan istənilən aktdan müdafiənin təminatı üçün özlərinin konstitusiya sistemlərinə və beynəlxalq öhdəliklərinə uyğun zəruri ola biləcək qanunları qəbul edərək təsirli tədbirlər görəcəklər.

40.2 - irq, etnik, mədəniyyət, dil və din özünəməxsusluğu nəticəsində ayrı-seçkilik, düşmənçilik və ya zorakılıq təhlükəsinə, yaxud hərəkətinə məruz qala biləcək şəxslərin, yaxud qrupun müdafiəsi və onların əmlakının müdafiəsi üçün lazımi və müvafiq tədbirlər görməyi üzərlərinə öhdəlik götürəcəklər;

40.3 - xüsusilə təhsil, mədəniyyət və məlumat sahələrində qarşılıqlı anlaşmaya və dözümlülüyə kömək etmək üçün milli, regional və yerli səviyyələrdə onların konstitusiya sistemlərinə uyğun təsirli tədbirlər görəcəklər;

40.4 -irqi xurafata və ədavətə, müxtəlif sivilizasiyaya və mədəniyyətlərə hörmətin gücləndirilməsinə dair problemlərə təhsil üzrə vəzifələr çərçivəsində xüsusi diqqət yetirilməsinin təmin edilməsinə çalışacaqlar;

40.5 - hər bir şəxsin hüquqi müdafiənin təsirli vasitələrinə malik olmaq hüququnu qəbul edəcəklər və milli dövlət qanunvericiliyinə uyğun olaraq, əlaqədar şəxslərin və qrupun irqçilik və ksenofobiya aktları da daxil olmaqla ayrı-seçkilik

aktlarına dair şikayətlə çıxış etmək və bu şikayəti müdafiə etmək hüququnu qəbul etməyə çalışacaqlar.

40.6 - ayrı-seçkilik probleminin müzakirə edildiyi beynəlxalq vasitələrə, hələlik qoşulmayıblarsa, qoşulmaq məsələsinə baxacaq və vaxtaşırı məruzələrin təqdimi ilə bağlı öhdəliklər də daxil olmaqla, həmin məsələ üzrə öhdəliklərin tam yerinə yetirilməsini təmin edəcəklər;

40.7 -eyni zamanda dövlətlərə və ayrı-ayrı şəxslərə ayrıseçkiliklə bağlı məlumatları beynəlxalq orqanlara göndərmək imkanı verən beynəlxalq mexanizmlərin qəbul edilməsi haqqında məsələyə baxacaqlar.

YENİ AVROPA ÜÇÜN PARİS XARTİYASI İNSAN HÜQUQU, DEMOKRATİYA VƏ QANUNUN ALİLİYİ

Biz ölkələrimizdə yeganə idarəetmə sistemi kimi demokratiyanı qurmağı, birləşdirməyi və möhkəmləndirməyi öz öhdəmizə götürürük. Bu təşəbbüsdə biz aşağıdakıları əldə rəhbər tutacağıq:

İnsan hüququ və əsas azadlıqlar doğuluşdan bütün insanlara məxsusdur, onlar ayrılmazdır və onlara qanunla təminat verilir. Onları müdafiə etmək və onlara kömək etmək hökumətlərin ən birinci vəzifəsidir. Onlara hörmət hədsiz hakimiyyəti olan dövlətə qarşı çox mühüm təminatdır. Onlara əməl etmə və onları tam həyata keçirmə - azadlığın, ədalətin və sülhün əsasıdır.

Demokratik idarəetmə müntəzəm olaraq azad və ədalətli seçkilərin gedişində ifadə olunan xalq iradəsinə əsaslanır. İnsan şəxsiyyətinə və qanunun aliliyinə hörmət demokratiyanın əsasını təşkil edir. Demokratiya öz fikrini ifadə etmə azadlığının, cəmiyyətdə bütün qruplara dözümlülük göstərilməsinin və hər bir insan üçün imkan bərabərliyinin ən yaxşı təminatıdır.

Nüfuzlu və plüralist xarakterə malik demokratiya seçicilərə hesabat verilməsinə, dövlət hakimiyyəti orqanlarının qanuna və ədalət mühakiməsinin qərəzsiz həyata keçirilməsinə əməl etmək öhdəliyini doğurur. Heç kəs qanundan yuxarıda durmamalıdır.

Biz, hər bir insanın heç bir ayrı-seçkilik qoyulmadan aşağıdakı hüquqlara malik olduğunu təsdiq edirik:

- fikir, vicdan, din və əqidə azadlığı;
- öz fikrini ifadə etmə azadlığı;
- assosiasiyalar yaratmaq və dinc yığıncaqlar keçirmək azadlığı;
- yerdəyişmə azadlığı;

heç kəs:

- əsassız həbsə, yaxud həbsdə saxlanmağa məruz qalmayacaq;
- işgəncəyə, yaxud amansız, qeyri-insani və insan ləyaqətini alçaldan rəftara və cəzanın başqa bir növünə məruz qalmayacaq;

hər kəsin həmçinin aşağıdakı hüquqları var:
- öz hüququnu bilmək və ona uyğun hərəkət etmək;
- azad və ədalətli seçkilərdə iştirak etmək;
- cinayət etməkdə ittiham irəli sürdükdə ədalətli və açıq məhkəmə araşdırmalarının aparılması;
- təkbaşına, yaxud başqaları ilə mülkiyyət sahibi olmaq və fərdi sahibkarlıqla məşğul olmaq;
- öz iqtisadi, sosial və mədəni hüquqlarından istifadə etmək.

Biz milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunun müdafiə ediləcəyini, milli azlıqlara mənsub şəxslərin bu özünəməxsusluqları heç bir ayrı-seçkiliyə məruz qalmadan və qanun qarşısında tam bərabərlik şəratində azad surətdə ifadə etmək, qoruyub saxlamaq və inkişaf etdirmək hüquqlarına malik olduqlarını təsdiq edirik.

Biz hər kəsin hüququnun istənilən pozuntusuna qarşı onun milli, yaxud beynəlxalq hüquqi müdafiəsinin təsirli vasitələrinə yol tapıb onlardan istifadəsini təmin edəcəyik.

Mövcud müddəalara tam əməl olunması quracağımız yeni Avropanın özülüdür.

Bizim dövlətlər demokratik nailiyyətlərə dönməz xarakter vermək üçün əməkdaşlıq edəcək və biri-birinə yardım göstərəcəklər.

Gələcəyin istiqamətləri

ATƏM-in bütün prinsip və müddəalarına tam əməl etməyə möhkəm bağlılığımıza əsaslanaraq, biz hazırda xalqlarımızın ehtiyac və arzularını təmin etmək məqsədilə əməkdaşlığımızın tarazlaşdırılmış və hərtərəfli inkişafına yeni təkan verən qərar qəbul edirik.

ATƏM-İN İNSAN ÖLÇÜSÜ KONFRANSINA DAİR MOSKVA MÜŞAVİRƏSİNİN SƏNƏDİ

Avropada təhlükəsizlik və əməkdaşlığa
dair Müşavirənin 38 iştirakçı dövləti tərəfindən
1991-ci il oktyabrın 3-də qəbul edilmişdir.

28. İştirakçı dövlətlər fövqəladə vəziyyət şəraitində insan hüquqlarını və əsas azadlıqlarını qorumağı, Kopenhagen müşavirəsi sənədinin müddəalarını nəzərə almağı və tərəfləri olduqları beynəlxalq konvensiyalara əməl etməyi mühüm sayırlar.

28.7. İştirakçı dövlətlər iştirakçıları olduqları beynəlxalq konvensiyalara uyğun olaraq, öhdəliklərdən istənilən bir geri çəkilmədən imtina etməyə çalışacaqlar; belə geri çəkilmə fövqəladə vəziyyət şəraitində mümkündür. Həmin öhdəliklərdən geri çəkilmə tədbirləri bu sənədlərdə təsbit edilən prosessual tələblərə ciddi şəkildə uyğun görülməlidir. Belə tədbirlər konkret şəraitdə lazım olduğun artıq nə kəskinləşəcək, nə də qüvvədə qalacaq; onlar öz xarakterinə görə, müstəsna tədbirlərdir və məhdud şəkildə şərh və tətbiq edilməlidir. Belə tədbirlər yalnız irq, dərinin rəngi, cins, dil, din, sosial mənşə və ya azlıqlara mənsubiyyət əlamətinə görə müəyyənləşən ayrı-seçkiliyə gətirib çıxarmayacaqdır.

37. İştirakçı dövlətlər, milli azlıqların problemlərinə və bu azlıqlara mənsub şəxslərin hüquqlarına aid ATƏM-in bütün sənədlərində, xüsusilə, ATƏM-in insan ölçüsü Konfransına dair Kopenhagen müşavirəsinin sənədində və ATƏM ekspertlərinin milli azlıqlar məsələsinə dair Jenevrə müşavirəsinin Məruzəsində müddəa və öhdəlikləri təsdiq edirlər, onların tam və tezliklə yerinə yetirilməsinə çağırırlar. Onlar ATƏM-in yeni və geniş mexanizm və proseduralarının tətbiq edilməsinin milli azlıqlara mənsub şəxslərin hüquqlarının gələcək müdafiəsinə və təşviqinə kömək edəcəyini güman edirlər.

38.İştirakçı dövlətlər, bu iştirakçı dövlətlərdə qanuni yaşayan mühacir zəhmətkeşlərin və onların ailələrinin hüquq-

larına hörmətlə yanaşmanın təmin edilməsinin, onların milli, mədəni, dini və dil xüsusiyyətlərini azad surətdə ifadə etmək hüququnun xüsusi qeyd edilməsinin zəruriliyini qəbul edirlər. Bu hüquqlar yalnız qanunla müəyyən edilən və beynəlxalq standartlara uyğun gələn məhdudlaşdırmalar ilə həyata keçirilə bilər.

38.1 - Onlar irq, dərinin rəngi və etnik mənşə əlamətlərinə, mühacir zəhmətkeşlər barəsində dözümsüzlüyə və ksenofobiyaya görə bütün ayrı-seçkilik hərəkətlərini mühakimə edirlər. Onlar milli dövlət qanunvericiliyinə və beynəlxalq öhdəliklərə uyğun dözümlülüyü, anlaşmanı, imkalar bərabərliyini və mühacir zəhmətkeşlərin əsas insan hüquqlarına hörmət edilməsini təşviq etmək üçün təsirli tədbirlər görəcəklər; milli, irqi, etnik və ya dini ayrı-seçkiliyə, düşmənçiliyə və ya nifrətə əsaslanan və zorakılığa təhrikçilik aktlarını yasaq edən tədbirləri hələlik görməyiblərsə, görəcəklər.

AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIĞA DAİR MÜŞAVİRƏ 9-10 İYUL 1992-Cİ İL TARİXLİ HELSİNKİ ZİRVƏ GÖRÜŞÜ 1992-Cİ İL HELSİNKİ SƏNƏDİ

Dəyişikliklər Dövrünün Çağırışı (Çıxarış)
Helsinki Zirvə Görüşünün Bəyannaməsi
II Milli Azlıqların İşləri Üzrə ATƏM-in Ali Komissarı

1) İştirakçı dövlətlər milli azlıqların işləri üzər Ali komissar vəzifəsini təsis etmək haqqında qərar qəbul edirlər.

Mandat

2) Ali komissar KSDL-in nəzdində fəaliyyət göstərəcək və beləliklə də, münaqişələrin qarşısının mümkün qədər ən erkən mərhələdə alınmasına kömək edəcəkdir.

3) Ali komissar "erkən qabaqlama"nı, müvafiq hallarda isə milli azlıqların problemləri ilə bağlı olan və erkən qabaqlama mərhələsindən hələlik çıxmayan, ancaq Ali komissarın mülahizəsinə görə, ATƏM bölgəsində sülhə, sabitliyə, yaxud iştirakçı dövlətlər arasındakı münasibətlərə toxunan potensial münaqişəyə çevrilə bilən və Şuranın, yaxud KSDL-in diqqət və təsirlərini tələb edən gərgin vəziyyətlər barəsində "təcili hərəkətlər"i mümkün qədər erkən mərhələdə təmin edəcəkdir.

4) Ali komissar ATƏM-də qəbul edilmiş prinsip və öhdəliklərinə əsaslanan bu mandat çərçivəsində işi məxfi aparacaq və bilavasitə belə gərgin vəziyyətlərə cəlb edilmiş bütün tərəflərdən asılı olmayaraq hərəkət edəcəkdir.

(5a) Ali komissar vətəndaşı olduğu dövlətdə, yaxud daimi yaşadığı ərazidə milli azlıqlarla bağlı yaranan, mənsub olduğu milli azlıqlara toxunan problemlərə, haqqında söhbət gedən dövlət də daxil olmaqla, bilavasitə əlaqəli bütün tərəflərin yalnız razılığı olduqda baxacaqdır.

(5b) Ali komissar mütəşəkkil terrorçuluq hərəkətləri ilə bağlı olan vəziyyətlərdə milli azlıqların məsələsinə baxmayacaqdır.

(5j) Ali komissar həmçinin, bu və ya digər milli azlıqlara mənsub şəxslər barəsində ATƏM üzrə öhdəliklərin pozulmasına baxmayacaqdır.

(6) Bu və ya digər vəziyyət gözdən keçirilərkən onu yoluna qoymaq məqsədilə Ali komissar demokratik və beynəlxalq vasitələrin mövcudluğunu, eləcə də, əlaqədar tərəflərin onlardan istifadə etməsini tam ölçüdə nəzərə alacaqdır.

(7) milli azlıqlara dair konkret məsələ KSDL-in nəzərinə çatdırıldığı hallarda Ali komissarın həmin məsələnin baxılmasına qoşulması üçün KSDL-dən müvafiq xahiş ilə mandat tələb olunur.

Erkən qabaqlama

(11) Ali komissar:

(11a) milli azlıqların məsələləri üzrə məlumatı haqqında aşağıda (Əlavənin (23) - (25) bəndlərinə bax) danışılan qaynaqlardan toplayacaq və alacaq;

(11b) mümkün qədər ən erkən mərhələdə bilavasitə maraqlı tərəflərin roluna, gərginliyin xarakterinə və onunla bağlı son hadisələrə, həmçinin, mümkün olduqda, ATƏM bölgəsində sülh və sabitlik üçün potnesial nəticələrə qiymət verilməsini həyata keçirəcək;

(11j) bu məqsədlə, milli azlıqların durumuna dair qaynaqdan məlumat almaq üçün(17)-ci bəndə və Əlavənin (27) - (30)-cu bəndlərinə uyğun olaraq, iştirakçı dövlətlərdən hər hansı birinə gəlmək və (25)-ci bəndin müddəalarını nəzərə almaqla bilavasitə maraqlı tərəflərlə şəxsən əlaqəyə girmək imkanına malik olacaqdır.

(12) İştirakçı dövlətə gəldiyi zaman, bilavasitə iştirakçıların özlərindən məlumat alarkən Ali komissar tərəflərlə müvafiq məsələri müzakirə edə bilər və zəruri halda isə tərəflərin arasında dialoqa, etimad və əməkdaşlığın möhkəmlənməsinə köməklik göstərə bilər.

Erkən qabaqlamanın təmin edilməsi

(13) Müvafiq tərəflərlə məlumat mübadiləsi və əlaqələr əsasında Ali komissar potensial münaqişə təhlükəsinin mövcudluğu ((3)-cü bənddə ifadə edildiyi kimi) nəticəsinə gələrsə,

o fəaliyyətdə olan Sədr tərəfindən operativ surətdə KSDL-ə verilən erkən qabaqlama ilə çıxış edə bilər.

(14) Fəaliyyətdə olan Sədr bu erkən qabaqlamanı KSDL-in sonrakı görüşünün gündəliyinə daxil edir. Dövlətlərdən hər hansı biri belə qabaqlamanın operativ surətdə məsləhətləşməni tələb etdiyi qərarına gələrsə, o, Şuranın Berlin görüşü nəticələrinin Xülasəsinin 2-ci Əlavəsində ("Fövqəladə mexanizm") ifadə edilən proseduraya müraciət edə bilər.

(15) Ali komissar erkən qabaqlamaya müraciətinin səbəblərini KSDL-ə izah edir.

Təcili hərəkətlər

(16) Ali komissar KSDL tərəfindən təsdiq edilən mandata uyğun olaraq mümkün həllərin axtarılması məqsədilə maraqlı tərəflərlə gələcək əlaqələri qurmaq və daha ətraflı məsləhətləşmələr aparmaq üçün ona səlahiyyət verilməsini məsləhət görə bilər. KSDL müvafiq qərar qəbul edə bilər.

(17) Milli azlıqlarla bağlı gərgin vəziyyəti müzakirə etmək məqsədilə iştirakçı dövlətlərdən hər hansı birinə səfərə çıxana qədər Ali komissar fəaliyyətdə olan Sədr ilə məslhətləşmə aparır. Fəaliyyətdə olan Sədr müvafiq iştirakçı dövlət (dövlətlər) ilə məxfi qaydada məsləhətləşir, həmçinin daha geniş məsləhətləşmə apara bilər.

(18) Ali komissar iştirakçı dövlətə səfərdən sonra müəyyən edilən faktlar və həmin konkret məsələlərin həlli üzrə işin gedişi haqqında fəaliyyətdə olan Sədrə çox məxfi hesabat təqdim edir.

(19) Ali komissar bu və ya digər konkret məsələ üzərində işini bitirdikdən sonra müəyyənləşdirdiyi faktlar, nəticələr və yekunlar haqqında fəaliyyətdə olan Sədrə hesabat verir. Fəaliyyətdə olan Sədr bir ay ərzində müəyyən edilmiş faktlar, nəticələr və yekunlar barəsində müvafiq dövlətlə (dövlətlərlə) məxfi qaydada məsləhətləşmə aparır, eləcə də daha geniş məsləhətləşmə keçirə bilər. Bundan sonra mümkün qeydlərlə birlikdə hesabat KSDL-ə veriləcəkdir.

(20) Ali komissar vəziyyətin münaqişəyə çevrildiyi nəticəsinə gələrsə və onun səy göstərmə planında imkanının tükən-

diyini hesab edərsə, o, bu haqda fəaliyyətdə olan Sədr vasitəsilə KSDL-ə məlumat verir.

(21) KSDL bu və ya digər konkret məsələnin baxılmasına qoşulduqda, Ali komissar KSDL-ə, yaxud bu sənədin III fəslinin müddəalarına uyğun olaraq KSDL-in həmin gərgin vəziyyət və ya münaqişə ilə bağlı addımlar atmağı təklif edə biləcəyi hər hansı digər idarə və ya təşkilata məlumat, həmçinin sorğu üzrə tövsiyyə təqdim edir.

(22) Ali komissar KSDL tərəfindən müvafiq xahiş olduqda və onun mandatının həyata keçirilməsinin məxfiliyinə dair tələbləri lazımi tərzdə nəzərə almaqla insan ölçüsü məsələsinin yerinə yetirilməsinin müzakirəsinə həsr olunmuş ATƏM-in müşavirələrinə öz fəaliyyəti haqqında məlumat təqdim edəcəkdir.

Əlavə

Milli azlıqlar məsələsinə dair məlumatların qaynaqları

(23) Ali komissar:

(23a) milli azlıqların durumu və ona aidiyyəti olan tərəflərin rolu haqqında istənilən qaynaqdan, o cümlədən, (25)-ci bənddə göstərilənlər istisna olmaqla, kütləvi informasiya vasitələrindən və qeyri-hökumət təşkilatlarından məlumat toplaya və ala bilər;

(23b) milli azlıqlar məsələsi ilə bağlı hadisələr haqqında bilavasitə aidiyyəti olan tərəflərdən konkret məruzələr ala bilər. Milli azlıqlar barəsində ATƏM-in öhdəliklərinin pozulması, eləcə də, milli azlıqlar məsələsiylə bağlı digər pozuntular haqqında məruzələr də onların sırasına daxil ola bilər.

Bilavasitə maraqlı tərəflər

(26) Gərgin vəziyyətə cəlb edilən, Ali komissara konkret məruzələr təqdim edə bilən və iştirakçı dövlətə səfər zamanı Ali komissarın şəxsən əlaqəyə girməyə çalışacağı maraqlı tərəflər aşağıdakılardır:

(26a) müvafiq hallarda, milli azlıqların yaşadığı rayonlarda regional və yerli hakimiyyətlər də daxil olmaqla, iştirakçı dövlətlərin hökumətləri;

(26b) assosiyasiyaların, qeyri-hökumət təşkilatlarının, dini və bilavasitə gərginlik rayonunda yerləşən və maraqlı tərəf olan

milli azlıqların digər qruplarının nümayəndələri, milli azlıqlara mənsub və bu azlıqların maraqlarını təmsil etməyə səlahiyyətli olan şəxslər.

Milli azlıqlar

İştirakçı dövlətlər

(23) Vyana görüşünün Yekun sənədində, Kopenhagen sənədində və Jenevrə sazişinin Məruzəsində milli azlıqlara mənsub şəxslərin hüquqları ifadə edilən öhdəliklər də daxil olmaqla, ATƏM üzrə özlərinin bütün öhdəliklərini ləngimədən və vicdanla yerinə yetirmək niyyətində olduqlarını tam qətiyyətlə təsdiq edirlər.

(24) Bununla əlaqədar onlar milli azlıqlara mənsub şəxslərin hər bir dövlətin öz ölkəsinin siyasi, iqtisadi sosial və mədəni həyatında qərarlar qəbulunun demokratik prosedurasına uyğun olaraq, o cümlədən, demokratik iştirak əsasında milli, regional və yerli səviyyələrdə rəhbər və məsləhətçi orqanların xüsusilə siyasi partiyalar və assosiasiyalar çərçivəsində iştirak etmək hüququ da daxil olmaqla, öz insan hüquqlarını və əsas azadlıqlarını fərdi qaydada və başqaları ilə birlikdə sərbəst şəkildə həyata keçirmələrini təmin etmək üçün səylərini fəallaşdıracaqlar.

(25) Birtərəfli, ikitərəfli və çoxtərəfli qayadada səy göstərməklə özlərinin ATƏM üzrə öhdəliklərinin, o cümlədən milli azlıqların etinik, mədəni, dil və dini özünəməxsusluğunu təşviq etmək üçün şəraitin müdafiəsi və yaradılması ilə bağlı öhdəliklərinin, daha səmərəli yerinə yetirilməsinin gələcək imkanlarını öyrənməyi davam etdirəcəklər.

(26) Milli azlıqların problemlərini konstruktiv ruhda, dinc vasitələrlə və ATƏM-in prinsip və öhdəlikləri əsasında maraqlı tərəflər arasında dialoqlar yolu ilə həll edəcəklər.

(27) Köçürmə praktikasından imtina edəcək və milli azlıqların yaşadıqları ərazilərin hüdudları daxilindəki rayonların etnik tərkibini dəyişdirmək məqsədilə güc hədəsinə və ya onun tətbiqi ilə köçməni həyata keçirmək üçün göstərilən bütün təşəbbüsləri pisləyəcəklər.

İCTİMAİ-SİYASİ HƏYATDA MİLLİ AZLIQLARIN SƏMƏRƏLİ İŞTİRAKI HAQQINDA LUND TÖVSİYƏSİ

Giriş

Avropada təhlükəsizlik və əməkdaşlıq Təşkilatı (ATƏT) iyul 1992-ci il tarixdə Helsinkidə qəbul etdiyi qərarla milli azlıqların işləri üzrə "münaqişələrin mümkün qədər ən erkən mərhələdə qarşısını almaq" məqsədi olan Ali komissar vəzifəsini təsis etdi. Bu addım keçmiş Yuqoslaviyada yaranmış vəziyyətə cavab reaksiyası idi və bəzilərinin fikrinə görə, bu vəziyyətin Avropanın digər ölkələrində - xüsusilə, demokratik ictimai quruluşa keçidi həyata keçirən ölkələrdə də təkrarlanmaq, bununla da dövlət və hökumət başçılarının noyabr 1990-cı il tarixdə qəbul etdiyi yeni Avropa üçün Paris Xartiyasında ifadə olunan sülh və tərəqqiyə çatmaq ümidlərini sarsıtmaq qorxusu vardı.

1 yanvar 1993-cü il tarixdə milli azlıqların işləri üzrə ATƏT-in ilk Ali komissarı Maks Van der Stul oldu. O, Niderlandın parlament deputatı, xarici işlər naziri, BMT yanında daimi nümayəndəsi kimi işlədiyi illərdə, eləcə də hüquq müdafiəçisi kimi çoxillik fəaliyyətində topladığı zəngin təcrübəsinə əsaslanaraq, Avropanın müxtəlif ölkələrində azlıqlarla mərkəzi hakimiyyət orqanları arasında mübahisələr, onun fikrincə, kəskinləşmə ilə nəticələnə biləcəyi bir vaxtda çoxsaylı şəraitin araşdırılmasına girişdi. "Diplomatiya"nın vasitələri ilə silahlanaraq MAAK Albaniya Respublikası, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Latviya, keçmiş Yuqoslaviya Respublikası Makedoniya, Rumınya, Slovakiya, Ukrayna, Xorvatiya və Estoniya kimi ondan çox dövlətin problemlərinin həllinə qoşuldu. Öz diqqətini hər şeydən öncə, say baxımından bir ölkədə əhalinin çoxluğunu, digər ölkədə isə azlığını təşkil edən milli və ya etnik qrupların nümayəndələri ilə bağlı, bununla da dövlətlərin hər ikisində də hakimiyyətin

maraqlarına toxunan dövlətlərarası gərginliklərin, hətta münaqişələrin potensial qaynağı olan halların üzərinə cəmləşdirdi. Əslində məhz belə gərginliklərin nəticələri keçmişdə bir çox baxımdan Avropa tarixinin gedişini müəyyənləşdirirdi.

Milli azlıqlara münasibətdə çəkişmə problemiylə məşğul olan MAAK müstəqil, qərəzsiz və əməkdaşlığa hazır tərəf rolunda çıxış edir. Nəzarət funksiyaları verilməsə də, o, bütün dövlətlər tərəfindən qəbul edilmiş beynəlxalq normalara istinad edir və bunlar təhlil zamanı onun tərəfindən çıxış nöqtəsi kimi qəbul edilir və irəli sürülən konkret tövsiyyələrin əsasını təşkil edir. Bununla əlaqədar bütün ATƏT dövlətlərinin, xüsusən 1990-cı il tarixli insan ölçüsünə dair Konfransın IV hissəsində milli azlıqlara aid normaları ətraflı şərh edən Kopenhagen sənədi üzrə razılaşma əsasında götürdükləri öhdəlikləri nəzərdə tutmaq mühümdür. ATƏT-in bütün iştirakçı dövlətləri insan hüquqlarına, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul edilmiş azlıqların hüquqlarına dair öhdəliklər daşıyırlar; ATƏT ölkələrinin böyük əksəriyyəti həm də Avropa Şurasının normaları ilə bağlıdır.

Altı ildən artıq davam edən gərgin iş nəticəsində MAAK məşğul olduğu bir çox ölkələrdə yenidən və yenidən diqqəti cəlb edən bir sıra məsələləri üzə çıxarda bildi. Bu məsələlər sırasında azlıqların nümayəndələri üçün təhsil məsələsi və azlıqların dillərindən istifadə problemi milli azlıqlara mənsub şəxslərin özünəməxsusluqlarının qorunub saxlanması və inkişaf etdirilməsi üçün xüsusi əhəmiyyətə malik idi. ATƏM bölgəsində azlıqların hüquqlarını düzgün və ardıcıl şəkildə həyata keçirmək məqsədini əldə rəhbər tutaraq, MAAK konkret məsələlərin yerinə yetirilməsində MAAK-a yardım etmək üçün 1993-cü ildə yaradılmış qeyri-hökumət təşkilatı olan Etniklərarası münasibətlər Fonduna iki tövsiyələr paketini - təhsil sahəsində milli azlıqların hüquqları haqqında Haaqa təkliflərini (1996-cı il) və milli azlıqların dil hüquqları haqqında Oslo təkliflərini (1998-ci il) hazırlamaq üçün beynəlxalq baxımdan qəbul edilmiş müstəqil ekspertlərdən ibarət iki qrup təşkil etmək xahişi ilə müraciət etdi. Hər iki təklifdən sonralar

bir sıra ölkələrin siyasi rəhbərləri və qanunvericiləri tərəfindən oriyentirləri kimi istifadə edildi. Təkliflərin mətnini (bir neçə dildə) Etniklərarası münasibətlər Fondundan pulsuz almaq olar.

Ali komissarın dəflərlə müraciət etdiyi mövzu bir sıra şəraitdə dövlətin idarə edilməsində milli azlıqların səmərəli iştirak formaları ilə bağlıdır. Bu sahədə ATƏT-in iştirakçı dövlətlərinin mövqe və təcrübələri haqqında təsəvvür əldə etməyə və onlara bir-biriylə təcrübə mübadiləsi etmək imkanını verməyə çalışaraq MAAK və ATƏT-in demokratik institutlar və insan hüquqları Bürosu bütün ATƏT ölkələrinin və müvafiq beynəlxalq təşkilatların iştirakı ilə "Ictimaiyyətin idarəetmə və iştirak praktikası: müxtəliflik şəraitində inteqrasiya" mövzusunda konfrans keçirmək qərarına gəldilər və konfrans İsveçrə konfederasiyası tərəfindən 18-20 oktyabr 1999-ci il tarixdə Lokarnoda təşkil edildi. Konfransın yekunu üzrə Bəyanatda onun sədri müzakirə edilən mövzuların qısa xülasəsini verdi, azlıqların səmərəli iştirakı və dövlətin optimal idarə edilməsinin müxtəlif konsepsiya və mexanizmələrinin hazırlanmasını davam etdirmək də daxil olmaqla, bütün müxtəlifliyi ilə cəmiyyəti ümumdövlət inteqrasiyasına aparan gələcək addımların arzuedilən olduğunu qeyd etdi. Bu məqsədlə MAAK Etniklərarası münasibətlər Fondundan Raul Vallenberq adına İnsan hüquqları və humanitar hüquqlar institutu ilə birlikdə tövsiyələr hazırlamaq və müvafiq beynəlxalq standartlar əsasında mümkün alternativləri müəyyənləşdirmək üçün beynəlxalq səviyyədə qəbul edilmiş ekspertlər qrupunu təşkil etməyi xahiş etdi.

Bu təşəbbüslərin nəticəsi olaraq, Milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakına dair Lund təklifləri hazırlanıb qəbul edildi. Ekspertlərin tövsiyə mətninin son razılaşdırmasına həsr edilən yekun görüşü İsveçin Lund şəhərində keçirildiyi üçün təkliflər belə adlandırıldı. Ekspertlər sırasına həmin sahədə ixtisaslaşmış beynəlxalq hüquqşünaslar, konstitusiya quruluşu və seçki sistemləri problemləri ilə məşğul olan politoloqlar və azlıqların problemlərini öyrənən sosioloqlar daxil idi. Aşağıda Raul Vallenberq adına İnstitutun direk-

toru, professor Qudmundur Alfredssonun başçılıq etdiyi qrup iştirakçılarının adbaad düzəldilmiş siyahısı verilir:

Raul Vallenberq adına İnsan hüquqları və humanitar hüquq İnstitutunun (Lund Universiteti) direktoru prof. Qudmundur Alfredsson (İslandiya); Oksford universitetinin dövlət idarəetmə kafedrasının professoru Vernon Boqdanor (Böyük Britaniya); Belqrad insan hüququ mərkəzinin direktoru prof. Voin Dmitriyeviç (Yuqoslaviya); Norveç insan hüquqları institutunun elmi əməkdaşı doktor Asbyorn Eyde (Norveç); prof. Yaş Qxay (Keniya); Honkonq universitetinin ictimai hüquq professoru ser Y.K. Pao, Tafts universitetinin Fletçr adına hüquq və diplomatiya fakultəsinin beynəlxalq hüquq professoru Herst Hennem (ABŞ); Demokratiya və seçkiyə yardım Beynəlxalq institutunun direktoru Piter Harris (CAR); Rur universitetinin (Boxum) humanitar hüquq və sülhü himayənin hüquq baxışları fakultəsinin dekanı doktor Hans-Hayntse (Almaniya); Yerusəlim universiteti Avropa institutunun kolleqiya sədri beynəlxalq hüquq professoru Ruf Lapidot (İsrail); London universiteti Kinqs-kollecin beynəlxalq hüquq kafedrasının professoru Reyn Müllerson (Estoniya); "Azlıqlar və vətəndaşlar" (Azlıqların hüquqları üzrə qrup) fondunun direktoru Şarlotta Puflerova (Slovakiya); Texas universitetinin beynəlxalq hüquq professoru Stiven Ratner (ABŞ); Notrdam universitetinin dövlət idarəetmə kafedrasının dosenti doktor Endryu Reynolds (Böyük Britaniya); Kataloniya vilayəti Katalon sosial linqvistika institutunun direktoru Migel Strubell (İspaniya və Böyük Britaniya); Abo Akademik universitetinin mülki hüquq professoru Markku Luksi (Finlandiya); Lüblen universitetinin beynəlxalq hüquq professoru Danilo Tyürk (Sloveniya); Merdok universitetinin İnsan hüquqları və etnik münaqişələrin vaxtında qarşısının alınmasına dair Asiya - Sakit Okean mərkəzinin direktoru, baş hüquq müəllimi doktor Fernan de Varenn (Kanada); Polşa Elmlər Akademiyası İnsan Hüquqları üzrə Poznan mərkəzinin direktoru prof. Roman Veruşevski (Polşa)

Azlıqların hüquqları sahəsində mövcud normaların insan hüquqları dairəsinə aid olduğundan ekspertlər öz işlərində dövlətlərin ayrı-seçkilikdən azad insan hüquqlarına aid olan bütün digər öhdəliklərindən çıxış edirdilər. Onlar həmçinin belə bir anlayışı əldə rəhbər tuturdular ki, son halda bütün insan hüquqları bərabərlik şəraitində hər bir şəxsiyyətin azad və tam inkişafını təmin etmək iqtidarındadır. Müvafiq surətdə belə nəzərdə tutulurdu ki, vətəndaş cəmiyyəti açıq və dinamik olmalı, deməli, bütün insanları özündə birləşdirməlidir. Daha sonra idarəetmənin optimal demokratik praktikası bütün əhalinin maraq və ehtiyaclarına cavab vermək iqtidarında olduğuna görə, dövlət qərarlarının təsirinə məruz qalan insanların həmin qərarların qəbul edilməsində iştirakı üçün hər bir ölkə hökumətlərinin maksimal imkanlar yaratmaq səyləri çıxış mühakimələri kimi qəbul edildi.

Daha əvvəl, Haaqa və Osloda qəbul edilən tövsiyələr kimi, Lund tövsiyyələrinin də dövlətlər tərəfindən milli azlıqlarla bağlı gərginliyi zəiflədən və bununla da münaqişələrin vaxtında qarşısının alınmasına imkan yaradan konkret tədbirlərin görülməsini stimullaşdırmaq və asanlaşdırmaq vəzifəsi MAAK-ın başlıca məqsədidir. Milli azlıqların ictimai həyatda səmərəli iştirakına dair Lund tövsiyələri, azlıqların hüquqları sahəsində və MAAK tərəfindən baxılan şəraitlə əlaqəsi olan digər sahələrdə hamı tərəfindən tanınan normaların məzmununu nisbətən sadə dildə aydınlaşdırmaq və dəqiqləşdirmək təşəbbüsüdür. Tövsiyələrdə bu normaların açıq, demokratik dövlətlərdə həmahəng tətbiqini xüsusi nəzərdə tutan izahı verilmişdir. İyirmi dörd tövsiyədən ibarət bu dəst uyğun surətdə ümumi prinsiplərə, qərarların qəbul edilməsinə, ictimai həyatda iştiraketmənin səmərəli formalarının təminatına yol verən özünüidarəyə və tədbirlərə həsr edilmiş dörd yarımFƏSİLi əhatə edir. Konseptual baxımdan Lund tövsiyələri iki əsas xətt üzrə qurulmuşdur: bütünlükdə dövlətin idarəedilməsində iştiraketmə və yerli, daxili xarakterli bəzi məsələlərdə özünüidarə. Bu planda ən müxtəlif sxemlər mümkündür və artıq məlumdur. Bəzi tövsiyələrlə bağlı alternativ variantlar

göstərilir. Bütün tövsiyələr I hissədə ifadə edilən ümumi prinsiplərə uyğun surətdə şərh edilməlidir. Tövsiyələrin hər biri üzrə daha ətraflı izah isə konkret şəkildə müvafiq beynəlxalq normalara istinad edilən qeydlərdədir.

I. Ümumi prinsiplər

1. Milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakı dinc demokratik cəmiyyətin ən mühüm təşkiledicilərindən biridir. Avropada və onun xaricində toplanmış təcrübə göstərir ki, belə bir iştiraketməni stimullaşdırmaq üçün dövlətlər çox vaxt milli azlıqların maraqlarını təmin edən xüsusi mexanizmlər yaratmalı olurlar. Azlıqların özünəməxsusluqlarını, öz xüsusiyyətlərini qoruyub saxlamalarına imkan verməklə və bununla dövlətin lazımi idarə olunmasına və bütünlüyünün təmin edilməsinə kömək etməklə azlıqların ümumdövlət həyatına cəlb olunmasını asanlaşdırmaq bu tövsiyələrin məqsədini təşkil edir.

2. Bu Tövsiyələr beynəlxalq hüququn insan ləyaqətinə hörmət, hüquq bərabərliyi və ayrı-seçkiliyə yol verməmə kimi əsas prinsip və normalarına, bunların milli azlıqların ictimai-siyasi həyatda iştirak etmək hüququna və digər siyasi hüquqlarına tətbiq edilməsinə əsaslanır. Beynəlxalq səviyyədə qəbul edilmiş insan hüquqlarına və qanunun aliliyinə hörmət etmək dövlətlərin vəzifəsidir; həmin hüquq və qanunlar dözümlülük, sülh və tərəqqi şəraitində vətəndaş cəmiyyətinin hərtərəfli inkişafını təmin edir.

3. Azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakını təmin edən xüsusi institutlar yaradıldığı halda - həmin institutların hakimiyyət funksiyalarını, yaxud səlahiyyətlərini həyata keçirməsi nəzərdə tutula bilər və fəaliyyətinə toxunduğu bütün şəxslərin hüquqlarına hörmətlə yanaşmalıdır.

4. Milli azlıqlar mənsubiyyətdən başqa, fərdin sərəncamında özünüeyniləşdirmənin başqa formaları da var. Bu və ya digər azlıqlara, yaxud çoxluğa mənsub olmaq və ya olmamaq haqqında qərar həmin şəxs tərəfindən müstəqil şəkildə qəbul edilir və kənardan qəbul etdirilə bilməz. Bu halda seçim və ya

bu seçimdən imtina həmin şəxsin maraqlarının hər hansı bir sıxışdırılmasına gətirib çıxarmamalıdır.

5. Bu Tövsiyələrə əsasən institutlar və proseduralar formalaşdırılarkən bu prosesin nəinki məzmununa, həm də formasına diqqət yetirmək lazımdır. Etimad şəraitinin saxlanılması üçün dövlət hakimiyyət orqanları ilə azlıqlar arasında məsləhət prossesi geniş iştiraketmə üçün açıq və transparant olmalı və tabeçilik prinsipinə əsaslanmalıdır. Dövlət ictimai-kütləvi informasiya vasitələri tərəfindən mədəniyyətlərarası qarşılıqlı anlaşmaya köməyi və azlıqların problemlərinin işıqlandırılmasını təşviq etməlidir.

II. Qərarların qəbulunda iştirak

a) Mərkəzi hakimiyyət səviyyəsində mexanizmlər

6. Dövlətlər azlıqları mərkəzi hakimiyyət səviyyəsində real təsir vasitələrindən istifadə ilə təmin etməlidirlər; zəruri halda bunu xüsusi mexanizmlər yaratmaqla həyata keçirməlidirlər. Şəraitdən asılı olaraq bu mexanizmlərə aşağıdakılar daxil ola bilər:

- milli azlıqlar nümayəndəliyinin xüsusi formaları, məsələn parlamentin bir, yaxud hər iki palatasında və ya parlament komitələrində onlar üçün müəyyən sayda yerin ehtiyatda saxlanılması və həmçinin, qanunvericilik prosesində təminatlı iştirakın digər formaları;

- milli azlıqların nümayəndələri üçün nazirlər kabinəsində vəzifələrin, ali məhkəmədə, yaxud konstitusiya məhkəməsində və ya aşağı instansiyalı məhkəmələrdə, eləcə də, təyinatlı məşvərətçi orqanlarda, yaxud digər yüksək səviyyəli orqanlarda yerlərin təsbit edilməsi haqqında rəsmi, yaxud qeyri-rəsmi razılaşmalar;

-uyğun nazirliklər çərçivəsində milli azlıqların maraqlarının nəzərə alınmasını, məsələn azlıqların işləri üzrə əməkdaşlar təyin etmək, yaxud daim qüvvədə olan təlimatlar nəşr etmək yolu ilə təmin edən mexanizmlər; və

- azlıqların nümayəndələrinin dövlət orqanlarında işə cəlb edilməsinə dair xüsusi tədbirlər görülməsi həmçinin, ictimai müəssisələrin milli azlıqların dilində xidmət göstərməsi.

b) Seçkilər

7. Avropada və onun xaricində toplanmış təcrübə azlıqların siyasi həyatda iştirakı üçün şəraitin yaradılmasında seçki prossesinin mühüm rol oynadığını təsdiq edir. Dövlətlər milli azlıqlara mənsub şəxslərin ayrı-seçkiliyə yol verilmədən səs hüququ və seçkili vəzifələrə seçilmək hüququ da daxil olmaqla, dövlət işlərində iştirak hüququna təminat verməlidirlər.

8.Siyasi partiyaların təşəkkülü və fəaliyyəti assosiyasiyalar azadlığının beynəlxalq-hüquqi prinsipinə uyğun nizama salınmalıdır. Bu prinsipə bu və ya digər icmaya mənsubiyyət əlamətinə görə vətəndaşları birləşdirən siyasi partiyaları, həmçinin, ayrıca hər hansı bir icmanın maraqlarını ifadə etməyən partiyaları yaratmaq azadlığı daxildir.

9. Seçki sistemi azlıqların təmsil olunması və öz nüfuzlarını reallaşdırmaları üçün şərait yaratmalıdır.

-Azlıqların yığcam yaşadıqları hallarda onların kifayət qədər nümayəndəliyi birmandatlı dairələr yaratmaqla təmin edilə bilər.

-Proporsional seçki sistemləri azlıqların təmsil olunmasına imkan yarada bilər; belə seçki sistemlərində bu və ya digər partiyaya qanunverici məclisdə ayrılan yerlərin həcmi ümummilli seçkilərdə onun aldığı səslərin həcmindən asılıdır.

- Seçicilərin öz rəğbətləri qaydası ilə namizədlərə malik olduqları bəzi preferensial səsvermə növləri də azlıqların təmsil olunmasına və icmalar arasında əməkdaşlığın genişlənməsinə imkan yarada bilər.

- Ölkənin idarə edilməsində milli azlıqların iştirakını parlamentə keçmək üçün maneə faizini aşağı salmaqla da genişləndirmək olar:

10. Seçki dairələrinin sərhədləri milli azlıqların ədalətli nümayəndəliyinin mənafeyinə uyğun şəkildə müəyyən edilməlidir.

j) Regional və yerli səviyyəli mexanizmlər

11. Dövlətlər milli azlıqların ictimai-siyasi həyatda bölgə səviyyəsində və yerli səviyyədə iştirakının genişləndirilməsi üçün mərkəzi hakimiyyət haqqında artıq danışılanlara (6-10) oxşar tədbirlər görməlidirlər. Bölgə və yerli idarəetmə orqanları strukturlarının və qərar qəbulunda tətbiq etdikləri proseduranın əhali üçün şəffaf və əlçatan olmasını, beləliklə, azlıqların iştirakını asanlaşdırmasını təmin etmək lazımdır.

d) Məşvərətçi və məsləhətçi orqanlar

12. Dövlətlər müvafiq ictimai qurum strukturu çərçivəsində dövlət hakimiyyət orqanları ilə milli azlıqlar arasında dialoqlar üçün vasitələr ola biləcək məsləhətçi və ya məşvərətçi orqanlar yaratmalıdırlar. Bu orqanların mənzil təminatı, torpaq fondu, təhsil, dil və mədəniyyət kimi məsələlər üzrə xüsusi komitələri ola bilər. Bu orqanların üzvlərinin tərkibi onların vəzifəsinə uyğun olmalı və azlıqların maraqlarının daha səmərəli ifadə və təmin edilməsinə kömək etməlidir.

13. Göstərilən orqanların rəhbərliyin qarşısına məsələlər qoymaq, tövsiyələr hazırlamaq, qanunverici və digər təkliflər hazırlamaq, şəraitin inkişafını izləmək və azlıqların durumuna bilavasitə, yaxud dolayısilə təsir edə bilən və hazırlanmaqda olan hökumət qərarlarına şərhlər təqdim etmək imkan olmalıdır. Dövlət hakimiyyəti azlıqlar üçün aktual məsələlərin həlli və etimadın möhkəmlənməsinin xeyrinə olan qanunverici və inzibati tədbirlər barəsində bu orqanlarla müntəzəm şəkildə məsləhətləşməlidirlər. Bu orqanların səmərəli fəaliyyəti onların kifayət qədər resurslarla təmin olunmasını tələb edəcəkdir.

III. Özünüidarə

14. Azlıqların ictimai-siyasi həyatda təsirli iştirakı üçün ayrılıqda, yaxud birlikdə qeyri-ərazi və ərazi özünüidarə mexanizmləri lazım ola bilər. Belə mexanizmlərlə əlaqədar ehtiyaclara dövlətlər kifayət qədər vəsait ayırmalıdır.

15. Dövlət idarəsinin bəzi sahələrində vahid, mərkəzləşdirilmiş qərarların, eləcə də digər sahələrdə müxtəlifliyin saxlanılması üstünlüklərinin zəruriliyinin istər dövlət hakmiyyət

orqanları, istərsə də azlıqlar tərəfindən qəbul edilməsi yuxarıda göstərilən mexanizmlərin uğurlu fəaliyyəti üçün ilkin şərtdir.

-Adətən mərkəzi hakimiyyət orqanlarının səlahiyyətinə aid funksiyaya müdafiə, xarici əlaqələr, mühacirət və gömrük rejimi; makroiqtisadi siyasət və pul kredit siyasəti daxildir.

-Aşağıda adları sadalananlar da daxil olmaqla, digər funksiyalar azlıqlar və ya ərazi idarə orqanları tərəfindən müstəqil surətdə, yaxud mərkəzi hakimiyyət orqanları ilə birlikdə həyata keçirilə bilər.

-Funksiyaların bölgüsü eyni bir dövlət səviyyəsində azlıqların durumundakı fərqlərdən asılı olaraq simmetriyasız ola bilər.

16. Ərazi və ya qeyri-ərazi, özünüidarə qurumları əhalinin müvafiq qruplarının fikrini işdə ifadə etmək üçün demokratik prinsiplərə əsaslanmalıdır.

a) Qeyri-ərazi mexanizmləri

17. Özünüidarənin qeyri-ərazi formaları milli azlıqların özünəməxsusluğunun və mədəniyyətinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində faydalı vasitələrdir.

18. Belə mexanizmlərin vasitəsilə daha səmərəli həll edilən məsələlər - təhsil, mədəniyyət, azlıqların dillərindən istifadə edilməsi; din və, milli azlıqların özünəməxsusluğu və həyat tərzi üçün daha əhəmiyyətli olan bunlar kimi digər sahələrə aid məsələlərdir.

- Şəxslər və qruplar öz istəkləri əsasında şəxs adlarını və digər adlarını azlıqların dilində işlətmək hüququna, həmçinin bu şəxs adlarının və digər adların dövlət orqanları tərəfindən qəbul edilməsi hüququna malikdirlər.

-Təhsil sahəsində standartların müəyyənləşdirilməsinə görə dövlət hakimiyyət orqanlarının məsuliyyət daşıdıqlarını nəzərə almaqla, azlıqların təşkilatları müvafiq azlıqların dilinin, onlarının mədəniyyətinin, yaxud bu və ya digərinin tədrisi üçün tədris proqramlarının məzmununu müəyyənləşdirə bilərlər.

-Azlıqların öz simvollarını və mədəni özünüifadənin digər formalarını seçə və istifadə edə bilərlər.

b) Ərazi mexanizmləri

19. Bütün demokratik cəmiyyətlərdə müxtəlif ərazi səviyyəli dövlət idarəetmə mexanizmləri var.

Avropada və ondan xaricdə toplanmış təcrübə qanunverici və icraedici hakimiyyətin bəzi səlahiyyətlərinin mərkəzi səviyyədən regional səviyyəyə verilməsinin məqsədəuyğunluğunu göstərir; ancaq bu, dövlət aparatının sadəcə desentralizasiyası və onun funksiyalarının regional və ya yerli bölmələr üzrə bölüşdürülməsi ilə məhdudlaşmamalıdır. Dövlət özünüidarənin, xüsusən özlərinə aid məsələlərin müstəqil həllində azlıqların imkanlarını genişləndirdiyi hallarla bağlı konkret funksiyalar da daxil olmaqla səlahiyyətlərinin ərazilərə belə verilmə imkanı subsidiarlıq işığında müsbət qiymətləndirilməlidir.

20. Konkret milli azlıqların spesifik tarixi və ərazi xüsusiyyətləri nəzərə alınmaqla yaradılmış müvafiq yerli, regional, yaxud avtonom inzibati idarə orqanları həmin azlıqların problemlərinə daha səmərəli yanaşmağın xeyrinə bir sıra funksiyaları öz üzərlərinə götürə bilərlər.

- Əsasən və ya xeyli dərəcədə belə orqanların səlahiyyətinə və yerinə yetirərkən topladıqları uğurlu təcrübənin yayıldığı funksiyalara təhsil, mədəniyyət, azlıqların dillərindən istifadə edilməsi, ətraf mühitin qorunması, yerli planlaşdırma, təbii ehtiyatların mənimsənilməsi, iqtisadi inkişaf, yerlərdə hüquqmühafizə orqanlarının fəaliyyəti eləcə də, mənzil təminatı, səhiyyə və sosoial xidmətin digər növləri aid edilirlər.

-Vergi, ədalət məhkəməsi, turizm və nəqliyyatın inkişafı mərkəzi və regional hakimiyyətin birlikdə həyata keçirdikləri funksiyalara aiddir.

21. Yerli, regional və avtonom hakimiyyət orqanları tabeliyindəki ərazilərdə yaşayan bütün şəxslərin hüquqlarına, o cümlədən istənilən azlıqların hüquqlarına hörmət göstərməli və bu hüquqları təmin etməlidirlər.

IV Təminat

a) Konstitusiya və hüquq təminatları

22. Özünüidarə mexanizmləri qanunla müəyyənləşdirilməli və onlara yenidən baxılma qaydası adi qanunvericiliyə münasibətdə istifadə edilmədən, bir qayda olaraq, fərqlənməlidir. Qərarların qəbul edilməsində azlıqların iştirakını təşviq edən mexanizmlər qanunvericilik qaydası ilə, yaxud digər müvafiq üsullarla müəyyənləşdirilə bilərlər.

-Konstitusiya müddəaları ilə təsbit edilmiş mexanizmlərin qəbulu və yenidən baxılması, digər hallardan fərqli olaraq, adətən qanunvericilər və ya elektorat arasında daha yüksək dərəcədə razılaşmanın tələbləri ilə şərtlənir.

-Qanunvericilik qaydası ilə təşkil edilmiş özünüidarə mexanizmlərinin dəyişməsi çox vaxt qanunverici məclisdə, özünüidarə orqanlarında və ya milli azlıqların, yaxud bu və ya digərinin təmsil olunduğu orqanlarda ixtisaslı səs çoxluğunun təsdiqini tələb edir.

-Özünüidarə mexanizmlərinin və qərar qəbulunda azlıqların iştiraketmə mexanizmlərinin fəaliyyətinin vaxtaşırı baxılması çox vaxt toplanmış təcrübə və dəyişən şərait işığında bu mexanizmlərin yenidən müzakirə edilməyə ehtiyacları olub-olmadığını aydınlaşdırmaq üçün çox mühüm imkan verir.

23. Azlıqların iştirakının yeni formalarını sınamağa və inkişaf etdirməyə imkan verən müvvəqəti və ya mərhələli mexanizmlərdən istifadə etmək haqqında məsələyə baxıla bilər. Belə mexanizmlər qanunvericilik, yaxud qeyri-formal qaydada konkret bir müddət üçün yaradıla bilər; bu müddət isə qazanılmış nailiyyətlərdən asılı olaraq, uzadıla, yenidən baxıla və azaldıla bilər.

b) Hüquq müdafiəsi

24. Milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakı üçün münaqişələrin qarşısının alınması və mübahisələrin həlli ilə bağlı işlək məsləhət vasitəsi, həmçinin, zəruri halda birdəfəlik və ya alternativ mexanizmlərin tətbiq imkanı lazımdır. Müvafiq metodlara aşağıdakılar aiddir:

- münaqişələrin məhkəmə qaydası ilə, o cümlədən, məhkəmə instansiyalarında qanunvericilik qərarından və ya inzibati qərardan şikayət vermək vasitəsi ilə həll edilməsi; - bu isə dövlətdə müstəqil, əhali üçün açıq, qərəzsiz məhkəmə orqanlarının mövcudluğunu və onların qərarlarına hörmətlə yanaşmanı tələb edir; və

- mübahisələrin həllinin danışıq, faktların müəyyən edilməsi, vasitəçilik, arbitrac, milli azlıqların işləri üzrə ombudsmen kimi əlavə mexanizmlər, həmçinin, dövlət idarəsi məsələsi üzrə şikayətləri qəbul etmək və onlara baxmaq vəzifəsini yerinə yetirə bilən xüsusi komissiyalar.

MİLLİ AZLIQLARIN İCTİMAİ-SİYASİ HƏYATDA SƏMƏRƏLİ İŞTİRAKI HAQQINDA LUND TÖVSİYƏSİ ÜÇÜN İZAHEDİCİ QEYDLƏR

I Ümumi Prinsiplər

1. Birləşmiş Millətlər Təşkilatının ("BMT" adlanan) Nizamnaməsi kimi, ATƏM-in əsas sənədləri də azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarına hörmət edən bərabərhüquqlu suveren dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı hesabına beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsinə və möhkəmləndirilməsinə yönəldilibdir. Həqiqətən, tarixin göstərdiyi kimi, insan hüquqlarına, o cümlədən azlıqların hüquqlarına hörmətsizlik dövlətdaxili sabitliyin sarsıdılmasına və dövlətlər arasında münasibətlərə mənfi təsir göstərməsinə gətirib çıxarda bilər və bununla də beynəlxalq sülh və təhlükəsizliyi zərbə altında qoyar.

1975-ci il Helsinki Yekun aktının elan etdiyi dekaloqun VII prinsipindən başlayaraq ATƏT-in iştirakçı dövlətləri milli azlıqlara mənsub şəxslərin qanuni maraqlarına hörmətlə sülh və sabitliyin qorunub saxlanması arasında əsaslı bağlılığın olduğunu xüsusi qeyd etmişlər. Daha sonrakı əsas sənədlərdə, xüsusilə Madrid görüşünün (1983-cü il) Yekun sənədində (15-ci prinsip), Vyana görüşünün (1989-cu il) Yekun sənədində (18 və 19-cu prinsiplər) və yeni Avropa üçün Paris xartiyasında (1990-cı il), eləcə də sonrakı zirvə görüşlərinin sənədlərində, məsələn, Helsinki sənədində (1992-ci il) (IV hissənin 24-cü bəndi) və Lissabon sənədində (1996-cı il) (I hissə. XXI yüzil Avropası üçün ümumi və tam əhatəli təhlükəsizlik modeli haqqında Lissabon bəyannaməsi; 2-ci bənd) bu bağlılıq bir daha və yenidən göstərilmişdir. Azlıqların hüquqlarının müdafiəsi və təminatı ilə sülh və sabitliyin qorunub saxlanılması arasında bağlılıq Birləşmiş Millətlər Təşkilatı səviyyəsində, xüsusilə milli, yaxud etnik, dini və dil azlıqlarına mənsub

şəxslərin hüquqları haqqında BMT bəyannaməsinin (1992-ci il) ("Azlıqlar haqqında BMT Bəyannaməsi" adlanan) preambulasında qeyd edilir. Bundan başqa, ATƏT-in iştirakçı dövlətləri yeni Avropa üçün Paris xartiyasını qəbul etməklə idarəetmənin demokratik prinsiplərinə öz sədaqətlərini ifadə etmişlər.

Azlıqlara mənsub şəxslərin insan hüquqlarını bərabər hüquqla həyata keçirmələri üçün hərtərəfli imkanların yaradılması həmin şəxslərin qərarların, xüsusən bilavasitə onlara aid qərarların qəbulu prosesində səmərəli iştirakını tələb edir. Konkret şəraitlər çox müxtəlif ola bilsə də, azlıqların ehtiyac və ümidlərini təmin etmək üçün adi demokratik proseduralar kifayət edə bilsə də, təcrübə göstərir ki, qərarların qəbulunda azlıqların səmərəli iştirakı üçün çox vaxt xüsusi tədbirlər görmək lazım gəlir. Belə hallarda dövlətlərin həmin tədbirləri görmək üzrə öhdəlikləri bir sıra beynəlxalq normalarda qeyd olunmuşdur: məsələn, insan ölçüsünə dair Kopenhagen müşavirəsi Sənədinin (1990-cı il) (bundan sonra "Kopenhagen sənədi" adlandırılacaq) 35-ci bəndinə görə, ATƏT-in iştirakçı dövlətləri "milli azlıqlara mənsub şəxslərin, belə azlıqların özünəməxsusluğunun qorunmasına və təşviqinə aid işlərdə iştirakı da daxil olmaqla, dövlət işlərində səmərəli iştirak etmək hüquqlarına hörmətlə yanaşacaqlar", Azlıqlar haqqında bəyannamənin (1992-ci il) II maddənin 2-ci və 3-cü bəndlərinə görə, "azlıqlara mənsub şəxslərin dövlət həyatında (...) fəal iştirak etmək hüquqları var", eləcə də, "qərarların qəbulunda vacib olduğu yerdə milli səviyyədə, onların mənsub olduqları azlıqlara və ya yaşadıqları bölgələrə aid qərarların qəbul edilməsində bölgə səviyyəsində fəal iştirak etmək hüquqları var". Milli azlıqların müdafiəsi haqqında Avropa Şurasının Çərçivə Konvensiyasının (1994-cü il) (bundan sonra "Çərçivə konvensiyası" adlandırılacaq) 15-ci maddəsinə görə, iştirakçı dövlətlər "milli azlıqlara mənsub şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, həmçinin dövlət işlərinin, xüsusilə onların mənafeyi ilə bağlı dövlət işlərinin idarə olunmasında səmərəli iştirak etmələri üçün lazımi şərait yaratmağı öhdələrinə götürürlər.

Səmərəli iştiraketmə üçün imkanların yaradılması, təbii olaraq, belə bir iştiraketmənin könüllü olacağını irəli sürür. Əslində sosial inteqrasiya başlanğıc anlayışına, özü, yaxud nəticələri Çərçivə konvensiyasının 5-ci maddəsinin çəkindirdiyi məcburi assimilyasiya proseslərdən fərqli bir şey kimi baxılır. Milli azlıqlara mənsub şəxslərin qanuni maraqlarının yalnız könüllülük şərtilə razılaşdırılması dinc xarakter daşıya və dövlət siyasəti və qanunvericilik sahəsində optimal təsirə malik ola bilər. Beləliklə, əhalinin müxtəlif qruplarının geniş əhatəsini və fəal iştiraklarını nəzərdə tutan belə proseslər bütün əhalinin mənafeyinə cavab verdiyindən onları ictimai həyatın əsasına hörməklə nəticədə dövlətin bütünlüyünü möhkəmləndirərək cəmiyyətin daha səmərəli idarə olunmasına kömək edir. Azlıqların ictimai həyatda səmərəli iştirakına aid beynəlxalq normalarda qeyd edilir ki, bunlar suveren bərabərlik, ərazi bütövlüyü və siyasi müstəqillik prinsipləri də daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və Avropa Şurasının məqsəd və prinsiplərinə zidd fəaliyyətlə məşğul olmaq hüququnu qətiyyən nəzərdə tutmur. (bax: Kopenhagen sənədinin 37-ci bəndi; milli azlıqlar haqqında BMT-nin Bəyannaməsinin 8-ci maddəsinin 4-cü bəndi və Çərçivə konvensiyasının pereambulası)

2. 1992-ci il Helsinki sənədinin IV bölməsinin 25-ci bəndindəki müddəaların tələbinə uyğun olaraq, həmin bənddəki müddəalarla bağlı götürülən öhdəliklərə əsaslanan bu Tövsiyələr ATƏT-in iştirakçı dövlətlərinə "milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunu təşviq etmək üçün şəraitin müdafiəsi və yaradılması ilə bağlı öhdəliklər də daxil olmaqla, ATƏT üzrə öz müvafiq öhdəliklərini daha səmərəli yerinə yetirmək üçün gələcək imkanlar" təklif edir.

BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində Təşkilatın məqsədlərindən birinin "iqtisadi sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irq, cins, dil və din fərqi qoyulmadan hər kəsin insan hüquqlarına hörmətin təşviq edilməsi və inkişaf etdirilməsində beynəlxalq əməkdaşlığı həyata keçirmək" olduğu, daha sonra

Nizamnamənin 55-ci maddəsinin "j" bəndində dəqiqləşdirilərək, "irq, cins, dil və din fərqi qoyulmadan hər kəsin insan hüquqlarına və əsas azadlıqlarına ümumi hörmət və əməl edilməsinə" kömək etmək olduğu deyilir. Nizamnamə insan hüquqlarına hörmətlə beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləmək arasında sıx qarşılıqlı əlaqəyə əsaslanır; həmçinin insan hüquqları ümumi Bəyannaməsinin (1948-ci il) 1-ci maddəsində və Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın (1966-cı il), iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın (1966-cı il) və irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiyanın (1965-ci il) preambulalarında da insan ləyaqətinin əsas mənalarından danışılır.

Bu ləyaqət bütün insanlara eyni dərəcədə məxsusdur və bərabər və ayrılmaz hüquqlar tələb edir.

Bərabər ləyaqət və ayrılmaz hüquqlar ideyasından ayrı-seçkisizliyin əməli olaraq insan hüquqlarına dair bütün beynəlxalq sənədlərində konkret ifadəsini tapmış prinsipləri irəli gəlir və bu sənədlərin arasında da İnsan hüquqlarının ümumi Bəyannaməsinin 2-ci maddəsini; Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 2-ci və 26-cı maddələrini və iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın 2-ci maddəsini qeyd etmək lazımdır. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiyanın 1-ci maddəsində bütün aydınlığı ilə göstərilmişdir ki, bu sənəd ayrı-seçkiliyi, xüsusən nəsil, milli, yaxud etnik mənşə" əlamətinə görə yasaq edir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasının (1950-ci il) (bundan sonra "İnsan huquqları haqqında Avropa konvensiyası" adlandırılacaq) 14-cü maddəsi də Konvensiyanın təminat verdiyi hüquqlardan və azadlıqlardan söhbət getdiyi bütün hallarda ayrı-seçkiliyə yolverilməzlik prinsipini birmənalı şəkildə "milli, yaxud sosial mənşə, milli azlıqlara mənsubiyyət" əlamətinə görə ayrı-seçkiliyə aid edir. Bu müddəalar və prinsiplər ATƏT-in iştirakçı dövlətlərinin əksəriyyətinin konstitusiyalarında əksini tapmışdır.

Əgər milli azlıqlara mənsub şəxslərə ictimai-siyasi həyatda fəal iştirak etmək hüququ verilibsə, Kopenhagen sənədinin 3-cü bəndində, Çərçivə Konvensiyasının 4-cü maddəsində və azlıqlar haqqında BMT Bəyannaməsinin 4-cü maddəsinin 2-ci bəndində göstərildiyi kimi, həmin şəxslərin bu hüquqdan məhdudiyyət qoyulmadan istifadə etmək imkanları olmalıdır. Bununla bərabər, Çərçivə Konvensiyasının 4-cü maddəsinin 2-ci bəndinə görə, ləyaqətə hörmətin hüquqi bərabərliyinin təmin edilməsi nəinki yalnız ayrı-seçkiliyi rədd etmək prinsipini, həm də "milli azlıqlara mənsub şəxslərlə əhalinin əsas qrupuna mənsub olan şəxslər arasında tam və həqiqi bərabərliyi" tələb edir və bunun üçün dövlətlər "siyasi... həyatın bütün sahələrində... lazım gəldiyi hallarda lazımi tədbirlər görmə"yə borcludurlar və bunlarla bağlı onlar "milli azlıqlara mənsub şəxslərin xüsusi vəziyyətini lazımi qaydada nəzərə alırlar".

Təkliflərdə insan hüquqlarına hörmətlə mülki cəmiyyət qurumlarının inkişafı arasında nəzərdə tutulan əlaqə "səmərəli siyasi demokratiyanın" tələbini əks etdirir və insan hüquqları haqqında Avropa konvensiyasının preampulasında deyildiyi kimi, bütün dünyada ədalətin və sülhün təmin edilməsiylə ayrılmaz şəkildə bağlıdır. Yeni Avropa üçün Paris xartiyasında ATƏT-in iştirakçı dövlətləri həm də bəyan etmişlər ki, demokratik idarəetmə sisitemi, o cümlədən insan hüquqlarına hörmət tərəqqinin əsasını təşkil edir.

3. Milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakını təmin edən xüsusi qurumlar başqalarının huquqlarının sıxışdırılması hesabına yaradılmamalıdır. İnsan hüquqlarına bütün hallarda, o cümlədən, dövlətin müvafiq səlahiyyətlər verə biləcəyi qurumlar tərəfindən tam əməl edilməlidir. Kopenhagen sənədinin 33-cü bəndinə görə, milli azlıqların özünəməxsusluğunun müdafiəsinə dair iştirakçı dövlələr tərəfindən tədbirlər görülərkən "belə təkliflərin hər biri müvafiq iştirakçı dövlətlərin digər vətəndaşlarına münasibətdə bərabərlik və ayrı-seçkiliyə yol verməmək prinsiplərinə uyğun olacaqdır" Daha sonra Kopenhagen sənədinin 38-ci bəndində deyilir ki, "iştirakçı dövlətlər milli azlıqlara mənsub şəxslərin hüquq-

larının qorunması və təşviq edilməsinə dair öz səylərində insan hüquqlarına dair mövcud konvensiyalara və digər müvafiq beynəlxalq vasitələrə uyğun olaraq, öz öhdəliklərinə tam dərəcədə əməl edəcəklər". Oxşar müddəa Çərçivə konvensiyasının 20-ci maddəsində də ifadə edilməkdədir: "Bu Çərçivə Konvensiyasında ifadə edilən prinsiplərdən irəli gələn hüquq və azadlıqları həyata keçirərkən milli azlıqlara mənsub hər bir şəxs milli qanunvericiliyə əməl edir və digər şəxslərin, xüsusilə, əhalinin əsas qrupuna və ya digər milli azlıqlara mənsub şəxslərin hüquqlarına hörmət göstərir", bu o cümlədən, "azlıqların tərkibində azlıqlar" haqqında, xüsusən ərazi muxtariyyəti (bax: 16 və 21-ci tövsiyyələrə aşağıdakı qeydlərə) ilə bağlı söhbətin getdiyi hallara da aiddir. Buraya qadınların hüquqlarına, o cümlədən, qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiyanın(1979-cu il) 7-ci maddəsində deyildiyi kimi, "ölkənin siyasi və ictimai həyatında" ayrı-seçkilikdən azad hörməti də daxil etmək lazımdır.

4. Azlıqlara mənsub şəxslərin özünüeyniləşdirmə prinsipinin əsasını bir sıra əsaslı öhdəliklər təşkil edir. Kopenhagen sənədinin 32-ci bəndində göstərilmişdir ki, "şəxsin milli azlığa mənsubiyyəti onun şəxsi seçiminin predmetidir və bu seçimin həyata keçirilməsindən heç bir "mənfi nəticələr törəyə bilməz". Çərçivə Konvensiyasının 3-cü maddəsinin 1-ci bəndində də oxşar qaydalar nəzərdə tutulmuşdur: "milli azlığa mənsub hər hansı bir şəxsin özünə belə baxılmasını, yaxud baxılmamasını sərbəst seçmək hüququ var və bu seçim, yaxud bu seçimlə bağlı hüquqların həyata keçirilməsi həmin şəxsi təhqir etməməlidir". Azlıqlar haqqında BMT Bəyannaməsinin 3-cü maddəsinin 2-ci bəndində də həmçinin, Bəyannamədə ifadəsini tapmış hüquqların həyata keçirilməsi və ya keçirilməməsi nəticəsində azlığa mənsub istənilən şəxs üçün hər hansı bir mənfi nəticənin yolverilməzliyindən danışılır.

Fərdə öz istəyinə görə özünüeyniləşdirmək hüququ verilmədikdə insan şəxsiyyətinin müstəqilliyinə və azadlığına hörmət təmin edilə bilməz. İnsan müxtəlif planda, həm də nəinki şəxsi, hətta ictimai həyatda da özünüeyniləşdirə bilər. Müvafiq

surətdə insanların hərəkət qabiliyyətinin yüksəldiyi və ideyalar mübadiləsinin genişləndiyi açıq cəmiyyətlərdə əksəriyyət eyni zamanda bir neçə surətdə çıxış edirlər və bu surətlər onların müxtəlif sosial əlaqələrinə görə biri-birinə uyğun gələ bilər, eyni vaxtda mövcud ola bilər, yaxud bu və ya digər qaydada (iyerarxiya və ya qeyri-iyerarxiya) düzülə bilərlər. Əlbəttə, insanın özü üçün seçdiyi surəti yalnız etnik mənşə müəyyən etmir, məqamında bu surət hətta eyni bir qrup çərçivəsi daxilində müxtəlif şəkildə görünür: qrupun müxtəlif üzvlərində o, müxtəlif çalara və dərinliyə malik olur. Haqqında konkret söhbətin nədən getdiyindən asılı olaraq, müxtəlif surətlərin nisbi mənası dəyişə bilər. Müvafiq şəkildə, eyni bir şəxs konkret məsələdən, bu və ya digər işlə özünüeyniləşdirmənin dərinliyindən və onda iştiraketmənin şərtindən asılı olaraq, özünü müxtəlif cür eyniləşdirə bilər. Məsələn bəzi dövlətlərdə vergi deklarasiyalarını doldurmaq və qonşular ilə gündəlik əlaqə üçün dil sistemində insan həyatda və cəmiyyətdə öz yerini müxtəlif cür təyin edə bilər.

5. Demokratik cəmiyyətlərdə qərarların qəbulunun prosedura tərəfi onun məzmunluluq tərəfindən az əhəmiyyət kəsb etmir. İdarəetmənin lazımi praktikası nəinki xalqa münasibətdə, həm də xalqın səadəti üçün tətbiq edildiyindən, müvafiq proseduralar aid olduqlarının iştirakını nəzərdə tutmalı, ictimaiyyətin nəzərindən və dəyərləndirilməsindən gizli qalmamalı, maraqlarına toxunduqlarının nəzarəti altında olmalıdır. Yalnız belə bir qayda cəmiyyətin sabit etimadını qazanacaqdır. Müvafiq proseduralarda geniş iştirak, məsləhətləşmələr, sorğular, referendumlar, danışıqlar və hətta bilavasitə maraqlarına toxunan şəxslərdən sanksiyalar almaq hesabına təmin edilə bilər. Belə proseduraların tətbiqi ilə qəbul edilən qərarların könüllü yerinə yetiriləcəyini gözləmək olar. Dövlət orqanlarının və maraqlarına toxunulan qrupun yanaşma üsulları biri-birindən əhəmiyyətli dərəcədə ayrıldığı hallarda idarəetmənin lazımi proseduraları baxımından daha təminedici həlli tapmaq məqsədilə üçüncü tərəfin xidmətinə müraciət etmək doğru olardı.

Milli azlıqlara tətbiqlə bağlı Kopenhagen sənədinin 33-cü bəndi "belə azlıqların təşkilatları və ya assosiasiyaları ilə əlaqələr də daxil olmaqla, lazımi məsləhətləşmələr apardıqdan sonra", "öz ərazilərində milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunu" qorumağa və "bu özünəməxsusluğu təşviq etmək üçün şərait" yaratmağa dair tədbirlər görməyi ATƏT-in iştirakçı dövlətlərinin öhdələrinə qoyur. Helsinki sənədinin VI bölməsinin 26-cı bəndinə görə, ATƏT-in iştirakçı dövlətləri, həmçinin "milli azlıqların problemlərini əməli ruhda, dinc vasitələrlə və ATƏM-in prinsip və öhdəlikləri əsasında bütün əlaqədar tərəflər arasında dialoqlar yolu ilə həll etməyi" öhdələrinə götürmüşlər. "Bütün əlaqədar tərəflər"ə gəldikdə, bununla bağlı Kopenhagen sənədinin 30-cu bəndində "dözümlülüyün, mədəniyyət müxtəlifliyinin təşviq edilməsində və milli azlıqlara aid məsələlrin həllində siyasi partiyalar, həmkarlar ittifaqları, insan hüquqları üzrə təşkilatlar da daxil olmaqla, qeyri-hökumət təşkilatlarının mühüm rolu" qəbul edilir.

Dözümlülük proseduraların geniş iştirakına əsaslanan fəaliyyətin vacib şərtidir. Qarşılıqlı etimad və bərabərliyin sosial-siyasi iqlimini qanunvericilik qaydası ilə eyni zamanda bu sosial etikanın bütün əhali miqyasında bərqərar olması sahəsində tərbiyəvi iş apararaq təmin etmək lazımdır. Bununla bağlı kütləvi informasiya vasitələrinin xüsusi rolu vardır. Çərçivə konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulur ki, "tərəflər mədəniyyətlərarasında dözümlülüyü təşviq edir, həmçinin öz ərazilərində yaşayan bütün şəxslərin etnik, mədəni, dil və din mənsubiyyətlərindən asılı olmayaraq, onların arasında, xüsusən təhsil, mədəniyyət və informasiya vasitələri sahəsində qarşılıqlı hörmət, qarşılıqlı anlaşma və əməkdaşlığa yardım etmək üçün təsirli tədbirlər görürlər". O cümlədən, dövlətlər ictimai çıxışlarda sayğısız və ya alçaldıcı epitet və sözlərin işlədilməsinin qabağını almalı və mənfi stereotipləri aradan qaldırmalıdırlar. İdealda, maraqlarına toxunulan qrupun nümayəndələri belə problemlərin həllinə yönəldilən istənilən tədbirlərin müəyyənləşdirilməsində və hazırlanmasında iştirak etməlidirlər.

II Qərarların Qəbul Edilməsində İştiraketmə

a) Mərkəzi hökumət səviyyəsində mexanizmlər

6. Milli azlıqlar məsələsi üzrə ATƏM-in ekspertlər Müşavirəsinin təqdim etdiyi Məruzənin (Jenevrə 1991-ci il) III bölməsinin birinci paraqrafında Kopenhagen sənədinin 35-ci bəndinin müddəaları inkişaf etdirilərək göstərilir ki, "milli azlıqların durumuna aid məsələlər onların ölkələrində müzakirə edilərkən həmin azlıqların özünə bu prosesdə səmərəli iştirak etmək imkanı vermək lazımdır... (və) milli azlıqlara mənsub şəxslərin (belə) demokratik iştirakı və ya onların nümayəndələrinin rəhbər, yaxud məsləhətçi orqanların işində iştirakı dövlət işlərində səmərəli iştirakın mühüm ünsürüdür". Helsinki sənədinin VI bölməsinin 24-cü bəndində ATƏT-in iştirakçı dövlətləri "bununla əlaqədar... milli azlıqlara mənsub şəxslərin fərdi əsasda və başqaları ilə birlikdə öz insan hüquqlarını və əsas azadlıqlarını, həmçinin milli, regional və yerli səviyyələrdə, o cümlədən, siyasi partiyalar və assosiyasiyalar çərçivəsi daxilində rəhbər və məsləhətçi orqanların işində demokratik iştirak əsasında, hər bir dövlətin qərar qəbul etməsinin demokratik proseduralarına uyğun şəkildə, öz ölkəsinin siyasi, iqtisadi, sosial və mədəni həyatında tam iştirak etmək hüququnu azad şəkildə həyata keçirimələrini təmin etmək sahəsində səylərini fəallaşdırmağı" öhdələrinə götürürlər.

Əslində iştirak həm qərar qəbuluna ciddi yardım etmək imkanı baxımından, həm də belə hərəkətlərin nəticələrinə görə məsuliyyət baxımından cəlb olunmanı ifadə edir. Lazımi idarəetmə konsepsiyasının prinsiplərindən biri belədir: sadə çoxluqla qərar qəbuletmə metodu həmişə adekvat olmur. Dövlətin struktur quruluşu baxımından qərarların qəbulu prosesinin bu qərarların toxunduğu qruplara bağlanmasını və istər bütövlükdə dövlət səviyyəsində, istərsə də onun tərkibinə daxil olan qurumlar səviyyəsində müvafiq hesabat verməyi ən yüksək dərəcədə təmin edən müxtəlif desentralizasiya formalarından istifadə etmək olar. Unitar dövlətlərdə, federasiyalarda və konfederasiyalarda bu məsələlər müxtəlif şəkildə həll edilə bilər. Azlıqların rəhbər orqanlarda nümayəndəliyi onlara müəyyən

miqdarda yer ayırmaq (normalar, xidmət üzrə irəliləmə və digər tədbirlər) hesabına təmin oluna bilər. İştirakın digər formaları da mümkündür, məsələn, bu və ya digər komitələrdə təminatlı və səs hüququ olan, yaxud səs hüququ olmayan üzvlük buna misaldır. İjra və məhkəmə orqanlarında, inzibati və digər orqanlarda nümayəndəlik hüquqi baxımdan təsbit edilmiş və ya mövcud praktikaya əsaslanan eyni qaydada təmin edilir. Azlıqların mənafelərinin nəzərə alınması üçün xüsusi orqanlar da yaratmaq mümkündür. Bütün hüquqlarını həyata keçirmək üçün azlıqların real imkana malik olmalarından ötrü irqi, ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiyanın 5-ci maddəsinin "j" bəndində deyildiyi kimi, "dövlət qulluğuna girməkdə hüquq bərabərliyi"nin təmin edilməsi də daxil olmaqla, dövlət xidməti xətti üzrə konkret tədbirlər vacibdir.

b) Seçkilər

7. İdarəetmənin, azad və vicdanlı seçkilərin vaxtaşırı keçirilməsinə əsaslanan nümayəndəlik sistemi müasir demokratiyanın mühüm atributudur. Bu halda yerinə yetirilən vəzifə insan hüquqlarının ümumi bəyannaməsinin 21-ci maddəsinin 3-cü bəndində yığcam və dəqiq şəkildə ifadə edilmişdir: "Bu əsas norma bir sıra beynəlxalq və Avropa müqaviləsində xüsusilə, mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 25-ci maddəsində və İnsan hüquqları haqqında Avropa konvensiyasına əlavə edilən 1 N-li Protokolun 3-cü maddəsində daha ətraflı ifadə edilib. Kopenhagen sənədinin 5-ci və 6-cı bəndlərində ATƏT-in iştirakçı dövlətlərinə münasibətdə, "insan şəxsiyyətinə məxsus ləyaqətin tam ifadəsi üçün əhəmiyyətli dərəcədə lazım gələn ədalət ünsürləri və bütün insanların bərabər və ayrılmaz hüquqları" konkret olaraq sadalanmış, "vaxtaşırı və həqiqi seçkilərin gedişində azad surətdə və vicdanla ifadə edilən xalq iradəsinin istənilən dövlət hakmiyyətinin və qanunçuluğun əsası" olduğu göstərilmişdir.

Dövlətlər bu öhdəlikləri məhz necə yerinə yetirəcəklərini müəyyənləşdirməkdə xeyli sərbəstliyə malikdirlər; ancaq onlar nümayəndəliyi ən yüksək dərəcədə təmin etməyə çalışaraq,

bunu ayrı-seçkiliyə yol vermədən həyata keçirməlidirlər. Birləşmiş Millətlər Təşkilatı çərçivəsi daxilində İnsan hüquqları Komitəsi özünün 25 N-li Ümumi qayda Qeydlərinin (57-ci sessiya, 1996-cı il) 12-ci bəndinin belə bir izahını verib: "Öz fikrini azad ifadə etmək, dinc yığıncaqlar keçirmək və assosiasiyalar azadlığı hüququ səs hüququnu səmərəli həyata keçirmək üçün başlıca şərtdir və tam müdafiəyə malik olmalıdır. (...) Səsvermə qaydası haqqında məlumat və materiallar azlıqların dillərində də nəşr edilməlidir. Daha sonra 25 N-li Ümumi qayda Qeydlərinin 5-ci bəndində aydınlaşdırılır ki, "dövlət işlərinin idarə edilməsi siyasi səlahiyyətlərinin, xüsusilə, qanunvericilik, icra səlahiyyətlərinin və inzibati səlahiyyətin həyata keçirilməsilə bağlı geniş anlayışdır. O, dövlət idarəsinin bütün aspektlərini həmçinin, beynəlxalq, milli, regional və yerli səviyyələdə siyasətin işlənib hazırlanmasını və həyata keçirilməsini əhatə edir"

Müxtəlif baxışların və maraqların mövcud olduğu şəraitdə heç bir seçki sistemi neytral kimi qəbul edilə bilməz, dövlətlər idarəetmənin konkret şəraitdə nümayəndəlik xarakterini maksimum təmin edə bilən sistemi seçməlidirlər. Bu, milli azlıqlara mənsub şəxslər üçün daha mühümdür, əks halda, onlar adekvat nümayəndəlikdən məhrum ola bilərlər.

8. Prinsip etibarı ilə demokratik cəmiyyət öz vətəndaşlarına nə qədər ki, dinc vasitələrdən istifadə edir və başqalarının hüququna hörmətlə yanaşır, siyasi özünütəşkili zorla qəbul etdirməməlidir. Əslində söhbət İnsan hüquqlarının ümumi bəyannaməsinin 20-ci maddəsi, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 22-ci maddəsi, İnsan hüquqları haqqında Avropa Konvensiyasının 11-ci maddəsi və Kopenhagen sənədinin 6-cı bəndi də daxil olmaqla, ən müxtəlif beynəlxalq sənədlərdə müəyyənləşdirilən assosiyasiyalar azadlığından gedir. Bundan başqa milli azlıqlara mənsub şəxslərin assosiasiya azadlığına Kopenhagen sənədinin 32.6 bəndinə və Çərçivə Konvensiyasının 7-ci maddəsinə əsasən xüsusi təminat verilmişdir. Helsinki sənədinin 6-cı bölməsinin 24-cü bəndində ATƏT-in iştirakçı dövlətlərinin öhdəliyi "milli azlıqlara

mənsub şəxslərin fərdi əsasda və başqaları ilə birlikdə (...) öz ölkəsinin siyasi (...) həyatında tamamilə də (...), o cümlədən (...) siyasi partiyalar və assosiyasiyalar çərçivəsi daxilində iştirak etmək hüququ da daxil olmaqla, öz insan hüquqlarını və əsas azadlıqlarını azad şəkildə həyata keçirmələrini təmin etmək" kimi əlavə konkretləşdirilir.

Hüquq bərabərliyi və ayrı-seçkisizlik prinsiplərinə əməl edildikdə etnik əlamətə görə təşkil edilən siyasi partiyalarda birləşməyə obyektiv və subyektiv ehtiyaclar azalacaq, yaxud birdəfəlik yox olacaqdır; bununla belə, bəzi hallarda etnik icmaların yaratdığı belə partiyalar onların spesifik maraqlarının səmərəli təmsilçiliyinə və beləliklə də, cəmiyyət həyatında onların real iştirakına yeganə ümid yeri ola bilər. Əlbəttə, insanlar partiyalarda başqa əsasda da, məsələn regional maraqlar üzrə də birləşə bilərlər. İdealda partiyalar öz tərkiblərinə görə açıq olmalı və dar etnik çərçivədə qapanıb qalmamalıdırlar; deməli, iri partiyalar azlıqların nümayəndələrinin öz tərkibinə daxil olmasına nail olmalı və bununla da etnik əlamətlər üzrə partiyalar yaratmaq ehtiyacını və ya cəhdini azaltmalıdır. Bununla əlaqədar, seçki sisteminin seçimi mühüm əhəmiyyət qazanır. İstənilən halda siyasi partiyalar və digər assosiyasiyalar haqqında Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 20-ci maddəsində və irqi ayrı-seçkiliyn bütün formalarının ləğv edilməsi haqqında konvensiyanın 4-cü maddəsində danışılan irqi nifrəti qızışdırmaq yasaq edilməlidir.

9. Seçki sisteminin fəaliyyəti ayrı-ayrı vəzifəli şəxslərin seçkiləri də daxil olmaqla, qanunverici məclisin digər orqan və qurumların seçkilərinə aid edilə bilər. Bəzi hallarda seçki dairələrinin sərhədlərindən necə müəyyənləşdirilməsindən və həmin dairələrdə yaşayan azlıqların yığcamlığından asılı olaraq, onların lazımi nümayəndəliyi birmandatlı dairələrin köməyi ilə təmin edilə bilər; digər hallarda isə proporsional seçki sistemi azlıqların kifayət qədər təmsil olunmasının təminatı ola bilər. ATƏT-in iştirakçı dövlətlərində praporsional nümayəndəliyin müxtəlif formaları tətbiq olunur: seçicilərin üstün tutduqları qayda namizədlərə malik olduğu "preferensial

səsvermə"; seçicilərin pariya siyahısı üzrə bu və ya digər namizədin üstünlüyünü bildirdikləri, eləcə də partiya üçün səs verdikləri "açıq siyahılar sistemi"; müxtəlif partiyalardan bir nəfərdən çox namizədə səs verməyə icazə verilən "qarışıq seçki sistemi"; seçicilər üstün tutduqları namizədə bir səsdən çox səs verə bildikləri "kumulyativ sistem". Azlıqların təmsil olunmasına maneçilik törətməməsi üçün faiz həddini çox da yüksəyə qaldırılmamalıdır.

10. Seçki dairələrinin sərhədləri müəyyənləşdirilərkən milli azlıqların rəhbər orqanlarda təmsil olunmasını təmin etmək baxımından onların problem və maraqlarını nəzərdə tutmaq lazımdır. "Hüquq bərabərliyi" anlayışı belə təmin edilmənin seçilmiş metodu heç kəsin mənafeyini məhdudlaşdırmamalı və hər kəsin mənafeyi nəzərə alınacaqdır deməkdir. İdealda dairələrin sərhədləri müstəqil olaraq və çağırılmamış orqanlar tərəfindən müəyyən edilməlidir, bu isə digər vəzifələrin həlliylə bərabər, azlıqların hüququna hörməti təmin etməyə imkan verərdi. ATƏT-in iştirakçı dövlətlərinin bir çoxunda bu vəzifə peşəkar kadrlardan komplektləşdirilmiş daimi seçki komissiyaları yaratmaq yolu ilə həll edilir.

Hər halda dövlətlər azlıqların təmsil olunmasını azaltmaq və ya onu tamamilə kənar etmək məqsədilə seçki dairələrinin sərhədlərinə yenidən baxmamalı, yaxud bu və ya digər dairədə əhalinin müxtəlif qruplarının proporsional nisbətini heç bir vəchlə dəyişdirilməməlidir.

Bu, Çərçivə konvensiyasının 16-cı maddəsilə bilavasitə yasaq edilir, yerli özünüidarə ilə bağlı Avropa xartiyasının 5-ci maddəsində isə qabaqcadan belə bir şərt qoyulmuşdur ki, yerli ərazi qurumları sərhədlərinin dəyişdirilməsi, əlaqədar yerli icmalarla ilkin məsləhətləşmələr keçirmədən icra edilmir, bu isə qanunun yol verdiyi hallarda referendum formasında keçirilə bilər (ərazi mexanizmlərinə Aid olan 19-cu tövsiyyənin izahına bax)

j) Regional və yerli səviyyəli mexanizmlər

11. Həmin tövsiyələr, muxtar vilayətlər və digər ərazi bölgü və qurumları da daxil olmaqla, istər unitar dövlətin

tərkibinə daxil olan, istərsə də federasiyanın subyektləri olan əyalətlərdə, departamentlərdə, rayonlarda, prefekturalarda, bələdiyyələrdə, şəhər və qəsəbələrdə - mərkəzi hakimiyyətdən aşağıda bütün səviyyələrdəki hakimiyyət orqanlarına aiddir. Hər kəsə bütün insan hüquqlarını eyni dərəcədə reallaşdırmaq imkanı verən şəraiti məntiqli şəkildə yaratmaq vəzifəsi bu hüquqlara hörmətin nəinki mərkəzi hakimiyyət səviyyəsində, hətta bütün aşağı səviyyələrdə təmin edilməsini tələb edir. Ancaq regional və yerli səviyyəli strukturlar yaradılarkən tətbiq edilən meyarlar mərkəzi hökumət tələbatın və ifadə edilən təklifin müxtəlifliyindən şərtlənən simmetriyasızlıq da mümkündür.

d) Məşvərətçi və məsləhətçi orqanlar

12. Helsinki sənədinin 6-cı bölməsinin 24-cü bəndi milli azlıqlara mənsub şəxslərin fərdi əsasda və başqaları ilə birlikdə (...) o cümlədən milli regional və yerli səviyyələrdə (...) demokratik iştiraketmə əsasında, öz ölkəsinin (...) siyasi (...) həyatında (...) tamamilə iştirak etmək hüququ da daxil olmaqla, öz insan hüquqlarını və əsas azadlıqlarını azad şəkildə həyata keçirmələrini" təmin etməyi ATƏT-in iştirakçı dövlətlərinin öhdələrinə qoyur.

Belə orqanlar daimi və ya məqsədli, hakimiyyətin qanunverici və ya icra sahəsinə aid ola bilər, yaxud onların nəzdində və ya müstəqil fəaliyyət göstərə bilər. ATƏT-in bir sıra iştirakçı dövlətlərinin parlamenti nəzdində azlıqların nümayəndələrinin iştirak etdiyi "dəyirmi masalar" kimi komitələr fəaliyyət göstərir. Onlar özünüidarə də daxil olmaqla hakimiyyətin bütün səviyyələrində yaradıla bilər və artıq real şəkildə fəaliyyət göstərməkdədirlər. Belə orqanların səmərəliliyi onların tərkibinə azlıqların nümayəndələrinin və xüsusi ekspert biliyi olan digər şəxslərin daxil edilməsiylə, eləcə də onların sərəncamına adekvat resursların ayrılması və rəhbər orqanların onlara diqqətli maraq göstərməsi ilə təmin edilir. Məsləhətçi vəzifəsini yerinə yetirməkdən və tövsiyələr işləyib hazırlamaqdan başqa bu orqanlar dövlət rəhbərliyi ilə azlıqlar arasında aralıq həlqə ola bilərlər. Onlar hökumət səviyyəsində

və azlıqların yaşadıqları icmalar səviyyəsində tədbirlərin görülməsini də stimullaşdıra bilərlər. Bundan başqa, belə orqanlar proqramların, məsələn təhsil sahəsində proqramın reallaşdırılmasına dair konkret məsələləri həll edə bilərlər. Bundan əlavə bu və ya digər ixtisaslaşdırılmış komitələrin işi bəzi azlıqlar üçün xüsusi əhəmiyyətə malik ola bilər, buna görə də həmin azlıqlar bu komitələrdə təmsil olunmalıdırlar.

13. Bu orqanlardan konstruktiv istifadə imkanları konkret vəziyyətlərdən asılıdır. Ancaq istənilən halda idarəetmənin lazımi praktikası hakimiyyət orqanlarının nüfuzlü məsləhətçi və məşvərətçi orqanları işə cəlb etmək üçün məqsədyönlü tədbirlər görməyi və lazım gəldikdə onlara müraciət etməyi, o cümlədən müvafiq məsələlərlə bağlı işə öz töhfələrini vermək təklifi ilə müraciət etməyi tələb edir. Bu orqanlara və onların üzvlərinə münasibətdə hakimiyyət orqanlarının açıq mövqeyi və onlarla əməkdaşlığa hazır olması daha optimal qərarların qəbul edilməsinin rəhni olacaq və cəmiyyətdə hakimiyyət orqanlarının nüfuzunu qaldıracaqdır.

III. Özünüidarə

"Özünüidarə" termini icmanın özüylə bağlı məsələlərin həllinə bu və ya digər dərəcədə nəzarət etməsini tələb edir. "İdarə" sözü isə qətiyyən müstəsna səlahiyyəti nəzərdə tutmur. Bundan başqa o, inzibati və sərəncamverici səlahiyyətləri, həmçinin konkret şəkildə razılaşdırılmış qanunverici və məhkəmə funksiyalarını da ifadə edə bilər. Buna dövlətin öz funksiyalarından bir hissəsini göndərmək və ya vermək, yaxud məsələn federasiya halında baza səlahiyyətlərinin ilk bölgüsü yolu ilə nail olmaq mümkündür ATƏT-in iştirakçı dövlətlərində özünüidarə formaları müxtəlif şəkildə - muxtariyyətin göndərilməsi, özünüidarə və ya daxili idarə adlandırılır. Həm də ərazi mexanizmlərinin formalaşdırılmasında etnik meyarlar heç bir halda müəyyənedici olmurlar.

ATƏT-in iştirakçı dövlətləri Kopenhagen sənədinin 35-ci bəndində "müəyyən milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunun təşviq edilməsi üçün şəraitin müdafiəsi

və yaradılması məqsədilə göstərilən səyləri əlaqədar dövlətlərin yerli və ya muxtar idarə orqanlarının həmin azlıqların tarixi və ərazi şəraitlərinə cavab verən siyasətinə uyğun olaraq, göstərilən məqsədlərinə nail olmağın mümkün vasitələrdən birini yaratmaq yolu kimi" qeyd etmişlər. Bununla bağlı olaraq, ATƏM-in milli azlıqlar məsələsi üzrə ekspertlər Müşavirəsi Məruzəsinin IV bölməsinin 7-ci paraqrafında göstərilir ki, "onlardan (iştirakçı dövlətlər) bəziləri müvafiq demokratik yolla, o cümlədən, (...) yerli və muxtar idarə orqanları, eləcə də azad və vaxtaşırı keçirilən seçkilərdə seçilmiş məsləhətçi, qanunverici və icra orqanlarının mövcudluğu da daxil olmaqla ərazi əsaslı muxtariyyatın mövcuduluğu", ərazi əsasında muxtariyyatın olmadığı özünəməxsus şəraitlə bağlı aspektlərdə milli azlıqların özünüidarəsi; idarəetmənin desentralizasiya olunmuş və ya yerli formaları; (...) milli azlıqlara mənsub və öz xüsusi təhsil, mədəniyyət və dini müəssisələrini, təşkilat və assosiasiyalarını (...) yaratmaq və himayə etmək hüquqlarını həyata keçirmək üçün maliyyə və texniki yardımlar istəyən şəxslərə maliyyə və texniki yardımlar vasitəsilə müsbət nəticələrə nail olmuşlar(...) Yerli özünüidarənin Avropa xartiyasının preambulasında demokratiya və hakimiyyətin desentralizasiya prinsipləri haqqında müxtəlif Avropa ölkələrində yerli özünüidarənin təmin edilməsinə və möhkəmləndirilməsinə kömək edən faktor kimi daha ümumi planda danışılır. Bununla əlaqədar, yerli özünüidarənin Avropa xartiyasının 9-cu maddəsinin müddəaları ayrılan belə səlahiyyətlərin reallaşdırılması üçün kifayət qədər maliyyə yardımını hüququnu nəzərdə tutur.

15. Dövlət orqanları bütünlükdə dövlətlə əlaqədar bir sıra sahələrdə məsuliyyəti öz üzərinə götürərək, mərkəzi hakimiyyət səviyyəsində bu sahələrdə lazımi tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər. Adətən belə sahələrin sırasına daxildir: əslində dövlətin ərazi bütünlüyünün təmin edilməsinə aparıb çıxaran müdafiə məsələsi; iqtisadi baxımdan bərabər durumda olmayan rayonlar arasında mərkəzi hakimiyyətin bir növ tarazlaşdırıcı funksiyanı yerinə yetirdiyi dərəcədə mühüm

rol oynayan makro-iqtisadi siyasət; eləcə də, diplomatiyanın ənənəvi sahəsi. Digər amillər də ciddi ümumilli nəticələrə malik ola biləcəklərinə görə, onlar da ən azı mərkəzləşdirilmiş nizamlama sahəsinə qismən daxil edilməlidir. Bu sahələrdə nizamlama birgəlik əsasında da, o cümlədən nizamlamanın xüsusilə aid olduğu ərazi vahidəlrinin və ya azlıqlarının iştirakı (18-ci və 19-cu tövsiyyələrə bax) ilə həyata keçirilə bilər. Bununla bərabər, nizamlaşdırıcı səlahiyyətin belə bölgüsü hüquq-müdafiə normalarına zidd olmamalı və əlaqələndirilmiş şəkildə, lazımi praktiki yanaşma ilə həyata keçirilməlidir.

Ümumi etirafa görə, muxtariyyətin ərazi və ya qeyri-ərazi formasından asılı olmayaraq, hamının mənafeyinə uyğun gəldiyi və həm bütünlükdə dövlət üçün, həm də azlıqlar üçün xüsusi əhəmiyyəti olan sahələrdən biri təhsil sahəsidir. Yuneskonun təhsil sahəsində ayrı-seçkiliklə mübarizə Konvensiyasının 5.1 maddəsində yuxarıda göstərilən məqsədlərə hansı yol ilə çatmaq haqqında olduqca ətraflı müddəalar vardır: "bu Konvensiyanın tərəfləri olan dövlətlər hesab edirlər ki: (...)

b) valideynlər, müvafiq hallarda isə qanuni qəyyumlar, birincisi, hər bir dövlətin qanunları ilə müəyyən edilmiş çərçivə daxilində öz uşaqlarını dövlət tədris müəssisələrinə deyil, səlahiyyətli təhsil orqanları tərəfindən müəyyənləşdirilmiş və ya təsdiqlənmiş minimum tələblərə cavab verən başqa tədris müəssisələrinə azad surətdə göndərmək imkanına, ikincisi isə, öz əqidələrinə uyğun olaraq, uşaqlarının dini və mənəvi tərbiyəsini təmin etmək imkanına malik olmalıdırdar; ayrıca heç bir kəsə və ya bütövlükdə heç bir şəxslər qrupuna onların əqidələri ilə bir araya sığmayan dini tərbiyəni zorla qəbul etdirilməməlidir;

j) milli azlıqlara mənsub şəxslərin məktəblərə rəhbərlik etmək də daxil olmaqla öz maarifçilik işlərini aparmaq və hər bir dövlətin təhsil sahəsində siyasətinə uyğun olaraq, öz dilini işlətmək və tədris etmək hüququnu qəbul etmək lazımdır, ancaq bir şərtlə ki: i) bu hüququn həyata keçirilməsi milli azlıqlara mənsub şəxslərə bütün kollektivin mədəniyyətini və dilini anlamağa və onun fəaliyyətində iştirak etməyə mane

olmur və ölkənin suverenliyini sarsıtmır; II) belə məktəblərdə təhsil səviyyəsi səlahiyyətli orqanlar tərəfindən müəyyənləşdirilmiş, yaxud təsdiqlənmiş ümumi səviyyədən aşağı deyil; III) bu tipli məktəblərdə oxumaq fakultətivdir"

16. İnsan hüquqlarının ümumi bəyannaməsinin 21-i maddəsində mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 25-ci maddəsində, insan hüquqları haqqında Avropa Konvensiyasına əlavə edilən 1 N-li protokolun 3-cü maddəsində və ATƏT-in normalarında dolğun şəkildə xülasə edilmiş demokratik idarəetmə prinsipi bütün səviyyələrdə və bütün hələlərdə idarəetməyə aiddir. Özünüidarə sosial qurumlarını təşkil etmək vacib və məqsədəuyğun olduqda bu qurumlarda demokratiya prinsipinə əməl edilməsi bütün vətəndaşların öz hüquqlarını bərabər ölçüdə reallaşdırmasının ilk şərtidir.

a) Qeyri-ərazi mexanizmləri

17. Bu bölmə çox vaxt "şəxsi" və ya mədəni muxtariyyat adlandırılan, ancaq bu və ya digər qrup üzvlərinin joğrafi baxımdan yığcam yaşamadıqları halda daha çox tətbiq edilə bilən qeyri-ərazi mexanizmlərinə həsr edilmişdir. Səlahiyyətlərin, o cümlədən konkret sahələrdə işlərin idarə edilməsi üzrə səlahiyyətin müvafiq bölgüsü ümumdövlət səviyyəsində, yaxud ərazi təşkilatlarına görə təmin edilə bilər. İstənilən halda bu tədbirlə əhatə olunmayan şəxslərin hüququna hörmət edilməsinə təminat vermək lazımdır. Muxtariyyət belə formalarda həm də ictimai funksiyasının reallaşması üçün lazım gələn adekvat maliyyələşdirmə ilə möhkəmləndirilməli və geniş iştirakı nəzərdə tutan proseduralara əsaslanmalıdır. (5-ci tövsiyyəyə bax)

18. Mümkün funksiyaların siyahısı bununla bitmir. Çox şey konkret şəraitdən, o cümlədən, ilk növbədə azlıqların tələbatından və onların ifadə etdikləri istəklərindən asılı olacaq. Müxtəlif şəraitlərdə bu və ya digər məsələlər azlıqları çox və ya az dərəcədə maraqlandıracaq və həmin məsələlərin həlli azlıqlara müxtəlif cür təsir edəcək. Bəzi sahələr birgə fəaliyyət sahəsi ola bilərlər. Azlıqlar üçün xüsusi həssas məsələlərdən biri öz şəxsi və digər adlarını özlərinin müəyyənləşdirmək

hüququdur və bu isə həm ictimai müəssisələrə, həm də ayrı-ayrı vətəndaşlara aiddir. Çərçivə konvensiyasının 11-ci maddəsinin 1-ci bəndində müvafiq müddəa nəzərdə tutulmuşdur. Din məsələsinə gəldikdə isə, həmin tövsiyyənin müəllifləri dini təşkilatlara verilən səlahiyyətlər dairəsinin müəyyənləşdirilməsi (məsələn, vətəndaşlıq vəziyyəti aktları barəsində) istisna olmaqla, bu sahəyə dövlət müdaxiləsinə qarşı etirazlarını bildirirlər. Azlıqların nümayəndələrinin öz xüsusi kütləvi informasiya vasitələrini yaratmaq və onlardan istifadə etmək imkanına malik olmalarına Çərçivə Konvensiyasının 9-cu maddəsinin 3-cü bəndi ilə təminat verilsə də, tövsiyyələrdə həmçinin azlıqlara məxsus müəssisələr tərəfindən kütləvi informasiya vasitələri üzərində nəzarətin həyata keçirilməsi nəzərdə tutulmur. Əlbəttə, mədəniyyət - sosial təminat, mənzil və uşaqlara baxmaq kimi sahələri də əhatə edən hərtərəfli anlayışdır; dövlət bu sahələrdə rəhbərliyi həyata keçirərkən, həm də azlıqların mənafelərini nəzərə almağa borcludur.

b) Ərazi mexanizmləri

19. Qərarların bilavasitə aid olanlara və mənafelərinə toxunanlara maksimum yaxınlıqla və mümkün qədər onlar tərəfindən qəbul edilməsi üçün Avropa dövlətlərində səlahiyyətlərin verilməsi və subsidiarlıq prinsipinin reallaşdırılması üçün ümumi bir meyl xarakterikdir. Yerli özünüidarənin Avropa xartiyasının 4-cü maddəsinin 3-cü bəndində bu məqsəd aşağıdakı qaydada ifadə edilmişdir. Prinsip etibarı ilə ictimai funksiya ilk öncə əhaliyə hamıdan daha yaxın olan hakimiyyət orqanları tərəfindən həyata keçirilməlidir. Funksiyaları digər orqanlara verərkən hakimiyyət vəzifələrin miqyasını və xarakterini, eləcə də səmərəlilik və qənaət tələblərini nəzərə almalıdır. Məhəlli özünüidarə dövlət birliyinin qorunub saxlanmasına kömək edə və eyni zamanda əhalinin ümumi sayında azlıqların xüsusi çəkisinə uyğun səviyyədə onların idarəetmədə rolunu artıraraq, azlıqların iştirak və cəlb olunma səviyyəsini yüksəldə bilər. Bu vəzifəyə federativ quruluş qədər, unitar dövlətlər və ya federasiyalar daxilində xüsusi muxtar vahidlər də cavab verə bilərlər. Qarışıq inzibati idarələrin mövcudluğu

da mümkündür. 15-ci tövsiyyədə qeyd edildiyi kimi, bütün dövlət ərazisində təşkil edilən qurumlar hökmən eyni növdə olmamalıdır, tələbata və ifadə edilən təklifə uyğun olaraq, müxtəlif növdə meydana çıxa bilər.

20. Muxtar hakimiyyət orqanları qanunverici, icra və məhkəmə orqanları səviyyəsində qərarlar qəbul etmək üçün real səlahiyyətlərə malik olmalıdır. Dövlətdə səlahiyyətlər mərkəzi, regional və yerli hakimiyyət orqanları arasında, həmçinin funksional əlamət üzrə bölünə bilər. Kopenhagen sənədinin 35-ci bəndində "belə azlıqların konkret tarixi və ərazi şəraitlərinə cavab verən lazımi yerli və ya muxtar idarəetmə orqanları" kimi alternativlərdən danışılır. Buradan belə bir aydın nəticə çıxır ki, dövlət çərçivəsi daxilində yekcinslilik məcburi deyil. Təcrübə göstərir ki, səlahiyyətlər bölgüsü ədalət məhkəməsinin sahələrinə (istər əsas, istərsə də prosessual) verilən səlahiyyətlər və təsərrüfatın ənənəvi sahələriylə bağlı səlahiyyətlər də daxil olmaqla, adətən, mərkəzi hökumətin idarəsinə aid ictimai belə səlahiyyətlərin həyata keçirilməsinə cəlb edilməlidirlər. Eyni zamanda mərkəzi hökumət bütün dövlət ərazisində ədalət və imkanlar bərabərliyinin təmin edilməsi sahəsində səlahiyyəti özündə saxlamalıdır.

21. Azlıqların daha səmərəli iştirakını təmin etmək üçün məhəlli əsasla verilə bilən səlahiyyətlər aid olduqları azlıqların maraqları lazımi dərəcədə nəzərə alınmaqla həyata keçirilməlidir. İnzibati hakimiyyət orqanları müvafiq ərazidə bütün əhaliyə hesabat verməlidir. Bu Kopenhagen sənədinin 5.2 bəndindən irəli gəlir və həmin bənd ATƏT-in bütün iştirakçı dövlətlərinə bütün səviyyələrdə və bütün şəxslər üçün "icraçı hakimiyyət orqanlarının seçilmiş qanunverici orqanlara, yaxud seçicilərə hesabat verməli olduğu və öz xarakterinə görə nümayəndəlik olan idarə formasını" təmin etməyi tapşırır.

VI Təminatlar

a) Konstitusiya və huquq təminatları

22. Bu bölmədə müvafiq müddəaların "möhkəmləndirilməsi", daha doğrusu, qanunvericilik qaydası ilə onların

qeydə alınması haqqında məsələyə baxılır. Bəzi hallarda hərtərəfli hüquqi mexanizmlər faydalı olarsa, digər hallarda çərçivə müddəaları kifayət edə bilər. 5-ci tövsiyyədə göstərildiyi kimi, bütün hallarda mexanizmlərin qəbulu açıq prosceduralar vasitəsilə həyata keçirilməlidir. Eyni zamanda maraqlarına toxunulan şəxslərin, xüsusən milli azlıqlara mənsub şəxslərin müəyyən müdafiəsinə təminat vermək üçün mexanizmlərin qəbulundan sonra sabitliyi təmin etmək lazımdır. Yerli özünüidarəyə dair Avropa xartiyasının 2-ci və 4-cü maddələrində konstitusiya mexanizmlərinə üstünlük verilir. Sabitliklə çeviklik arasında arzulanan müvazinətə nail olmaq üçün müəyyənləşdirilmiş aralıq müddəti vasitəsi ilə yenidən baxılmanı əvvəlcədən planlaşdırmaq məqsədəuyğun ola bilər və bununla da dəyişikliyin təqdimetmə prossesi siyasizləşdirilər, gözdənkeçirmə prossesi isə daha az antoqonist olur.

23. Bu tövsiyyə mövcud mexanizmlərin dəyişdirilməsi üçün şərtləri müəyyənləşdirməyi deyil, əvvəllər tətbiq edilməmiş yeni rejimləri sınamağı nəzərdə tutduğuna görə 22-ci tövsiyyədən fərqlənir. Səlahiyyətli hakimiyyətlərə mərkəzi orqanlarla azlıqların nümayəndələrinin münasibətlərində yaranan müxtəlif şəraitlərdə öz seçimini həyata keçirərkən müxtəlif yanaşmaları tətbiq etmək imkanı verilir. Son nəticələri irəlicədən müəyyənləşdirərək bu, yeniliyin qəbulu və həyata keçirilməsi hesabına faydalı təcrübə mənbəyi ola bilər.

b) Hüquq müdafiəsi

24. Kopenhagen sənədinin 30-cu bəndində ATƏT-in iştirakçı dövlətləri "milli azlıqlara aid məsələlərin yalnız müstəqil məhkəmə sisteminin fəaliyyəti şəraitində qanunun aliliyinə əsaslanan demokratik siyasi çərçivədə kifayətləndirici qaydada həll edilə biləcəyini qəbul edirlər". Hüquq müdafiəsinin təsirli vasitələri haqqında həmçinin, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 2-ci maddəsinin 3-cü bəndində də danışılır, "məhkəmə müdafiəsinin vasitələri" isə yerli özünüidarəyə dair Avropa xartiyasının 11-ci maddəsində xatırlanır.

Məhkəmə nəzarəti konstitusiya məhkəmələri və faktiki olaraq insan hüquqları üzrə müvafiq beynəlxalq orqanlar tərəfindən həyata keçirilir. Milli komissiyalar, ombudsmenlər, etniklərarası və ya "irqi" münasibətlər üzrə şuralar və s. kimi məhkəmədən kənar mexanizm və sosial qurumlar da həmçinin, Kopenhagen sənədinin 27-ci bəndində, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiyanın 14-cü maddəsinin 2-ci bəndində, Vyana bəyannaməsinin 36-cı bəndində və İnsan hüquqları ümumdünya konfransının 1993-cü ildə qəbul etdiyi fəaliyyət proqramında deyildiyi kimi, mühüm rol oynaya bilərlər.

MİLLİ AZLIQLARIN TƏHSİL HÜQUQU ÜZRƏ HAAQA TÖVSİYYƏLƏRİ

Beynəlxalq sənədlərin ruhu

1. Milli azlıqlara mənsub şəxslərin yalnız təhsil prosesində öz ana dili ilə bağlı lazımi biliyi aldıqları halda, onların özünəməxsusluğunu saxlamaq hüququ reallaşa bilər. Eyni zamanda milli azlıqlara mənsub şəxslər dövlət dilini kifayət qədər bilməklə geniş milli cəmiyyətə inteqrasiya olmaq məsuliyyətini də daşıyırlar.

2. Milli azlıqlara mənsub şəxslərin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş beynəlxalq sənədlərə əməl etməklə dövlətlər bərabərlik və ayrı-seçkiliyə yol verməməyin əsas prinsiplərinə ardıçıl şəkildə əməl etməlidirlər.

3. Müvafiq beynəlxalq öhdəliklərin minimal beynəlxalq standartlar olduğunu nəzərdə tutmaq lazımdır. Bu öhdəliklərin məhdud yozumu onların ruhuna və məqsədinə zidd olardı.

Tədbirlər və resurslar

4. Dövlətlər təhsil sahəsində azlıqların hüquqlarına dair fəal siyasət yeritməlidirlər. Dövlətlər təhsil sahəsində azlıqların dil hüquqlarını fəal surətdə həyata keçirmək üçün onların mövcud resurslarından həm müstəqil şəkildə, həm də beynəlxalq, xüsusən iqtisadi və texniki yardım və əməkdaşlıq vasitəsilə maksimum istifadə etməklə zəruri yerlərdə xüsusi tədbirlər görməlidirlər.

Əksmərkəzləşmə və iştirak

5. Dövlətlər milli azlıqların təhsili ilə bağlı siyasət və proqramların işlənib hazırlanmasında və reallaşdırılmasında müvafiq milli azlıqları təmsil edən təşkilatların fəal iştiraklarına şərait yaratmalıdırlar.

6. Dövlətlər milli azlıqların təhsili sahəsində regional və yerli orqanlara müvafiq səlahiyyətlər verməklə regional və yaxud yerli səviyyədə siyasətin formalaşması prosesində azlıqların iştirakına kömək edirlər.

7. Dövlətlər valideynlərin, milli azlıqların dil öyrənmə sahəsi də daxil olmaqla yerli səviyyədə təhsil sisteminə və təhsil seçiminə cəlb edilməsini təşviq edən tədbirlər görməlidirlər.

Ictimai və xüsusi müəssisələr

8. Beynəlxalq hüquqa uyğun olaraq milli azlıqlara mənsub şəxslərin başqaları kimi, milli dövlət qanunvericiliyinə müvafiq surətdə, özəl təhsil müəssisələrinə yaratmaq və saxlamaq hüququ var. Bu müəssisələr milli azlıqların dilində təhsil verən məktəblər də daxil edilə bilər.

9. Dövlətlər milli azlıqlara mənsub şəxslərə özəl təhsil müəssisələrini yaratmaq və saxlamaq hüququnu verərək, bu hüququn həyata keçirilməsinə belə müəssisələrin yaradılmasını və idarə olunmasını nizama salan ifrat ağırlaşdırılmış proseduralar müəyyənləşdirməklə mane olmamalıdırlar.

10. Milli azlıqların dilində fəaliyyət göstərən özəl təhsil müəssisələrinin heç bir maneə və ya ayrı-seçkilik olmadan ya dövlət büdcəsindən, ya beynəlxalq mənbələrdən, ya da özəl bölmədən xüsusi maliyyələşmə mənbələrini axtarıb tapmaq hüququ var.

Milli azlıqların ibtidai və orta səviyyələrdə təhsili

11. İlk təhsil illəri uşağın inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Təhsil sahəsində araşdırmalar göstərir ki, məktəbəqədər səviyyədə təlim idealda uşağın ana dilində aparılmalıdır. Mümkün olduğu hər yerdə dövlətlər valideynlərIIn bu imkandan istifadə etməsi üçün şərait yaratmalıdırlar.

Tədqiqatlar onu da göstərir ki, ibtidai məktəbdə tədris proqramı idealda milli azlıqların dillərində tədris edilməlidir. Milli azlıqların dilləri dərs predmeti kimi daimi əsaslarla tədris olunmalıdır, tədrisi uşaqların div və mədəni hazırlığı olunmalıdır. Rəsmi dövlət dili də dərs predmeti kimi daimi əsasda tədris haqqında yaxşı təsəvvürü olan ikidilli müəllimlərin aparmasına üstünlük verilməlidir. Bu mərhələnin sonunda bir neçə praktiki və ya qeyri-nəzəri predmetlər dövlət dilində tədris olunmalıdır. Dövlət mümkün olan hər yerdə valideynlərin bu imkandan istifadə etmələrinə imkan verən şərait yaratmalıdır.

13. Orta məktəbdə dərs proqramının əsas hissəsi milli azlıqların dillərində tədris olunmalıdır. Milli azlıqların dilləri həm də dərs predmeti kimi müntəzəm tədris edilməlidir. Rəsmi dövlət dili də dərs predmeti kimi müntəzəm tədris edilməlidir, tədrisi uşaqların mədəni və dil hazırlığı haqqında yaxşı təsəvvürü olan ikidilli müəllimlərin aparmasına üstünlük verilməlidir. Bu müddət ərzində dövlət dilində tədris olunan predmetlərin sayı tədricən artırılmalıdır. Tədqiqatlar göstərir ki, artım nə qədər tədrici olsa, uşaq üçün bir o qədər yaxşıdır.

14. Milli azlıqların dillərində təhsilin ibtidai və orta səviyyəsinin təmin olunması bir çox hallarda bütün dillərin doğma dildə tədrisinə hazırlanmış müəllimlərin mövcudluğundan asılıdır. Deməli, milli azlıqlar üçün dilin öyrədilməsinin adekvat imkanlarını təmin etmək öhdəçiliyindən çıxış edən dövlət lazımlı müəllimlər hazırlığına uyğun şərait təqdim və belə hazırlığa imkanı təşviq etməyə borcludur.

Milli azlıqların peşə məktəblərində təlimi

15. Milli azlıqların dillərində peşə təhsilinə milli azlıqlara mənsub şəxslərin istəklərinə, buna tələbatlarını göstərdikləri və saylarının buna haqq qazandırdığı hallara uyğun və konkret predmetlər üzrə imkan yaradılmalıdır.

16. Doğma dildə təlimi təmin edən peşə məktəblərinin dərs proqramı elə tərtib olunmalıdır ki, bu proqramı başa vurandan sonra tələbələrin bu peşə ilə həm doğma, həm də dövlət dilində məşğul ola biləcəklərinə zəmanət versin.

Milli azlıqlar üçün ali təhsil

17. Milli azlıqlara mənsub şəxslərin tələbatlarını göstərdikləri və sayca şərtləndirdikləri halda doğma dillərində ali təhsil almalarına imkanları olmalıdır. Milli azlıqların dilində ali təhsil almağa imkanı mövcud təhsil strukturlarında zəruri şərait yaratmaq yolu ilə və yalnız bir şərtlə təmin etmək olar ki, bu həmin milli azlıqların tələbatlarını adekvat ödəyə bilsin. Milli azlıqlara mənsub şəxslər özlərinin şəxsi ali təhsil qurumlarını yaratmaq üçün yollar və vasitələr axtara bilərlər.

18. Ali təhsilin gələcək modelləri müəyyənləşdirilərkən milli azlıqların yaxın keçmişdə özlərinin şəxsi ali təhsil

qurumlarını saxladıqları və nəzarət etdikləri faktı nəzərə alınmalıdır.

Dərs proqramlarının işlənməsi

19. Beynəlxalq sənədlərin mədəniyyətlərarası təhsilə, milli azlıqların tarixinə, mədəniyyətinə və ənənələrinə diqqətə xüsusi məna və əhəmiyyət verdiklərinə görə, dövlət təhsil qurumları uyğun milli azlıqların tarixinin, mədəniyyətinin və ənənələrinin öyrənilməsini ümumi məcburi proqramlara salmağı təmin etməyə borcludurlar. Çoxluğun nümayəndələrinin həmin dövlətdə yaşayan milli azlıqların dillərinin öyrənilməsinə təşviq edilməsi həmin dövlətdə telerantlılığın və mədəni müxtəlifliyin güclənməsinə kömək edəcək.

20. Azlıqlara aid dərs proqramlarının məzmunu uyğun milli azlıqların təşkilatlarının fəal iştirakı ilə işlənməlidir.

21. Dövlət milli azlıqlar üçün dərs proqramlarının işlənməsi və qiymətləndirilməsi üçün mərkəzlərin yaradılmasına dəstək verməlidir. Bu mərkəzlər uyğun idarələrlə bir şərtlə əlaqəli ola bilər ki, bu, dərs proqramlarının hazırlanması ilə bağlı məqsədə nail olmağa adekvat kömək olacaq.

MİLLİ AZLIQLARIN TƏHSİL HÜQUQU ÜZRƏ HAAQA TÖVSİYYƏLƏRİ, İZAHEDİCİ QEYDLƏR

Giriş

1948-ci il İnsan hüququnun Ümum Bəyannaməsi təhsilin insan hüququ kimi bəyan edildiyi ilk və əsas beynəlxalq sənəddir.

Bəyannamənin 26-cı maddəsində ibtidai təhsildən məcburi təhsil kimi danışılır. Bu maddə texniki və peşə təhsilini hamı üçün mümkün, ali təhsili ilə fərqləndirmə əsasında mümkün eləməyi dövlətlərin öhdələrinə qoyur. Bu maddə həm də təhsilin vəzifəsini insan şəxsiyyətinin tam inkişafı, insan hüquqlarına və əsas azadlıqlarına hörmətin gücləndirilməsi kimi müəyyənləşdirir. 26-cı maddədə daha sonra təhsilin millətlər, irqlər və ya dini qruplar arasında anlaşmanın, dözümlülüyün və dostluğun inkişafına yardım göstərməli və sülhü qoruyub saxlamaq işinə töhfə verməli olduğundan danışılır. Maddə valideynlərin uşaqlarına təqdim edilən təhsil növünü seçməyə əsas hüququnun olduğunu müəyyənləşdirir. 26-cı maddənin bəndləri iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq paktın 13-cü maddəsində və beynəlxalq hüquq kontekstində təfsilatı ilə daha güclü şəkildə təkrarlanır.

26-cı maddə nisbətən gec ortaya çıxan həm bütövlükdə, həm də qismən azlıqlara münasibətdə təhsil hüququnu təsdiqləyən və inkişaf etdirən sonrakı beynəlxalq sənədlər üçün açıqlıq və ümumilik tonu müəyyənləşdirdi.

Mülki və siyasi hüquqlar barədə Beynəlxalq paktın 27-ci maddəsi.

Uşaq hüququ barədə Konvensiya.

Yuxarıda sadalanan maddələr milli azlıqlara doğma dillərindən onların qrupunun başqa üzvləri ilə birlikdə istifadəyə zəmanət verir. Aşağıdakı maddələr milli azlıqların öz

doğma dillərini öyrənmək və ya öz doğma dillərində təhsil almaq imkanlarına zəmanətlə təmin edir.

Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında YUNESKO Konvensiyasının 5-ci maddəsi.

ATƏM insan ölçüsü üzrə Kopenhagen müşavirəsi Konfransı sənədlərinin 34-cü paraqrafı.

Milli, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında BMT-nin Bəyannaməsinin 4-cü maddəsi.

Milli azlıqları müdafiə haqqında azlıqların Çərçivə Konvensiyasının 14-cü maddəsi.

Bütün bu sənədlər müxtəlif səviyyələrdə azlıqların doğma dilləri vasitəsi ilə özünün kollektiv özünəməxsusluğunu müdafiə etmək hüququnu bəyan edir. Bu hüquq ilk növbədə təhsil vasitəsi ilə gerçəkləşdirilir. Amma elə həmin sənədlər dil vasitəsi ilə kollektiv özünəməxsusluğu dəstəkləmək hüququnun azlıqların geniş milli cəmiyyətə inteqrasiya və cəmiyyətdə iştirak öhdəliyi ilə tarazlaşdırılmalı olduğunu qeyd edirlər. Belə inteqrasiya həm həmin cəmiyyəti, həm də dövlət dilini (dillərini) zəruri dərəcədə bilməyi tələb edir. Dözümlülüyün və plüralizmin stimullaşdırılması da bu prosesin əsas hissəsidir.

Azlıqlar üçün dil təhsilindən danışılan insan hüquqları ilə bağlı beynəlxalq sənədlər olduqca qeyri-müəyyən və ümumi qalmaqdadır. Onlar təhsilə imkanın dərəcəsini nəzərdə tutmurlar, azlıqlar üçün doğma dildə təhsilin hansı dərəcəsinə imkan yaradılmasını və hansı vasitələrlə yaradılmasını və hansı vasitələrlə yaradılmasını dəqiqləşdirmirlər. Avropa Şurasının qəbul etdiyi milli azlıqların müdafiəsi barədə Çərçivə Konvensiyasının 14-cü maddəsində qeyd olunan azlıqların dilinin tədrisinə "adekvat imkanlar"a və ya həmin dildə təhsil almaq anlayışlarına başqa faktorların işığında baxılmalıdır. Həmin Konvensiyanın 5-ci maddəsində qeyd olunduğu kimi, azlıqların dil və mədəniyyətlərinin qorunması, müdafiəsi və inkişafına yardım göstərən münbit zəmin yaradılmasının zəruriliyi və ya ATƏM-in insan ölçüsü üzrə Konfransının Kopenhagen müşavirəsi Sənədinin 33-cü paraqrafı ilə şərtlənmiş milli azlıqların etnik, mədəni, dil və dini özünəməxsusluqlarının qorunması üçün zəruri tədbirlərin qəbul edilməsi tələbi bura daxildir.

Dövlətin təmin etməyə qadir olduğu təhsilə imkan səviyyəsindən asılı olmayaraq, bu sərbəst müəyyənləşdirilməlidir. Dövlətdən milli azlıqların icmalarının ardıcıl şəkildə ifadə və nümayiş etdirdikləri ehtiyaclarını lazımi dərəcədə nəzərdən keçirilməsi tələb olunur.

Milli azlıqlar da öz tərəflərindən məntiqli tələblər irəli sürməlidirlər. Onlar öz sayları, istənilən mövcud bölgədə (və ya bölgələrdə) demoqrafik sıxlıqları, eyni zamanda özlərinin bu strukturların və idarələrin fəaliyyətlərini təmin etmək imkanları kimi əsaslı faktorları lazımi dərəcədə nəzərə almalıdırlar.

Beynəlxalq sənədlərin ruhu

Son illərdə azlıqların hüquqlarının beynəlxalq normativ sənədlərdə ifadəsinə yanaşma inkişaf edibdir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda (1966-cı il) yazıldığı ... azlıqlara mənsub şəxslərə... hüquqlarında rədd cavabı verilməməlidir..." kimi passiv ifadələr öz yerini ATƏM-in insan ölçüsü üzrə Konfransının Kopenhagen müşavirəsinin Sənədində yazıldığı "... milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluqlarını müdafiə edəcək..." kimi daha müsbət, fəal yanaşmaya verdi. Yanaşmanın belə mütərəqqi dəyişikliyi göstərir ki, sənədlərin məhdudlaşdırıcı və ya minimalist şərhi onların formulaşdırıldığı ruha uyğun gəlmir.

Bundan başqa imkan səviyyəsi bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin BMT-nin Nizamnaməsinin 1-ci maddəsində, insan hüquqlarının Ümumbəyannaməsinin 2-ci maddəsində ifadə və əsas beynəlxalq sənədlərdə təkrar edilmiş prinsiplərinə uyğun müəyyənləşdirilməlidir.

Eyni zamanda hər bir dövlətin spesifik şəraitinə diqqət yetirilməlidir.

Tədbirlər və resurslar

ATƏT dövlətlərinə azlıqların hüquqlarına fəal yanaşma məsləhət görülür, daha doğrusu, milli azlıqların üzvləri üçün tam hüquq bərabərliyi təmin etmək üçün onları xüsusi tədbirlər görməyə çağıran Kopenhagen Sənədinin 33-cü maddəsinin

ruhunda yanaşmağı məsləhət görür. Kopanhagen Sənədinin 33-cü maddəsi də dövlətlərdən öz ölkələrində milli azlıqların etnik, mədəni, dil və dini özünəməxsusluqlarını qorumağı və bu özünəməxsusluğun təşviqi üçün şərait yaratmağı eyni dərəcədə tələb edir.

Bəzi hallarda ATƏT dövlətləri ciddi maliyyə çatışmazlıqları ilə rastlaşırlar ki, bu da onların təhsil siyasətini və milli azlıqların rifahı üçün proqramlarını gerçəkləşdirmək imkanlarına obyektiv şəkildə maneçilik törədə bilir. Bəzi hüquqların təcili yerinə yetirilməli olmasına baxmayaraq, dövlətlər mümkün resurslardan, o cümlədən, iqtisadi, sosial və mədəni hüquqlar barədə Beynəlxalq paktın 2-ci maddəsinin ruhuna uyğun beynəlxalq yardım və əməkdaşlıq resurslarından maksimum istifadə etməklə milli azlıqların hüquqlarının tədricən reallaşmasına cəhd göstərməlidirlər.

Əksmərkəzləşmə və iştirak

Milli azlıqların müdafiəsi barədə Çərçivə Konvensiyasının 15-ci maddəsində, ATƏM-in insan ölçüsü üzrə Konfransının Kopenhagen müşavirəsi Sənədinin 30-cu paraqrafında və milli, yaxud etnik, dini və dil azlıqlarının hüquqları barədə BMT Bəyannaməsinin 3-cü maddəsində milli azlıqların qərar qəbulu prosesində, xüsusən bilavasitə onlara aid məsələlərin nəzərdən keçirilməsində milli azlıqların iştirakının zəruriliyi qeyd olunur.

Qərar qəbulu prosesində, xüsusən də bu qərar azlıqlara aiddirsə, səmərəli iştirak demokratik prosesin vacib komponentlərindəndir.

Yerli və bölgə səviyyələrində təhsil prosesinə azlıqlara aid dərs proqramlarının hazırlanması da daxil olmaqla valideynlərin fəal cəlb olunması, milli azlıqları təmsil edən idarələrin səmərəli iştirakı dövlət tərəfindən, milli azlıqların dövlət işlərinə, o cümlədən azlıqların müdafiəsi və onların özünəməxsusluqlarının təşviqi işində səmərəli iştirakının əhəmiyyətini qeyd edən Kopenhagen sənədinin 35-ci paraqrafının ruhunu uyğun şəkildə təşviq olunmalıdır.

Ictimai və özəl idarələr

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktın 27-ci maddəsi azlıqların öz dillərindən onların qruplarının digər üzvləri ilə birlikdə istifadə etmək hüququndan danışır. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq paktın 13-cü maddəsi valideynlərə öz uşaqları üçün hakimiyyətin təsis elədiyi məktəblərdən başqa məktəblər seçmək hüququna zəmanət verir. Bu maddə eyni zamanda şəxslərin və təşkilatların dövlətin müəyyənləşdirdiyi təhsilin minimal standartlarına cavab verən alternativ təhsil idarələri yaratması və köməklik etməsi hüququna zəmanət verir. Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 13-cü maddəsi azlıqların özlərinin xüsusi təhsil idarələrini yaratmaq və idarə etmək hüququndan danışır, baxmayaraq, dövlət bu idarələri maliyyələşdirməyə cavabdeh deyildir. Kopenhagen Sənədinin 32-ci maddəsi bu idarələri maliyyələşdirməyi dövlətin üzərinə öhdəçilik qoymur, amma müəyyənləşdirir ki, bu idarələr "milli qanunvericiliyə uyğun şəkildə dövlət yardımı axtara" bilərlər.

Milli azlıqların təhsil də daxil olmaqla özlərinin idarələrini yaratmaq və idarə etmək hüququ beynəlxalq hüquqda yaxşı əsaslandırılıbdır və beləcə də qəbul olunmalıdır. Bu prosesləri inzibati baxımdan və özünün qanunvericiliyinə uyğun şəkildə müşahidə etmək hüququnun olmasına baxmayaraq, dövlət əməli şəkildə mümkünsüzləşdirən əsaslandırılmamış tələblər irəli sürməklə milli azlıqların özlərinin şəxsi təhsil idarələrini yaratmaq hüququnun gerçəkləşdirilməsinə maneəçilik törətməməlidir.

Dövlətin bu özəl idarələrin maliyyələşdirilməsini formal öhdəsinə götürməməsinə baxmayaraq, onların yerli və beynəlxalq mənbələrdən vəsait axtarışlarına maneəçilik törətməməlidir.

Azlıqların ibtidai və orta səviyyələrdə təhsili

Azlıqların dillərində təhsilə aid beynəlxalq sənədlər bəyan edirlər ki, azlıqların özlərinin özünəməxsusluqlarına doğma dilləri vasitəsi nəinki köməklik göstərmək hüquqları var, onların eyni zamanda dövlət dilini öyrənmək yolu ilə geniş

milli cəmiyyətə inteqrasiya olmaq və onun həyatında iştirak etmək hüququ da vardır.

Yuxarıda deyilənlərə istinad etsək, ATƏT ölkələrində milli azlıqların çoxdillilik uğurlarına həm milli azlıqların müdafiəsinə, həm də onların inteqrasiyasına aid beynəlxalq sənədlərin məqsədə çatdığının ən səmərəli yollarından biri kimi baxıla bilər. İbtidai və orta təhsilə aid tövsiyyələr azlıqların dil təhsili siyasətinin inkişafına və uyğun proqramların gerçəkləşdirilməsinə xidmət edənə rəhbərlik kimi nəzərdə tutulubdur.

Belə yanaşma təhsil sahəsində tədqiqatlara əsaslanır və uyğun beynəlxalq normaların gerçək yozumunu nəzərdə tutur.

Belə yanaşmanın səmərəliliyi bir sıra faktorlardan asılıdır. Birinci səviyyə ondan ibarətdir ki, belə yanaşma doğma dildən təlim vasitəsi kimi istifadə etməklə azlıqların daha zəif dillərini gücləndirir. Başqa faktor ikidilli müəllimlərin bu prosesə cəlb olunması səviyyəsidir.

Bundan başqa, azlıqların dillərininin və dövlət dilinin 12 illik təlimdə tədris olunduğu və nəhayət, uşağın təhsilinin müxtəlif mərhələlərində hər iki dildən optimal istifadə edildiyi səviyyəni də nəzərə almaq lazımdır.

Belə yanaşma azlıqların daha zəif dillərinin inkişafı üçün zəruri məkan yaradılması ilə bağlıdır. Bu yanaşma məqsədi yalnız dövlət dilində təhsilə ilkin keçidi yüngülləşdirmək naminə azlıqlara dillərin təlim edilməsi və ya azlıqların dillərində minimal təhsili gerçəkləşdirmək olan başqa yanaşmalarla kəskin kontras təşkil edir.

Dərs kursu yalnız dövlət dilində tədris edilən və azlıqların uşaqları sinifdə çoxluğun uşaqlar ilə tam inteqrasiya olan yanaşma beynəlxalq standartlara uyğun deyildir.

Bütün təlim prosesi boyu təlimin azlıqların doğma dilində aparıldığı və çoxluğun dili ya keçilməyən ya da az dərəcədə keçilən "milli" məktəblərə də bunu aid etmək olar.

Peşə məktəblərində azlıqlar üçün təhsil

Kopenhagen Sənədinin 34-cü paraqrafında əksini tapmış milli azlıqlara mənsub şəxslərin doğma dilini öyrənmək və ya doğma dildə təhsil almaq hüququ xüsusi predmetlər üzrə

doğma dildə peşə təhsili almaq hüququnu da bildirməlidir. ATƏT ölkələri buna aşkar cəhd göstərilən və arzulayanların sayı haqq qazandıran yerdə belə təhsilə bərabərlik və qeyri-diskriminasiya ruhunda təminat yaratmalıdırlar.

Digər tərəfdən dövlətin özünün iqtisadi və təhsil siyasətini planlaşdırmaq və nəzarət etmək bacarığı da ziyan görməməlidir. Peşə məktəblərinin məzunlarının öz peşələrində dövlət dilində danışmaq imkanları onlar üçün üstünlük olacaq. Bu onlara həm azlıqlar toplaşmış bölgədə, həm də dövlətin istənilən yerində işləməyə imkan verəcək. Məhsulun, xidmətin və əməyin sərbəst hərəkətini nəzərdə tutan bazar iqtisadiyyatına keçid vaxtı dövlət dilini bilmək sahəsindəki məhdudiyyət dövlətin işə düzəltmək imkanını və ümumi iqtisadi inkişafı çətinləşdirə bilər. Deməli, milli azlıqlar üçün peşə təhsili ehtiva etməlidir ki, tələbələr dövlət dilində (dillərində) uyğun təhsil alırlar.

Azlıqların ali təhsili

Əvvəlki halda olduğu kimi, Kopenhagen Sənədinin 34-cü paraqrafında yazıldığı doğma dili öyrənmək və ya doğma dildə təhsil almaq hüququ milli azlıqların doğma dillərində ali təhsil almaq hüququnu nəzərdə tuta bilər. Bu halda da bərabər imkanlar və diskriminasiyaya yol verməmək prinsiplərinə, eyni zamanda cəmiyyətin ehtiyacına və arzu edənlərin kifayət sayda olmasına diqqət yetirilməlidir. Dövlət tərəfindən maliyyələşdirmə olmadıqda azlıqların öz ali təhsil idarəsini yaratmaq azadlığı məhdudlaşdırılmamalıdır.

Kopenhagen Sənədinin 35-ci paraqrafı azlıqların yalnız özünəməxsusluğunun qorunmasında deyil, eyni zamanda təşviqində dövlətin mühüm rolunu xüsusi qeyd edir. Yuxarıda qeyd edilənlərdən çıxış edərək, dövlət ehtiyac özünü göstərən və azlıqların sayı haqq qazandıran yerdə azlıqların dilində ali təhsili mümkünləşdirmək imkanlarını nəzərdən keçirməlidir. Bu kontekstdə doğma dildə təhsil müəllim hazırlığı ilə məhdudlaşdırılmamalıdır.

Yuxarıda deyilənləri müəyyənləşdirəndən sonra bazar iqtisadiyyatına keçən müddətdə dövlətin qarşılaşdığı maliyyə

məhdudiyyətini nəzərə almaq lazımdır. Azlıqların dillərində ali təhsilin təmin edilməsi paralel infrastruktur yaradılmasının sinonimi olmamalıdır. Bundan başqa, ali məktəblər səviyyəsində paralel müəssisələrin gücləndirilməsi azlıqların çoxluqdan təcridinə gətirib çıxara bilər. İnsan hüquqlarının Ümum Bəyannaməsinin 26-cı maddəsi təhsilin məqsədinin millət, irqlər və dini qruplar arasında anlaşılmaya, dözümlülüyə və dostluğa yardım göstərilməsi olduğunu qeyd edir. Bu maddənin ruhunu və inteqrasiyasının məqsədini nəzərə almaqla demək olar ki, çoxluq və azlıqların intellektual və mədəni inkişafı birbirindən tədrij olunmuş şəkildə baş verməməlidir.

Dərs proqramlarının hazırlanması

İkinci Dünya Müharibəsinin axırlarından qəbul olunmuş çoxsaylı beynəlxalq sənədlər təhsilin məqsədinə xüsusi əhəmiyyət verir. Bu sənədlərə əsasən təhsil yalnız akademik və ya texniki hazırlığın təminatı üçün zəruri deyil, eyni zamanda dözümlülük, plüralizm, faşizmə qarşı dözümsüzlük, beynəlxalq və icmalararası harmoniya kimi dəyərlərin təsdiqi üçün zəruridir. Belə tələblər milli azlıqlar yaşayan dövlətlərin öhdəsinə xüsusi məsuliyyət qoyur. Bu dövlətlərdə qruplar və etniklərarası birgəyaşayış və harmoniya həm də regionda sülhün və sabitliyin saxlanılmasının əsas faktorudur.

Milli və ya etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında BMT-nin Bəyannaməsinin 4-cü maddəsində dövlətdən tələb olunur ki, "ərazilərindəki mövcud azlıqların öz tarixlərini, ənənələrini, dillərini və mədəniyyətlərini bilmələrinə təşviq etsin". Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 12-ci maddəsi dövlətlərdən tələb edir ki, "onların milli azlıqlarının mədəniyyətini, tarixini, dilini və dinini bilməni təşviq etsinlər".

ATƏM-in insan ölçüləri üzrə Kopenhagen müşavirəsi Konfransının Sənədinin 34-cü paraqrafında belə bir tələbdən danışılır ki, dövlətlərin məktəb təhsil proqramında "həm də milli azlıqların tarixi və mədəniyyəti nəzərə alınsın".

Bu tələblər dövlətlərin öhdəsinə öz sərhədləri daxilində yaşayan müxtəlif milli azlıqların tarixi və ənənəsinin öyrənilməsi üçün məktəb proqramında yer ayırmaq vəzifəsini qoyur. Amma dövlət hakimiyyəti uyğun milli azlıqların iştirakına lazımi diqqəti yetirmədən bunu özləri də edə bilər. Belə yanaşma məsləhət bilinmir və mənfi nəticələri ola bilər.

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 15-ci maddəsi, ATƏM-in insan ölçüləri üzrə Kopenhagen müşavirəsi Konfransının Sənədinin 30 paraqrafı və milli və ya etnik, irqi və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında BMT Bəyannaməsinin 3-cü maddəsi milli azlıqların qərar qəbulu prosesində, xüsusən nəzərdən keçirilən məsələlərin birbaşa onlara aid olduğu hallarda iştirakının zəruriliyini qeyd edir.

Azlıqların dillərində dərs proqramlarının hazırlanması üzrə mərkəzlərin yaradılması bu ikili prosesi yüngülləşdirər və onu keyfiyyətlə və peşəkarlıqla təmin edər.

Yekun qeydlər

Azlıqların təhsil hüququ problemi ATƏT-in bir sıra dövlətləri üçün mürəkkəb məsələdir. Bununla belə, təhsil prosesi vasitəsi ilə iştirakçı dövlətlərdə müxtəlif icmalar arasında qarşılıqlı hörməti və anlaşılmanı gücləndirmək və ona səmərəli təsir göstərmək mümkündür.

Hazırda bu məsələnin həssaslıq tələb edən təbiətindən çıxış edərək və insan hüquqları ilə bağlı beynəlxalq sənədlərdəki normaların bu və ya digər dərəcədə qeyri-müəyyən və ümumi xarakterini nəzərə alaraq ümid etmək olar ki, silsilə tövsiyyələrin işlənməsi azlıqların təhsil hüquqları məsələlərinin daha yaxşı anlaşılmasına və yanaşılmasına töhfə verəcəkdir. Haaqa tövsiyyələri dolğun yekun kimi düşünülməyibdir. Bu tövsiyyələr dövlətlərə azlıqlarla bağlı təhsil məsələləri siyasətinin hazırlanması prosesində kömək ola biləcək ümumi əsas kimi istifadə üçün nəzərdə tutulubdur.

MİLLİ AZLIQLARIN DİL HÜQUQLARI HAQQINDA OSLO TÖVSİYYƏLƏRİ

Ad və yer adları

1) Milli azlıqlara mənsub şəxslərin öz adını, soyadını və atasının adını öz ənənələrinə və linqvistik sistemlərinə uyğun doğma dilində işlətmək hüququ vardır; bu ad, soyadı və ata adı rəsmən tanınır və dövlət hakimiyyəti tərəfindən istifadə olunur.

2) Milli azlıqlara mənsub şəxslər tərəfindən yaradılan mədəni assosiasiyalar və müəssisələr kimi özəl təşkilatlar da öz adlarına münasibətdə eyni hüquqdan istifadə edirlər.

3) Milli azlıqlara mənsub şəxslərin əksəriyyət təşkil etdiyi vilayətlərdə və əsaslı ehtiyac olduğu yerdə dövlət hakimiyyəti yerli adların, küçə adlarının və əhali üçün digər topoqrafik göstəricilərin həm də azlıqların dilində yerləşdirmək üçün tədbir görürlər.

Din

4) Öz dininə fərdi, yaxud birgə etiqad vaxtı hər bir insanın seçiminə uyğun dildən (dillərdən) istifadə etmək hüququ vardır.

5) Mülki vəziyyətlə əlaqəli və mövcud dövlətdə qanuni gücü olan dini ayinlər və aktlar üçün dövlət belə vəziyyətə aid sertifikatların və sənədlərin rəsmi və ya dövlət dilində də olmasını tələb edə bilər. Dövlət eyni zamanda mülki vəziyyətə aid yazıların dini hakimiyyət tərəfindən həm də rəsmi dildə və ya dövlət dilində aparılmasına tələb edə bilər.

Cəmiyyətin həyatı və qeyri-hökumət təşkilatları

6) Azlıqlara mənsub şəxslər də daxil olmaqla bütün insanların özünün qeyri-hökumət təşkilatını, assosiasiyasını və müəssisəsini yaratmaq və idarə etmək hüququ vardır. Bu qurumlar seçimlərinə uyğun dildən (dillərdən) istifadə edə bilərlər. Dövlət dil əsasında bu qurumlara qarşı diskriminasiya gerçəkləşdirə bilməz və bu qurumların dövlət büdcəsindən,

beynəlxalq mənbələrdən və ya özəl sektordan maliyyə mənbəyi axtarmaq hüquqlarını əsassız şəkildə məhdudlaşdıra bilməz.

7) Əgər dövlət başqa sahələrlə yanaşı sosial, mədəni və idman sahələrindəki fəaliyyəti fəal dəstəkləyirsə, dövlətin ayırdığı bütün resursların ədalətli hissəsi milli azlıqlara mənsub şəxslərin cəhd göstərdikləri belə fəaliyyətin dəstəklənməsinə gedir. Milli azlıqlara mənsub şəxslərin dilində (dillərində) olan fəaliyyətə dövlət maliyyə yardımı belə sahələrdə qeyri-diskriminasiya əsasında göstərilir.

İnformasiya vasitələri

8) Milli azlıqlara mənsub şəxslərin azlığın dilində özünün informasiya vasitəsini yaratmaq və istifadə etmək hüququ vardır. Veriliş vasitələrinin dövlət tənzimlənməsi obyektiv və qeyri-ayrı-seçkilik meyarlarına əsaslanır və azlıqların istifadə hüquqlarını məhdudlaşdırmaq üçün istifadə edilməməlidir.

9) Milli azlıqlara mənsub şəxslərin ictimai cəhətdən maliyyələşdirilən informasiya vasitələrində öz dilində veriliş vaxtına imkanı olmalıdır. Milli, bölgə və yerli səviyyələrdə mövcud azlıqların dilində veriliş üçün ayırılmış vaxtın həcmi və keyfiyyəti milli azlıqların sayına, konsentrasiyasına mütənasib olmalıdır və onun vəziyyətinə, ehtiyacına uyğun gəlməlidir.

10) Ictimai və özəl informasiya vasitələrində milli azlıqların dilində (dillərində) aparılan proqramların müstəqil xarakteri qorunur. Ictimai informasiya vasitələrinin proqramlarının məzmununu və istiqamətlərini müşahidə edən redaksiya şuraları müstəqil olmalıdırlar və fərdi şəxs kimi milli azlıqlara mənsub şəxsi tərkiblərinə daxil etməlidirlər.

11) Xaricdən olan informasiya vasitələrindən istifadə imkanı əsassız şəkildə məhdudlaşdırılmır. Belə imkan milli azlıqlar yaşayan dövlətlərdə ictimai cəhətdən maliyyələşdirilən informasiya vasitələrində azlıqlara ayrılan vaxtın azaldılmasına haqq qazandırmamalıdır.

İqtisadi həyat

12) Milli azlıqlara mənsub şəxs də daxil olmaqla bütün şəxslərin fərdi sahibkarlığı seçiminə uyğun dildə və dillərdə

aparmaq hüququ vardır. Dövlət rəsmi dildən və ya dövlətlərin dilindən qanuni ictimai maraq - işçilərin və istehlakçıların müdafiəsi ilə, yaxud da müəssisə və dövlət hakimiyyəti arasındakı münasibətlərlə bağlı maraqlar özünü göstərdiyi yerlərdə əlavə istifadəni tələb edə bilər.

İnzibati hakimiyyət və ictimai xidmətlər

13) Milli azlıqlara mənsub şəxslərin çoxluq təşkil etdikləri bölgələrdə, yerlərdə və istək olduğu halda həmin azlığa mənsub şəxsin bölgə və yerli hakimiyyət idarələrindən həm rəsmi dildə, yaxud dövlət dillərində, həm də həmin milli azlığın dilində mülki sənədlər və sertifikatlar almaq hüququ vardır. Bölgə və yerli hakimiyyət idarələri uyğun mülki qeydləri də milli azlıqların dilində beləcə aparırlar.

14) Milli azlıqlara mənsub şəxslərə inzibati hakimiyyətlə öz dilindən, xüsusən, bu şəxslərin arzularını bildirdikləri və çoxluq təşkil etdikləri bölgələrdə və yerlərdə istifadəyə uyğun imkanlar yaradılır. İnzibati hakimiyyət mümkün olan yerdə milli azlıqların dilində ictimai xidmət göstərməyi təmin edir. Bu məqsəd üçün onlar işçi və təlim üzrə uyğun siyasət və ya proqram qəbul edirlər.

15) Milli azlıqlara mənsub şəxslərin çoxluq təşkil etdikləri bölgə və yerlərdə dövlət bölgə və yerli dövlət orqanlarının seçkili üzvlərinin bu orqanlarla bağlı fəaliyyətlərində həm də milli azlıqların dilindən istifadə imkanı təmin etmək üçün tədbirlər görür.

Müstəqil milli institutlar

16) Milli azlıqlara mənsub şəxslərin yaşadığı dövlət həmin şəxslər özlərinin dil hüquqlarının pozulduğunu hesab etdikləri halda məhkəmə orqanlarına müraciətin uyğun imkanlarına əlavə olaraq ombudsmenlər və ya insan hüquqları üzrə komissiyalar kimi müstəqil institutlara müraciət imkanı ilə təmin etməlidir.

Məhkəmə hakimiyyəti

17) Milli azlıqlara mənsub şəxslər də daxil olmaqla bütün şəxslərin başa düşdükləri dildə həbslərinin, yaxud da saxlanmalarının səbəbləri, özlərinə qarşı ittihamların təbiəti və

səbəbi haqqında təcili məlumat almaq, özünü həmin dildə, zəruri hallarda məhkəməyə qədər, məhkəmə vaxtı və kassasiya zamanı tərcüməçi vasitəsi ilə müdafiə etmək hüququ vardır.

18) Milli azlıqlara mənsub şəxslərin çoxluq təşkil etdiyi bölgələrdə və yerlərdə, istək olduğu halda həmin azlığa mənsub şəxsin məhkəmə araşdırması vaxtı öz dilində, zəruri halda pulsuz tərcüməçi vasitəsi ilə fikrini bildirmək hüququ olmalıdır.

19) Milli azlıqlara mənsub şəxslərin çoxluq təşkil etdiyi bölgələrdə və yerlərdə, istək olduğu halda dövlət belə şəxslərə aid bütün məhkəmə araşdırmalarını azlıqların dilində aparmaq imkanlarını nəzərdən keçirməlidir.

Azadlıqdan məhrum etmə

20) Penitensiar müəssisənin rəhbəri və həmin müəssisənin işçiləri dustaqların böyük əksəriyyətinin dilində və ya dillərində, yaxud da sonuncuların əksəriyyətinin başa düşdüyü dildə danışmağı bacarmalıdırlar. İşçi götürmə və təlim proqramı bu məqsədə nail olmağa istiqamətləndirilməlidir. Lazımi yerlərdə tərcüməçinin xidmətindən istifadə olunur.

21) Milli azlıqlara mənsub saxlanılmış şəxsin başqa məhbuslarla və digər şəxslərlə münasibətdə seçiminə uyğun dildən istifadə etmək hüququ vardır. Mümkün olan yerdə dövlət məhbuslara qanunla nəzərdə tutulmuş məhdudiyyət çərçivəsində həm şifahi, həm də şəxsi yazışmada öz dilində ünsiyyət qurmağa imkan verən tədbirləri görür. Bununla əlaqədar saxlanılmış və ya həbs edilmiş şəxs adətən onların yaşayış yerinin yaxınlığındakı saxlanılma və ya həbs yerində saxlanılmalıdır.

MİLLİ AZLIQLARIN DİL HÜQUQLARI ÜZRƏ OSLO TÖVSİYYƏLƏRİNƏ İZAHEDİCİ QEYDLƏR

Ümumi giriş

İnsan hüquqlarının Umum Bəyənnaməsinin 1-ci maddəsində bütün insanların anadangəlmə ləyaqətindən insan hüquqları üzrə bütün standartların əsasında duran fundamental anlayış kimi danışılır. Bəyənnamənin 1-ci maddəsində deyilir: "Öz ləyaqət və hüquqları ilə bütün insanlar azad və bərabər doğulurlar...". Bu maddənin əhəmiyyətini qiymətləndirməmək olmaz. Bu yalnız ümumiyyətlə birbaşa insan hüquqlarına aid deyil, həm də milli azlıqlara mənsub şəxslərin dil hüquqlarının ən əsaslarından birini ifadə edir. Ləyaqət və hüquq bərabərliyi fərdin insan identlikliyinə hörməti ifadə edir. İnsan identikliyinin əsas komponentlərindən biri dildir. Buna görə də insan ləyaqətinə hörmət insan indentikliyinə, deməli həm də onun dilinə hörmətlə sıx bağlıdır.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın bu kontekstdə mühüm əhəmiyyəti vardır. Paktın 2-ci maddəsi dövlətdən ərazisindəki bütün şəxslərin insan hüquqlarının "dilə münasibətdə... fərqləndirmədən" təmin və hörmət olunmasını tələb edir. Paktın 19-cu maddəsi Paktda ifadəsini tapdığı kimi, öz fikrini azad bildirməyə zəmanət verir, dövlət sərhəddindən asılı olmayaraq nəinki hər cür informasiya və ideya almaq və yazmaq hüququna, eyni zamanda bütün bunları öz seçiminə uyğun vasitənin və ya dilin kömiəkliyi ilə eləməyə zəmanət verir. İnformasiya almaq və yaymaq eyni zamanda insanların birgə hərəkət etdiyini göstərir. Bu kontekstdə Paktın dinc yığıncaq və assosiasiya azadlığına zəmanət verən 21-ci və 22-ci maddələri yerinə düşəndir.

İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsində bəyan edilmiş fikir azadlığı Avropada bu Konvensiyanın 14-cü maddəsinə əsasən "dil... kimi əsaslara görə hər cür diskriminasiyadan uzaq şəkildə təmin edilməlidir". Həm insan hüquqlarının Ümum Bəyənnaməsinə, həm də İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyana dəqiq istinadla Avropa Şurasının qəbul etdiyi fikri ifadə və informasiya azadlığı haqqında Bəyənnamədə təsdiq olunur ki, fikri ifadə və informasiya azadlığı hər bir insanın ictimai, iqtisadi, mədəni və siyasi inkişafı üçün zəruridir və sosial, mədəni qrupların, millətlərin və beynəlxalq birliyin hormonik imkanları üçün şəraiti ifadə edir". Bununla əlaqədar insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 11-ci maddəsində zəmanət verilmiş dinc yığıncaq və assosiasiya azadlığı əhəmiyyətlidir.

ATƏT kontekstində fikri ifadə, yığıncaq və assosiasiya azadlığı kimi fundamental ideyalar ATƏM-in insan ölçüsü üzrə Kopenhagen Müşavirəsi Konfransının Sənədlərinin 9.1-9.3 bəndlərində sadalanıbdır.

Yeni Avropanın Paris Xartiyasında ATƏT-in iştirakçı ölkələrinin dövlət və hökumət başçıları təsdiq edirlər ki, hər bir insanın diskriminasiyaya məruz qalmadan "fikri azadlığı, assosiasiya və dinc yığıncaq azadlığı hüququ vardır".

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi milli azlıqların dil hüquqlarına birbaşa dəxli olan başqa əsas maddədir. Bu maddə təsdiq edir ki, "milli azlıqlara mənsub şəxslərə həmin qrupun başqa üzvləri ilə birlikdə... doğma dildən istifadə etmək hüququna rədd cavabı verilməməlidir".

Milli, yaxud etnik, dini azlıqlara və dil azlıqlarına mənsub şəxslərin hüquqları üzrə BMT-nin Bəyənnaməsinin 2 (1)-ci maddəsidə də milli azlıqlara mənsub şəxslərin "şəxsi həyatda və ictimai yerlərdə öz dilindən azad və maneəsiz və diskriminasiyaya məruz qalmadan istifadə etmək" hüququnu beləcə bəyan edir. Milli azlıqların müdafiəsi üzrə Avropa Şurasının Çərçivə Konvensiyasının 10 (1)-cu maddəsi qeyd edir ki, dövlətlər milli azlıqlara mənsub şəxslərin "öz azlıqlarının dilindən şəxsi həyatda və ictimai yerlərdə azad və maneəsiz istifadə etmək" hüququnu tanıyacaqlar.

Doğrudur, alətlər azlıqların dilindən şəxsi həyatda və ictimai yerlərdə istifadəyə istinad edirlər, amma həmin alətlər

"şəxsi" sferaya münasibətdə "ictimai" sferanın dəqiq sərhədlərini müəyyənləşdirmirlər. Əslində bu sferalar kəsişə bilərlər. Məsələn, təklikdə və ya başqaları ilə birlikdə hərəkət edən şəxslər özlərinin şəxsi informasiya vasitələrini və ya məktəblərini yaratmağa çalışırlar. Şəxsi təşəbbüsün qanuni ictimai marağın predmeti ola bilməsi mümkündür. Belə maraq hansısa ictimai tənzimləmənin yaranmasına səbəb ola bilər.

Milli azlıqlara mənsub şəxslərin azlıqların dilindən "şəxsi həyatda və ictimai yerlərdə" istifadəsini təhsilə münasibətdən kənarda nəzərdən keçirmək olmaz. Təhsil məsələləri milli azlıqların dillərinə aid dərəcədə milli azlıqların təhsil hüquqları üzrə Haaqa tövsiyyələrində təfsilatı ilə nəzərdən keçirilir. Bu tövsiyyələr ATƏT-in milli azlıqlarla iş üzrə Ali Komissarının xahişi ilə Etniklərarası Münasibətlər Fondunun həm beynəlxalq insan hüquqları sferası, həm də təhsil sferası üzrə beynəlxalq səviyyəli ekspertləri ilə əməkdaşlıq etməklə işlənib hazırlanmışdır. Haaqa tövsiyyələri milli azlıqlara mənsub şəxslərin hüquqlarına, milli azlıqlara mənsub insanların identikliyinin dəstəklənməsi və inkişafı kimi həyati əhəmiyyət kəsb edən sahələrə aid beynəlxalq alətlərin daha aydın dərkini asanlaşdırmaq üçün hazırlanmışdı.

İnsan hüquqları üzrə beynəlxalq alətlər bəyan edir ki, insan hüquqları ümumidir və ondan eyni dərəcədə və ayrı-seçkiliyə yol verilmədən istifadə olunmalıdır. Amma insan hüquqlarının əksəriyyəti mütləq deyil. Alətlər dövlətin müəyyən hüquqların məhdudlaşdırılmasına haqq qazandıran məhdudlaşdırılmış situasiyalar dəstini görə bilir. İnsan hüquqları üzrə beynəlxalq qanunvericiliyin mümkün məhdudlaşdırmaları həyat üçün təhlükəli fövqəladə vəziyyətlərdə və ya başqalarının hüquq və azadlıqları üçün yaranan vəziyyətlərdə, yaxud da demokratik cəmiyyətdə ictimai əxlaqa, ictimai sağlamlağa, milli təhlükəsizliyə və ictimai təhlükə törədən vəziyyətlərdə yarana bilər.

Milli azlıqlara mənsub şəxslərin Osla tövsiyyələrində ifadə olunan və işlənən hüquqlar halında öz dillərindən ictimai yerlərdə və şəxsi həyatda istifadə hüququnu geniş ictimaiyyətdə iştirakın asanlaşdırılmış kontekstində görmək lazımdır.

Tövsiyyələr təcrid yanaşmanı nəzərdə tutmur, daha çox milli azlıqlara mənsub şəxslərin öz identikliyini, mədəniyyət və dillərini dəstəkləmək və inkişaf etdirmək hüquqları ilə tam və bərabər üzvlər kimi daha geniş cəmiyyətdə inteqrasiya olunmaq bacarığını təmin etmək zərurəti arasında balans yaratmağı təşviq edən yanaşmanı nəzərdə tutur. Bu perspektivdə belə inteqrasiya dövlətin rəsmi dilini (dillərini) yaxşı bilmədən çətin ki, mümkün olsun. Təhsilə aid belə qeydlər iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 13 və 14-cü maddələrində və təhsil hüququnu nəzərdə tutan və onu dövlətin məcburi etməsi əksini tapan uşaq hüquqları haqqında Konvensiyanın 29-cu maddəsində vardır. Eyni zamanda milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 14(3)-cü maddəsi təminat verir ki, azlıqların dilinin öyrənilməsi "rəsmi dili öyrənməyə və ya bu dildə tədrisə ziyan vurmadan həyata keçirilir"

Adlar və yer adları

1) Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası müəyyənləşdirir ki, milli azlıqlara mənsub şəxslərin öz soyadından, adından və atasının adından doğma dilində istifadə etmək hüququ vardır. İstifadəsi şəxsi identiklik üçün fundamental olan bu hüquq hər bir dövlət üçün spesifik şərait işığında tətbiq edilməlidir. Məsələn, dövlət hakimiyyəti milli azlıqlara mənsub şəxslərin adının, soyadının və atasının adının onların fonetik formasında yazılışında rəsmi dilin və ya dillərin yazılı əlifbasından istifadə edə bilər. Amma bu uyğun milli azlıqların dil sisteminə və ənənəsinə uyğun aparılmalıdır. Bununla əlaqədar dövlət hakimiyyəti tərəfindən özünün ilkin adından (adlarından) məcburi imtinaya vadar edilmiş, yaxud da iradələrinin əleyhinə əcdadlarının adı (adları) dəyişdirilmiş şəxslərin bilavasitə dilinə, həm də fərdlərin identikliyinə aid əsas hüququ - onları məsrəfsiz bərpa etmək hüququ olmalıdır.

2) Ad və yer adları, xüsusən milli azlıqlara mənsub və "birgə" hərəkət edən şəxslərə münasibətdə qrup identikliyinin əsas hissəsidir. Milli, yaxud etnik, dini azlıqlara və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında BMT-nin

Bəyənnaməsinin 2(1)-ci maddəsi milli azlıqlara mənsub şəxslərin "öz dilindən şəxsi həyatda və ictimai yerlərdə azad, maneəsiz və diskriminasiyaya məruz qalmadan istifadə etmək" hüququnu bəyan edir. Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 10 (1)-cu maddəsi qeyd edir ki, dövlət milli azlıqlara mənsub şəxslərin "öz azlığının dilindən şifahi və yazılı, şəxsi həyatda və ictimai yerlərdə azad və maneəsiz istifadə etmək" hüququnu tanıyacaqdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi bəyan edir ki, "...azlıqlara mənsub şəxslərə həmin qrupun başqa üzvləri ilə birlikdə... doğma dildən istifadə etmək hüququna rədd cavabı verilə bilməz". Şəxsin başqaları ilə birlikdə ictimai yerlərdə öz dilindən maneəsiz və heç bir diskriminasiyaya məruz qalmadan istifadə etmək hüququ ciddi bir göstərişdir ki, milli azlıqlara mənsub şəxslər tərəfindən yaradılan və idarə olunan idarə, assosiasiya, təşkilat və ya müəssisə kimi hüquqi şəxslərin seçimlərinə uyğun və azlıqların doğma dilində ad qəbul etmək hüququ vardır. Belə korporativ ad dövlət hakimiyyəti tərəfindən tanınmalıdır və həmin qrupun dil sisteminə və ənənəsinə uyğun işlədilməlidir.

3) Çərçivə Konvensiyasının 11 (3) maddəsində deyilir ki, "milli azlıqlara mənsub şəxslərin ənənəvi şəkildə çoxluqla yaşadıqları rayonlarda Tərəflər... əhali üçün ənənəvi adların, küçə adlarının və başqa topoqrafiq məlumatların göstəricilərinin belə məlumata ehtiyac kifayət qədərdirsə, həm də milli azlıqların dillərində qoyulmasını təmin edirlər". Göstərilən tarixi adların dəyərini tanımaqdan imtina azlıqların tarixini təftiş və assimilasiyası demək olardı və bununla da azlıqlara mənsub şəxslərin identikliyinə təhlükəyə çevrilərdi.

Din

4) Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi təsdiq edir ki, "etnik, dini azlıqlar və dil azlıqları mövcud olan ölkələrdə belə azlıqlara mənsub şəxslərə həmin qrupun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək... eyni zamanda doğma dilindən istifadə etmək hüququna maneəçilik törədilməməlidir". Milli,

yaxud da etnik, dini azlıqlara və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında BMT Bəyənnaməsinin 3(1) maddəsi müəyyənləşdirir ki, "azlıqlara mənsub şəxslər diskriminasiyaya məruz qalmadan öz qrupunun digər üzvləri ilə birlikdə və fərdi qaydada öz hüquqlarından... istifadə edə bilərlər".

Dini inam və "birgə" dini mərasimlərin keçirilməsi milli azlıqlara mənsub şəxslərin əksəriyyəti üçün böyük əhəmiyyəti olan sahədir. Bu kontekstdə qeyd etmək faydalıdır ki, öz dilinə malik olmaq hüququ məhdudiyyətsizdir və buna mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 18(1)-ci maddəsində və İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 9(1)-ci maddəsində təminat verilir. Amma rəsmi ibadət də daxil olmaqla doğma dininə və inamına etiqad bu maddənin sonrakı bəndlərində sadalanan bir sıra məhdudiyyətlərə məruz qalır. Bu məhdudiyyətlər qanuni qüvvəyə minə və ictimai təhlükəsizliyin, qaydaların, əxlaqın və başqa şəxslərin əsas hüquq və azadlıqlarının müdafiəsinə aid ola bilər. Onlar ağıllı və son məqsədə proporsional olmalıdır və dövlət milli azlıqlara mənsub şəxslərin qanuni ruhi, dil və mədəni istəklərini boğmağa cəhd göstərməməlidir.

Azlıqlara gəlincə, dini mərasimlərin yerinə yetirilməsi mədəni və dil identikliyinin saxlanılması ilə sıx bağlıdır. Açıq ibadətdə azlıqların dilindən istifadə olunması dini qurumların təsis edilməsi hüququ və açıq ibadət hüququ qədər ayrılmaz hüquqdur. Deməli, dövlət hakimiyyəti nə açıq ibadətə, nə də açıq ibadətdə istənilən dildən - ya uyğun milli azlığın dilindən, yaxud da həmin qrupun istifadə etdiyi liturgiya dilindən istifadəyə qeyri-qanuni məhdudiyyətlər qoymamalıdırlar.

5) Toy və yas mərasimi kimi dini aktlar müəyyən dövlətlərdə mülki vəziyyəti müəyyənləşdirən qanuni mülki aktları ifadə edir. Belə hallarda ictimai maraq nəzərə alınmalıdır. İnzibati təsəvvürün insan hüququndan istifadənin qabağını almamalıdır prinsipini nəzərdə tutmaqla dövlət hakimiyyəti dini qruplara heç bir dil məhdudiyyəti qoymamalıdır. Bu eyni dərəcədə dini qrupların öhdələrinə götürdükləri və mülki qanunlarla kəsişə bilən istənilən inzibati funksiyalara da aiddir.

Amma dövlət dini icmalardan qanuni mülki aktları eyni zamanda dövlət dilində və dillərində yazmalarını özünün qanuni tənzimləyici və inzibati müəssisələrini gerçəkləşdirmək üçün tələb edə bilər.

Cəmiyyətin həyatı və qeyri-hökumət təşkilatları

6) Milli azlıqlara mənsub və birgə hərəkət edən şəxslərin kollektiv həyatı beynəlxalq alətlərdə göstərildiyi kimi, fəaliyyətin çoxsaylı növlərində və sahələrində ifadəsini tapır. Bu həyatda, mövcudluğu onların identikliyini dəstəkləmək və inkişaf etdirmək üçün adətən həyati əhəmiyyət kəsb edən qeyri-hökumət təşkilatları, assosiasiyalar və idarələr az əhəmiyyət oynamır. Ona ümumilikdə faydalı iş kimi və dövlətdə demokratik dəyərlərin və vətəndaş cəmiyyətinin inkişafına yardım göstərən kimi baxılır.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 21 və 22-ci maddələri şəxslərin dinc yığıncaqlar və assosiasiyalar azadlığı hüququna təminat verir. Şəxsin qrupunun digər üzvləri ilə "birlikdə" hərəkət etmək hüququ - öz şəxsi qeyri-hökumət təşkilatlarını, assosiasiyalarını və idarələrini yaratmaq və idarə etmək hüququ və ibadət etmək hüququ açıq və demokratik cəmiyyətin fərqli əlamətlərindən biridir. Həmin Paktın 27-ci maddəsi təsdiq edir ki, "...azlıqlara mənsub şəxslərin həmin qrupun başqa üzvləri ilə birlikdə... doğma dildən istifadə hüququna rədd cavabı verilməməlidir". Buna görə də bir qayda olaraq, dövlət hakimiyyəti "birgə hərəkət edən" belə qrupların daxili işlərinə qarışmamalıdır və beynəlxalq hüququn imkan verdiyindən başqa onlara heç bir məhdudiyyət qoymamalıdır. Milli azlıqları müdafiə haqqında Çərçivə Konvensiyasının 17(2)-ci maddəsi dövlətdən tələb edir ki, "milli azlıqlara mənsub şəxslərin hüquqlarını gerçəkləşdirməyə, milli və beynəlxalq səviyyədə qeyri-hökumət təşkilatlarının fəaliyyətində iştirak etməsinə mane olmasın".

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2(1)-ci maddəsi müəyyənləşdirir ki, hər bir dövlət "onun ərazisində olan və qanunları ilə yaşayan bütün şəxslərə ...dilə münasibətdə heç bir fərq qoymadan və bu Paktda etiraf olunan

hüquqlar verməyi öhdəsinə götürür". Bu standarta uyğun olaraq, dövlət dilə görə qeyri-hökumət təşkilatına qarşı diskriminasiyaya yol verə və onlara lazımsız dil məhdudiyyətləri qoya bilməz. Amma bununla belə, dövlət hakimiyyəti belə təşkilatlardan, assosiasiyalardan və institutlardan dövlət orqanları ilə qarşılıqlı əlaqə tələb edən şəraitdə rəsmi dövlət dilindən (dillərindən) istifadə də daxil olmaqla qanuni ictimai maraq əsasında ölkə qanunvericiliyinin tələblərinə tabeçilik tələb edə bilər.

Resurslara gəlincə, Kopenhagen Sənədinin 32.2 bəndində deyilir ki, milli azlıqlara mənsub şəxslərin "könüllü maliyyə və başqa ödəmələr, eyni zamanda milli qanunvericiliyə uyğun şəkildə dövlət dəstəyi axtara bilən şəxsi təhsil, mədəni və dini idarələrini, təşkilatlarını, yaxud da assosiasiyalarını yaratmaq və dəstəkləmək hüququ vardır". Deməli, dövlət bu təşkilatlara həm dövlət büdcəsindən, həm də beynəlxalq açıq mənbələrdən və şəxsi sektordan maliyyə vəsaiti axtarmağa mane olmamalıdır.

Qeyri-hökumət, o cümlədən sosial, mədəni və idman sahələrindəki təşkilatların dövlət maliyyələşdirilməsinə gəlincə, bərabərlik və diskriminasiyaya yol verməmək prinsipi tələb edir ki, dövlət hakimiyyəti onların sərhədləri daxilində yaşayan milli azlıqların dillərindəki belə fəaliyyətlərə uyğun maliyyə payı ayırsın. Bununla əlaqədar mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2(1)-ci maddəsi yalnız fərdə münasibətdə dilə əsaslanmış fərqin olmadığını qeyd etmir, eyni zamanda 2(2)-ci maddədə göstərilir ki, dövlət "... Paktda etiraf olunan hüquqların gerçəkləşdirilməsi üçün zəruri ola biləcək qanunvericilik və digər tədbirlərin görülməsi üçün zəruri tədbirlər görəcəyini öhdəsinə götürür. Bundan başqa, irqi diskriminasiyanın ləğvi haqqında Beynəlxalq Konvensiyanın 2(2)-ci maddəsi (bu maddə irqi, dəri rəngi, nəsil, milli və ya etnik mənşə əlamətlərinə əsaslanan istənilən fərqi, istisnanı, məhdudiyyəti və üstün tutmanı ləğv etməyə yönəlibdir) göstərir ki, iştirakçı dövlətlər şərait tələb edəndə bəzi irqi qrupların və onlara mənsub şəxslərin lazımi inkişafına və

müdafiəsinə təminat məqsədi ilə sosial, iqtisadi, mədəni və s. sahələrdə xüsusi və konkret tədbirlər qəbul etməlidirlər ki, onlara insan hüquqları və əsas azadlıqlarından tam və bərabər istifadəyə təminat versinlər". Dil yuxarıda göstərilən Konvensiyada müdafiə olunan etnikliyin müəyyənləşdirici meyarı olduğundan azlıqların dilində danışan qrupların da belə "xüsusi və konkret tədbirlərdən" istifadə etmək hüququ vardır.

Kopenhagen Sənədinin 31-ci bəndi Avropa səviyyəsində müəyyənləşdirir ki, "dövlət lazım olan yerdə milli azlıqlara mənsub şəxslərə insan hüquqları və əsas azadlıqlarının tətbiqində başqa vətəndaşlarla tam bərabərlik təmin etmək üçün xüsusi tədbirlər görəcəkdir". Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 4-cü maddəsi iştirakçı dövlətlərin boynuna öhdəlik qoyur ki, "iqtisadi, sosial, siyasi və mədəni həyatın bütün sahələrində milli azlıqlara mənsub şəxslərlə əhalinin əsas qrupuna mənsub şəxslər arasında tam və həqiqi bərabərliyi təşviq etmək üçün zəruri halda, lazımlı tədbirlər görsünlər"; həmin maddənin 3-cü bəndi daha sonra dəqiqləşdirir ki, "2-ci bəndə uyğun şəkildə qəbul olunmuş tədbirlər diskriminasiya aktı kimi nəzərdən keçirilmir". Bundan başqa, bölgə dilləri və azlıqların dilləri üzrə Avropa Xartiyasının 7(2)-ci maddəsi müəyyənləşdirir ki, "bu dilləri işlədənlərlə yerdə qalan əhali arasında bərabərliyi gerçəkləşdirməyə yönəlmiş və ya onların xüsusi vəziyyətini nəzərə alan və bölgə dillərinin və azlıqlarının dillərinin rifahı naminə qəbul edilmiş xüsusi tədbirlər daha geniş yayılmış dillərdən istifadə edənlərə qarşı diskriminasiya aktı kimi nəzərdən keçirilmir". Bununla əlaqədar dövlət hakimiyyəti milli azlıqlara mənsub şəxslərin fəaliyyətini, həm də sosial, mədəni və idman sahələrində fəaliyyətini dəstəkləmək üçün dövlət büdcəsindən ədələtli pay resursu ayırmaladır. Belə dəstək maddi yardım, dövlət müavinəti və vergi güzəştləri şəkilində ola bilər.

İnformasiya vasitələri

8) Fikir demək və ifadə etmək hüququna təminat verən mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsi demokratik cəmiyyətlərdə informasiya vasitələrinin

yeri və rolu haqqında fundamental çıxış nöqtəsidir. Bununla belə, 19(1)-cu maddədə göstərilir ki, "hər bir insanın maneəsiz öz fikrində qalmaq hüququ vardır". 19(2)-cu maddə daha sonra hər bir şəxsin "dövlət sərhədlərindən asılı olmayaraq, şifahi, yazılı, yaxud mətbuat və ya bədII ifadə ilə, seçiminə uyğun digər vasitələrlə hər cür informasiya və ideya axtarmaq, almaq və yazmaq" azadlığına təminat verir. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsi ifadə azadlığına da beləcə təminat verir. Avropa Şurasının iştirakçı dövlətləri ifadə və informasiya azadlığı haqqında Bəyənnamənin 1-ci maddəsində "demokratik, plüralist cəmiyyətin əsas elementi kimi ifadə və informasiya azadlığına qəti bağlılıqlarını" təkrarladılar. Bu əsasda dövlətlər həmin alətdə bəyan etdilər ki, "informasiya və kütləvi informasiya vasitələri sahəsində onlar nail olmağa cəhd göstərirlər... Müxtəlif ideya və fikirləri əks etdirməyə imkan verən müxtəlif geniş, müstəqil və avtonom informasiya vasitələrinin mövcudluğuna".

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 9(1)-cu maddəsi açıq göstərir ki, milli azlıqlara mənsub şəxslərin "açıq hakimiyyətin müdaxiləsindən və sərhədlərdən asılı olmayaraq hansısa fikri müdafiə etmək, azlıqların dilində informasiya və ya ideya olmaq və mübadilə aparmaq hüququ vardır. Daha sonra həmin bənd tələb edir ki, dövlət "öz hüquqi sistemi daxilində milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrinə imkan baxımından diskriminasiyaya məruz qalmamasını təmin etsin". Çərçivə Konvensiyasının 9(3)-cu maddəsi göstərir ki, dövlət "milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrinin yaratmalarına və istifadə etmələrinə maneəçilik törətmir". Həmin maddə müəyyənləşdirir ki, radioverilişləri və televiziya verilişlərinin qanuni əsasları çərçivəsində onlar imkan dərəcəsində milli azlıqlara mənsub şəxsləri özlərinin şəxsi informasiya vasitələrini yaratmaq və istifadə etmək imkanı ilə təmin edirlər". Onu da qeyd etmək lazımdır ki, başqa sənədlərlə yanaşı, Kopenhagen Sənədinin 32.2. bəndində nəzərdə tutulan elə tip orqan ola bilər ki, milli

azlıqlara mənsub şəxslərin "özlərinin şəxsi təhsil, mədəni və dini təşkilatlarını, idarələrini və assosiasiyalarını... yaratmaq və dəstəkləmək" hüququnu özündə əks etdirsin. İnformasiya vasitəsinin burada birbaşa xatırlanmamasına baxmayaraq, bunlar çox vaxt dilin, mədəniyyətin və identikliyin dəstəklənməsində və saxlanılmasında fundamental rol oynayırlar.

Milli azlıqlara mənsub şəxslərin özəl informasiya vasitələri yaratmaq və dəstəkləmək hüququnun olduğu şübhə doğurmadığı kimi, o da düzgündür ki, bu hüquqlar həm beynəlxalq hüquqa görə, həm də informasiya vasitələrini tənzimləməyə münasibətdə dövlətin qanuni tələbləri ilə əlaqədar müəyyənləşdirilən məhdudiyyətlərə məruz qalmalıdır. Çərçivə Konvensiyasının 9 (2)-ci maddəsi Konvensiyanın 9 (1)-ci maddəsində danışılan ifadə azadlığının "Tərəflərə hər hansı diskriminasiya yol vermədən və obyektiv meyarlar əsasında radio verilişləri idarələrinin, televiziya verilişlərinin və ya kinematoqrafın lisenziyalaşdırılmasına maneəçilik törətmədiyini" vurğulamaqla buna işarə edir. Lazım olan və özünü doğruldan yerdə tənzimləyici tədbirlər bu hüquqdan istifadə imkanını sarsıtmaq üçün istifadə oluna bilməz.

9) Açıq mənbələrdən maliyyələşdirilən informasiya vasitələrinə imkan məsələsi ifadə azadlığı anlayışı ilə sıx bağlıdır. Çərçivə Konvensiyasının 9(1)-ci maddəsi müəyyənləşdirir ki, milli azlıqlara mənsub şəxslərin ifadə azadlığı özündə açıq hakimiyyət tərəfindən müdaxilə edilmədən azlıqların dillərində informasiya və ideya vermək azadlığını ifadə edir və davam edir ki, "milli azlıqlara mənsub şəxslər informasiya vasitələrinə münasibətdə diskriminasiyaya məruz qalmamalıdırlar". Çərçivə Konvensiyasının 9(4)-cü maddəsi müəyyənləşdirir ki, "Tərəflər milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrinə imkanlarını təmin etmək üçün lazımi tədbirlər görürlər". Bu, üzvlərin böyük əksəriyyətini təşkil edən milli azlıqlara ictimai televiziya və radioda ədalətli veriliş vaxtına imkan yaradılmasını nəzərdə tutur və veriliş vaxtının müəyyənləşdirilməsində uyğun azlıqların sayı nəzərə alınmalıdır.

Amma say və konsentrasiya müəyyən milli azlıqlara ayırılması veriliş vaxtının müəyyənləşdirilməsində yeganə meyar kimi nəzərdən keçirilməlidir. Kiçik qruplar olduğu halda çox da böyük olmayan azlığın informasiya vasitəsindən ağıllı şəkildə istifadə edə biləcəyi qədər minimum vaxt və resurslar verilməsinə baxılmalıdır.

Bundan başqa, azlıqlar üçün proqramlara verilən vaxtın keyfiyyətinə də ağılla, qeyri-diskriminasiya əsasında yanaşmaq lazımdır. Azlıqların dilində proqramlara ayrılmış vaxt proqramda elə bölünməlidir ki, milli azlıqlara mənsub şəxslərin öz dillərindəki proqramlardan özlərinə əhəmiyyətli şəkildə istifadə etmələrinə imkan yaradılsın. Buna görə də dövlət hakimiyyəti proqramların gün ərzində rahat vaxtda yayımlanmasını təmin etməlidir.

10) Açıq və demokratik cəmiyyətdə informasiya proqramının məzmunu dövlət hakimiyyəti tərəfindən lazımsız senzuraya məruz qalmamalıdır. Bu baxımdan mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19(1) maddəsində və insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10(1)-cu maddəsində təminat verilən ifadə azadlığı mühümdür. Dövlət hakimiyyəti tərəfindən məruz qalan istənilən məhdudiyyətlər Paktın 19(3) maddəsinə uyğun gəlməlidir. 19(3)-cü maddə müəyyənləşdiririr ki, bu məhdudiyyətlər "qanunun müəyyənləşdirdiyi kimi və zəruri olmalıdır: a) başqa şəxslərin hüquq və nüfuzuna hörmət üçün; v) dövlət təhlükəsizliyini, ictimai asayişi, əhalinin sağlamlığının və əxlaqının qorunması üçün". İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10(2)-ci maddəsi ifadə azadlığından istifadədə dövlət hakimiyyətinin istənilən müdaxiləsinə təxminən identik məhdudiyyət müəyyənləşdirir.

Elə mexanizm yaradılmalıdır ki, milli azlıqlara mənsub şəxslər adından və ya kənardan dövlət informasiya vasitələrində proqramların işlənib hazırlanması birliyin üzvlərinin maraq və arzularını əks etdirsin və bu kontekstdə milli azlıqlara mənsub şəxslərin (fərdi şəxs qismində) redaktə prosesində

iştirakı informasiya vasitələrinin müstəqil təbiətinin qorunması üçün əhəmiyyətli olardı və xidmət göstərilən birliyin tələblərinə cavab verərdi. Bərabərlik və diskriminasiyaya yol verməmək prinsipi ilə əlaqədar dövlət təşkilatlarının tərkibi xidmət göstərdiyi əhalini əks etdirməlidir. Bu həm də ictimai informasiya vasitələrinə aiddir. Çərçivə Konvensiyasının 15-ci maddəsi dövlətlərdən "milli azlıqlara mənsub şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, eyni zamanda dövlət, xüsusən də onlarla əlaqədar işlərin aparılmasında fəal iştirakı üçün zəruri şərait yaratmağı" tələb edir. Məşğulluğa və peşəyə münasibətdə diskriminasiya haqqında Beynəlxalq Əmək Təşkilatının 111N-li Konvensiyasının 2-ci maddəsi dövlətlərdən "imkanlar və peşəyə münasibətdə müraciət (sonuncu ilə əlaqədar istənilən diskriminasiyanı ləğv etmək məqsədi ilə) bərabərliyinə yönəlmiş milli siyasət yürütməyi" daha aydın şəkildə tələb edir. Milli azlıqlara mənsub şəxslərin informasiya vasitələrində diskriminasiyaya yol vermədən işə qəbulu informasiya vasitələrinin nümayəndəliliyinə və obyektivliyinə töhfə verir.

11) Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19(2)-cu maddəsinin və milli azlıqların müdafiə haqqında Çərçivə Konvensiyasının 9(1)-cu maddəsinin ruhuna və diskriminasiya yol verməmək prinsipinə uyğun olaraq başqa dövlətdən və ya azlıq əsas qrupu təşkil edən dövlətdən milli azlıqlara mənsub şəxslərin dilində yayımlanan proqramlara imkan onların üzvlərinin yaşadıqları dövlətin ictimai informasiya azlıqlar üçün nəzərdə tutulmuş proqram vaxtının azaldılmasına haqq qazandırmamalıdır.

İnformasiya və informasiya vasitələri şəbəkəsinə sərhədyanı imkan güclənən texnoloji proseslər kontekstində mühüm əhəmiyyət kəsb edən informasiya hüququnun fundamental elementidir. Deməli, məsələn, kabel yayımına lisenziya olan yerdə, dövlət həmin azlıqların əsas qrupu təmsil etdikləri dövlətdə yerləşən televiziya və radio stansiyalarına qanunla lisenziya verməyə bilməz, xüsusən də bu stansiyalara imkan uyğun milli azlıqlar tərəfindən aydın ifadə olunubsa. Bu hüquq yalnız

kabel informasiya vasitələrinə deyil, milli azlıqların dilində elektron informasiya şəbəkələrinə də aiddir.

Daha ümumi səviyyədə Avropa Şurasının iştirakçı dövlətləri ifadə və informasiya azadlığı haqqında Bəyənnamənin III (s) maddəsində qərara alırlar ki, "informasiyanın sərbəst axınını təşviq etsinlər. Bununla da beynəlxalq anlaşmaya, inam və ənənələri yaxşı bilməyə, fikirlər müxtəlifliyinə hörmətə və mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə töhfə versinlər". Sərhədləri keçən informasiya vasitələri arasındakı əlaqələrə gəlincə dövlət öz siyasətini bu maddənin ruhuna uyğunlaşdırmalıdır.

İqtisadi həyat

12) Beynəlxalq alətlərdə milli azlıqlara mənsub şəxslərin iqtisadi fəaliyyət sahəsində hüquqlarına aid istinadlar azdır. Amma beynəlxalq alətlərdə milli azlıqlara mənsub şəxslərin öz dilindən ictimai yerlərdə və şəxsi həyatda azad, diskriminasiyaya məruz qalmadan, şifahi, yazılı, fərdi və başqa insanlarla birlikdə istifadə etmək hüququna istinadlar vardır. Milli və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19(2)-cu maddəsi və insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10(2)-cu maddəsi yalnız başqaları tərəfindən verilə biləcək (daha doğrusu kommunikasiyanın məzmununa) ideya və mülahizələrə münasibətdə deyil, həm də kommunikasiya vasitəsi kimi dilə münasibətdə ifadə azadlığına təminat verir. Bərabərlik və diskriminasiyanın yoxluğuna müvafiqliyi ilə bu hüquq milli azlıqlara mənsub şəxslərin öz seçiminə uyğun dildə özünün müəssisəsini yaratmaq və işlətmək hüququnu ifadə edir. Fərdi sahibkarların öz müştəriləri ilə səmərəli ünsiyyət qurmaq və öz təşəbbüslərini namusla həyata keçirmək bacarığının əhəmiyyəti baxımından onların sərbəst dil seçimində lazımsız məhdudiyyətlər olmamalıdır.

Çərçivə Konvensiyasının 11(20)-ci maddəsi müəyyənləşdirir ki "milli azlıqlara mənsub istənilən şəxsin ictimai yerlərdə öz azlığının dilində şəxsi xarakterli lövhə, yazılar və başqa informasiyalar yerləşdirmək hüququ vardır". Çərçivə Konvensiyasındakı "şəxsi xarakterli ifadəsi rəsmi olmayanların

hamısına aiddir. Deməli, dövlət fərdi sahibkarlığın aparılması üçün dil seçiminə heç bir məhdudiyyət qoya bilməz.

Yuxarıda deyilənlərə baxmayaraq, dövlət rəsmi dövlət dilinin və ya dillərinin başqa şəxslərin hüquqları ilə bağlı, yaxud da dövlət orqanları ilə mübadilə və kommunikasiya tələb edən iqtisadi fəaliyyət sektorlarında tətbiqini tələb edə bilər. Bu, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19(3)-cü maddəsində və insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10(2) maddəsində müəyyənləşdirilən fikir azadlığına icazə verilmiş məhdudiyyətdən irəli gəlir. Yuxarıda xatırlanan maddələrdə ifadəsini tapmış ayrı-ayrı icazə verilmiş məhdudiyyətlər kommunikasiyanın məzmununa məhdudiyyət kimi özünü doğrulda bilsə də, kommunikasiya vasitəsi kimi dildən istifadəyə məhdudiyyət şəkilində onlar özlərini heç vaxt doğrulda bilməzlər. Amma başqalarının hüquq və azadlıqlarının müdafiəsi və dövlət idarəetmə orqanlarının məhdud tələbləri rəsmi dövlət dilindən və ya dillərindən əlavə istifadə üçün xüsusi təminatı doğrulda bilər. Bu, şəraitdən asılı olaraq, iş yerində sağlamlığın və təhlükəsizliyin qorunması, istehlakçıların müdafiəsi, əmək münasibətləri, vergi, maliyyə hesabatı, dövlət tibbi sığorta və işsizlik halları üçün və nəqliyyat üçün sığorta kimi sektorlara tətbiq edilə bilər. Qanuni ictimai maraq əsasında dövlət həm də istənilən dildən istifadəyə əlavə kimi rəsmi dil və ya dövlət dillərinin milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasına izahedici qeydlərin 60-cı bəndində dəqiq göstərildiyi kimi, müəssisələrin vətəndaşlar üçün lövhələrin və yazıların yerləşdirilməsi kimi fəaliyyət sahəsinə tətbiqini tələb edə bilər. Bütövlükdə dövlət dildən istifadəni heç vaxt qadağan edə bilməz, amma o, qanuni ictimai maraq əsasında rəsmi dildən və ya dövlət dillərindən əlavə istifadəni tələb edə bilər.

Qanuni ictimai marağın məntiqinə görə, dövlət tərəfindən dildən istifadə üçün qeyd edilən istənilən tələb uyğun ictimai marağa proporsional olmalıdır.

İstənilən tələbin proporsionallığı tələb zəruri olan meyarla müəyyənləşdirilməlidir. Məsələn, iş yerində sağlamlığın və

təhlükəsizliyin təminatına ictimai maraqdan çıxış edən dövlət özəl müəssisələrdən tələb edə bilər ki, müəssisənin seçdiyi dilə (dillərə) əlavə olaraq texniki təhlükəsizlik üzrə təlimatları rəsmi dildə və ya dövlət dillərində yazsınlar. Vergi sahəsində dövlət idarəetmənin aparılmasında dəqiqliyə əməl etmək marağı baxımından dövlət tələb edə bilər ki, inzibati blanklar rəsmi dildə və ya dövlət dillərində doldurulsun; dövlət hakimiyyəti tərəfindən audit vaxtı uyğun qeydlər həm də rəsmi dildə və ya dövlət dillərində mümkün olsun; axırıncı hal özəl müəssisədən bütün qeydləri rəsmi dildə və ya dillərdə aparmağı tələb etmir, bir şərtlə ki, mümkün tərcümənin məsuliyyəti özəl müəssisənin öhdəsinə düşsün. Bu, milli azlıqların hüquqlarının müdafiəsi haqqında Çərçivə Konvensiyasının 10(2)-cu maddəsində nəzərdə tutulan kimi, inzibati hakimiyyətlə münasibətlərdə milli azlıqlar mənsub şəxslərin öz dilindən (dillərindən) istifadə etmək sahəsindəki mümkün hüququna ziyan vurmur.

İnzibati hakimiyyət və dövlət xidməti

(13-14-15) ATƏT-in iştirakçı dövlətləri yalnız milli azlıqlara mənsub şəxslərin (dilləri də daxil edilməklə) identikliyini yox, həm də onların inkişafını və irəliləməsini dəstəkləyən dinamik mühit yaradılmasına imkan verən tədbirlər görmək öhdəliyi ilə bir-birlərinə bağlıdırlar. Bundan sonra həmin dövlətlər Kopenhagen Sənədinin 35-ci bəndində göstərildiyi kimi, "milli azlıqlara mənsub şəxslərin dövlət işlərində səmərəli iştirakı hüququna" hörmət göstərməyi öhdələrinə götürüblər. Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 10(2)-cu maddəsi dövlətlərdən dəqiq tələb edir ki, "azlıqların dilindən bu şəxslərlə inzibati hakimiyyət münasibətlərində istifadə etməyə imkan verən şəraitlə təmin etsinlər". Kopenhagen Sənədinin 35-ci maddəsi "azlıqların xüsusi tarixi və ərazi şəraitinə aid uyğun yerli və ya muxtar adminstrasiyanı bu dövlətlərin siyasəti ilə" uyğunlaşdırılaraq milli azlıqların dövlət işlərində öz dillərində iştirakına imkan verən yaradan mühit yaratmağın imkanına istinad edir. Çərçivə Konvensiyanın 15-ci maddəsi dövlətlərdən "milli azlıqlarlara mənsub şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, eyni zamanda

dövlət işlərinin aparılmasında, xüsusən onların özləri ilə bağlı işlərin aparılmasında səmərəli iştirak etmələrinə zəruri şərait yaratmağı" tələb edir. Bu maddə dövlət hakimiyyətinin boynuna milli azlıqlara mənsub şəxslərin yerli hakimiyyətlə öz dilində danışmağa, yaxud da öz dillərində mülki sertifikatlar və attestatlar almağa imkan verməyi öhdəlik qoyur. Bərabərlik və diskriminasiyaya yol verməmək prinsipinə uyğun olaraq, onlar iştirakın dinamik prosesini təsəvvür edirlər; bu dinamik prosesdə azlıqların dilləri yerli siyasi həyatda və ictimai xidmət də daxil olmaqla vətəndaşlarla dövlət hakimiyyəti arasında qarşılıqlı əlaqələrdə kommunikasiyanın tam vasitəsi ola bilər.

İnzibati idarələrin və əhaliyə xidmət göstərən agentliklərin etnik nümayəndəliyi adətən cəmiyyətin plüralist, açıq və qeyri-diskrimanik xarakterini əks etdirir. Keçmiş diskriminasiyanın nəticələrinə və ya sistemin içində bəlkə hələ də mövcud olan diskriminasiyaya qarşı durmaq üçün məşğulluğa və peşəyə münasibətdə diskriminasiya haqqında Beynəlxalq Əmək Təşkilatının N-111 Konvensiyasının 2-ci maddəsi dövlətlərdən "məşğulluq və peşə sahəsində sonuncu ilə əlaqədar istənilən diskriminasiyanı ləğv etmək məqsədi ilə imkanlar və müraciətlər bərabərliyinin... təminatına yönəlikli milli siyasət aparmağı" tələb edir.

Əhaliyə xidmətə yönəlikli proqramlar və xidmətlər planlaşdırmaq və gerçəkləşdirməklə, güman etmək olar ki, yuxarıda qeyd olunan prinsiplə bağlı dövlətlər milli azlıqlara mənsub şəxslərin ifadə olunmuş istəklərini, eyni zamanda sayca əsaslandırma prinsipini nəzərə alacaqdır. Tələbat ifadə olunduğu və say çox olduğu halda ədalət prinsipi milli azlıqlara mənsub vergi ödəyənlərin öz dillərində xidmətdən istifadə imkanlarının olmağını tələb edir. Bu, xüsusən insanların həyatının keyfiyyətinə birbaşa və dolayısı ilə təsir göstərən səhiyyəyə və sosial xidmətə aiddir. Bərabərlik və diskriminasiya yol verməmək prinsipinə uyğun olaraq inzibati hakimiyyət milli azlıqlara mənsub şəxslərlə inklyuziv və bərabər şəkildə davranmalıdır. Dövlət öz qanunları işləyən ərazilərdə demoqrafik realiləri qəbul etməlidir. Bütün bunlardan başqa, bölgənin demoqrafik

realilərin dəyişməklə dövlət öz öhdəliyini yerinə yetirməkdən qaçmağa çalışmamalıdır. Çərçivə Konvensiyasının dövlətlərin boynuna milli azlıqlara mənsub şəxslərin yaşadıqları ərazilərdə bu azlıqların hüquqlarını məhdudlaşdırmaq məqsədi ilə zorakı yolla tərkibin tənasübünü dəyişdirəcək tədbirlər qəbul etməkdən çəkinmək öhdəliyi qoyur. Zorakı yolla ekspropriasiya, köçürmə, qovma, eyni zamanda inzibati sərhədlərin zorla dəyişdirilməsi və əhalinin siyahıya alınmasının saxtalaşdırılması belə tədbirlərdən ola bilər.

Müstəqil milli institutlar

16) Dövlət hakimiyyəti beynəlxalq konvensiyalarla və bəyənnamələrlə və ya daxili qanunvericiliyi ilə zəmanət verilən hüquqların səmərəli tətbiqini və müdafiəsini təmin edən mexanizmlər müəyyənləşdirəndə insan hüquqları ondan istifadə edənlər üçün real əhəmiyyət qazanır. Məhkəmə prosedurlarına əlavə kimi, müstəqil milli institutlar adətən daha tez və daha ucuz müraciətə imkan yaradırlar, buna görə də imkana daha uyğundurlar.

İrqi diskriminasiyanın ləğvi haqqında Konvensiyasının istinad etdiyi diskriminasiya yalnız irq meyarı əsasında müəyyənləşdirilmir. Konvensiyanın 1(1)-ci maddəsinə əsasən irqi diskriminasiya anlayışı "irq, dəri rəngi, soy, milli və ya etnik mənşə əsasında istənilən fərqləndirməni, istisnanı, məhdudlaşdırmanı və ya üstün tutmanı" bildirir, "ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və ya istənilən başqa sahəsində insan hüquqları və əsas azadlıqlarının bərabər başlanğıjda etirafını, istifadəsini və ya gerçəkləşdirilməsini məhv etmək və ya azaltmaq məqsədi" güdür. Konvensiyanın 6-cı maddəsi bəyan edir ki, "iştirakçı dövlətlər öz qanunvericiliyinin şamil olduğu hər bir insanı mövcud Konvensiyanı pozaraq onun hüquq və əsas azadlıqlarına qəsd edən istənilən irqi diskriminasiya aktı baş verən halda mötəbər milli məhkəmə və digər dövlət institutları vasitəsi ilə səmərəli müdafiə və müdafiə vasitələri ilə təmin edir". Bu kontekstdə ödəmə və kompensasiya mexanizmi kimi fəaliyyət göstərə biləcək ombudsmen və ya insan hüquqları üzrə komissiya kimi müstəqil milli institutların dövlət

tərəfindən yaradılması həmin dövlətin demokratikliyinin və plüralistikliyinin meyarıdır. Birləşmiş Millətlərin (48, 34) 20 dekabr 1993-cü ilə bəyənnaməsi ilə əlaqədar Avropa Şurası nazirlər Kabineti N.R (97)14 30 sentyabr 1997-ci il Tövsiyyəsində "nümayəndəliyinə görə plüralistik olan insan hüquqları üzrə milli institutların, o cümlədən insan hüquqları üzrə komissiyanın ombudsmenlər və ya müqayisəli institutların" yaradılmasını təşviq etdi. Ödəmənin belə mexanizmləri özlərinin dil və başqa hüquqlarının pozulduğunu hesab edən milli azlıqlara mənsub şəxslər üçün də əl çatan olmalıdır.

Məhkəmə hakimiyyəti

17-18) Beynəlxalq qanunvericilik dövlət hakimiyyətindən tələb edir ki, ittiham irəli sürülmüş və ya işinə məhkəmədə baxılan həbs olunmuş bütün şəxslərə başa düşdükləri dildə onlara qarşı irəli sürülmüş ittiham və bütün başqa proseduralar haqqında məlumat verilməsini təmin etsinlər. Ehtiyac yarandıqda onlara pulsuz tərcüməçi ayrılmalıdır. Hüququn gerçəkləşdirilməsinin zəruri prosedurasının bu standartı öz tətbiqində universal normadır və öz-özlüyündə milli azlıqların dil hüquqlarına aid deyildir. Əslində baza prinsipi qanun qarşısında bərabərlik və diskriminasiyaya yol verməmək prinsipidir. Bu prinsiplərə hörmət cinayət ittihamları və təhqiqi ilə əlaqədar xüsusən əhəmiyyətlidir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14 (3) (a)-cü maddəsi tələb edir ki, cinayət ittihamı irəli sürülmüş hər bir kəsə "başa düşdüyü dildə ona qarşı sürülmüş ittihamın xarakteri və əsası haqqında təcili və təfsilatlı məlumat verilsin". İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 6(3)(a)-cı maddəsi eyni tələbləri təxminən identik dildə müəyyənləşdirir. Buna əlavə olaraq, yuxarıda xatırlanan Konvensiyanın 5(2)-ci maddəsi həbsə münasibətdə eyni tələbləri müəyyənləşdirir. Bundan başqa, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14(3)(e)-ci bənddi hər bir şəxsə zəmanət verir ki, "tam bərabərlik əsasında"... "(e) ona qarşı ifadə verən şahidləri dindirsin, yaxud da həmin şahidlərin dindirilməsinə hüququ olsun və ona qarşı ifadə verən şahidlər üçün mövcud olan

şərtlər daxilində şahidlərin çağırılması və dindirilməsi hüququ olsun". Bununla əlaqədar mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14(3)(1)-cü bəndi və insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 6(3)(e)-cı bəndi hər bir şəxsə "məhkəmədə istifadə edilən dili bilmirsə və bu dildə danışmırsa, pulsuz tərcüməçinin köməyindən istifadəyə" zəmanət verir. Eyni zamanda açıq-aydın dildən istifadəyə aid olan bu zəmanət məxsusi cinayət təhqiqi üçün nəzərdə tutulubsa, məhkəmə və tribunallar qarşısında bərabərliyin əsas zəmanətindəndir, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14(1)-cü maddəsinin birinci cümləsində deyildiyi kimi, istənilən qanuni araşdırma şərait bərabər olanda daha ədalətli sayılmalıdır. Bütövlükdə araşdırma üçün dil seçiminə aid olan bu əlaqə dövləti bərabər və səmərəli ədalət məhkəmə gerçəkləşdirməyə aid siyasətinin işləyib-hazırlanmağa yönəltməlidir.

Daha ümumi səviyyədə bölgə dillərinin və azlıqların dillərinin müdafiəsi haqqında Avropa Xartiyasının 7(1) maddəsi bəyan edir ki, dövlət öz siyasətində, qanunvericiliyində və praktikasında "bölgə dillərinin və azlıqların dillərinin mədəni zənginliyin ifadəsi kimi etirafı..." və "onları qorumaq üçün bölgə dillərinin və azlıqların dillərinin tətbiqi üçün qəti hərəkətlərə tələbat" kimi məqsəd və prinsiplərə əsaslanmalıdır. Avropa Xartiyasının 7(4) maddəsi müəyyənləşdirir ki, "bölgə dillərinə və azlıqların dillərinə münasibətdə siyasətini müəyyənləşdirən... Tərəflər belə dillərdən istifadə edən qrupların ifadə edilmiş tələbatlarını və arzularını nəzərə alacaqlar". Bundan başqa, Çərçivə Konvensiyasının 15-ci maddəsi dövlətin boynuna "milli azlıqlara mənsub şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, eyni zamanda dövlət işlərində, xüsusən də onlara aid işlərdə səmərəli iştirak etmələri üçün zəruri şərait yaratmaq" öhdəliyini qoyur. Demokratik cəmiyyətlərdə məhkəməyə səmərəli imkanların əhəmiyyətini nəzərdən keçirərkən yuxarıda xatırlanan standartlar diqqətə alınsa, güman etmək olar ki, dövlət mümkün olduğu dərəcədə kassasiya orqanlarını da daxil etməklə başqalarının hüquqlarına hörmət edərək və

araşdırmanın bütövlüyünü dəstəkləyərək, milli azlıqlara mənsub şəxslərin məhkəmə prosesində (istər cinayət, istər mülki, istərsə də inzibati) öz dilində fikrini bildirmək hüququnu təmin edəcəkdir.

19) Ədalət məhkəməsinə imkan insan hüquqlarının gerçəkləşdirilməsində nə dərəcədə həyati əhəmiyyət kəsb edirsə, insanın səmimilik və sadəliklə mövcud proseduralarda iştirakı da həmin dərəcədə belə imkanın əsas ölçüsüdür. Buna görə də milli azlıqlara mənsub şəxslərin dilində (dillərində) məhkəmə proseduralarının mövcudluğu belə şəxslər üçün ədalət məhkəməsinə imkanı daha birbaşa və sadə edir.

Buna əsasən bölgə dilləri və azlıqların dilləri haqqında Avropa Xartiyasının 9-cu maddəsi müəyyənləşdirir ki, mümkün dərəcədə və cəlb olunmuş tərəflərdən birinin sorğusu əsasında bütün məhkəmə işi bölgə dilində və ya azlıqların dilində aparılmalıdır. Avropa Şurasının Parlament Assambleyası da özünün 1201 Tövsiyyəsinin 7(3)-cü maddəsində bu nəticəyə gəlmişdir. Maddə müəyyənləşdirir ki, "milli azlıqların nümayəndələrinin kifayət qədər nümayəndəsinin yaşadığı bölgələrdə milli azlıqlara mənsub şəxslərin inzibati hakimiyyətlə əlaqədə, məhkəmə işlərində və hüquq orqanlarda özünün doğma dilindən istifadə etmək hüququ vardır". Dövlət məhkəmə orqanları əməkdaşlarının işə götürülməsi və təlimi siyasətini buna uyğun aparmalıdır.

Azadlıqdan məhrum etmə

20) BMT-nin məhbuslarla davranış üzrə minimal standart qaydalarının 51-ci qaydasının 1və 2-ci bəndlərində, Avropa Şurası tərəfindən qəbul edilən həbsxanalar haqqında Avropa əsasnaməsinin 60-cı qaydasının 1 və 2-ci bəndlərindəki kimi, məhbəsdə olanların həbsxana adminstrasiyası tərəfindən başa düşülməsinin əhəmiyyəti, həm də məhbusların həbsxana adminstrasiyasını başa düşmələrinin əhəmiyyəti qeyd elunur. Bu əsasnamə öz-özlüyündə azlıqların hüquqlarına aid deyildir. Amma məhbusların ifadə olunmuş arzuları ilə birlikdə onların sayını, bərabərlik və diskriminasiyaya yol verməmək prinsipini nəzərə almaqla yuxarıda xatırlanan əsasnamə milli azlıqlara

mənsub şəxslərin çoxluq təşkil etdikləri bölgələrdə daha ciddi öhdəlikdir.

21) BMT-nin məhbuslarla davranış üzrə minimal standart qaydalarının 37-ci qaydası Avropa Şurasının qəbul etdiyi həbsxanalar haqqında Avropa Əsasnaməsinin 43(1)-ci maddəsi kimi, məhbusların öz ailələri, layiqli dostları və şəxslərlə, xarici təşkilatların nümayəndələri ilə ünsiyyətə girmək hüququnun olduğunu göstərir. İnsanın ifadə azadlığı, öz dilindən ictimai yerlərdə və şəxsi həyatda istifadə etmək kimi hüquqlarının əhəmiyyəti ilə əlaqədar hakimiyyət bu hüquqlara qanunda nəzərdə tutulan məhdudiyyətlər çərçivəsində hətta penitensiar müəssisələrdə də hörmət etməyə borcludur. Bir qayda olaraq, məhbusların öz dilində həm digər məhbuslarla və yanına gələnlərlə şifahi, həm də yazışmada istifadə etmək imkanları olmalıdır. Bununla belə, cinayət əməlinə görə saxlanılmış şəxslərin müəyyən hüquqları və azadlıqları beynəlxalq alətlərdəki məhdudiyyətlərə uyğun olaraq ictimai təhlükəsizlik baxımından qanuni əsaslarla məhdudlaşdırıla və ya dayandırıla bilər. Məhbusların dil azadlıqlarından praktikada istifadəsinə, adətən, onların dilində danışılan yerlərdə saxlanılması daha yaxşı imkan yaradır.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ NİZAMNAMƏSİ

Biz, Birləşmiş Millətlərin xalqları qəti qərarlıyıq gələcək nəsilləri iki dəfə həyatımızda insanlığa ifadə olunmaz ağrı gətirmiş müharibə bəlalarından qurtarmaqda və insanın əsas azadlıqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərinə, kişi və qadınların hüquq bərabərliyinə, böyük və kiçik millətlərin bərabərliyinə yenidən inamımızı təsdiq etməkdə və müqavilələrdən və beynəlxalq hüququn başqa mənbələrindən irəli gələn öhdəliklərə ədalət və hörmət riayət olunan şərait yaratmaqda vəböyük azadlıq şəraitində həyatın sosial inkişafına və yaxşılaşdırılmasına yardım etməkdə, və **bu məqsəd üçün** dözümlülük göstərmək, mehriban qonşular kimi bir-birimizlə sülh içində və birlikdə yaşamağa və beynəlxalq sülhü və təhlükəsizliyi dəstəkləmək üçün güclərimizi birləşdirmək vəprinsiplərin qəbulu və metodların müəyyənləşdirilməsinin təminatı ilə silahlı gücün başqa cür yox, məhz ümumi maraq naminə istifadə olunsun vəbeynəlxalq aparatdan bütün xalqların iqtisadi və sosial tərəqqisinə yardım üçün istifadə etmək,

Bu məqsədlərə çatmaq üçün öz səylərimizi birləşdirmək qərarına gəldik.

Buna uyğun olaraq bizim müvafiq dövlətlərimiz San-Fransiskoya toplaşan, lazımi formada öz səlahiyyətlərini təqdim edən təmsilçilər vasitəsi ilə Birləşmiş Millətlər Təşkilatının mövcud nizamnaməsini qəbul etmək razılığına gəldilər və bununla da "Birləşmiş Millətlər" adlanan beynəlxalq təşkilatı təsis etdilər.

I FƏSİL. Məqsədlər və prinsiplər

1-ci maddə

Birləşmiş Millətlər Təşkilatı aşağıdakı məqsədləri güdür:

2. Bərabər hüquqluluq və xalqların öz müqəddaratını təyin etmək prinsipinə hörmət əsasında millətlər arasında münasibətləri inkişaf etdirmək, eyni zamanda ümumsülhə nail olmaq üçün digər uyğun tədbirlər görmək;

3. İqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində və irq, cins, dil və din fərqi qoymadan hamı üçün insan hüquqları və əsas azadlıqlarına hörmətin təşviq və inkişaf etdirilməsində beynəlxalq əməkdaşlığı gerçəkləşdirmək, və

IV FƏSİL. Baş məclis

13-cü maddə

v) İqtisadi, sosial, mədəni, təhsil, səhiyyə sahələrində beynəlxalq əməkdaşlığa yardım göstərmək və irq, cins, dil və din fərqi qoymadan hamı üçün insan hüquqlarının və əsas azadlıqlarının gerçəkləşməsinə yardım göstərmək.

İNSAN HÜQUQLARININ ÜMUMİ BƏYANNAMƏSİ

Baş Məclisin 217 A (III) saylı qətnaməsi ilə 10 dekabr 1948-ci il tarixdə qəbul və elan olunmuşdur

Preambula

İnsan nəslinin bütün üzvlərinə məxsus ləyaqətin, onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu nəzərə alaraq; və

İnsan hüquqlarına qarşı başəriyyətin vicdanını hiddətləndirən hörmətsizlik və həqarətin barbarlıq hərəkətlərinə gətirib çıxardığını, adamların söz və əqidə azadlığına malik olacağı bir dünya qurulmasını insanların yüksək amalı elan olunduğunu nəzərə alaraq; və

İnsanın istibdad və zülm əleyhinə son mübarizə vasitəsi kimi üsyana əl atmağa məcbur olmaması üçün insan hüquqlarının qanunun gücü ilə təmin edilməsinin zəruriliyini nəzərə alaraq; və

Xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin zəruri olduğunu nəzərə alaraq; və

Birləşmiş Millətlər xalqlarının Nizamnamədə insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların bərabərliyinə inamlarını təsdiq etdiklərini və daha böyük azadlıqlar şəraitində sosial tərəqiyə və həyat tərzinin yaxşılaşdırılmasına yardım göstərməyi qərara aldıqlarını nəzərə alaraq; və

Üzv dövlətlərin Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda insan hüquqlarına hamılıqla hörmət göstərilməsinə və onlara riayət olunmasına yardım etməyi öhdələrinə götürdüklərini nəzərə alaraq; və

Bu hüquq və azadlıqların xarakterinin hamılıqla dərk edilməsinin həmin öhdəliyin tam yerinə yetirilməsində böyük əhəmiyyət daşıdığını nəzərə alaraq,

Baş Məclis

İnsan hüquqları haqqında bu Ümumbəyannamənin yerinə yetirilməsinə bütün xalqların və dövlətlərin çalışmalı olduğu

bir vəzifə kimi elan edir ki, hər bir insan və cəmiyyətin hər bir orqanı bu Bəyannaməni daim nəzərdə tutaraq, maarif və təhsil yolu ilə həmin hüquq və azadlıqlara hörmət edilməsinə, mütərəqqi milli və beynəlxalq tədbirlər vasitəsi ilə onların həm təşkilatın üzv-dövlətlərinin, həm də onların yurisdiksiyasındakı ərazilərin xalqları arasında səmərəli tanınmasının və həyata keçirilməsinin təmin olunmasına cəhd etsinlər.

1-ci Maddə

Bütün insanlar azad, hüquq və ləyaqətinə görə bərabər doğulurlar. Onlar idrak və vicdan sahibidirlər və biri-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

2-ci Maddə

Hər bir insan irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və başqa əqidəsinə, milli, yaxud sosial mənşəyinə, əmlak, silk, yaxud başqa vəziyyətinə görə fərq qoyulmadan bu Bəyannamədə elan edilmiş hüquqlara və azadlıqlara malik olmalıdır.

Bundan başqa insanın mənsub olduğu ölkənin, yaxud ərazinin siyasi, hüquqi və ya beynəlxalq statusuna görə həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib, etməməsindən yaxud suverenliyinin hər hansı məhdudiyyətindən asılı olmayaraq heç bir ayrı-seçkiliyə yol verilməməlidir.

3-cü Maddə

Hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıqların hüququ var.

4-cü Maddə

Heç kəs köləlikdə, yaxud asılılıqda saxlanmamalıdır; köləlik və kölə alverinin bütün növləri qadağandır.

5-ci Maddə

Heç kəs işgəncəyə, qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamalıdır.

6-cı Maddə

Harada olursa-olsun hər bir insanın hüquq subyekti kimi tanınmaq hüququ var.

7-ci Maddə

Bütün insanlar qanun qarşısında bərabərdir və heç kəs fərq qoyulmadan qanun qarşısında eyni dərəcədə müdafiə olunmaq hüququna malikdir. Bütün insanların bu Bəyannaməni pozan hər cür ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə təhriklərdən eyni dərəcədə müdafiə olunmaq hüququ var.

8-ci Maddə

Hər bir insanın, Konstitusiya, yaxud qanunla verilmiş əsas hüquqları pozulduğu hallarda həmin hüquqların səlahiyyətli milli məhkəmələr tərəfindən təsirli şəkildə bərpa olunması hüququ var.

9-cu Maddə

Heç kəs əsassız həbs oluna, tutulub saxlanıla, yaxud sürgün edilə bilməz.

10-cu Maddə

Hər bir insanın öz hüquq və vəzifələrinin bərqərar olunması, ona qarşı irəli sürülən cinayət ittihamının əsassızlığının müəyyən edilməsi üçün onun işinə tam bərabərlik əsasında açıq və ədalətin bütün tələblərinə riayət olunmaqla, müstəqil, qərəzsiz məhkəmədə baxılma hüququ var.

11-ci Maddə

1. Cinayətdə ittiham olunan hər bir insan təqsiri qanuni qaydada, müdafiəsi üçün bütün imkanların yaradıldığı açıq məhkəmə baxışında sübut edilənədək günahkar sayıla bilməz.

2. Heç kəs törədilərkən milli qanunlara, yaxud beynəlxaq hüquqa görə cinayət sayılmayan ənənələrə, yaxud fəaliyyətsizliyinə görə cinayətdə ittiham edilə bilməz. Həmçinin cinayətin törədildiyi vaxt tətbiq edilə bilən cəzadan daha ağır cəza verilə bilməz.

12-ci Maddə

Heç kəsin şəxsi və ailə həyatına özbaşına müdaxilə oluna, onun mənzil toxunulmazlığına, yazışma sirrinə, yaxud şərəfinə və adına özbaşına qəsd edilə bilməz. Hər bir insanın belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ var.

13-cü Maddə

1.Hər bir insanın hər hansı bir dövlətin hüdudlarında sərbəst yerdəyişmək və özünə yaşayış yeri seçmək hüququ var.

2. Hər bir insanın öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var.

14-cü Maddə

1. Hər bir insanın təqibdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququ var.

2. Bu hüquqdan əsaslandırılmış qeyri-siyasi cinayət, yaxud Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllərə görə təqib olunma hallarında istifadə edilə bilməz.

15-ci Maddə

1. Hər bir insanın vətəndaşlıq hüququ var.

2.Heç kəs məcburi şəkildə vətəndaşlıqdan, yaxud vətəndaşlığı dəyişmək hüququndan məhrum edilə bilməz.

16-cı Maddə

1.Yetkinlik yaşına çatmış bütün kişilər və qadınların irqi, mill, yaxud dini əlamətlərə görə heç bir məhdudiyyət qoyulmadan nigaha girmək və ailə qurmaq hüququ var. Onlar nigah bağlayarkən, nigahda olarkən və onu pozarkən eyni hüquqlardan istifadə edirlər.

2.Nigah yalnız nigaha girən hər iki tərəfin azad və tam razılığı ilə bağlana bilər.

3.Ailə cəmiyyətin təbii və əsas özəyidir, onun cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququ var.

17-ci Maddə

1. Hər bir insanın həm təkbaşına, həm də ortaq əmlak sahibliyi hüququ var.

2. Heç kəs özbaşına öz əmlakından məhrum edilə bilməz.

18-ci Maddə

Hər bir insanın fikir, vicdan və din azadlığı hüququ var; bu hüquqa öz dinini və əqidəsini dəyişmək azadlığını, dininə və əqidəsinə həm təklikdə, həm də başqaları ilə birgə, açıq və xüsusi qaydada, təlimdə, ibadətdə, dini ayin və mərasimlərin icrasında etiqad bəsləmək azadlığını ehtifa edir.

19-cu Maddə

Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək, dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yayımlamaq azadlığı daxildir.

20-ci Maddə

1. Hər bir insanın azad şəkildə dinc yığıncaqlar keçirmək, assosasiyalar yaratmaq hüququ var.

2. Heç kəs hər hansı bir asossasiyaya girməyə məcbur edilə bilməz.

21-ci Maddə

1.Hər bir insanın öz ölkəsinin idarə olunmasında bilavasitə, yaxud azad şəkildə seçilmiş nümayəndələri vasitəsilə iştirak etmək hüququ var.

2. Hər bir insanın öz ölkəsində dövlət qulluğuna girməyə bərabər imkan hüququ var.

3.Dövlət hakimiyyətinin əsasında xalqın iradəsi durmalıdır. Bu iradə ümumi və bərabər seçki hüququ əsasında gizli səsvermə yolu ilə, yaxud səsvermənin azadlığını təmin edən digər eynimənalı formalarda keçirilən vaxtaşırı və saxtalaşdırılmamış seçkilərdə əsasını tapmalıdır.

22-ci Maddə

Cəmiyyətin bir üzvü kimi, hər bir insanın sosial təminat, milli səylər və beynəlxalq əməkdaşlıq əsasında, hər bir ölkənin strukturuna və resurslarına uyğun olaraq, ləyaqətinin qorunması, şəxsiyyətinin azad inkişafı üçün zəruri olan iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirmək hüququ var.

23-cü Maddə

1. Hər bir insanın əmək, sərbəst şəkildə iş seçmək, ədalətli və əlverişli əmək şəraiti işsizlikdən müdafiə hüququ var.

2. Hər bir insanın heç bir ayrı-seçkilik qoyulmadan eyni əmək üçün bərabər haqq almaq hüququ var.

3. Hər bir işçi özünün və ailəsinin insana layiq yaşamasını təmin edən və lazım gəldikdə digər sosial təminat vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququna malikdir.

4. Hər bir insanın öz mənafeini müdafiə etmək üçün həmkarlar ittifaqı yaratmaq, yaxud həmkarlar ittifaqlarına daxil olmaq hüququ var.

24-cü Maddə

Hər bir insanın iş gününün normal məhdudlaşdırılması daxil olmaqla istirahət və asudə vaxt, vaxtaşırı ödənişli məzuniyyət hüququ var.

25-ci Maddə

1. Hər bir insan özünün və ailəsinin sağlamlığı və rifahı üçün paltar, mənzil, tibbi və zəruri sosial xidmət daxil olmaqla layiqli həyat səviyyəsinə nail olmaq hüquqlarına, işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq, yaxud yaşayış vasitələrindən özündən asılı olmayan səbəblərə görə məhrum olduğu hallarda təminat hüququna malikdir.

2. Analıq və körpəlik xüsusi himayədarlıq və yardıma hüquq verir. Nigahdan və nigahdankənar doğulan bütün uşaqlar sosial müdafiədən eyni dərəcədə istifadə etməlidirlər.

26-cı Maddə

1. Hər bir insanın təhsil hüququ var. Ən azı ibtidai və ümumi təhsil pulsuz olmalıdır. İbtidai təhsil icbari olmalıdır. Texniki təhsil və peşə təhsili hamıya, ali təhsil hər kəsin qabiliyyəti əsasında hamıya eyni dərəcədə müyəssər olmalıdır.

2. Təhsil insan şəxsiyyətinin tam inkişafına, insan hüquqlarına və əsas azadlıqlara ehtiramın artmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa, Birləşmiş Millətlər Təşkilatının sülhü qorumaq sahəsindəki fəaliyyətinə yardım göstərməlidir.

3. Valideynlərin öz azyaşlı uşaqları üçün təhsil növü seçməkdə üstünlük hüququ var.

27-ci Maddə

1. Hər bir insanın cəmiyyətinin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və ondan faydalanmaq hüququ var.

2. Hər bir insanın müəllifi olduğu elmi, ədəbi, yaxud bədII əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərini müdafiə etmək hüququ var.

28-ci Maddə

Hər bir insanın bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq qaydaya hüququ var.

29-cu Maddə

1. Hər bir insanın yalnız şəxsiyyətin azad və tam inkişafının mümkün olduğu cəmiyyət qarşısında öhdəliyi var.

2. Öz hüquq və azadlıqlarını həyata keçirərkən hər bir insana yalnız qanunun başqalarının hüquq və azadlıqlarının lazımi şəkildə tanınmasını və hörməti təmin etmək və demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ümumi rifahın ədalətli tələblərini yerinə yetirmək məqsədilə qoyulmuş məhdudiyyətlər tətbiq edilməlidir.

3. Bu hüquq və azadlıqların həyata keçirilməsi heç bir halda Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olmamalıdır.

30-cu Maddə

Bu Bəyannamədə heç nə hansısa bir dövlətə, insan qrupuna, yaxud ayrı-ayrı şəxslərə həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğv edilməsinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud hərəkətlər etmək hüququ verilmək kimi yozula bilməz.

İNSAN HÜQUQLARININ VƏ ƏSAS AZADLIQLARIN MÜDAFİƏSİ HAQQINDA KONVENSİYA

Roma. 4 noyabr, 1950-ci il

Avropa Şurasının üzvləri olan və bu Konvensiyanı İmzalayan Hökumətlər, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 10 dekabr 1948-ci il tarixində elan edilən İnsan Hüquqlarının Ümumi Bəyannaməsini nəzərə alaraq,

Bu Bəyannamənin elan olunan hüquqların hamılıqla və səmərəli tanınmasını və onlara əməl edilməsini təmin etmək məqsədi daşıdığını nəzərə alaraq,

Avropa Şurası öz üzvləri arasında böyük birliyə nail olmaq məqsədini güddüyünü, bu məqsədə çatmaq vasitənin insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsinin, inkişaf etdirilməsinin olduğunu nəzərə alaraq;

Ədalətin və ümumi sülhün əsası olan, əməl edilməsi bir tərəfdən həqiqi demokratik siyasi rejimlə, digər tərəfdən isə insan hüquqlarının ümumi şəkildə dərk edilməsi və onlara əməl edilməsi ilə ən yaxşı şəkildə təmin edilən bu əsas azadlıqlara sıx bağlılıqlarını təsdiq edərək,

Vahid səylərlə fəaliyyət göstərən, siyasi ənənələrin, idealların azadlıqlara və hüququn aliliyinə hörmətin ümumi irsinə malik olan və Ümumi Bəyannamədə şərh edilən hüquqların bəzilərinin kollektiv şəkildə həyata keçirilməsi yolunda tam qətiyyətlə ilk addımlar atan Avropa dövlətlərinin hökumətləri

aşağıdakılar haqqında razılığa gəlmişlər:

1-ci Maddə. İnsan hüquqlarına əməl etmək öhdəliyi

Razılığa gəlmiş Yüksək Tərəflər onların yurisdiksiyasında yerləşən hər bir insanın bu Konvensiyanın I bölməsində müəyyənləşdirilən hüquq və azadlıqlarını təmin edirlər.

I Bölmə. Hüquq və Azadlıqlar

2-ci maddə. Həyat hüququ

1. Hər bir insanın həyat hüququ qanunla qorunur. Cəzalandırılması nəzərdə tutulmuş cinayətin törədilməsinə görə məhkəmə tərəfindən çıxarılan ölüm hökmünün icrasından başqa heç kəs qəsdən həyatdan məhrum edilə bilməz.

2. Mütləq zərurətlə bağlı güc tətbiq edilməsi nəticəsində həyatdan məhrum etməyə bu maddənin pozulması kimi baxılmır:

a) istənilən şəxsin qeyri-qanuni zorakalıqdan müdafiəsi üçün;

b)qanuni həbsin həyata keçirilməsi, yaxud qanuni əsaslarla tutulub saxlanılmış şəxsin qaçışının qarşısı alınması üçün;

j) iğtişaşın, yaxud qiyamın qanunauyğun surətdə yatırılması üçün.

3-cü Maddə. İşgəncələrin yasaq edilməsi

Heç kəs işgəncələrə, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranışa və ya cəzaya məruz qalmamalıdır.

4-cü Maddə. Köləliyin və məcburi əməyin yasaq edilməsi

1. Heç kəs köləlikdə və məcburi vəziyyətdə saxlanılmamalıdır.

2. Heç kəs məcburi, yaxud icbari əməyə cəlb edilməməlidir.

3. "Məcburi, yaxud icbari əmək" termini bu maddənin məqsədlərinə aşağıdakıları daxil etmir,

a) bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına uyğun həbsdə olan, yaxud həbsdən şərti azad edilən şəxsin adətən yerinə yetirməli olduğu hər cür işi;

b) hərbi xarakterli hər cür xidməti, əqidəyə görə hərbi xidmətdən imtinanın qanuni imtina qismində tanındığı ölkələrdə məcburi hərbi xidmət əvəzinə nəzərdə tutulan xidməti;

j) fövqəladə vəziyyət, yaxud əhalinin həyatına və ya əmin-amanlığına təhlükə yaradan fəlakət zamanı hər cür məcburi xidməti;

d) adi vətəndaşlıq xidmətlərinə daxil olan hər cür işi, yaxud xidməti.

5-ci Maddə. Azadlıq və şəxsi toxunulmazlıqların hüququ

1.Hər bir insanın azadlıq və şəxsi toxunulmazlıqların hüququ var. Qanunla müəyyən edilən aşağıdakı hallardan və qaydalardan başqa, heç kəs azadlıqdan məhrum edilə bilməz.

a) səlahiyyətli məhkəmə tərəfindən şəxsin təqsirli bilinməsi əsasında onun qanuni tutulub saxlanılması;

b) şəxsin məhkəmənin qanuni qərarını yerinə yetirməməsinə görə, yaxud qanunla nəzərdə tutulan hər hansı vəzifəni yerinə yetirməməsinə görə, yaxud qanunla nəzərdə tutulan hər hansı vəzifəni yerinə yetirməsinin təmini məqsədilə qanuni həbs olunması, yaxud tutulub saxlanılması

j) şəxsin hüquq pozuntusu törətməklə əsaslandırılmış şübhə üzrə səlahiyyətli məhkəmə orqanı qarşısında dayanması ilə bağlı, yaxud onun törətdiyi hüquq pozuntusunun qarşısının alınması zəruriliyinə güman etməyə və onu törətdikdən sonra gizlənməsinə mane olmağa kifayət qədər əsaslar olduğu halda qanuni həbsi, yaxud tutulub saxlanılması;

d) həddi-buluğa çatmış şəxsin tərbiyəvi nəzarət üçün qanuni qərar əsasında, yaxud onun səlahiyyətli orqan qarşısında dayanmasından ötrü qanuni surətdə tutulub saxlanması;

e) şəxsin yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədilə, eləcə də ruhi xəstələrin, alkoqoliklərin, yaxud avaraların qanuni surətdə tutulub saxlanılması;

c) şəxsin ölkəyə qeyri-qanuni gəlişinin qarşısının alınması və ya ölkədən çıxıralması və təhvil verilməsi, yaxud həbsə salınması.

2. Həbs olunmuş hər bir şəxsə başa düşdüyü dildə həbsinin səbəbləri və irəli sürülən hər cür ittiham barədə dərhal məlumat verilir.

3. Həbs olunmuş, yaxud tutulub saxlanmış hər bir şəxs bu maddənin 1-ci bəndinin (j) yarımbəndinə uyğun olaraq, dərhal məhkəməyə, yaxud qanunla məhkəmə səlahiyyətini daşıyan və lazımi müddət ərzində məhkəmə araşdırması, yaxud məhkə-

məyədək azad etmək hüququna malik olan digər vəzifəli şəxsin yanına gətirilir. Azadetməni məhkəməyə gəlməyə təminatın verilməsi şərtləndirə bilər.

4. Həbsolunma, yaxud tutulub saxlanma nəticəsində azadlıqdan məhrum edilmiş hər bir kəsin tutulub saxlanmasının qanuniliyinə dair məsələni məhkəmə tərəfindən təxirə salınmadan baxılmasına, yaxud məhkəmənin tutulub saxlanmanı qanunsuz hesab etdikdə, onun azad olunması barədə qərar çıxarılmasına hüququ var.

5. Bu maddənin müddəalarının pozulması ilə aparılan həbsin, yaxud tutulub saxlanmanın qurbanı olan hər bir kəsin kompensasiya hüququ var.

6-cı Maddə. Ədalətli məhkəmə araşdırması hüququ

1. Hər bir kəsin mülki hüquq və öhdəlikləri mübahisə doğuran halda, yaxud ona irəli sürülmüş hər cür cinayət ittihamına baxılarkən işin lazımi müddətdə qanun əsasında yaradılan müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq şəkildə araşdırılmasına hüququ var. Məhkəmənin qərarı açıq elan edilir, ancaq əxlaq, ictimai asayiş, yaxud demokratik cəmiyyətdə milli təhlükəsizlik mülahizəsinə görə və bunu həddi-buluğa çatmamışların mənafeləri, yaxud tərəflərin şəxsi həyatının müdafiəsi tələb etdiyi, açıqlığın ədalət məhkəməsinin mənafelərini poza bildiyi xüsusi hallarda və ciddi zəruriliyi məhkəmənin mülahizəsilə müəyyənləşdirildikdə mətbuat və kütlə ya bütün prosesə, yaxud onun bir hissəsinə buraxılmır.

2. Təqsirsizliyi qanunauyğun surətdə sübut edilməmiş hər bir müttəhim cinayəti törətməkdə təqsirsiz hesab olunur.

3. Cinayət törətmiş hər bir müttəhim ən azı aşağıdakı hüquqlara malikdir:

a) ona elan edilmiş ittihamın xarakteri və əsasları haqqında bildiyi dildə dərhal və ətraflı məlumatlandırılmaq;

b) öz müdafiəsinə hazırlaşmaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

j) özünü şəxsən, yaxud özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə etmək, müdafiəçinin haqqını ödəmək üçün kifayət

qədər vəsaiti olmadıqda, ədalət mühakiməsinin mənafeləri tələb etdikdə təyin edilmiş ödənişsiz müdafiəçiyə malik olmaq;

d) ona qarşı ifadə vermiş şahidləri dindirmək, yaxud həmin şahidlərin dindirilməsi və ona qarşı ifadə verən şahidlərə aid şərtlərə öz şahidlərinin çağırılması və dindirilməsi hüququna malik olmaq;

j) məhkəmədə istifadə edilən dili başa düşmədikdə, yaxud həmin dildə danışa bilmədikdə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

7-ci Maddə. Yalnız qanun əsasında cəzalandırma

1. Heç kəs hər hansı hərəkət, yaxud fəaliyyətsizlik nəticəsində milli, yaxud beynəlxalq hüquqla cinayət kimi tanınmayan cinayəti törətdiyi anda onu törətməkdə təqsirli bilinə bilməz. Həmçinin cinayətin törədildiyi anda tətbiq edilməli olan cəzadan daha ağır cəza təyin edilə bilməz.

2. Bu maddə hər hansı şəxsin hər hansı hərəkəti, yaxud fəaliyyətsizliyi nəticəsində törətdiyi anda sivilizasiyalı ölkələrin qəbul etdiyi ümumi hüquq prinsiplərinə uyğun olaraq, cinayət hesab edilən əməlinə görə məhkəməyə verilməsinə və cəzalandırılmasına mane olmur.

8-ci Maddə. Şəxsi və ailə həyatına ehtiram hüququ

1. Hər bir insanın şəxsi və ailə həyatına hörmət edilməsi, mənzil toxunulmazlığı və yazışma hüququ var.

2. Qanunla nəzərdə tutulan, demokratik cəmiyyətdə milli təhlükəsizlik və ictimai asayiş mənafeləri naminə, ölkənin iqtisadi rifahı üçün, iğtişaş, yaxud cinayətlərin qarşısını almaq məqsədilə, sağlamlığın və ya mənəviyyatın, yaxud başqa şəxslərin hüquq və azadlıqlarının qorunması üçün qarışmanın zəruriliyi istisna olmaqla, bu hüququn həyata keçirilməsinə ictimai hakimiyyətin qarışması yolverilməzdir.

9-cu Maddə. Fikir, vicdan və din azadlığı

1. Hər bir insanın fikir, vicdan və din azadlığı var. Bu hüquqa öz dinini, yaxud əqidəsini dəyişmək, öz dininə, yaxud əqidəsinə təkbaşına, yaxud başqaları ilə birgə etiqad etmək, ibadəti, təlimləri, dini ayin və mərasimləri elliklə, yaxud şəxsi qaydada yerinə yetirmək azadlıqları daxildir.

2. Öz dininə, yaxud əqidəsinə etiqad azadlığına yalnız qanunla müəyyən edilən və demokratik cəmiyyətdə ictimai təhlükəsizlik mənafeyi naminə, ictimai asayişin, sağlamlığın və ya mənəviyyatın mühafizəsi, yaxud başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olan məhdudiyyətlər tətbiq edilə bilər.

10-cu Maddə. Fikri ifadə etmək azadlığı

1. Hər bir insanın öz fikrini azad şəkildə ifadə etmək hüququ var. Bu hüquqa öz fikrinə tərəfdar olmaq, ictimai orqanların hər hansı bir müdaxiləsi olmadan və dövlət sərhədlərindən asılı olmayaraq məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə radioverlişləri, televiziya, kinomotoqrafiya idarələrini dövlətin lisenziyalaşdırmasına mane olmur.

2. Vəzifələr və məsuliyyət doğuran bu azadlıqların həyata keçirilməsi sağlamlığı, yaxud mənəviyyatı qorumaq, başqa şəxslərin ad-sanını, yaxud hüquqlarını müdafiə etmək, gizli əldə edilmiş məlumatın açılmasının qarşısını almaq, yaxud ədalət məhkəməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulan və demokratik cəmiyyətdə milli təhlükəsizliyin, ərazi bütövlüyünün, yaxud iğtişaşın və ya cinayətlərin qarşısını almaq məqsədilə ictimai asayişin təmini baxımından zəruri olan müəyyən formallıqlarla, şərtlərlə, məhdudiyyətlərlə, yaxud sanksiyalarla müşayət edilə bilər.

11-ci Maddə. Yığıncaq və birliklər azadlığı

1. Hər bir insanın dinc yığıncaqlar keçirmək azadlığı, həmkarlar ittifaqı yaratmaq və öz mənafelərini müdafiə etmək üçün belə birliklərə üzv olmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmə azadlığı hüququ var.

2. Qanunla nəzərdə tutulan və demokratik cəmiyyətdə iğtişaş və cinayətlərin qarşısını almaq məqsədilə milli təhlükəsizliyin və ictimai asayişin təmin edilməsi, sağlamlıq və mənəviyyatın, yaxud başqa şəxslərin hüquq və azıdlıqlarının müdafiəsi üçün zəruri olanlardan başqa bu qanunların həyata keçirilməsi heç vəchlə məhdudlaşdırıla bilməz. Bu maddə silahlı qüvvələrin, polisin, yaxud dövlət inzibati orqanlarının

tərkibinə daxil olan şəxslər tərəfindən bu hüquqların həyata keçirilməsinə qanuni məhdudiyyətlər tətbiqinə mane olmur.

12-ci Maddə. Nigaha girmək hüququ

Nigah yaşına çatmış kişilər və qadınların nigaha girməni və ailə qurmanı tənzim edən milli qanunvericiliyə uyğun olaraq nigaha girmək və ailə qurmaq hüququ var.

13-cü Maddə. Hüquqi müdafiədə səmərəli vasitələr hüququ

Bu Konvensiyada təsdiqlənmiş hüquq və azadlıqları pozulan hər bir şəxsin belə pozuntunun hətta rəsmi qaydada fəaliyyət göstərən şəxslər tərəfindən törədildiyi halda da dövlət orqanlarında hüquqi müdafiənin səmərəli vasitələrinə malik olmaq hüququ var.

14-cü Maddə. Ayrıseçkiliyin yasaq edilməsi

Bu Konvensiyada təsdiqlənmiş hüquq və azadlıqlardan istifadə hər hansı bir bir şəxsin cinsinə, irqinə, dərisinin rənginə, dilinə, dininə, siyasi, yaxud digər əqidələrinə, milli, yaxud sosial mənşəyinə, milli azlığa mənsubiyyətinə, əmlak vəziyyətinə, doğuluşuna və ya hər hansı başqa əlamətə görə ayrıseçkiliyə yol verilmədən təmin edilməlidir.

15-ci Maddə. Fövqəladə vəziyyətlərdə öhdəliklərdən geri çəkilmə

1.Müharibə, yaxud millətin həyatını təhlükə altına alan digər fövqəladə şəraitdə razılığa gəlmiş Yüksək Tərəflərdən hər hansı biri bu Konvensiya üzrə öz öhdəliklərindən ancaq şəraitin fövqəladəliyi yol verdiyi dərəcədə və onun beynəlxalq hüquq üzrə digər öhdəliklərinə zidd olmaması şərtilə geri çəkilmə tədbirlərini qəbul edə bilər.

2.Bu müddəa qanuna uyğun hərbi əməliyyatlar nəticəsində insanların ölüm halları istisna olmaqla 2-ci maddənin və ya 3-cü maddənin, 4-cü maddənin 1-ci bəndin və 7-ci maddənin müddəalarından hər hansı biri geri çəkilmə üçün əsas ola bilməz.

3.Geri çəkilmənin bu hüququndan istifadə edən razılığa gəlmiş Yüksək tərəflərdən hər hansı biri həyata keçirdiyi tədbirlər və onların qəbulunun səbəbləri haqqında Avropa

Şurasının Baş Katibinə ətraflı şəkildə məlumat verir. O, Avropa Şurasının Baş Katibini həm də belə tədbirlərin fəaliyyətinin dayandırılması tarixi və Konvensiyanın müddəalarının tam həcmdə həyata keçirilməsinə yenidən başlanılması haqqında məlumatlandırır.

16-cı Maddə. Əcnəbilərin siyasi fəaliyyətini məhdudlaşdırma

10,11 və 14-cü maddələrdə heç nəyə Razılığa gəlmiş Yüksək Tərəflərin əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər tətbiq edilməsi üçün maneə kimi baxıla bilməz.

17-ci Maddə. Hüquqlardan sui-istifadənin yasaq edilməsi

Mövcud konvensiyada heç nə hər hansı bir dövlətin, şəxslər qrupunun, yaxud hər hansı bir şəxsin bu Konvensiyada qəbul edilmiş hüquq və azadlıqların ləğvinə, yaxud onların Konvensiyada nəzərdə tutulduğundan artıq məhdudlaşdırılmasına yönəlikli hər hansı bir fəaliyyətlə məşğul olmaq, yaxud hər hansı bir hərəkəti etmək hüququnun olduğu kimi yozula bilməz.

18-ci Maddə. Hüquqlar barəsində məhdudiyyətlərdən istifadənin hədləri

Göstərilən hüquq və azadlıqlara münasibətdə bu Konvensiyada yol verilən məhdudiyyətlər nəzərdə tutulan məqsədlərdən başqa heç bir məqsədə tətbiq edilmir.

II Bölmə. İnsan hüquqları üzrə Avropa məhkəməsi

19-cu Maddə. Məhkəmənin təsisi

Razılığa gəlmiş Yüksək Tərəflər bu Konvensiya və ona əlavə edilən Protokol ilə üzərlərinə götürdükləri öhdəliklərə əməl edilməsinin təmin olunması məqsədilə İnsan Hüquqları üzrə sonradan "Məhkəmə" adlandırılan Avropa Məhkəməsi təsis edirlər. O, daimi əsaslarla fəaliyyət göstərir.

20-ci Maddə. Hakimlərin sayı

Məhkəməyə daxil olan hakimlərin sayı razılığa gəlmiş Yüksək Tərəflərin sayına bərabərdir.

21-ci Maddə. Hakimlərə verilən tələblər

1.Hakimlər yüksək əxlaqi keyfiyyətlərə malik olmalı və yüksək məhkəmə vəzifəsinə təyin edilən zaman verilən tələbləri təmin etməli, yaxud əksəriyyət tərəfindən qəbul edilmiş nüfuza malik hüquqşünaslar olmalıdırlar.

2. Hakimlər Məhkəmənin işində şəxsən iştirak edirlər.

3. Hakim vəzifəsində olduqları bütün müddət ərzində onların müstəqilliyi və qərəzsizliyi ilə, yaxud tam iş günü ərzində onların işlərinin xarakterindən irəli gələn tələblər ilə bir araya sığmayan heç bir fəaliyyəti həyata keçirmirlər. Bu bənddəki müddəaların tətbiqi ilə bağlı yaranan bütün məsələlər Məhkəmə tərəfindən həll edilir.

22-ci Maddə. Hakimlərin seçkiləri

1. Razılığa gəlmiş Yüksək Tərəflərin hər birindən hakimi Razılığa gəlmiş Yüksək Tərəflərin verdiyi üç namizədin daxil olduğu siyahıdan səs çoxluğu ilə Parlament Assambleyası seçir.

2. Məhkəmənin seçkiyəqədərki tərkibi yeni Razılığa gəlmiş Tərəflərin qoşulduğu, eləcə də açılmış vakansiyaların doldurulduğu hallarda oxşar proseduara fəaliyyət göstərir.

23-cü Maddə. Səlahiyyət müddəti

1. Hakimlər altı illik müddətə seçilirlər. Onlar yenidən seçilə bilərlər. Ancaq birinci tərkibdəki hakimlərin yarısının səlahiyyət müddəti seçildikləri andan 3 il keçdikdən sonra qurtarır.

2. Birinci üç illik müddətdən sonra səlahiyyətləri qurtaran hakimlər onların seçilməsindən dərhal sonra Avropa Şurasının Baş Katibi tərəfindən püşk yolu ilə müəyyənləşdirilir.

3. Məhkəmə tərkibinin yarısının hər üç ildən bir mümkün dərəcədə yeniləşməsini təmin etmək üçün Parlament Assambleyası istənilən sonrakı seçkilərin keçirilməsinədək belə bir qərar qəbul edə bilər ki, bir və ya bir neçə seçilməli hakimin müddətləri, yaxud səlahiyyət müddətləri altı il deyil, başqa cür, istənilən halda 9 ildən artıq və 3 ildən az olmayacaq.

4. Bir səlahiyyət müddətindən artıq müddətdən söhbət getdiyi və Parlament Assambleyası əvvəlki bəndin müddəa-

larını tətbiq etdiyi hallarda səlahiyyət müddətləri seçkilərdən dərhal sonra Avropa Şurasının Baş katibi tərəfindən püşk yolu ilə müəyyənləşdirilir.

5. Hələ səlahiyyət müddəti bitməyən başqa hakimi əvəzləmək üçün seçilən hakim bu postu əvvəlki hakimin səlahiyyətlərindən qalan müddət ərzində tutur.

6. Hakimlərin səlahiyyət müddəti onların 70 yaşına çatması ilə qurtarır.

7. Hakimlər öz postlarını dəyişdirilənədək tuturlar. Bununla belə, dəyişdirildikdən sonra da artıq icraatlarında olan işlərə baxmaqda davam edirlər.

24-cü Maddə. Vəzifədən azadetmə

Hakim vəzifəsindən yalnız digər hakimlərin üçdə iki səs çoxluğu ilə onun verilən tələblərə artıq uyğun gəlmədiyinə dair qərar qəbul etdikləri halda azad edilə bilər.

25-ci Maddə. Katiblik və hüquq referentləri

Hakimin hüququ, vəzifəsi və təşkilatı Məhkəmə Reqlamenti ilə müəyyənləşdirilən Məhkəmə Katibliyi var. Məhkəmə hüquq referentlərinin xidmətindən istifadə edir.

26-cı Maddə. Məhkəmənin plenar iclasları

Məhkəmə plenar iclaslarda:

a) üç il müddətinə öz sədrini və sədrin bir, yaxud iki müavinini seçir. Onlar yenidən seçilə bilərlər;

b) müəyyən müddət üçün yaradılan Palatalar təşkil edir;

j) Məhkəmə Palataları sədrini seçir. Onlar yenidən seçilə bilərlər;

d) Məhkəmə reqlamentini qəbul edir; və

e) Məhkəmənin Katib-kanslerini və onun bir, yaxud bir neçə müavinini seçir.

27-ci Maddə. Komitələr, Palatalar və Böyük Palata

1. Məhkəmə ona verilən işə baxmaq üçün hər birinin tərkibi üç hakimdən ibarət olan komitələri, tərkibi yeddi hakimdən ibarət olan Böyük Palatanı təşkil edir. Məhkəmənin Palataları müəyyən müddətə komitələr yaradır.

2. İşdə tərəf olan, dövlətin seçdiyi hakim, Palataların və Böyük Palatanın exofficio üzvüdür; belə bir hakim olmayanda,

yaxud o, iclasda iştirak edə bilmədiyi halda həmin dövlət hakim qismində çıxış edən bir şəxsi təyin edir.

3. Böyük Palatanın tərkibinə Məhkəmə Reqlamentinə uyğun olaraq təyin edilmiş Məhkəmə sədri, Məhkəmə sədrinin müavinləri, Palata sədrləri və Məhkəmənin digər üzvləri daxildir. 43-cü maddənin müddəalarına uyğun olaraq iş Böyük Palataya verilərkən, işdə tərəf olan, müvafiq dövləti təmsil edən Palata sədri və hakimlər istisna olmaqla, hökm çıxarmış Palata hakimlərindən heç biri onun iclaslarında iştirak etməməlidir.

28-ci Maddə. Şikayətlərin (ərizələrin) qəbuledilməzliyi haqqında komitələrin elanları

Komitə 34-cü maddəyə uyğun verilən fərdi şikayəti bir səslə qəbul olunan yekdil qərarla qəbuledilməz elan edə, şikayət əlavə öyrənilmədən qərar qəbul edildikdə onu baxılmalı işlərin siyahısından çıxara bilər. Bu qərar qətidir.

29-cu Maddə. Şikayətin qəbul oluna bilməsi və işin məğzi haqqında Palatanın qərarları

1. 28-ci maddədə nəzərdə tutulan qərarların heç biri qəbul edilmədikdə Palata 34-cü maddəyə uyğun olaraq verilən fərdi şikayətin qəbul oluna bilməsi və işin məğzi haqqında qərar çıxarır.

2. Palata 33-cü maddəyə uyğun olaraq verilən dövlət şikayətinin qəbul oluna bilməsi və işin məğzi haqqında qərar çıxarır.

3. Məhkəmə istisna kimi, əks qərar qəbul etmədikdə şikayətin qəbul oluna bilməsi haqqında ayrıca qərar çıxarır.

30-cu Maddə. Böyük Palatanın xeyrinə yurisdiksiyanın güzəşti

Palatanın baxışındakı iş Konvensiyanın və ya ona əlavə edilmiş Protokolların müddəalarının təfsiri ilə bağlı ciddi məsələlərə toxunursa, yaxud məsələlərin həllinin Məhkəmənin əvvəllər çıxardığı qərarla ziddiyyət təşkil edərsə, o zaman tərəflərin heç birinin etirazı olmadığı halda Palata öz qərarını çıxarana qədər yurisdiksiyasını Böyük Palatanın xeyrinə güzəştə gedə bilər.

31-ci Maddə. Böyük Palatanın səlahiyyətləri

Böyük Palata:

a) İstənilən palatalardan biri 30-cu maddənin müddəaları əsasında yurisdiksiyasını güzəştə getdikdə, yaxud 43-cü maddənin müddəalarına uyğyn olaraq, iş ona göndərildikdə 33-cü və ya yaxud 34-cü maddənin müddəalarına əsasən verilən şikayət üzrə qərar çıxarır.

b) məsləhətverici qərarlar çıxarmaq haqqında 47-ci maddənin müddəaları əsasında göndərilən sorğulara baxır.

32-ci Maddə. Məhkəmənin səlahiyyətləri

1. Konvensiyanın və ona əlavə Protokolların müddəalarının təfsir və tətbiqinə aid və 33, 34 və 47-ci maddələrin müddəalarında nəzərdə tutulan hallarda Məhkəməyə verilə bilən bütün məsələlər Məhkəmənin sərəncamındadır.

2. Konkret bir iş üzrə məhkəmənin səlahiyyəti haqqında mübahisə olduqda məsələni Məhkəmənin özü həll edir.

33-cü Maddə. Dövlətlərarası işlər

Razılığa gəlmiş Yüksək Tərəfin hər biri Konvensiyanın və ona əlavə edilən Protokolların müddəalarının digər Razılığa gəlmiş Yüksək Tərəfin güman edilən hər bir pozuntusu haqqında Məhəkəmədə məsələ qaldıra bilər.

34-cü Maddə. Fərdi şikayətlər

Məhkəmə bu Konvensiyada, yaxud ona əlavə Protokollarda qəbul edilmiş hüquqların Razılığa gəlmiş Yüksək Tərəflərin biri tərəfindən pozulmasının qurbanı olduğunu təsdiq edən hər bir fiziki şəxsdən, hər bir qeyri-hökumət təşkilatından, yaxud fərdi şəxslər qrupundan şikayət qəbul edə bilər. Razılığa gəlmiş Yüksək Tərəflər bu hüquqların səmərəli şəkildə həyata keçirilməsinə heç bir vəchlə mane olmamağı öhdələrinə götürürlər.

35-ci Maddə. Qəbul oluna bilmə şərtləri

1. Məhkəmə işə baxılması üçün onu ancaq beynəlxalq hüququn hamılıqla qəbul olunmuş normalarında nəzərdə tutulmuş müdafiənin bütün daxili vasitələri tükəndikdən sonra və milli orqanlar tərəfindən işə dair qəti qərar çıxarıldığı tarixdən altı ay ərzində qəbul edə bilər.

2. Məhkəmə 34-cü maddəyə əsasən verilən aşağıdakı fərdi şikayətin heç birini baxılmaq üçün qəbul etmir, əgər bu şikayət:

a) anonimdirsə;

b) Mahiyyətcə məhkəmədə artıq baxılmış şikayətin oxşarıdırsa, yaxud beynəlxalq araşdırmanın və ya tənzimlənmənin başqa prosedurasının predmetidirsə və işə dair yeni faktlar yoxdursa.

3. Məhkəmə 34-cü maddəyə uyğun verilən, ancaq bu Konvensiyanın, yaxud ona əlavə Protokolların müddəalarına uyğun gəlməyən, açıq-aşkar əsaslandırılmamış və ya şikayətlərin verilmə hüquqlarından sui-istifadə hesab etdiyi hər bir fərdi şikayəti qəbulolunmaz elan edir.

4. Məhkəmə mövcud maddəyə uyğun qəbul olunmaz hesab etdiyi verilən hər bir şikayəti rədd edir. O, bunu araşdırmanın istənilən mərhələsində edə bilər.

36-cı Maddə. Üçüncü tərəfin iştirakı

1.Palataların hər hansı birinin və ya Böyük Palatanın baxışında olan istənilən işə münasibətdə barəsində, vətəndaşı ərizəçi olan hər bir Razılığa gəlmiş Yüksək Tərəf yazılı rəylər verməkdə və Məhkəmə dinləmələrində iştirak etməkdə haqlıdır.

2.Ədalət məhkəməsinin lazımi icrasının xeyrinə Məhkəmə Sədri işdə tərəf olmayan hər bir Razılığa gəlmiş Yüksək Tərəfi, yaxud ərizəçi olmayan, ancaq işdə maraqlı hər bir şəxsi yazılı rəylər vermək, yaxud məhkəmə dinləmələrində iştirak üçün dəvət edə bilər.

37-ci Maddə. Maraqlı tərəflərin iştirakı ilə işə baxma prosedurası və dinc saziş prosedurası.

1. Məhkəmə şikayəti məqbul elan etdikdə:

a) Məhkəmə maraqlı tərəflərin təmsilçilərinin iştirakı ilə işə baxışı davam etdirir, zəruri olduqda işin vəziyyətinin araşdırılmasını həyata keçirir və bunun da səmərəli şəkildə yerinə yetirilməsi üçün maraqlı dövlətlər bütün zəruri şəraiti yaradırlar.

b) Məhkəmə bu Konvensiyada və ona əlavə Protokollarda qəbul olunmuş insan hüquqlarına əməl etmə əsasında işə dair

dinc saziş bağlamaq məqsədilə özünü marağı olan tərəflərin sərəncamına verir.

2. I bəndin "b" yarımbəndində nəzərdə tutulan iş qaydası məxfi xarakter daşıyır.

38-ci Maddə. İş icrasının dayandırılması.

1. Vəziyyət aşağıdakı nəticələri çıxarmaq imkanı verdikdə araşdırmanın istənilən mərhələsində Məhkəmə işin icrasının dayandırılmasına dair qərar qəbul edə bilər:

a) ərizəçi artıq öz şikayətinin baxılmasına nail olmaq fikrində deyil;

b) mübahisə yoluna qoyulmuşdur;

j) Məhkəmənin müəyyən etdiyi istənilən digər səbəbə görə, şikayətə sonrakı baxış əsassızdır.

Bununla belə bu Konvensiya və ona əlavə Protokollar ilə təmin olunmuş insan hüquqlarına əməl etmə bunu tələb etdikdə Məhkəmə şikayətə baxılmasını davam etdirir.

2. Məhkəmə bu addımı şəraitin doğurduğunu hesab edərsə, şikayəti baxılmalı işlərin siyahısına bərpa etmək haqqında qərar qəbul edə bilər.

39-cu Maddə. Dinc saziş bağlama

Dinc saziş bağlandıqda Məhkəmə faktların və əldə edilmiş nəticələrin yalnız xülasəsi verilən qərarlar çıxarmaq yolu ilə işi öz siyahısından çıxarır.

40-cı Maddə. Açıq məhkəmə iclasları və sənədlər ilə tanışlıq olu

1. Məhkəmə müstəsna hallarla bağlı başqa qərar qəbul etmədikdə onun iclasları açıqdır.

2. Saxlanmaq üçün Katibliyə verilmiş sənədlər Məhkəmə sədri başqa qərar qəbul etmədikdə ictimaiyyət üçün açıqdır.

41-ci Maddə. Ədalətli ödənc

Əgər Məhkəmə Konvensiyanın və ya ona əlavə Protokolların pozuntusunun baş verdiyini, Razılığa gəlmiş Yüksək Tərəflərin daxili hüququnun isə bu pozuntunun nəticələrini ancaq qismən aradan qaldırılmasına imkan verdiyini elan edərsə, zəruri halda zərər çəkmiş tərəfə ədalətli ödənc verir.

42-ci Maddə. Palatanın qərarları

Palatanın qərarları 44-cü maddənin 2-ci bəndinin müddəalarına əsasən qəti hal alır.

43-cü Maddə. İşin Böyük Palataya verilməsi

1. Palatanın müstəsna hallarda qərar çıxardığı tarixdən üç ay ərzində işdəki tərəflərdən istənilən birinin baxılması üçün işi Böyük Palataya vermək haqqında müraciəti mümkündür.

2. Bu Konvensiyanın və ya ona əlavə Protokolların müddəalarının təfsiri, yaxud tətbiqiylə bağlı ciddi bir məsələ, yaxud ümumi xarakterli başqa bir məsələ qaldırıldığı halda müraciəti Böyük Palatanın beş üzvündən ibarət Kollegiya qəbul edir.

3. Kollegiya müraciəti qəbul etdikdə Böyük Palata iş üzrə öz qərarını çıxarır.

44-cü Maddə. Qəti qərarlar

1. Böyük Palatanın qərarı qətidir.

2. Palataların hər birinin qərarı aşağıdakı hallarda qəti olur:

a) tərəflər işin Böyük Palataya verilməsinə dair xahiş edəcəklərini bildirmədikdə;

b) qərar çıxarıldığı tarixdən üç ay müddətində işin Böyük Palataya verilməsinə dair müraciət edilmədikdə;

j)Böyük Palatanın Kollegiyası 43-cü maddəyə əsasən işin verilməsi haqqında müraciəti rədd etdikdə;

3. Qəti qərar dərc edilməlidir.

45-ci Maddə. Qərar və hökmləri əsaslandırma.

1. Şikayətlərin qəbul olunması, yaxud qəbul olunmaması haqqında qərarlar, həmçinin hökmlər motivləşdirilməlidir.

2. Qərar hakimlərin yekdil fikrini bütövlüklə, yaxud qismən ifadə etmədikdə hər bir hakim özünün xüsusi fikrini təqdim etməkdə haqlıdır.

46-cı Maddə. Məcburi qüvvə və qərarların icrası.

1. Razılığa gəlmiş Yüksək Tərəflər tərəf olduqları iş üzrə qəti qərarı yerinə yetirməyi öhdələrinə götürürlər.

2. Məhkəmənin qəti qərarı Nazirlər Komitəsinə göndərilir və bu Komitə onun icrasına nəzarəti həyata keçirir.

47-ci Maddə. Məsləhətverici rəylər

1. Məhkəmə Nazirlər Komitəsinin xahişinə görə, Konvensiyanın və ona əlavə protokolların müddəalarının təfsirinə aid hüquqi məsələlər üzrə məsləhətverici rəylər çıxara bilər.

2. Bu rəylər nə Konvensiyanın I bölməsində və ona əlavə edilən protokollarda müəyyənləşdirilən hüquq və azadlıqların məzmun və ya həcminə, nə də Konvensiyada nəzərdə tutulan hər hansı bir müraciətə baxılarkən Məhkəmənin, yaxud Nazirlər Komitəsinin, ehtimal ki, qaldırmalı olacağı başqa məsələlərə toxunmamalıdır.

3. Nazirlər Komitəsinin Məhkəmədən məsləhətverici rəy verməsi sorğusu ilə bağlı qərarı Komitədə iclas aparmaq hüququ olan nümayəndələrin səs çoxluğu ilə qəbul edilir.

48-ci Maddə. Məsləhətverici rəylər ilə bağlı Məhkəmənin səlahiyyətləri

Məsləhətverici rəylə bağlı Nazirlər Komitəsinin göndərdiyi sorğunun, Məhkəmənin 47-ci maddədə müəyyənləşdirilən məsləhətverici səlahiyyətlərinə aid olub-olmaması haqqında məsələni Məhkəmə həll edir.

49-cu Maddə. Məsləhətverici rəyləri əsaslandırma

1. Məhkəmənin məsləhətverici rəyləri motivləşdirilməlidir.

2. Məsləhətverici rəy bütövlükdə, yaxud qismən hakimlərin yekdil fikrIIni ifadə etmədikdə, hər hansı bir hakim özünün xüsusi fikrini təqdim etməkdə haqlıdır.

3. Məhkəmənin məsləhətverici rəyləri Nazirlər Komitəsinə göndərilir.

50-ci Maddə. Məhkəmə xərcləri

Məhkəmənin fəaliyyətilə bağlı xərjləri Avropa Şurası ödəyir.

51-ci Maddə. Məhkəmənin imtiyaz və immunitetləri

Hakimlər öz funksiyalarını icra edərkən Avropa Şurası Nizamnaməsinin 40-cı maddəsində və onun əsasında bağlanmış sazişlərdə nəzərdə tutulan imtiyaz və immunitetlərdən istifadə edirlər.

III Bölmə. Müxtəlif müddəalar

52-ci Maddə. Baş katibin sorğuları

Razılığa gəlmiş Yüksək Tərəflərdən hər biri Avropa Şurası Baş katibinin xahişindən sonra bu Konvensiyanın müddəalarından istənilən birinin səmərəli tətbiqini öz daxili hüququnun necə təmin etməsinə dair izahat təqdim edir.

53-cü Maddə. Qəbul edilmiş insan hüquqlarının təminatı

Bu Konvensiyada heç nə Razılığa gəlmiş Yüksək Tərəflərdən istənilən birinin qanunvericiliyi, yaxud onun iştirak etdiyi başqa sazişilə təmin edilə bilən insan hüquqlarının və əsas azadlıqlarının hər hansı birinin məhdudlaşdırılması, azaldılması kimi şərh edilə bilməz.

54-cü Maddə. Nazirlər Komitəsinin səlahiyyətləri

Bu Konvnsiyada heç nə Avropa Şurasının Nizamnaməsi tərəfindən Nazirlər Komitəsinə verilmiş səlahiyyətləri azaltmır.

55-ci Maddə. Mübahisələri yoluna qoymağın başqa vasitələrindən imtina

Razılığa gəlmiş Yüksək Tərəflər xüsusi sazişlə başqası müəyyənləşdirilmədikdə, bu Konvensiyanın müddəalarının təfsiri və yaxud tətbiqiylə bağlı mübahisə ərizə göndərmək yolu ilə baxılmağa verilərkən onların arasında qüvvədə olan müqavilədən, konvensiyadan, yaxud bəyanatdan və mübahisəni yoluna qoymaq üçün bu Konvensiyada nəzərdə tutulandan başqa bir vasitədən istifadə etməməyə razılaşmışlar.

56-cı Maddə. Qüvvənin ərazi təsir sahəsi

1. Hər bir dövlət təsdiq zamanı və ya sonra Avropa Şurasının Baş Katibini xəbərdar edərək, bu maddənin 4-cü bəndini nəzərə almaqla Konvensiyanın bütün ərazilərinə, yaxud xarici əlaqələrinə görə məsuliyyət daşıdığı ərazilərdən birinə aid olduğunu bildirə bilər.

2. Konvensiya Avropa Şurası Baş Katibi xəbərdarlıq məktubunu aldıqdan sonra otuzuncu gündən başlayaraq bu məktubda göstərilən ərazidə, yaxud ərazilərdə qüvvəyə minir.

3. Bu Konvensiyanın müddəaları göstərilən ərazilərdə yerli şəraiti lazımi səviyyədə nəzərə alınmaqla tətbiq edilir.

4. Bu maddənin I bəndinə əsasən bəyanat vermiş hər bir dövlət sonradan istənilən vaxt bu bəyanatda göstərilən bir və ya bir neçə əraziyə görə bu Konvensiyanın 34-cü maddəsinə uyğun olaraq Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından, yaxud fərdi şəxslər qrupundan şikayət qəbul etmək səlahiyyətini tanımasına dair bəyanat verə bilər.

57-ci Maddə. Düzəliş qeydlər

1. İstənilən dövlət bu Konvensiyanı imzalayarkən, yaxud onun təsdiqnaməsini saxlanmağa təhvil verərkən həmin vaxt ərazisində qüvvədə olan bu və ya digər qanunun Konvensiyanın istənilən konkret bir müddəasına uyğun olmamasına dair bu müddəaya düzəliş verə bilər. Bu maddəyə əsasən ümumi xarakterli düzəliş-qeydlərə yol verilmir.

2. Bu Maddəyə əsasən istənilən düzəliş-qeyd müvafiq qanunun xülasəsini əhatə etməlidir.

58-ci Maddə. Etibarsız elan etmə

1. Razılığa gəlmiş Yüksək Tərəflər Konvensiya Tərəfi olduğu tarixdən yalnız beş il keçəndən və bu barədə digər Razılığa gəlmiş Tərəflər məlumatlandırılan bildirişin Avropa Şurası Baş Katibinə göndərilməsindən altı ay keçəndən sonra bu Konvensiyanı etibarsız elan edə bilər.

2. Etibarsız elan etmə müvafiq Razılığa gəlmiş Yüksək Tərəfi bu Konvensiya üzrə öhdəliklərin pozulması və etibarsız elan etmənin qüvvəyə mindiyi tarixə qədər ola bilən istənilən hərəkət barəsində bu Konvensiya üzrə öhdəliklərindən azad etmir.

3. Avropa Şurasının üzvü olmaqdan imtina edən Yüksək Tərəf həmin şərtlərlə də bu Konvensiyanın Tərəfi olmaqdan azad olur.

4. Əvvəlki bəndlərin müddəalarına əsasən Konvensiya 56-cı maddənin müddəalarına uyğun olaraq, qüvvəsinin aid edildiyi istənilən əraziyə münasibətdə etibarsız elan edilə bilər.

59-cu Maddə. İmzalanma və təsdiq edilmə

1. Bu Konvensiya Avropa Şurasının üzv dövlətləri tərəfindən imzalanmaq üçün açıqdır. O təsdiq edilməlidir. Təsdiqnamə saxlanmaq üçün Avropa Şurasının Baş Katibinə təhvil verilir.

2. Bu Konvensiya on ədəd təsdiqnamənin saxlanmaq üçün təhvil verilməsindən sonra qüvvəyə minir.

3. Konvensiyanı sonradan təsdiq edən dövlətlər üçün Konvensiya bu dövlətlər təsdiqnamələrini saxlanmağa təhvil verdikləri tarixdən qüvvəyə minir.

4. Avropa Şurasının Baş Katibi Konvensiyanın qüvvəyə minməsi, onu təsdiq etmiş Razılığa gəlmiş Yüksək Tərəflər və sonradan əldə edilə bilən təsdiqnamələrin təhvil verilməsi haqqında Avropa Şurasının üzv dövlətlərini xəbərdar edir.

1950-ci il 4 noyabr tarixində Romada ingilis və fransız dillərində yazılmış hər iki mətn eyni qüvvədə olub, vahid nüsxədə Avropa Şurasının arxivində saxlanılır. Baş Katib təsdiq edilmiş surətləri Konvesiyanı imzalamış dövlətlərə göndərir. (Bu Konvensiyanın mətni 11-ci protokola uyğun olaraq düzəldilmişdir),

İRQİ AYRISEÇKİLİYİN BÜTÜN FORMALARININ LƏĞV EDİLMƏSİ HAQQINDA BEYNƏLXALQ KONVENSİYA

21 dekabr 1965-ci il tarixində Baş Məclisin 2106 A(XX) saylı qətnaməsi ilə qəbul edilmiş imzalanmaq və təsdiq edilmək üçün açıqdır.

19-cu maddəyə uyğun olaraq, 4 yanvar 1969-cu il tarixində qüvvəyə minmişdir.

Bu Konvensiyanın iştirakçı dövlətləri;

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin hər bir insana məxsus ləyaqət və bərabərlik prinsiplərinə əsaslandığını və Təşkilatın bütün üzv dövlətlərinin Birləşmiş Millətlər Təşkilatının irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan hamı üçün insan hüquqlarına və əsas azadlıqlara hamılıqla hörmət təşviq edilməsi və inkişafı kimi əsas vəzifələrdən birinə əməl edilməsinə nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda birgə və müstəqil fəaliyyət göstərməyi öhdələrinə götürdüklərini hesab edərək,

İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin bütün insanların ləyaqət və hüquq baxımından azad və bərabər doğulduğunu və hər bir insanın heç bir fərq, xüsusən, irqinə, dərisinin rənginə, yaxud milli mənşəyinə fərq qoyulmadan, orada elan edilən bütün hüquq və azadlıqlara sahib olmalı olduğunuhesab edərək,

bütün insanların qanun qarşısında bərabər olduğunu və qanun tərəfindən hər cür ayrıseçkilikdən və ayrıseçkiliyə hər cür təhrikçilikdən bərabər müdafiə hüququna malik olduğunu hesab edərək,

Harada və hansı formada təzahür etməsindən asılı olmayaraq Birləşmiş Millətlər Təşkilatının müstəmləkəçiliyi, onunla bağlı seqreqasiya və ayrıseçkilik təcrübəsini pislədiyini və Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında 14 dekabr 1960-cı il tarixli (Baş Məclisin 1514(XV) saylı qətnaməsi) bəyannaməsində bütün bunlara təcili surətdə və sözsüz son qoyulmasının zəruriliyini təsdiq və təntənəli şəkildə bəyan etdiyini hesab edərək,

Birləşmiş Millətlər Təşkilatının irqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 20 noyabr 1963-cü il tarixli (Baş Məclisin 1904(XVIII) saylı qətnaməsi) bəyannaməsinini bütün dünyada irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinin tezliklə ləğv edilməsini və insan ləyaqəti, şəxsiyyətinin dərk edilməsinin və ona hörmətin təmin olunmasının zəruriliyini təntənəli şəkildə təsdiq etdiyini hesab edərək,

İrqi fərqlərə əsaslanan hər cür üstünlük nəzəriyyəsinin elmi baxımdan saxta, əxlaqi baxımdan çirkin, sosial baxımdan isə ədalətsiz və təhlükəli olduğuna görə irqi ayrıseçkiliyə harada olursa - olsun, nə nəzəri, nə də təcrübi baxımdan bəraət qazandırmanın mümkünsüzlüyünə əmin olaraq,

İnsanlara irqinə, dərisinin rənginə, yaxud etnik mənşə əlamətlərinə görə ayrıseçkilik qoyulmasının millətlər arasında dostluq və sülh münasibətlərinə mane olduğunu və xalqlar arasında sülh və təhlükəsizliyin, hətta eyni dövlət daxilində şəxslərin harmonik birgə yaşayışının pozulmasına gətirib çıxara biləcəyini təsdiq edərək,

İrqi əngəllərin mövcudluğunun istənilən insan toplusunun ideallarına zidd olduğuna əmin olaraq,

Dünyanın bəzi bölgələrində hələ də müşahidə edilən irqi ayrıseçkilik təzahürlərindən, həmçinin irqi üstünlük, yaxud aparteid, seqreqasiya və ya ayırma siyasətini irqi nifrət prinsiplərinə əsaslanan dövlət siyasətindən təşviş düşərək,

İrqi ayrıseçkiliyin bütün forma və təzahürlərini tezliklə ləğv etmək və irqlər arasında qarşılıqlı anlaşmaya nail olmaq və irqi seqreqasiya və irqi ayrıseçkiliyin bütün formalarından azad olan beynəlxalq birlik yaratmaq məqsədilə irqi nəzəriyyələrin və onların həyata keçilmə təcrübəsinin qarşısını almaq və kökünü kəsmək üçün bütün zəruri tədbirləri görmək əzmini bildirərək,

Beynəlxalq Əmək Təşkilatının 1958-ci ildə təsdiq etdiyi muzdla işə götürmə və əmək sahəsində ayrıseçkilik haqqında

Konvensiyanı və Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatının 1960-cı ildə təsdiq etdiyi təhsil sahəsində ayrıseçkiliyin qarşısının alınması haqqında Konvensiyanı nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının irqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında bəyannaməsində şərh olunmuş prinsiplərin həyata keçirilməsini və bu məqsədə nail olmaq üçün ən təcili praktik tədbirlərin görülməsini təmin etməyi arzulayaraq,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

I Hissə

1-ci Maddə

1. Bu Konvensiyada "irqi ayrıseçkilik" ifadəsi məqsədi, yaxud nəticəsi ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni, yaxud istənilən digər sahəsində bərabər əsasda insan hüquqları və əsas azadlıqların tanınmasını, istifadə edilməsini, yaxud həyata keçirilməsini məhv etmək və ya azaltmaq olan irq, dərinin rəngi, qəbilə, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan istənilən ayırmanı, istisnalığı, məhdudiyyəti, yaxud üstün tutulmanı bildirir.

2. Bu Konvensiyada heç nə iştirakçı dövlətlərin milli mənsubiyyətə, vətəndaşlığa, yaxud başqa dövlətin təbəəliyinə keçməyə dair qanunvericilik müddəalarına hansısa ölçüdə təsir göstərmək kimi yozula bilməz, bu şərtlə ki, belə qərarlarda müəyyən millət barəsində ayrı-seçkilik siyasəti yeridilməsin.

3. Müdafiəyə ehtiyacı olan bəzi irqi, yaxud etnik qrupların və ya ayrı-ayrı şəxslərin lazımi tərəqqisini təmin etmək müstəsna məqsədi ilə belə qrup, yaxud şəxslərin insan hüquqlarından və əsas azadlıqlardan bərabər istifadə etməsinin və onları bərabər həyata keçirməsinin təmin olunması üçün zəruri olan xüsusi tədbirlərin görülməsinə ancaq bu şərtlə irqi ayrıseçkilik kimi baxılmır ki, belə tədbirlər müxtəlif irqi qruplar üçün ayrıca hüquqların saxlanmasına gətirib çıxarmasın və onlar nail olunması üçün tətbiq edildiyi məqsədlər əldə edildikdən sonra qüvvədə qalmasın.

4-cü Maddə

İştirakçı dövlətlər bir irqin, yaxud dərisi müəyyən rəngli şəxslər qrupunun, yaxud etnik mənşənin üstünlüyü ideya və nəzəriyyələrinə əsaslanan, yaxud hansı formada olursa-olsun irqi nifrətə və ayrı-seçkiliyə bəraət qazandırmağa onu təşviq etməyə cəhd edən hər cür təbliğatı və təşkilatları pisləyir, belə ayrıseçkiliyə, yaxud ayrıseçkilik hərəkətlərinə təhrikçiliyin kökünün kəsilməsinə yönələn təcili və pozitiv tədbirlər görməyi öhdələrinə götürürlər və bu məqsədlə onlar insan hüquqlarının Ümumi bəyənnaməsinin prinsiplərinə, bu Konvensiyanın 5-ci maddəsində aydın şəkildə ifadəsini tapmış hüquqlara əsasən həmçinin:

a) irqi üstünlüyə, yaxud nifrətə əsaslanan ideyaların hər cür yayılmasını, irqi ayrıseçkiliyə hər cür təhrikçiliyi; eləcə də hər hansı bir irqə, başqa rəngli dəriyə və ya başqa etnik mənşəyə mənsub şəxslər qrupuna qarşı yönəldilmiş bütün zorakılıq hərəkətləri, yaxud belə hərəkətlərə təhrikçiliyi; həmçinin irqçi fəaliyyət göstərmək üçün, onun maliyyələşdirilməsi də daxil olmaqla, hər cür yardım göstərilməsini qanunla cəzaya layiq cinayət elan edirlər.

5-ci Maddə

Bu Konvensiyanın 2-ci maddəsində ifadə olunmuş əsas öhdəliklərə əsasən iştirakçı dövlətlər irqi ayrıseçkiliyin bütün formalarını yasaq və ləğv etməyi, irqinə, dərisinin rənginə, milli, yaxud etnik mənşəyinə görə fərq qoyulmadan hər bir insanın qanun qarşısında bərabərliyini təmin etməyi, xüsusən aşağıdakı hüquqları həyata keçirməyi öhdələrinə götürürlər:

a) məhkəmə və ədaləti icra edən bütün digər orqanlar qarşısında bərabərlik hüququ;

b) şəxsi təhlükəsizlik hüququ və istər vəzifəli hökumət adamları, istərsə də ayrı-ayrı şəxslər, qruplar, yaxud idarələr tərəfindən məruz qaldıqları zorakılığa, yaxud bədən xəsarətinə görə dövlət tərəfindən müdafiə olunmaq hüququ;

j) siyasi hüquqlar, xüsusən, ümumi və bərabər seçki hüququ əsasında keçirilən seçkilərdə iştirak etmək - səs vermək və öz namizədliyini irəli sürmək hüququ, ölkənin idarə

olunmasında, eləcə də bütün səviyyələrdə dövlət işlərinə rəhbərlikdə iştirak etmək hüququ, həmçinin dövlət qulluğuna girməkdə bərabərlik hüququ;

d) digər mülki hüquqlar, xüsusən

i) dövlətin hüdudları daxilində yerdəyişmək və yaşamaq azadlığı hüququ;

II) Öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ;

IIi. Vətəndaşlıq hüququ;

i v) Nigaha girmək və ər-arvad seçmək hüququ;

v) istər təkbaşına, istərsə də başqaları ilə birlikdə əmlak sahibliyi hüququ

v i) vərəsəlik hüququ;

vII) fikir, vicdan və din azadlığı hüququ;

vIIi) əqidə azadlığı və onu sərbəst ifadə etmək hüququ;

ix) dinc yığıncaqlar və assosiasiyalar yaratmaq hüququ;

e) iqtisadi, sosial və mədəni sahələrdə hüquqlar, xüsusən;

i) əmək, azad iş seçmək, ədalətli və əlverişli əmək şəraiti, işsizlikdən müdafiə, eyni əmək üçün bərabər ödəniş, ədalətli və qənaətləndirici haqq;

II) Həmkarlar ittifaqları yaratmaq və ona daxil olmaq hüququ;

IIi) mənzil hüququ;

iv) səhiyyə, tibbi yardım, sosial təminat və sosial xidmət hüququ;

v) təhsil və peşə hazırlığı hüququ;

vi) mədəni həyatda bərabər iştirak etmək hüququ;

f) ictimai istifadə üçün nəzərdə tutulan istənilən yerdən, yaxud istənilən xidmət növündən, məsələn nəqliyyat, mehmanxana, restoran, kafe, teatr və parklardan istifadə etmək, onlara daxil olmaq hüququ.

MÜLKİ VƏ SİYASİ HÜQUQLAR HAQQINDA BEYNƏLXALQ PAKT

23 mart 1966-cı il tarixində Baş Məclisin 2200 A (XXI) saylı qətnaməsi ilə qəbul edilmiş, imzalanmaq və təsdiq edilmək üçün açıqdır. Qüvvəyə minmişdir: 23 mart 1976-cı il

II Hissə

2-ci maddə

1. Bu Paktda iştirak edən hər bir dövlət onun ərazisinin hüdudları daxilində yurisdiksiyasında olan bütün şəxslərin bu Paktda etiraf olunan hüquqlarına heç bir fərq qoyulmadan, yəni irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli, yaxud, sosial mənşəyi, mülki vəziyyəti, doğuluşu, yaxud başqa hallar baxımından fərq qoyulmadan hörmət etməyi və onların təmin olunmasını öhdəsinə götürür.

2. Əgər hələlik mövcud qanunvericilik tədbirlərində və ya digər tədbirlərdə nəzərdə tutulmamışsa, bu Paktda iştirak edən dövlətlər öz ölkələrinin Konstitusiya qaydalarına və bu Paktın müddəalarına əsasən bu Paktda etiraf olunmuş hüquqların həyata keçirilməsi üçün zəruri ola biləcək belə qanunvericilik tədbirlərinin və digər tədbirlərin qəbul edilməsi üçün lazımi ölçü görməyi öhdələrinə götürürlər.

3. Bu Paktda iştirak edən hər bir dövlət öz üzərinə aşağıdakı öhdəlikləri götürür:

a) bu Paktda etiraf olunan hüquq və azadlıqları pozulmuş şəxsi həmin pozuntu hətta rəsmi şəxslər tərəfindən törədilmiş olsa belə, təsirli hüquqi müdafiə vasitələri ilə təmin etmək.

b) belə müdafiəyə ehtiyacı olan hər bir şəxsin hüquqi müdafiə hüququnun səlahiyyətli məhkəmə, inzibati, yaxud qanunvericilik hakimiyyəti orqanları, yaxud dövlətin hüquq sisteminin nəzərdə tutduğu digər səlahiyyətli orqan tərəfindən bərqərar olmasını təmin etmək və məhkəmə müdafiəsinin imkanlarını inkişaf etdirmək;

j) hüquqi müdafiə vasitələri verildikdə səlahiyyətli hakimiyyət tərəfindən onların tətbiqini təmin etmək.

4-cü Maddə

1. Dövlətdə millətin həyatını təhlükədə qoyan və mövcudluğu barədə rəsmi elan edilmiş fövqəladə vəziyyət yarandıqda, bu Paktda iştirak edən dövlətlər Pakt üzrə öhdəliklərindən geriçəkilmə tədbirlərini vəziyyətin kəskinliyinin tələb etdiyi dərəcədə görə bilərlər, bir şərtlə ki, belə tədbirlər onların beynəlxalq hüquqa dair digər öhdəlikləri ilə ziddiyyət təşkil etməsin və yalnız irq, dərinin rəngi, cins, dil, din, yaxud sosial mənşə əsasında ayrıseçkiliyə gətirib çıxarmasın.

2. Bu müddəa 6,7,8 (I və II bəndlər), 11, 15, 16 və 18-ci maddələrdən hər hansı bir geriçəkilmə üçün əsas ola bilməz.

3. Paktda iştirak edən dövlətlərdən istənilən biri hüququndan istifadə etdikdə, dərhal geri çəkildiyi müddəalar və onu belə geri çəkilməyə vadar edən səbəblər haqqında Birləşmiş Millətlər Təşkilatının Baş Katibi vasitəsilə həmin Paktda iştirak edən digər dövlətlərə məlumat verməlidir. Eləcə də həmin vasitəçi ilə onun bu geriçəkilməni dayandırdığı tarix bildirilməlidir.

III Hissə

14-cü Maddə

Hər kəsin ona qarşı irəli sürülən hər hansı cinayət ittihamına baxılarkən, tam bərabərlik əsasında ən azı aşağıdakılarla təminat hüququ var:

a)ona qarşı irəli sürülən ittihamın xarakteri və əsası haqqında onun başa düşdüyü dildə təcili qaydada və ətraflı xəbərdar edilmək;

i)məhkəmədə istifadə olunan dili başa düşmürsə, yaxud bu dildə danışmırsa, tərcüməçinin köməyindən pulsuz istifadə etmək;

18-ci Maddə

1. Hər bir insanın fikir, vicdan və din azadlığı hüququ var. Bu hüquqa özünün seçdiyi dini və ya əqidəni daşımaq, yaxud qəbul etmək, ibadəti icra edərkən, dini ayin və mərasimləri,

onlara aid adət və təlimləri yerinə yetirərkən öz dininə və əqidəsinə istər təkbaşına, istərsə də başqaları ilə birgə, açıq, yaxud xüsusi qaydada etiqad etmək azadlığı daxildir.

2. Heç kəs onun özünün seçdiyi dini və ya əqidəni daşımaq, yaxud qəbul etmək azadlığını azaldan məcburiyyətə məruz qalmamalıdır.

3. Dinə, yaxud əqidəyə etiqad azadlığı yalnız qanunla müəyyənləşdirilən və ictimai təhlükəsizliyin, asayişin, sağlamlıq və əxlaqın, həmçinin başqa şəxslərin əsas hüquq və azadlıqlarının qorunması üçün zəruri olan qədər məhdudlaşdırılmalıdır.

20-ci Maddə

2.Milli, irqi, dini nifrətin xeyrinə edilən ayrıseçkiliyə, düşmənçiliyə, yaxud zorakılığa təhrikçiliklə bağlı hər bir çıxış qanunla qadağan edilməlidir.

24-cü Maddə

1.Hər bir uşağın irq, dərisinin rəngi, cins, din, dil, milli, yaxud sosial mənşə, əmlak vəziyyəti, yaxud doğuluş əlamətlərinə görə heç bir ayrı-seçkiliyə məruz qalmadan ailəsi, cəmiyyət və dövlət tərəfindən azyaşlı vəziyyətinin tələb etdiyi müdafiə tədbirləri görülməsinə hüququ var.

25-ci Maddə

a) dövlət işlərinin aparılmasında həm bilavasitə, həm də azad seçilmiş nümayəndələrin vasitəsilə iştirak etmək;

b) ümumi və bərabər seçki hüququ əsasında gizli səsvermə yolu ilə keçirilən və seçicilərin öz iradələrini azad bildirməsini təmin edən həqiqi, vaxtaşırı seçkilərdə səs vermək və seçilmək;

j) öz ölkəsində ümumi, bərabərlik şəraitində dövlət qulluğuna buraxılmaq.

27-ci Maddə

Etnik, dil və din azlıqlarının mövcud olduğu ölkələrdə belə azlıqlara mənsub şəxslərin həmin qrupun digər üzvləri ilə birgə öz mədəniyyətindən faydalanmaq, öz dininə etiqad etmək və onun ayinlərini icra etmək, eləcə də öz doğma dilini işlətmək hüququ rədd edilə bilməz.

İQTISADI, SOSIAL VƏ MƏDƏNI HÜQUQLAR HAQQINDA BEYNƏLXALQ PAKT

Baş Məclisin 2200 A (21) saylı qətnaməsi ilə 16 dekabr 1966-cı il tarixdə qəbul edilmiş, imzalanmaq, təsdiq edilmək və qoşulmaq üçün açıqdır.
3 yanvar 1976-cı il tarixində qüvvəyə minmişdir.

II Hissə

2-ci Maddə

1. Bu Paktda iştirak edən dövlətlər Paktda elan edilmiş hüquqların irq, dərisinin rəngi, cins, din, dil, siyasi, yaxud digər əqidələr, milli, yaxud sosial mənşə, əmlak vəziyyəti, doğuluş və ya digər hallar ilə bağlı heç bir ayrıseçkiliyə yol vermədən həyata keçiriləcəyinə təminat verirlər.

III Hissə

13-cü Maddə

1. Bu Paktda iştirak edən dövlətlər hər bir insanın təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin inkişafına və onun ləyaqətinin dərk edilməsinə yönəldilməli insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Onlar daha sonra razılaşırlar ki, təhsil hər kəsin, azad cəmiyyətin yararlı iştirakçısı olmasına imkan yaratmalı, bütün irqi, etnik və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlüyə və dostluğa kömək etməli, Birləşmiş Millətlər Təşkilatının sülhü müdafiəsinə yardım göstərməlidir.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ YETKİNLİK YAŞINA ÇATMAYANLAR BARƏSİNDƏ ƏDALƏT MƏHKƏMƏSİNİN İCRASINA AİD MİNİMAL STANDART QAYDALARI ("PEKİN QAYDALARI")

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 40/33 saylı qətnaməsi ilə 10 dekabr 1985-ci il tarixdə qəbul edilmişdir.

III Hissə. Məhkəmə qərarlarının Çıxarılması və təsir tədbirlərinin seçilməsi

22. Peşəkarlıq və hazırlıq zərurəti

22.2 Yetkinlik yaşına çatmayanların işləri üzrə ədalət məhkəməsi orqanlarının işçilər heyəti yetkinlik yaşına çatmayanların işləri üzrə ədalət məhkəməsi sistemi ilə ünsiyyətə girən yetkinlik yaşına çatmayanların müxtəlif kateqoriyaları nəzərə alınmaqla seçilməlidir. Yetkinlik yaşına çatmayanların işləri üzrə ədalət məhkəməsi orqanlarında qadınların və milli azlıqların ədalətli təmsil olunmasını təmin etməyə çalışmaq lazımdır.

UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYA

Baş Məclisin 44/25 saylı qətnaməsi ilə 20 noyabr 1989-cu il tarixində qəbul edilmiş, imzalanmaq, təsdiq edilmək və qoşulmaq üçün açıqdır. 49-cu maddəyə əsasən 2 setnyabr 1990-cı il tarixində qüvvəyə minmişdir.

I Hissə

2-ci Maddə

1. İştirakçı dövlətlər onların yurisdiksiyası daxilində olan hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara uşağın və onun valideynlərinin, yaxud qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi, yaxud digər əqidələrindən, milli, etnik, yaxud sosial mənşəyindən, əmlak vəziyyətindən, uşağın sağlamlıq və doğuluş durumundan, yaxud hər hansı digər hallardan asılı olmayaraq, heç bir ayrıseçkiliyə yol vermədən hörmət göstərir və onları təmin edir.

29-cu Maddə

1. İştirakçı dövlətlər razılaşırlar ki, uşağın təhsili aşağıdakılara yönəldilməlidir:

d) uşağın azad cəmiyyətdə anlaşma, sülh, dözümlük, kişi və qadınların hüquq bərabərliyi və bütün xalqlar, etnik milli və dini qruplar, eləcə də yerli əhalidən olan şəxslər arasında dostluq ruhunda şüurlu həyata hazırlanmasına.

BÜTÜN MÜHACIR ZƏHMƏTKEŞLƏRIN VƏ ONLARIN AILƏ ÜZVLƏRININ HÜQUQLARININ QORUNMASI

Haqqında Beynəlxalq Konvensiya Baş Məclisin 45/178 saylı qətnaməsi ilə
18 dekabr 1990-cı il tarixində qəbul edilmişdir.
Qüvvəyə minməmişdir

II Hissə. Hüquqlar Barəsində Ayrıseçkiliyə Yol Verməmə

7-ci Maddə

İştirakçı dövlətlər insan hüquqları üzrə beynəlxalq sənədlərə əsasən, onların ərazisində, yaxud yurisdiksiyasında olan bütün mühacir zəhmətkeşlərin bu Konvensiyada nəzərdə tutulan hüquqlarına cins, irq, dərisinin rəngi, dil, din, yaxud, əqidə, siyasi, yaxud, digər baxışlar, milli, etnik, yaxud sosial mənşə, vətəndaşlıq, yaş, iqtisadi, əmlak, ailə və silk vəziyyəti və yaxud istənilən başqa bir əlamətlə bağlı heç bir fərq qoymadan hörmət bəsləməyi və həmin hüquqları bərpa etməyi öhdəsinə götürürlər.

MİLLİ, YAXUD ETNİK, DİN VƏ DİL AZLIQLARINA MƏNSUB OLAN ŞƏXSLƏRİN HÜQUQLARI HAQQINDA KONVENSİYA

Birləşmiş Millətlər Təşkilatinin
Baş Məclisinin 47/135 sayli qətnaməsi ilə
18 dekabr 1992-ci il tarixində qəbul edilmişdir

Baş Məclis,

Heç kəsə irq, cins, dil, yaxud din fərqi qoymadan insan hüquqlarına və əsas azadlıqlara hörməti təşviq etmək və inkişaf etdirmək, Nizamnamədə bəyan edildiyi kimi, Birləşmiş Millətlər Təşkilatının əsas məqsədlərindən biri olduğunu yenidən təsdiq edərək,

insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların hüquq bərabərliyinə, böyük və kiçik millətlərin bərabərliyinə inamı yenidən təsdiq edərək,

İnsan hüquqlarının Ümumi bəyannaməsinin nizamnaməsində soyqırımın qarşısını almaq və soyqırıma görə cəza haqqında Konvensiyada, irqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyada, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Paktda, din, yaxud əqidə əsasında dözümsüzlük və ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında bəyannamədə və uşaq hüquqları haqqında Konvensiyada, eləcə də ümumdünya, yaxud bölgə səviyyəsində qəbul edilmiş digər müvafiq beynəlxalq sənədlərdəki, Birləşmiş Millətlər Təşkilatının ayrı-ayrı üzv-dövlətləri arasında imzalanmış beynəlxalq sənədlərdəki prinsiplərin həyata keçirilməsinə kömək etməyə çalışaraq,

mülki və siyasi hüquqlar haqqında paktın 27-ci maddəsinin etnik, dini azlıqlara, yaxud dil azlıqlarına mənsub şəxslərin hüquqlarına aid müddəalarına əsaslanaraq,

milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüququnu təşviqin və qorumanın, həmin azlıqların

yaşadığı dövlətdə siyasi və sosial sabitliyə kömək etdiyini hesab edərək,

qanunun aliliyi əsasında cəmiyyətin bütövlükdə və demokratik çərçivə daxilində inkişafının ayrılmaz hissəsi kimi milli, yaxud etnik azlıqlara, din, dil azlıqlarına mənsub şəxslərin hüquqlarının daim təşviq edilməsi və həyata keçirilməsi xalqlar və dövlətlər arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsinə kömək edə biləcəyini qeyd edərək,

azlıqların müdafiəsində Birləşmiş Millətlər Təşkilatının mühüm rol oynamaq iqtidarında olduğunu hesab edərək,

Birləşmiş Millətlər Təşkilatı sistemi daxilində həmçinin insan hüquqları komissiyası və ayrıseçkiliyin qarşısını almaq və azlıqları müdafiə etmək yarımkomissiyası, İnsan hüquqları haqqında beynəlxalq paktları icra etmək məqsədi ilə yaradılmış orqanlar və insan hüquqları üzrə digər müvafiq beynəlxalq sənədlər tərəfindən milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüququnu təşviq və müdafiə etmək sahəsində bugünə qədər görülən işləri nəzərə alaraq,

azlıqların müdafiəsi, eləcə də milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüquqlarının təşviq və müdaiəsi sahəsində hökumətlərarası təşkilatlar və qeyri-hökumət təşkilatları tərəfindən görülən işləri nəzərə alaraq,

insan hüquqları üzrə beynəlxalq sənədləri milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüquqları ilə əlaqədar daha səmərəli şəkildə həyata keçirilməsini təmin etmək zərurətini qəbul edərək,

milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında bu Bəyannaməni elan edir:

1-ci Maddə

1. Dövlətlər onların müvafiq ərazilərində milli, yaxud etnik azlıqların varlığını və özünəməxsusluqlarını qoruyurlar və bu bənzərsizliyin inkişafı üçün şəraitin yaradılmasını təşviq edirlər.

2.Dövlətlər bu məqsədlərə nail olmaq üçün lazımi qanunvericilik tədbirlərini və digər tədbirləri görürlər.

2-ci Maddə

1. Milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin (bundan sonra azlıqlara mənsub şəxslər adlandırılacaq) şəxsi həyatda və açıq şəkildə sərbəst surətdə və müdaxilə olmadan, yaxud hər hansı bir formada ayrıseçkiliyə yol verilmədən öz mədəni nailiyyətlərindən faydalanmaq, öz dininə etiqad bəsləmək və dini adətlərini icra etmək, eləcə də öz dilini işlətmək hüququ var.

2. Azlıqlara mənsub şəxslərin mədəni, dini, ictimai, iqtisadi həyatda və dövlət həyatında fəal iştirak etmək hüququ var.

3. Azlıqlara mənsub şəxslərin milli səviyyədə, zəruri halda isə milli qanunvericiliyə zidd olmamaqla, mənsub olduqları azlıqlara, yaxud yaşadıqları bölgəyə dair bölgə səviyyəsində qərarların qəbul edilməsində fəal iştirak etmək hüquqları var.

4. Azlıqlara mənsub şəxslərin öz şəxsi assosasiyalarını yaratmaq və onların fəaliyyətini təmin etmək hüququ var.

5. Azlıqlara mənsub şəxslərin heç bir ayrıseçkilik olmadan öz qrupunun digər üzvləriylə, başqa azlıqlara mənsub şəxslərlə, eləcə də sərhəd əlaqəsi vasitəsilə digər dövlətlərin milli, etnik, dini, yaxud dil bağları ilə bağlı olduğu vətəndaşları ilə sərbəst və dinc əlaqə yaratmaq və davam etdirmək hüququ var.

3-cü Maddə

1. Azlıqlara mənsub şəxslər heç bir ayrıseçkiliyə yol verilmədən öz hüquqlarını, o cümlədən, bu Bəyannamədə ifadə edilən hüquqlarını istər fərdi qaydada, istərsə də öz qrupunun digər üzvləri ilə birgə həyata keçirə bilər.

2. Bu Bəyannamədə ifadə edilən hüquqlardan istifadə etmə və ya etməmə azlıqlara mənsub istənilən şəxsin durumu üçün heç bir mənfi nəticəyə gətirib çıxartmır.

4-cü Maddə

1. Dövlətlər zəruru halda azlıqlara mənsub şəxslərin özünün bütün insan hüquqları və azadlıqlarını heç bir ayrıseçkiliyə yol verilmədən və qanun qarşısında tam bərabərlik əsasında, tamamilə və səmərəli şəkildə həyata keçirə bilmələrini təmin etmək üçün tədbirlər görürlər.

2. Dövlətlər azlıqlara mənsub şəxslərin konkret fəaliyyətinin həyata keçirilməsi milli qanunvericiliyi pozduğu və beynəlxalq normalara zidd olduğu hallar istisna olmaqla, öz xüsusiyyətini ifadə etməsinə, öz mədəniyyətini, dilini, dinini, adət və ənənələrini inkişaf etdirməsinə imkan verən əlverişli şərait yaratmaq üçün tədbirlər görürlər.

3. Dövlətlə azlıqlara mənsub şəxslərin mümkün olan yerdə öz ana dilini öyrənmək, yaxud öz ana dilində təhsil almaq üçün lazımi imkanlara malik olmasından ötrü həyata keçə bilən müvafiq tədbirləri görürlər.

4. Dövlətlər zəruri hallarda öz ərazisində yaşayan azlıqların tarixinin, ənənələrinin, dil və mədəniyyətinin öyrənilməsini stimullaşdırmaq məqsədi ilə təhsil sahəsində, tədbirlər görürlər. Azlıqlara mənsub şəxsin bütövlükdə cəmiyyət həyatında zəruri olan bilikləri almağa müvafiq imkanı olmalıdır.

5. Dövlət azlıqlara mənsub şəxslərin öz ölkəsinin iqtisadi tərəqqisinin və inkişafının təmin edilməsində tam iştirak edə bilməsiylə bağlı lazımi tədbirləri görmək barədə məsələni nəzərdən keçirir

5-ci maddə

1. Milli siyasət və proqramlar azlıqlara mənsub şəxsin qanuni mənafelərinin lazımi dərəcədə nəzərə alınması ilə planlaşdırılır və həyata keçirilir.

2. Dövlətlər arasında əməkdaşlıq və yardım proqramları azlıqlara mənsub şəxsin qanuni mənafelərinin lazımi şəkildə nəzərə alınması ilə planlaşdırılır və həyata keçirilir.

6-cı Maddə

Dövlətlər qarşılıqı anlaşmanı və etimadı inkişaf etdirmək məqsədilə azlıqlara mənsub şəxslərə aid məsələlərdə, o cümlədən, məlumat və təcrübə mübadiləsində əməkdaşlıq etməlidirlər.

7-ci Maddə

Dövlətlər bu Bəyannamədə ifadə edilmiş hüquqlara hörməti təşviq etmək məqsədilə əməkdaşlıq etməlidirlər.

8-ci Maddə

1. Bu Bəyannamədə heç nə dövlətlərin azlıqlara mənsub şəxslər barəsində götürdükləri beynəlxalq öhdəlikləri yerinə yetirməsinə mane olmur. Xüsusən, dövlətlər iştirakçısı olduqları beynəlxalq müqavilə və sazişlərə uyğun olaraq üzərlərinə götürdükləri vəzifə və öhdəlikləri vicdanla yerinə yetirməlidirlər.

2. Bu Bəyannamədə ifadə edilən hüquqların həyata keçirilməsi hamının qəbul etdiyi insan hüquqları və əsas azadlıqların bütün şəxslər tərəfindən həyata keçirilməsinə zərər gətirmir.

3. Bu Bəyannamədə ifadə edilən hüquqların səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə dövlətlər tərəfindən görülən tədbirlər insan hüquqlarının ümumi Bəyannaməsində təsbit edilmiş bərabərlik prinsiplərinə zidd olan primafacie hesab edilmirlər.

4. Bu Bəyannamədə heç nə dövlətlərin siyasi müstəqilliyinə, ərazi bütövlüyünə, suveren bərabərliyinə hörmət prinsipləri də daxil olmaqla Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olan hər hansı bir fəaliyyətə yol verilmə kimi yozula bilməz.

9-cu Maddə

Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları və digər təşkilatlar bu Bəyannamədə ifadə edilən hüquq və prinsiplərin tam həyata keçirilməsinə öz müvafiq səlahiyyətləri daxilində yardım edirlər.

BEYNƏLXALQ CİNAYƏT MƏHKƏMƏSİNİN ROMA STATUTU

2-Cİ HİSSƏ. YURİSDİKSİYA, QƏBUL OLUNA BİLMƏ VƏ TƏTBİQ EDİLƏ BİLƏN HÜQUQ

6-cı Maddə. Soyqırım

Bu Statuta görə, "soyqırım" milli, etnik, irqi, yaxud dini qrupu tamamilə, yaxud qismən məhv etmək niyyətilə görülən aşağıdakı istənilən hərəkəti bildirir:

a) belə qrup üzvlərinin öldürülməsi;

b) belə qrup üzvlərinə ciddi bədən xəsarətlərinin yetirilməsi, yaxud onlarda əqli pozğunluq yaradılması;

j) hər hansı bir qrup üçün onun fiziki cəhətdən tamamilə, yaxud qismən məhv etməni nəzərdə tutan həyat şəraitinin əvvəlcədən düşünülərək yaradılması;

d) belə qrup içində uşaq doğumunun qarşısını almağı nəzərdə tutan tədbirlər;

e) uşaqların bir insan qrupundan başqa bir insan qrupuna zorla verilməsi.

7-ci Maddə. Bəşəriyyətə qarşı cinayət

h) eyniləşdirilən hər hansı bir qrupun, yaxud birliyin 3-cü bənddə müəyyənləşdirildiyi kimi siyasi, irqi, milli, etnik, mədəni, dini, gender səbəbinə, yaxud başqa motivlərə görə, həmin bənddə göstərilən hər hansı bir hərəkətlə, yaxud Məhkəmə yurisdiksiyası altına düşən hər hansı bir cinayətlə bağlı olaraq, beynəlxalq hüquqa əsasən hər yerdə yolverilməz qəbul edilən digər səbəblərə görə təqib edilməsi;

g) "təqib etmə" bu və ya digər qrupa, yaxud digər birliyə mənsubiyyət əlaməti üzrə beynəlxalq hüquqa zidd olaraq əsas hüquqlardan qəsdən və ciddi şəkildə məhrum etməni bildirir.

AZLIQLARA MƏNSUB ŞƏXSLƏRİN HÜQUQLARINI TƏMİN ETMƏK HAQQINDA KONVENSİYA

Minsk, 21 oktyabr 1994-cü il

Bu Konvensiyanın bundan sonra Razılığa gəlmiş Tərəflər adlandırılan iştirakçı dövlətləri;

Onların arasında dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsinin xalqlarının başlıca mənafelərinə, sülh və təhlükəsizlik işinə uyğun gəldiyini hesab edərək,

Demokratiyaya, azadlığa və ədalətə öz sədaqətini təsdiq edərək,

İnsan hüquqları sahəsində, o cümlədən insan hüquqlarının Ümumi bəyannaməsində, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda, iqtisadi, sosial, mədəni hüquqlar haqqında Beynəlxalq paktda, milli, yaxud etnik azlıqlara, din və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamədə, irqi ayrıseçkiliyin bütün formalarına qarşı mübarizə haqqında beynəlxalq Konvensiyada, soyqırım cinayətlərinin qarşısını almaq və bu cinayətlərə görə cəza haqqında Konvensiyada və insan hüquqları üzrə digər əsas sənədlərdə təsbit edilmiş beynəlxalq standartlara əməl etməyə öz sədaqətini təsdiq edərək,

Avropa təhlükəsizlik və əməkdaşlıq Müşavirəsinin Helsinki Yekun aktından, Madrid, Vyana və Helsinki yekun sənədlərindən, ATƏT-in insan meyarı üzrə Kopenhagen və Moskva müşavirələrinin sənədlərindən, mədəni irsə dair Krakov simpoziumu sənədindən, eləcə də, yeni Avropa üçün Paris xartiyasından irəli gələn öhdəliklərini nəzərə alaraq,

milli azlıqlara mənsub şəxslərin hüquqlarının hamının qəbul etmiş olduğu insan hüquqlarının ayrılmaz hissəsi olduğuna əsaslanaraq,

hər bir Razılığa gəlmiş Tərəfin ərazisində milli azlıqlara mənsub şəxslərin yaşadığını nəzərə alaraq,

göstərilən azlıqların yaşadıqları və yaşamaqda olduqları və öz əməkləri, özünəməxsusluqları və mədəniyyətləri ilə zənginləşdirdikləri cəmiyyətin ayrılmaz hissəsi olduğunu qəbul etmişdir.

milli azlıqlara mənsub şəxslərin hüquqlarının təşviqinin və müdafiəsinin onların yaşadıqları dövlətlərin siyasi və sosial sabitliyinə kömək hesab etmişdir;

eləcə də milli azlıqların hüquqlarını təmin etmək və bu məqsədlə əməkdaşlığın, həmçinin ikitərəfli sazişlər çərçivəsində, müvafiq mexanizmlərini yaratmaq üçün lazımi tədbirlərinin görülməsinin zəruriliyini qəbul edərək,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

1-ci Maddə

Bu Konvensiyaya görə, milli azlıqlara mənsub şəxslər dedikdə, Razılığa gəlmiş Tərəflərdən birinin ərazisində daimi yaşayan, onun vətəndaşlığını qəbul etmiş və etnik mənşəyinə, dilinə, mədəniyyətinə, dininə, yaxud ənənələrinə görə həmin Razılığa gəlmiş Tərəflərin əsas əhalisindən fərqlənən şəxslər başa düşülür.

2-ci Maddə

Razılığa gəlmiş Tərəflər təsdiq edirlər ki, milli azlıqlara mənsubiyyət əlaqədar şəxslərin fərdi seçim məsələsidir və belə bir seçimin göstərilən şəxslər üçün heç bir mənfi nəticəyə səbəb olmayacağına təminat verirlər.

3-cü Maddə

1. Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsub şəxslərə insan hüquqları sahəsində hamı tərəfindən qəbul edilmiş beynəlxalq standartlara və onun qanunvericiliyinə uyğun olaraq, mülkü, siyasi, sosial, iqtisadi, mədəni hüquq və azadlıqlar təminatını verir.

2. Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsubiyyət əlamətinə görə öz ərazisində vətəndaşların hər hansı bir ayrıseçkiliyə məruz qalmasına yol verməmək üçün tədbirlər görürlər.

3. Razılığa gəlmiş Tərəflər təsdiq edirlər ki, milli azlıqlara mənsub şəxslərin hüquqlarına hörmət həmin şəxslər tərəfindən

ərazisində yaşadıqları dövlətə münasibətdə öz öhdəliklərini yerinə yetirmələrini nəzərdə tutur.

4-cü Maddə

1.Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlığa mənsub şəxslər üçün öz etnik, dil, mədəni, yaxud, dini özünəməxsusluğunu fərdi qaydada, yaxud öz qrupunun üzvləri ilə birlikdə sərbəst surətdə ifadə etmək, saxlamaq və inkişaf etdirmək hüququnu tanıyır.

2. Razılığa gəlmiş Tərəflər öz siyasətlərində milli azlıqların qanuni mənafelərini nəzərdə tutmağı və onların etnik, dil, mədəni və dini özünəməxsusluqlarını saxlamaq, inkişaf etdirmək üçün əlverişli şərait yaratmaq məqsədilə lazımi tədbirləri görməyi öhdələrinə götürürlər. Belə tədbirlər bütün cəmiyyətin mənafeyinə xidmət edəcəkdir və Razılığa gəlmiş Tərəflərin digər vətəndaşlarının hüquqlarının məhdudlaşdırılmasına gətirib çıxarmamalıdır.

5-ci Maddə

1. Razılığa gəlmiş Tərəflərin hər biri milli azlıqlara mənsub şəxslərin ictimai və dövlət həyatında, xüsusən, bölgə səviyyəsində onların mənafelərinin müdafiəsinə aid məsələlərin həllində iştirak etmək hüquqlarını təmin etməyi öhdəsinə götürür.

2.Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsub şəxslərin milli qanunvericiliyə uyğun olaraq etnik, dil, mədəni və dini özünəməxsusluğunu saxlamaq və inkişaf etdirmək məqsədilə maarifçi, mədəni və dini xarakterli müxtəlif təşkilatlar (assosasiyalar, həmyerlilik və s.) yaratmaq hüququnu tanıyır.

Göstərilən təşkilatlar ictimai binaların, radio verlişləri, televiziya, mətbuat, digər kütləvi informasiya vasitələrindən istifadə ilə bağlı başqa bənzər təşkilatlara verilən hüquqlara malik olacaqlar.

6-cı Maddə

1. Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsub şəxslərin yaşadıqları dövlətin ərazisində öz aralarında sərbəst surətdə əlaqəni davam etdirmək hüququnu, eləcə də onları etnik mənşə, mədəniyyət, dil, yaxud dini etiqad baxımından bağlı olduqları dövlətlərin vətəndaşları və təşkilatları ilə əlaqə saxlamaq və bu əlaqəni davam etdirmək hüququnu tanıyır. Belə əlaqə və ünsiyyətlər Razılığa gəlmiş Tərəflərin milli qanunvericiliyinə zidd olmamalıdır.

2. Razılığa gəlmiş Tərəflər digər Razılığa gəlmiş Tərəflərin öz ərazisindəki məlumat-mədəniyyət mərkəzlərinin fəaliyyətini təşviq edəcəklər.

7-ci Maddə

1. Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsub şəxslərin öz ad və soyadlarını ana dillərində qəbul edildiyi kimi, rəsmi sənədlərdə işlətmək, eləcə də həm yazılı şəkildə, həm də rəsmiyyətçilik şəklində ana dilindən sərbəst surətdə istifadə etmək, bu dildə məlumat əldə etmək, öz ana dilində kütləvi informasiya vasitələrini yaratmaq da daxil olmaqla, belə məlumatları yaymaq və mübadilə etmək hüquqlarını tanıyır.

2. Razılığa gəlmiş Tərəflərdən hər biri milli qanunvericiliyə əsasən mümkün və zəruri olduğu yerdə rəsmi hakimiyyətlə ünsiyyətdə milli azlıqların dilindən istifadə üçün şərait yaradacaqdır.

8-ci Maddə

Razılığa gəlmiş Tərəflərdən hər biri milli azlıqlara mənsub şəxslərin öz məzhəbinə uyğun olaraq, dininə etiqad etmək və dini ayinlərini yerinə yetirmək, ibadət evlərini saxlamaq, dini ayinləri icra etmək üçün lazım olan əşyaları əldə etmək və onları işlətmək, eləcə də ana dilində maarifçi dini fəaliyyət göstərmək hüququnu tanıyır. Belə fəaliyyət milli qanunvericiliyə zidd olmamalıdır

9-cu Maddə

Bu Konvensiyanın 5-ci maddəsində göstərilən maarifçi, mədəni və dini xarakterli təşkilatlar həm könüllü pul və digər yardımlar hesabına maliyyələşdirilə bilər, eləcə də onların yerləşdiyi dövlətdən qanunvericiliyinə uyğun olaraq yardım ala bilər. Onlar eləcə də yerləşdikləri dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərtilə digər Razılığa

gəlmiş Tərəflərin dövlət və ictimai təşkilatlarından yardım ala bilərlər.

10-cu Maddə

Razılığa gəlmiş Tərəflər milli azlıqların etnik, dil, mədəni və dini özünəməxsusluqlarının saxlanılmasına kömək məqsədilə aşağıdakılara əməl edəcəklər;

a) Razılığa gəlmiş Tərəflərin hər biri öz qanunvericiliyinə uyğun olaraq dövlət dilini öyrənmək zəruriliyini qəbul etməklə mövcud tələbatı nəzərə alaraq, milli azlıqların müxtəlif mənbələrdən, o cümlədən bu Konvensiyanın 9-cu maddəsində nəzərdə tutulan mənbələrdən maliyyələşdirilən müxtəlif səviyyəli təhsil müəssisələrini və onların bölmələrini açmaq və saxlamaq da daxil olmaqla, ana dilini öyrənmək və ana dilində təhsil almaq üçün müvafiq şərati yaradacaqlar;

b)tədrisin milli azlığın dilində aparıldığı təhsil müəssisələrini və onların bölmələrini həmin dildə proqramlar, dərs vəsaiti və ədəbiyyatla təmin etmək, bu təhsil müəssisələrində, onların bölmələrində işləmək üçün mütəxəssislər hazırlığını kömək məqsədilə Razılığa gəlmiş Tərəflərin təhsil məsələlərinə baxan dövlət orqanları arasında əməkdaşlığa kömək edəcəklər;

j) milli azlıqların mədəni irslərini saxlamaq və öyrənmək, o cümlədən onların tarixi və mədəni abidələrinin mühafizəsini təmin etmək üçün tədbirlər görəcəklər;

d) tədris müəssisələrində və maarif təşkilatlarında dövlət mədəniyyəti və tarixi öyrənilərkən milli azlıqların tarix və mədəniyyətləri nəzərə alınacaqdır;

e)milli sənətlərin saxlanılmasına və inkişaf etdirilməsinə kömək edəcəklər.

11-ci Maddə

1.Razılığa gəlmiş Tərəflər milli azlıqların ikitərəfli bölgə və universal səviyyələrdə qüvvədə olan sənədlərinin sistemə salınması prosesinə kömək edəcəklər

2. Və bu məqsədlə Birləşmiş Millətlər Təşkilatı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı çərçivəsi daxilində ona yönəldilmiş səyləri müdafiə edəcəklər.

3. Razılığa gəlmiş Tərəflər milli azlıqların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatların norma yaradıcılığı təcrübəsindən istifadə edəcəklər.

12-ci Maddə

1. Razılığa gəlmiş Tərəflərin bu Konvensiyadan irəli gələn öhdəliklərindən heç biri dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət prinsipi daxil olmaqla, beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsip və normalarına zidd olan hər hansı bir fəaliyyət, yaxud hərəkət üçün səbəb kimi yozula bilməz.

2.Bu Konvensiyada ifadə edilən hüquqlar həyata keçirilərkən milli azlıqlara mənsub şəxslər yaşadıqları dövlətin qanunlarına əməl edəcəklər və həmçinin digər şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləyəcəklər.

13-cü Maddə

Bu Konvensiyanın yerinə yetirilməsinə nəzarət Müstəqil Dövlətlər Birliyi Nizamnaməsinin 33-cü maddəsinə müvafiq olaraq yaradılmış İnsan Hüquqları komisiyasına həvalə edilir.

1. Bu Konvensiya, onun qüvvəyə minməsi üçün Razılığa gəlmiş Tərəflərin zəruri dövlət daxili proseduranı yerinə yetirməsini təsdiq edən üçüncü bildirişin depozitariyə verildiyi gündən qüvvəyə minir.

2. Digər Razılığa gəlmiş Tərəflər üçün mövcud Konvensiya bu maddənin 1-ci hissəsində göstərilən dövlətdaxili proseduranın onların yerinə yetirdiyinə dair bildirişin depozitari tərəfindən alındığı tarixdən qüvvəyə minir.

3.Bu Konvensiyanın depozitari dövləti Belarus Respublikasıdır.

15-ci Maddə

Bu Konvensiyanın məqsəd və prinsiplərinə şərik olan digər dövlətlər onun qüvvəyə minməsindən sonra bu Konvensiyanın 14-cü maddəsinin birinci hissəsində göstərilən dövlətdaxili proseduranı yerinə yetirdiyini təsdiq edən bildirişi depozitariyə verməklə ona qoşula bilərlər. Göstərilən bildirişin depozitari tərəfindən alındığı tarix bu Konvensiyanın həmin dövlətlər üçün qüvvəyə mindiyi tarixdir.

16-cı Maddə

Razılığa gəlmiş Tərəflərdən hər hansı biri bu Konvensiyadan çıxdığını çıxma tarixindən ən azı 6 ay əvvəl depozitariyə xəbərdarlıq məktubu verməklə bildirə bilər.

21 oktyabr 1994-cü il tarixdə Minsk şəhərində rus dilində bir əsl nüsxədə yerinə yetirilmişdir. Əsl nüsxə Belarus Respublikası Hökumətinin Arxivində saxlanılır və Belarus Hökuməti onun təsdiq edilmiş surətini bu Konvensiyanı imzalamış dövlətlərin hər birinə göndərir.

II BÖLMƏ.
GÜRCÜSTAN QANUNVERICILIYI

GÜRCÜSTAN KONSTİTUSİYASI

Demokratik ictimai quruluşu, iqtisadi azadlığı, sosial və hüquqi dövləti, hamılıqla tanınmış insan hüququ və azadlıqlarının təminatı, dövlət müstəqilliyinin və digər xalqlarla dinc münasibətlərin möhkəmləndirilməsi, sarsılmaz iradəsi olan Gürcüstan vətəndaşları gürcü xalqının çoxəsrlik dövlətçilik ənənələrinə və Gürcüstanın 1921-ci il Konstitusiyasının əsas prinsiplərinə əsaslanaraq bu Konstitusiyanı elan edirlər.

I FƏSİL
ÜMUMİ MÜDDƏALAR

Maddə 1

1. Gürcüstan müstəqil, vahid və bölünməz dövlətdir, bu, Abxaziya MSSR və sabiq Cənubi Osetiya Muxtar Vilayəti də daxil olmaqla 1991-ci il martın 31-də ölkənin bütün ərazisində keçirilmiş referendumda və Gürcüstanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında 9 aprel 1991-ci il tarixli Aktla təsdiq olunmuşdur.

2. Gürcüstan dövlətinin siyasi quruluş forması demokratik respublikadır.

3. Gürcüstan dövlətinin adı - "Gürcüstan"dır.

Maddə 2

1. Gürcüstan dövlətinin ərazisi 1991 - ci il dekabrın 21-nə olan vəziyyət üzrə müəyyən edilmişdir. Ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı Gürcüstan Konstitusiyası və qanunvericiliyi ilə təsdiq edilmiş, dünya dövlətləri birliyi, habelə beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır.

2. Gürcüstan dövlətinin ərazisinin özgəninkiləşdirilməsi qadağandır. Dövlət sərhədlərinin dəyişdirilməsi yalnız qonşu dövlətlərlə ikitərəfli razılıq əsasında mümkündür.

3. Ölkənin dövlət-ərazi quruluşu Gürcüstanın bütün ərazisinə aiddir, onun yurisdiksiyası tam bərpa edildikdən sonra səlahiyyətlər və əşyaların idarə olunmasına hüdud qoyulması prinsipi əsasında Konstitusiya qanunu üzrə müəyyən ediləcəkdir.

4. Yerli əhəmiyyətli məsələləri Gürcüstan vətəndaşları dövlətin suverenliyinə zərər vurmadan yerli idarəetmə vasitəsilə həll edirlər. Yerli idarəetmə orqanlarının yaradılması, səlahiyyəti və dövlət orqanları ilə münasibətləri orqanik qanunla müəyyən edilir.

Maddə 3

1. Gürcüstanın ali dövlət orqanlarının müstəsna səlahiyyətinə aşağıdakılar daxildir:

a) Gürcüstan vətəndaşlığı, insan hüquq və azadlıqları, mühacirət və immiqrasiya, gəliş-gediş, digər dövlətlərin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin Gürcüstanda müvəqqəti, yaxud daimi qalması haqqında qanunvericilik;

b) dövlət sərhədlərinin statusu, onların rejimi və mühafizəsinin müəyyən edilməsi, Gürcüstanın ərazi sularının, fəza boşluğunun, kontinental şelfin və xüsusi iqtisadi zonanın statusu və mühafizəsi;

v) dövlətin müdafiəsi və təhlükəsizliyi, Silahlı Qüvvələr, hərbi sənaye və silah ticarəti;

q) hərb və sülh məsələləri, fövqəladə və hərbi vəziyyətlərin təyin edilməsi və hüquqi rejimi;

ğ) xarici siyasət və beynəlxalq münasibətlər;

d) xarici ticarət, gömrük və tarif rejimləri;

e) dövlət maliyələri və dövlət istiqrazları, pul kəsilməsi, bank, kredit və sığorta qanunvericiliyi;

ə) standartlar və etalonlar; geodeziya və kartoqrafiya; dəqiq vaxtın müəyyən edilməsi; dövlət statistikası;

c) vahid energetika sistemi və onun rejimi; rabitə; ticarət donanması; gəmilərin bayraqları; ümumdövlət əhəmiyyətli limanlar; aeroportlar və aerodromlar; fəza boşluğuna, tranzitə və hava nəqliyyatına nəzarət; hava nəqliyyatının qeydə alınması; meteorologiya xidməti; ətraf mühitin vəziyyəti üzərində müşahidə sistemi;

z) ümumdövlət əhəmiyyətli dəmir yolları və avtomobil yolları;

i) okeanda və açıq dənizdə balıq ovu;

y) sərhəd-sanitar kordonu;

k) əczaçılıq preparatları haqqında qanunvericilik;

g) ali və orta məktəblərin attestasiyadan keçirilməsi və akkreditasiyası, akademik, elmi, ixtisas rütbələri və dərəcələri haqqında qanunvericilik;

l) intellektual mülkiyyət haqqında qanunvericilik;

m) ticarət, cinayət, mülki, inzibati və əmək hüququ haqqında qanunvericilik, əmək-islah və prosessual qanunvericilik;

n) kriminal polisi və istintaq;

o) torpaq, yerin təki, təbii ehtiyatlar haqqında qanunvericilik.

2. Birgə idarəetmə məsələləri ayrıca müəyyən edilir.

Maddə 4

1. Gürcüstanın bütün ərazisində müvafiq şərait və yerli özünüidarəetmə orqanları yaradıldıqdan sonra Gürcüstan parlamenti iki palatadan - respublika şurasından və senatdan ibarət olacaqdır.

2. Respublika şurası proporsional seçkilər sistemi üzrə seçilmiş üzvlərdən ibarətdir.

3. Senat Abxaziyada, Acarıstanda və Gürcüstanın digər ərazi vahidlərində seçilmiş üzvlərdən, həmçinin Gürcüstan prezidenti tərəfindən təyin edilmiş beş senatordan ibarətdir.

4. Palata seçkilərinin tərkibi, səlahiyyəti və qaydası orqanik qanunla müəyyən edilir.

Maddə 5

1. Gürcüstanda dövlət hakimiyyətinin mənbəyi xalqdır. Dövlət hakimiyyəti Konstitusiyada müəyyən edilmiş hüdudlarda həyata keçirilir.

2. Xalq öz hakimiyyətini referendum, demokratiyanın bilavasitə digər formaları və öz nümayəndələri vasitəsi ilə həyata keçirir.

3. Dövlət hakimiyyətinə yiyələnməyə, yaxud qanunsuz olaraq onu ələ keçirməyə heç kəsin hüququ yoxdur.

4. Dövlət hakimiyyəti hakimiyyətlərin bölüşdülməsi prinsipi əsasında həyata keçirilir.

Maddə 6

1. Gürcüstan Konstitusiyası dövlətin Əsas Qanunudur. Bütün digər hüquq aktları Konstitusiyaya uyğunlaşdırılmalıdır.

2. Gürcüstan qanunvericiliyi beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsip və normalarına uyğundur, Gürcüstan Konstitusiyasına zidd olmayan Gürcüstanın beynəlxalq müqavilə və sazişləri dövlətdaxili normativ aktlardan üstün hüquqi qüvvəyə malikdir.

Maddə 7

Gürcüstan hamı tərəfindən qəbul olunmuş insan hüquqları və azadlıqlarını dəyişilməz və ali bəşəri sərvətlər kimi tanıyır və onlara əməl edir. Hakimiyyəti həyata keçirərkən xalq və dövlət bilavasitə fəaliyyətdə olan hüquq kimi bu hüquq və azadlıqlarla məhduddurlar.

Maddə 8

Gürcüstanın dövlət dili gürcü dili, Abxaziyada həmçinin abxaz dilidir.

Maddə 9

Dövlət Gürcüstan tarixində gürcü pravoslav kilsəsinin müstəsna rolunu tanıyır, bununla yanaşı dini əqidə və mənsəblərin tam azadlığını, kilsənin dövlətdən asılı olmadığını elan edir.

Maddə 10

Gürcüstanın paytaxtı Tbilisidir.

Maddə 11

Gürcüstanın dövlət rəmzləri orqanik qanunla müəyyən edilir.

II FƏSİL
GÜRCÜSTAN VƏTƏNDAŞLIĞI
İNSANIN ƏSAS HÜQUQ VƏ AZADLIQLARI

Maddə 12

1. Gürcüstan vətəndaşlığı anadan olmağa görə təbəəlik yolu ilə qazanılır.

2. Gürcüstan vətəndaşı eyni zamanda başqa dövlətin vətəndaşı ola bilməz.

3. Vətəndaşlığın qazanılması və itirilməsi qaydası orqanik qanunla müəyyənləşdirilir.

Maddə 13

1. Olduqları yerdən asılı olmayaraq Gürcüstan öz vətəndaşlarına himayəçilik edir.

2. Vətəndaşlıqdan məhrumetmə yolverilməzdir.

3. Gürcüstan vətəndaşının Gürcüstandan qovulmasına yol verilmir

4. Beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallardan başqa Gürcüstan vətəndaşının digər dövlətə verilməsi qadağandır. Vətəndaşın verilməsi haqqında qərar barədə məhkəməyə şikayət etmək olar.

Maddə 14

Bütün adamlar doğulduğu vaxtdan irqindən, dərisinin rəngindən, dilindən, cinsindən, dinindən, siyasi və digər baxışlarından, milli, etnik və sosial mənsubiyyətindən, mənşəyindən, əmlak və silki vəziyyətindən, yaşayış yerindən asılı olmayaraq azaddırlar və qanun qarşısında bərabərdirlər.

Maddə 15

1. Həyat insanın toxunulmaz hüququdur və o qanunla müdafiə olunur.

2. Müstəsna cəza tədbiri - ölüm cəzası tam ləğv olunanadək orqanik qanunla insan həyatına qarşı yönəldilmiş, xüsusilə ağır cinayətlər törədilməsinə görə nəzərdə tutula bilər. Bu cəzanı tətbiq etməyə yalnız Gürcüstan Ali Məhkəməsinin hüququ var.

Maddə 16

Hər kəsin şəxsiyyətini inkişaf etdirmək hüququ var.

Maddə 17

1. İnsanın şərəfi və ləyaqəti toxunulmazdır.

2. İnsana əziyyət verilməsi, qeyri-humanist, qəddarcasına, onun şərəfini və ləyaqətini alçaldan rəftar, yaxud cəza verilməsi qadağandır.

Maddə 18

1. İnsan azadlığı toxunulmazdır.

2. Məhkəmənin qərarı olmadan şəxsi azadlıqdan məhrum etməyə, yaxud başqa cür məhdudlaşdırmaya yol verilmir.

3. Qanunda nəzərdə tutulmuş hallarda xüsusi səlahiyyəti olan şəxs tərəfindən şəxsin tutulmasına yol verilir. Tutulmuş, yaxud başqa yolla azadlığı məhdudlaşdırılmış şəxs məhkəməyə aidiyyatına görə 48 saatdan gec olmayaraq müvafiq məhkəmə qarşısında durmalıdır. Əgər son 24 saat ərzində məhkəmə həbs, yaxud azadlığın digər məhdudiyyəti haqqında qərar qəbul etməzsə, şəxs təxirəsalınmadan azad olunmalıdır.

4. Tutulmuş, yaxud azadlığı başqa cür məhdudlaşdırılmış şəxsi fiziki, yaxud ruhi məcburetməyə yol verilmir.

5. Tutulmuş, yaxud həbsə alınmış şəxsə dərhal onun hüquqları və tutulmasının səbəbləri izah edilir. Tutulduğu və ya həbs olunduğu vaxtdan şəxs müdafiəçinin köməyini tələb edə bilər və bu tələb ödənilməlidir.

6. Cinayət törətməkdə şübhə doğuran şəxsin saxlanma müddəti 72 saatdan artıq, müttəhimin ilkin həbsi isə 9 aydan artıq olmamalıdır.

7. Bu maddənin tələblərinin pozulması qanunla cəzalandırılır. Qanunsuz olaraq tutulmuş, yaxud həbsə alınmış şəxsin kompensasiya hüququ vardır.

Maddə 19

1. Hər bir adamın söz, fikir, vicdan, əqidə və məzhəb azadlığına təminat verilir.

2. Söz, fikir, vicdan, əqidə və məzhəb azadlığından istifadə etməklə əlaqədar şəxsin izlənilməsi, habelə adamın həmin azadlıqlar barədə öz rəyini bildirməyə məcbur edilməsi qadağandır.

3. Əgər təzahürü digər şəxslərin hüquq və azadlıqlarını tapdalamırsa, bu maddədə sadalanan azadlıqların məhdudlaşdırılması qadağandır.

Maddə 20

1. Hər bir insanın şəxsi həyatı, onun iş yeri, şəxsi qeydləri, yazışmalar, telefonla, yaxud digər texniki vasitələrdən istifadə etməklə danışıqları, habelə texniki vasitələrlə alınmış məlumatları toxunulmazdır. Həmin hüquqların məhdudlaşdırılmasına məhkəmənin qərarı ilə, yaxud qanunda müəyyən edilmiş təxirəsalınmaz zərurətin yarandığı zaman onsuz (şəxsin iştirakı olmadan) yol verilir.

2. Sahibinin iradəsinin əleyhinə olaraq heç kəsin mənzilə, yaxud digər şəxsi malikanəyə girmək, habelə məhkəmənin qərarı olmadan, yaxud qanunla nəzərdə tutulmuş təxirəsalınmaz zərurət olmadan axtarış aparmaq hüququ yoxdur.

Maddə 21

1. Mülkiyyət və varislik hüququ tanınır və ona təminat verilir. Mülkiyyəti almaq, özəlləşdirmək, yaxud varisləşdirmək kimi ümumi hüququn ləğv olunması qadağandır.

2. Qanunla müəyyən edilmiş hallarda və müəyyən edilmiş qaydada zəruri ictimai ehtiyaclar üçün 1-ci bənddəki hüquqların məhdudlaşdırılmasına yol verilir.

3. Zəruri ictimai ehtiyaclar üçün mülkiyyətin ləğvinə, yalnız bilavasitə qanunla nəzərdə tutulmuş hallarda, məhkəmənin qərarı ilə, yaxud orqanik qanunda müəyyən edilmiş və təcili zərurət yarandığı, müvafiq mükafatlandırma zamanı yol verilir.

Maddə 22

1. Qanuni şəkildə Gürcüstanda olan hər kəs onun bütün ərazisində azad hərəkət etmək və yaşayış yerini sərbəst seçmək hüququna malikdir.

2. Qanuni şəkildə Gürcüstanda olan hər kəs Gürcüstandan sərbəst çıxıb gedə bilər, Gürcüstan vətəndaşının Gürcüstana sərbəst daxil olmaq hüququ vardır.

3. 1-ci və 2-ci bəndlərdəki hüquqların məhdudlaşdırılmasına ancaq qanuna müvafiq olaraq, demokratik cəmiyyətin möv-

cudluğu üçün zəruri olan dövlət təhlükəsizliyini, yaxud ictimai təhlükəsizliyi, sağlamlığın mühafizəsini təmin etmək, cinayətkarlığın qarşısını almaq, yaxud ədalət məhkəməsinin həyata keçirilməsi məqsədilə yol verilir.

Maddə 23

1. İntellektual yaradıcılıq azadlığına təminat verilir. İntellektual mülkiyyət hüququ toxunulmazdır.

2. Yaradıcılıq prosesinə müdaxilə edilməsinə, habelə yaradıcılıq fəaliyyəti sahəsində senzuraya yol verilmir.

3. Əgər yayılması digər şəxslərin qanuni hüquqlarını tapdalamırsa, yaradıcılıq əsərlərinin həbs edilməsinə və yayılmasının qadağan olunmasına yol verilmir.

Maddə 24

1. Hər bir insanın sərbəst surətdə məlumat almaq və yaymaq, öz fikirlərini şifahi, yazılı, yaxud digər formada yaymaq hüququ vardır.

2. Kütləvi informasiya vasitələri azaddırlar. Senzura qadağandır.

3. Dövlətin, yaxud ayrı-ayrı şəxslərin kütləvi informasiya vasitələrini və ya informasiya yayma vasitələrini inhisarlaşdırmağa hüququ yoxdur.

4. Bu maddənin 1-ci və 2-ci bəndlərində sadalanan hüquqların həyata keçirilməsi dövlət təhlükəsizliyini və ictimai təhlükəsizliyi, ərazi bütövlüyünü təmin etmək, cinayətkarlığın qarşısını almaq, başqalarının hüquq və ləyaqətlərini müdafiə etmək, məxfi sayılan informasiyanın yayılmasının qarşısını almaq və ya ədalət məhkəməsinin müstəqilliyini və qərəzsizliyini təmin etmək üçün demokratik cəmiyyətdə lazım olan şərtlərlə qanunla məhdudlaşdırıla bilər.

Maddə 25

1. Silahlı Qüvvələrdə, polisdə və təhlükəsizlik xidmətində, xidmətdə olan şəxslərdən başqa hamının əvvəlcədən icazə verilmədən kütləvi surətdə və silahsız olaraq həm binalarda, həm də açıq səma altında toplaşmaq hüququ vardır.

2. Əgər yığıncaq, yaxud nümayiş nəqliyyatın və adamların hərəkət etdiyi yerlərdə keçirilirsə, qanunla hökumət orqanlarına əvvəlcədən məlumat vermək tələbi müəyyənləşdirilə bilər.

3. Hakimiyyət orqanları yığıncağı, yaxud nümayişi yalnız onlar qanunazidd xarakter aldığı hallarda dayandıra bilərlər.

Maddə 26

1. Hamının ictimai təşkilatlar, o cümlədən həmkarlar ittifaqları yaratmaq və onlarda birləşmək hüququ vardır.

2. Orqanik qanuna müvafiq olaraq Gürcüstan vətəndaşları siyasi partiyalar, digər siyasi birliklər yaratmaq və onların fəaliyyətində iştirak etmək hüququna malikdirlər.

3. Gürcüstanın Konstitusiya quruluşunu devirmək, yaxud zorla dəyişdirmək, ölkənin müstəqilliyinə qəsd etmək, onun ərazi bütövlüyünü pozmaq, yaxud müharibəni və zorakılığı təbliğ etmək, milli, yerliçilik, dini və ya sosial ədavəti qızışdırmaq məqsədi güdən ictimai və siyasi birliklərin yaradılması və fəaliyyəti yolverilməzdir.

4. Ictimai və siyasi birliklərin silahlı formalaşmalar yaratması qadağandır.

5. Silahlı Qüvvələrin, Dövlət Təhlükəsizliyi Xidmətinin, yaxud Daxili işlər orqanlarının şəxsi heyətinə daxil edilmiş, hakim, yaxud prokuror təyin olunmuş şəxslər siyasi birliklərdə üzvlüyü dayandırırlar.

6. Ancaq məhkəmənin qərarı ilə orqanik qanunun müəyyən etdiyi hallarda və qaydada ictimai və siyasi birliklərin fəaliyyətinin dayandırılması və qadağan edilməsi mümkündür.

Maddə 27

Dövlətin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin siyasi fəaliyyəti üçün məhdudiyyət qoymaq hüququ vardır.

Maddə 28

1. 18 yaşına çatmış hər bir Gürcüstan vətəndaşı referendumda, dövlət orqanlarına və yerli idarəetmə orqanlarına seçkilərdə iştirak etmək hüququna malikdir. Seçicilərin öz iradələrini ifadə etmək azadlığı təmin olunur.

2. Məhkəmə tərəfindən əmək qabiliyyəti olmayan hesab edilmiş, yaxud məhkəmənin qərarı ilə həbs yerlərində cəza çəkən şəxslər seçkilərdə və referendumda iştirak etmirlər.

Maddə 29

1. Müəyyən edilmiş tələblərə uyğun gəlirsə, hər bir vətəndaş istənilən dövlət vəzifəsi tutmaq hüququna malikdir.

2. Dövlət xidmətinin şərtləri qanunla müyyən edilir.

Maddə 30

1. Əmək azaddır.

2. Dövlət azad sahibkarlığın, rəqabətin inkişafına yardım göstərməyə borcludur. Qanunla yol verilən hallardan başqa inhisarçılıq fəaliyyəti qadağandır. İstehlakçıların hüquqları qanunla müdafiə olunur.

3. Beynəlxalq əmək müqavilələrinə uyğun olaraq dövlət xargücdə Gürcüstan vətəndaşlarının hüquqlarını müdafiə edir.

4. Əmək hüquqlarının müdafiəsi, əməyin ədalətli ödənilməsi və təhlükəsiz, sağlam iş şəraiti, həddi-büluğa çatmamışların və qadınların iş şəraiti qanunla müəyyənləşdirilir.

Maddə 31

Dövlət ölkənin bütün ərazisinin bərabər sosial-iqtisadi inkişafına qayğı göstərir. Yüksək dağlıq rayonların sosial-iqtisadi tərəqqisini təmin edən güzəştlər qanunla müəyyənləşdirilir.

Maddə 32

Dövlət işsiz qalmış Gürcüstan vətəndaşlarının işlə təmin olunmasına yardım göstərir. Yaşayış minimumu ilə təmin etmək şərtləri və işsiz statusu qanunla müəyyənləşdirilir.

Maddə 33

Tətil hüququ tanınır. Bu hüququn həyata keçirilməsi qaydası qanunla müəyyənləşdirilir. Qanun həmçinin həyati cəhətdən vacib xidmətlərin fəaliyyətinə təminat verir.

Maddə 34

1. Dövlət mədəniyyətin inkişafına imkan yaradır, vətəndaşların mədəni həyatda məhdudiyyətsiz iştirakı, mədəni özünəməxsusluğu ifadə etməsi və zənginləşdirməsi, milli və ümumbəşəri sərvətlərin tanınması və beynəlxalq mədəni əlaqələrin dərinləşdirilməsi üçün şərait yaradır.

2. Hər bir Gürcüstan vətəndaşı mədəni irsin qorunmasına və saxlanmasına qayğı göstərməyə borcludur. Mədəni irs qanunla qorunur.

Maddə 35

1. Hamının təhsil almaq və onun formasını seçmək hüququ vardır.

2. Dövlət təhsil proqramlarının beynəlxalq qaydalara və standartlara uyğun gəlməsini təmin edir.

3. Məktəbəqədər tərbiyə dövlət tərəfindən təmin olunur. İbtidai təhsil icbaridir. Baza təhsili dövlət həsabına təmin edilir. Vətəndaşların qanunla müəyyən edilmiş qaydada və müəyyən edilmiş hüdudlarda dövlət təhsil ocaqlarında pulsuz orta, peşə təhsili və ali təhsil almaq hüququ vardır.

4. Dövlət qanunla müəyyən edilmiş qaydada maarif idarələrinə yardım edir.

Maddə 36

1. Nigah könüllü ittifaq kimi ər-arvadın hüquq bərabərliyinə əsaslanır.

2. Dövlət ailənin rifahına yardım göstərir.

3. Anaların və uşaqların hüquqları qanunla qorunur.

Maddə 37

1. Hər kəsin əlverişli tibbi yardım vasitəsi kimi sağlamlığını sığorta etmək imkanından istifadə etmək hüququ vardır. Qanunla müəyyən edilmiş qaydada müəyyən şərtlərlə pulsuz tibb xidməti təmin olunur.

2. Dövlət bütun səhiyyə təşkilatlarına, dərman vasitələrinin istehsalına və ticarətinə nəzarət edir.

3. Hamının sağlamlıq üçün zərərsiz mühitdə yaşamaq, təbii və mədəni mühitdən istifadə etmək hüququ vardır. Hamı təbii və mədəni mühiti qorumağa borcludur.

4. İnsanın sağlamlığı üçün təhlükəsiz mühit yaratmaq məqsədi ilə cəmiyyətin ekoloji və iqtisadi mənafeyinə müvafiq olaraq, indiki və gələcək nəsillərin mənafeyini nəzərə alaraq dövlət ətraf mühitin mühafizəsini və təbiətdən səmərəli istifadə olunmasını təmin edir.

5. Adamların öz yaşayış mühitinin və iş şəraitinin vəziyyəti haqqında tam, obyektiv və vaxtında informasiya almaq hüququ vardır.

Maddə 38

1. Gürcüstan vətəndaşları dilindən, milli, etnik və dini mənsubiyyətindən asılı olmayaraq sosial, iqtisadi, mədəni və siyasi həyatda bərabər hüquqludurlar. Hamılıqla qəbul edilmiş beynəlxalq hüququn prinsip və normalarına müvafiq olaraq onların sərbəst, heç bir ayrı-seçkilik və müdaxilə olmadan öz mədəniyyətini inkişaf etdirmək, şəxsi həyatda və açıq surətdə ana dilindən istifadə etmək hüququ vardır.

2. Hamılıqla qəbul edilmiş beynəlxalq hüququn prinsip və normalarına müvafiq olaraq azlıqların hüquqlarını həyata keçirilməsi Gürcüstanın suverenliyinə, dövlət quruluşuna, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə zidd olmamalıdır.

Maddə 39

Gürcüstan Konstitusiyası insanın və vətəndaşın bu qanunda xatırlanmağın, lakin öz-özlüyündə bu Konstitusiyanın prinsiplərindən irəli gələn, hamı tərəfindən qəbul edilmiş digər hüquqlarını, azadlıqlarını və təminatlarını rədd etmir.

Maddə 40

1. Təqsiri qanunla müəyyən edilmiş qaydada sübut edilməmiş və məhkəmənin ittihamnaməsi ilə qanuni qüvvəyə minməmiş şəxs müqəssir sayılmır.

2. Heç kəs özünün günahsızlığını sübut etməyə borclu deyildir. Sübut etmək vəzifəsi ittihamçıya həvalə olunur.

3. Şəxsin müttəhim sifəti ilə məsuliyyətə cəlb edilməsi haqqında qərar, ittihamnamə və hökm ancaq dəqiq sübutlara əsaslanmalıdır. Təsdiq olunmayan hər hansı ittiham qanunla müəyyən edilmiş qaydada müttəhimin xeyrinə həll edilməlidir.

Maddə 41

1. Hər bir Gürcüstan vətəndaşının qanunla müəyyən edilmiş qaydada, əgər dövlət, peşə və ya kommersiya sirri yoxdursa, onun haqqında dövlət müəssisəsində olan məlumatla, həmçinin rəsmi sənədlərlə tanış olmaq hüququ vardır.

2. Rəsmi idarələrdə olan, insanın sağlamlığı, onun maliyyəsi, yaxud digər şəxsi məsələlərlə bağlı informasiya ilə şəxsin özünün razılığı olmadan heç kəs tanış ola bilməz, dövlət təhlükəsizliyinin, ictimai asayişin təminatı, sağlamlığın mühafizəsi, habelə başqa hüquqlara və digər şəxslərin azadlıqlarına əməl olunması üçün zəruri olan qanunla müəyyənləşdirilmiş hallar istisnadır.

Maddə 42

1. Hər bir adam öz hüquq və azadlıqlarını müdafiə üçün məhkəməyə müraciət etmək hüququna malikdir.

2. Hər bir şəxs yalnız onun işinin yurisdiksiyasına aid olan məhkəmə tərəfindən mühakimə oluna bilər.

3. Müdafiə hüququna təminat verilir.

4. Eyni cəzaya görə heç kəs təkrar mühakimə edilə bilməz.

5. Törədilən vaxtdan hüquq pozuntusu sayılmayan hərəkətə görə heç kəs məsuliyyət daşımır. Məsuliyyəti yumşaltmayan, yaxud ləğv etməyən qanunun əks qüvvəsi yoxdur.

6. Müttəhimin öz şahidlərinin ittihamın şahidləri ilə bərabər şəraitdə çağırılıb dindirilmələrini tələb etmək hüququ vardır.

7. Qanunu pozmaqla əldə edilmiş sübutların hüquqi qüvvəsi yoxdur.

8. Heç kəs özünə qarşı, yaxud dairəsi qanunla müəyyən edilən yaxın adamlarına qarşı şahidlik etməyə borclu deyildir.

9. Dövlət orqanları, özünüidarəetmə orqanları, habelə onların qulluqçuları tərəfindən vurulmuş zərərin dövlət vəsaitləri hesabına məhkəmə qaydasında tam ödənilməsi üçün hamıya təminat verilir.

Maddə 43

1. Gürcüstan ərazisində şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsinə Gürcüstan parlamentinin tam tərkibinin səs çoxluğu ilə 5 il müddətinə seçdiyi Gürcüstan xalq müdafiəçisi nəzarət edir.

2. Xalq müdafiəçisi şəxsiyyətin hüquq və azadlıqlarının pozulması faktlarını aşkara çıxarmaq, bu barədə müvafiq or-

qanlara və şəxslərə məlumat vermək hüququna malikdir. Xalq müdafiəçisinin fəaliyyətinə maneələr törədilməsi qanunla cəzalandırılır.

3. Gürcüstan xalq müdafiəçisinin səlahiyyətləri orqanik qanunla müəyyən edilir.

Maddə 44

1. Gürcüstanda yaşayan hər bir şəxs Konstitusiyanın və Gürcüstan qanunvericiliyinin tələblərinə əməl etməyə borcludur.

2. Bir adamın hüquq və azadlıqlarının həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır.

Maddə 45

Konstitusiyada göstərilən əsas hüquq və azadlıqlar, onların məzmunu nəzərə alınmaqla həmçinin hüquqi şəxslərə də şamil edilir.

Maddə 46

1. Fövqəladə, yaxud hərbi vəziyyət zamanı Gürcüstan prezidenti ölkədə, yaxud onun müəyyən hissəsində 18, 20, 21, 22, 24, 25, 30, 33 və 41-ci maddələrdə sadalanmış hüquq və azadlıqları məhdudlaşdırmaq hüququna malikdir. Gürcüstan prezidenti həmin qərarı 48 saatdan gec olmayaraq parlamentin təsdiqinə verməlidir.

2. Fövqəladə, yaxud hərbi vəziyyət tətbiq edildikdə Gürcüstan prezidenti, parlamenti, digər səlahiyyətli orqanların seçkiləri bu vəziyyət ləğv edildikdən sonra keçirilir.

Maddə 47

1. Əcnəbi vətəndaşlar və Gürcüstanda yaşayan vətəndaşlığı olmayan şəxslər Konstitusiya ilə və qanunla nəzərdə tutulmuş hallardan başqa Gürcüstan vətəndaşları ilə bərabər hüquq və vəzifələrə malikdirlər.

2. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına müvafiq olaraq qanunla müəyyən edilmiş qaydada Gürcüstan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə sığınacaq verir.

3. Siyasi əqidəsinə görə, yaxud Gürcüstan qanunvericiliyinə əsasən cinayət sayılmayan hərəkətinə görə təqib olunan qaçqınların digər dövlətə verilməsi qadağandır.

III FƏSİL
GÜRCÜSTAN PARLAMENTİ

Maddə 48

Gürcüstan parlamenti qanunvericilik hakimiyyətini həyata keçirən, ölkənin xarici və daxili siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən, Konstitusiyada nəzərdə tutulan hüdudlarda hökumətin fəaliyyətinə nəzarət edən və digər səlahiyyətləri həyata keçirən ölkənin ali səlahiyyətli orqanıdır.

Maddə 49

1. Parlament gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında dörd il müddətinə seçilir. Parlament proporsional sistem üzrə seçilmiş 150 nəfər və macoritar sistem üzrə seçilmiş 85 nəfər üzvdən ibarətdir.

2. 25 yaşına çatmış, seçmək hüququ olan Gürcüstan vətəndaşı parlament üzvü seçilə bilər.

3. Parlamentin daxili strukturu və iş qaydası parlamentin reqlamenti ilə müəyyən edilir.

Maddə 50

1. Təşəbbüsü seçicilərin ən azı 50000 nəfərinin imzası ilə təsdiq edilmiş, yaxud seçkilər dövründə parlamentdə öz nümayəndəsi olan vətəndaşların qeydiyyatdan keçmiş siyasi birlikləri, macoritar sistem üzrə seçkilərdə isə təşəbbüsü ən azı 1000 imza ilə təsdiq olunmuş şəxs, yaxud sonuncu seçkilərin yekunlarına görə parlament üzvü olan şəxs qanunla müəyyən edilmiş qaydada seçkilərdə iştirak etmək hüququna malikdir.

2. Parlament üzvlərinin mandatları yalnız seçkilər zamanı proporsional sistem üzrə seçkilərdə iştirak etmiş seçicilərin səslərinin ən azı beş faizini almış siyasi birliklər və seçki blokları arasında bölüşdürülür.

3. Parlamentə növbəti seçkilər onun səlahiyyət müddəti keçənədək 15 gündən gec olmayaraq keçirilir. Əgər seçkilərin keçirilməsi müddəti hərbi, yaxud fövqəladə vəziyyətin fəaliyyəti ilə eyni dövrə düşərsə, seçkilər o ləğv olunduqdan sonra 60 gündən gec olmayaraq keçirilir. Seçkilərin tarixini seçki-

lərin başlanmasınadək 60 gündən gec olmayaraq Gürcüstan prezidenti təyin edir.

4. Yeni seçilmiş parlamentin ilk iclas keçirdiyi gündən parlamentin səlahiyyətləri dayandırılır.

5. Parlament üzvünün seçkiləri qaydası, habelə namizəd sifəti ilə seçkilərdə şəxsin iştirakının yolverilməzliyi Konstitusiya və orqanik qanunla müəyyən edilir.

Maddə 51

Yeni seçilmiş parlamentin ilk iclası seçkilər qurtardığı gündən sonra 20 gün ərzində keçirilməlidir. İlk iclasın keçirilməsi tarixini Gürcüstan prezidenti təyin edir. Parlament, onun üzvlərinin ən azı üçdə iki hissəsinin səlahiyyətləri tanındığı təqdirdə işə başlayır.

Maddə 52

1. Gürcüstan parlamentinin üzvü bütün Gürcüstanın nümayəndəsidir, azad mandatdan istifadə edir və onun geri çağırılmasına yol verilmir.

2. Parlament üzvünü cinayət məsuliyyətinə cəlb etməyə, tutmağa, yaxud həbs etməyə, yaşayış binasında, maşında, iş yerində axtarış aparmağa, habelə üstünün axtarılmasına ancaq parlamentin razılığı ilə yol verilir. Cinayət yerində tutulmaq istisna təşkil edir, bu barədə dərhal parlamentə məlumat verilir. Parlamentin razılıq vermədiyi təqdirdə, tutulmuş, yaxud həbsə alınmış parlament üzvü dərhal azad edilməlidir.

3. Parlament üzvü, parlament üzvü kimi ona etibar olunmuş faktlar üzrə ifadə verməkdən imtina etmək hüququna malikdir. Həmin faktlarla əlaqədar yazılı materialların həbs edilməsi yolverilməzdir. Həmin şəxsin bu hüququ, onun parlament səlahiyyətləri dayandırıldıqdan sonra da saxlanılır.

4. Parlament üzvü parlamentdə, yaxud ondan kənarda öz vəzifələrini icra edərkən ifadə etdiyi fikir və baxışlarına görə cinayət məsuliyyəti daşımır.

5. Parlament üzvünün öz səlahiyyətlərini maneəsiz həyata keçirməsi şərtləri təmin edilir. Parlament üzvünün ərizəsi əsasında müvafiq dövlət orqanları onun şəxsi təhlükəsizliyini təmin edirlər.

6. Parlament üzvlərinin öz səlahiyyətlərini həyata keçirmələri üçün maneələr yaradılması qanunla cəzalandırılır.

Maddə 53

1. Parlament üzvü dövlət xidmətində hər hansı vəzifə tuta bilməz, yaxud inhisarçılıq fəaliyyəti ilə məşğul ola bilməz. Bir neçə vəzifə aparma hallarını qanun müəyyən edir.

2. Əvvəlki bəndlərdə nəzərdə tutulmuş tələblər pozulduqda parlament üzvünün səlahiyyətləri dayandırılır.

3. Parlament üzvü qanunla nəzərdə tutulmuş haqqını alır.

Maddə 54

1. Parlament üzvünün səlahiyyətlərinin tanınması, yaxud vaxtından əvvəl dayandırılması məsələsini parlament həll edir. Parlamentin bu qərarı barədə Konstitusiya məhkəməsinə şikayət vermək olar.

2. Parlament üzvünün səlahiyyətləri aşağıdakı hallarda vaxtından əvvəl dayandırılır:

a) şəxsi ərizəsi əsasında səlahiyyətlərini dayandırdıqda;

b) məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü mövcud olduqda;

v) məhkəmə tərəfindən onun əmək qabiliyyətini itirmiş, xəbərsiz şəkildə itmiş, yaxud ölmüş sayıldığı hallarda;

q) vəzifə tutduğu, yaxud parlament üzvü statusuna uyğun olmayan fəaliyyət göstərdiyi təqdirdə;

ğ) Gürcüstan vətəndaşlığını itirdiyi halda;

d) parlament üzvü üzürsüz səbəbə görə parlamentin işində dörd aydan artıq iştirak etmədikdə;

e) öldüyü təqdirdə.

Maddə 55

1. Gürcüstan parlamenti reqlamentlə müəyyən edilmiş qaydada öz səlahiyyət müddəti ərzində gizli səsvermə yolu ilə Gürcüstan parlamentinin sədrini və sədrin müavinlərini, o cümlədən Abxaziyadan və Acarıstandan seçilmiş parlament üzvləri sırasından və onların təqdimatı ilə hərəsindən bir müavin seçir.

2. Parlamentin sədri parlamentin işinə rəhbərlik edir, rəylərin azad ifadə olunmasını təmin edir, parlamentin qəbul

etdiyi aktları imzalayır, reqlamentlə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

3. Parlament sədrinin tapşırığı ilə, onun öz səlahiyyətlərini həyata keçirməsi mümkün olmadığı halda, habelə vəzifədən kənar edildikdə sədrin vəzifəsini onun müavinləri yerinə yetirirlər.

4. Parlamentin sədri reqlamentdə müəyyən edilmiş qaydada parlamentin binasında bütün inzibati vəzifələri həyata keçirir.

Maddə 56

1. Məsələləri əvvəlcədən hazırlamaq, qərarların icrası üçün şərait yaratmaq, hökumətin və parlamentə tabe olan digər orqanların fəaliyyətinə nəzarət etmək məqsədilə parlamentdə onun səlahiyyət müddəti ərzində komitələr yaradılır.

2. Gürcüstan Konstitusiyası ilə və reqlamentlə nəzərdə tutulmuş hallarda, habelə parlament üzvlərinin ən azı dörddə birinin tələbi ilə parlamentdə istintaq komissiyası, yaxud başqa müvəqqəti komissiyalar yaradılır. Müvəqqəti komissiyada parlament əksəriyyətinin nümayəndəliyi komissiya üzvlərinin ümumi sayının yarısından artıq olmamalıdır.

3. İstintaq komissiyasının tələbi ilə onun iclasına gəlmək, habelə məsələnin öyrənilməsi üçün zəruri sənədlərin təqdim edilməsi məcburidir.

Maddə 57

1. Parlamentin işini təşkil etmək üçün parlament bürosu yaradılır, onun tərkibinə Gürcüstan parlamentinin sədri, sədrin müavinləri, parlament komitələri və fraksiyalarının sədrləri daxil olurlar.

2. Konstitusiyada sadalanan vəzifəli şəxslərin təyinatı ilə bağlı məsələlər müvafiq komitələrin qərarları əsasında və reqlamentlə müəyyən edilmiş qaydada parlament bürosunda müzakirə edilir. Həmin məsələlər üzrə büronun rəyi prezidentə və parlamentə təqdim olunur. Büro parlamentin işinə aid təşkilati məsələlər barədə qərar qəbul edir.

Maddə 58

1. Parlament üzvləri parlament fraksiyalarında birləşə bilərlər. Fraksiya üzvlərinin sayı ondan az olmamalıdır.

2. Fraksiyanın yaradılması və fəaliyyət qaydası, onların səlahiyyətləri qanunla və parlament qaydası üzrə müəyyən edilir.

Maddə 59

1. Parlament üzvü parlamentə tabe olan orqana, hökumət üzvünə, şəhər bələdiyyə rəisinə, bütün səviyyələrdən olan ərazi vahidlərinin icra orqanlarının rəhbərlərinə, dövlət idarələrinə sualla müraciət etmək və onlardan cavab almaq hüququna malikdir.

2. Ən azı on nəfərdən ibarət parlament üzvləri qrupunun, parlament fraksiyasının, parlamentə tabe olan orqana, hökumət üzvünə sorğu ilə müraciət etmək hüququ vardır, onlar parlamentin iclasında cavab verməyə borcludurlar. Cavab parlamentin müzakirə mövzusuna çevrilə bilər.

Maddə 60

1. Parlamentin iclasları açıq keçirilir. İştirak edənlərin əksəriyyətinin qərarı ilə ayrı-ayrı məsələlərin müzakirəsi zamanı parlament iclası, yaxud onun bir hissəsi qapalı elan edilə bilər.

2. Parlament tərəfindən seçilmiş və ya təyin olunmuş, yaxud təsdiq edilmiş vəzifəli şəxs parlamentin, onun komitələrinin, yaxud komissiyalarının iclaslarında iştirak etmək hüququna malikdir, parlamentin tələbi ilə isə borcludur. Həmin şəxslərin tələbi ilə onların çıxışları dinlənilməlidir.

3. Konstitusiyada və qanunla nəzərdə tutulmuş hallardan başqa səsvermə həmişə açıq və adbaaddır.

4. Açıqlanmalı olmayan məsələlərdən başqa parlamentin iclaslarının protokolları parlamentin mətbu orqanında dərc edilir.

Maddə 61

1. Gürcüstan parlamenti öz hüququ ilə ildə iki dəfə növbəti sessiyaya toplaşır. Payız sessiyası sentyabrın birinci çərşənbə axşamı açılır və dekabrın üçüncü cümə günü bağlanır. Yaz

sessiyası fevralın birinci çərşənbə axşamı açılır və iyulun son cümə günü bağlanır.

2. Gürcüstan prezidenti parlament sədrinin, parlament üzvlərinin ən azı dörddə birinin tələbi, yaxud öz təşəbbüsü ilə sessiyalararası dövrdə parlamentin növbədənkənar sessiyasını, növbəti sessiyanın işlədiyi dövrdə isə növbədənkənar iclasını çağırır. Əgər yazılı tələb təqdim edildiyi vaxtdan sonra 48 saat ərzində çağırış haqqında prezident aktı verilməmişsə, parlament reqlamentə müvafiq olaraq öz hüququ üzrə toplanır və 48 saat ərzində işə başlayır.

3. Parlamentin növbədənkənar iclası yalnız əvvəlcədən müəyyən edilmiş gündəliyə müvafiq olaraq keçirilir və bütün məsələlər qurtardıqdan sonra bağlanır.

4. Gürcüstan prezidenti tərəfindən fövqəladə, yaxud hərbi vəziyyət elan edildikdən sonra 48 saat ərzində parlament öz hüququ üzrə toplanır və hərbi, yaxud fövqəladə vəziyyət ləğv olunanadək onun işi davam etdirilir.

Maddə 62

Müharibə və sülh, hərbi və fövqəladə vəziyyət məsələləri üzrə, habelə Konstitusiyanın 46-cı maddəsində nəzərdə tutulmuş məsələlər üzrə parlamentin qərarı parlamentin tam tərkibinin çoxluğu tərəfindən qəbul edilir.

Maddə 63

1. 75-ci maddənin ikinci bəndində nəzərdə tutulmuş hallarda Gürcüstan prezidentinin vəzifədən əl çəkməsi haqqında məsələ qaldırmaq hüququ impiçment qaydasında parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsinə məxsusdur. Rəy almaq üçün məsələ Gürcüstan Ali Məhkəməsinə, yaxud Konstitusiya Məhkəməsinə verilir.

2. Əgər Ali Məhkəmə prezidentin hərəkətlərində cinayət tərkibi əlamətlərini təsdiq edərsə, yaxud Konstitusiya Məhkəməsi Gürcüstan Konstitusiyasının pozulduğunu qeyd edərsə, həmin orqanların rəylərini müzakirə etdikdən sonra parlament tam tərkibinin çoxluğu ilə impiçment qaydasında Gürcüstan prezidentinin öz vəzifəsindən əl çəkməsi barədə məsələ üzrə səsvermə keçirilməsi haqqında qərar qəbul edir.

3. Əgər parlamentin tam tərkibinin ən azı üçdə iki hissəsi həmin qərarın lehinə səs verərsə, prezident impiçment qaydasında vəzifədən əl çəkmiş sayılır.

4. Əgər parlament otuz gün ərzində qərar qəbul etməzsə, məsələ gündəlikdən çıxarılmış sayılır və sonrakı bir ildə həmin əsaslar üzrə ittiham irəli sürülməsinə yol verilmir.

5. Fövqəladə və hərbi vəziyyət, yaxud müharibə zamanı impiçment qaydasında prezidentə qarşı irəli sürülmüş ittihamın parlamentdə müzakirə olunmasına, yaxud prezidentin vəzifədən əl çəkməsi haqqında qərar qəbul edilməsinə yol verilmir.

Maddə 64

1. Ali Məhkəmənin sədrinin, hökumət üzvlərinin - nazirlərin, Baş Prokurorun, Nəzarət Palatası sədrinin və Milli Bank Şurası üzvlərinin vəzifədən kənar edilməsi haqqında məsələ qaldırmaq hüququ parlamentin tam tərkibinin ən azı üçdə bir hissəsinə məxsusdur. Yuxarıda göstərilən vəzifəli şəxslər tərəfindən Konstitusiyanın pozulması, dövlət xəyanəti, yaxud digər cinayətlər törədilməsi impiçment qaydasında təqib qaldırılması üçün əsas ola bilər.

2. 63-cü maddənin ikinci bəndində nəzərdə tutulmuş qaydada rəy aldıqdan sonra parlament tam tərkibinin çoxluğu ilə bu maddənin birinci bəndində göstərilmiş vəzifəli şəxslərin vəzifədən kənar edilməsi haqqında qərar qəbul etməyə səlahiyyətlidir. Belə hallara, həmçinin 63-cü maddənin 4-cü bəndinin təsiri də əlavə olunur.

Maddə 65

1. Gürcüstan parlamenti tam tərkibinin çoxluğu ilə beynəlxalq müqavilə və sazişləri təsdiq edir, etibarsız sayır və ləğv edir.

2. Təsdiqləmə nəzərdə tutulan beynəlxalq müqavilə və sazişlərdən başqa:

a) Gürcüstanın beynəlxalq təşkilatlara, yaxud dövlətlərarası ittifaqlara daxil olması nəzərdə tutulan;

b) hərbi xarakter daşıyan;

v) dövlətin ərazi bütövlüyünə, yaxud dövlət sərhədlərinin dəyişdirilməsinə aid olan;

q) dövlət tərəfindən kreditlər alınması və ya ayrılması ilə əlaqədar olan;

ğ) dövlətdaxili qanunvericiliyin dəyişdirilməsini, beynəlxalq təəhhüdlərin yerinə yetirilməsi üçün zəruri qanunlar və qanuni qüvvəsi olan aktlar qəbul olunmasını tələb edən beynəlxalq müqavilə və sazişlərin təsdiqlənməsi də məcburidir.

3. Digər beynəlxalq müqavilə və sazişlər bağlanması haqqında parlamentə məlumat verilməlidir.

4. Konstitusiya Məhkəməsinə şikayət, yaxud təqdimat verildiyi hallarda Konstitusiya Məhkəməsi tərəfindən qərar çıxarılanadək beynəlxalq müqavilənin, yaxud sazişin təsdiqlənməsinə yol verilmir.

Maddə 66

1. Əgər Konstitusiyada qanun layihəsi, yaxud qərar qəbul edilməsinin digər qaydası müəyyən edilməmişdirsə, əgər onlar iştirak edənlərin əksəriyyəti tərəfindən, ancaq parlamentin tam tərkibinin üçdə bir hissəsindən az olmamaqla bəyənilmişdirsə, qanun layihəsi, yaxud qərar parlament tərəfindən qəbul olunmuş sayılır.

2. Əgər parlamentin siyahı tərkibinin yarısından çoxu tərəfindən bəyənilmişdirsə, orqanik qanun layihəsi qəbul olunmuş sayılır.

3. Konstitusiyada başqa bir qayda müəyyən edilməmişdirsə, parlamentin razılığı qərar formasında qəbul edilir.

4. Digər qərarların qəbulu parlament qaydası ilə müəyyən edilir.

Maddə 67

1. Qanunvericilik təşəbbüsü hüququ Gürcüstan prezidentinə, parlament üzvünə, parlament fraksiyasına, parlament komitəsinə, Abxaziya və Acarıstanın ali təmsilçilik orqanlarına, ən azı 30. 000 seçiciyə məxsusdur.

2. Gürcüstan prezidentinin tələbi ilə onun təqdim etdiyi qanun layihələri növbədəkənar müzakirə olunur.

Maddə 68

1. Parlament tərəfindən qəbul edilmiş qanun layihəsi beş gün ərzində Gürcüstan prezidentinə verilir.

2. Prezident 10 gün ərzində qanunu imzalayıb dərc edir, yaxud əsaslandırılmış qeydlərlə parlamentə qaytarır.

3. Əgər prezident qanun layihəsini geri qaytararsa, parlament prezidentin qeydlərini səsverməyə qoyur. Onların qəbul edilməsi üçün Konstitusiyanın 66-cı maddəsində bu cür qanun layihələri üçün müəyyən edilmiş səslərin miqdarı kifayətdir. Əgər bu qeydlər qəbul olunarsa, qanun layihəsinin son redaksiyası prezidentə verilir, o, 7 gün ərzində qanunu imzalayır və dərc edir.

4. Əgər parlament prezidentin təkliflərini qəbul etmirsə, qanun layihəsinin ilkin redaksiyası səsverməyə qoyulur. Əgər parlamentin siyahı tərkibinin ən azı beşdə üç hissəsi onun lehinə səs verərsə, qunun, yaxud orqanik qanun qəbul olunmuş sayılır. Əgər parlamentin tam tərkibinin ən azı üçdə iki hissəsi lehinə səs vermişsə, Konstitusiyaya düzəlişlər qəbul olunmuş sayılır.

5. Prezident müəyyən edilmiş müddətdə qanunu dərc etmədikdə onu parlamentin sədri imzalayır və dərc edir.

6. Əgər qanunda digər müddət müəyyən edilməmişdirsə, qanun rəsmi orqanda dərc edildiyi vaxtdan sonra 15-ci gün qüvvəyə minir.

IV FƏSİL
GÜRCÜSTAN PREZİDENTİ

Maddə 69

1. Gürcüstan prezidenti Gürcüstan dövlətinin başçısı və icra hakimiyyətinin başçısıdır.

2. Gürcüstan prezidenti daxili və xarici siyasəti istiqamətləndirir və həyata keçirir. O, ölkənin, birliyini və bütövlüyünü, habelə Konstitusiyaya müvafiq olaraq dövlət orqanlarının fəaliyyətini təmin edir.

3. Gürcüstan prezidenti xarici əlaqələrdə Gürcüstanın ali təmsilçisidir.

Maddə 70

1. Gürcüstan prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə beş il müddətinə seçilir. Eyni şəxs ancaq iki dəfə dalbadal prezident seçilə bilər.

2. Doğulduğu gündən Gürcüstan vətəndaşı olan, 35 yaşına çatmış, ən azı 15 il Gürcüstanda yaşamış və seçkilər təyin olunan günədək Gürcüstanda yaşayan, seçki hüququna malik olan Gürcüstan vətəndaşı prezident seçilə bilər.

3. Siyasi birlik, yaxud təşəbbüs qrupu prezidentin namizədliyini irəli sürmək hüququna malikdir. Namizədin irəli sürülməsi ən azı 50 min seçicinin imzası ilə təsdiq edilməlidir.

4. Əgər seçicilərin ümumi sayının əksəriyyəti iştirak etmişdirsə, seçkilər etibarlı sayılır. Səsvermədə iştirak edən seçicilərin yarısından çoxu səs vermişdirsə, namizəd seçilmiş sayılır.

5. Əgər seçkilər etibarlı sayılmış, lakin namizədlərdən heç biri seçicilərin səsinin müəyyən olunmuş miqdarını qazanmamışdırsa, iki həftədən sonra seçkilərin ikinci turu keçirilir.

6. İkinci turda birinci turda yaxşı nəticələr qazanmış iki namizədə səs verilir. Əgər seçicilərin ümumi sayının ən azı üçdə bir hissəsi iştirak etmişdirsə, ikinci tur etibarlı sayılır. Daha çox səs qazanmış namizəd bu şərtlə seçilmiş sayılır ki, bu rəqəm seçicilərin ümumi sayının səsinin ən azı beşdə birini təşkil etsin.

7. Əgər seçkilər etibarsız sayılmış, yaxud etibarlı sayılmışdırsa, ancaq birinci turda bir namizəd iştirak etmiş və o da lazımı miqdarda səs almamışdırsa, yaxud əgər ikinci turda prezident seçilməmişdirsə, son iki ay ərzində təkrar seçkilər keçirilir.

8. Hərbi, yaxud fövqəladə vəziyyət dövründə seçkilər keçirilmir.

9. Prezidentin növbəti seçkilərinin birinci turu əvvəlki seçkilər keçirildikdən beş il sonra, aprelin ikinci bazar günü keçirilir.

10. Prezident seçkilərinin keçirilməsinin qayda və şərtləri Konstitusiya və orqanik qanunla müəyyən edilir.

Maddə 71

1. Yeni seçilmiş Gürcüstan prezidenti vəzifəyə qədəm qoyarkən proqram nitqi söyləyir və aşağıdakı andı içir: "Mən, Gürcüstan prezidenti, Allah və Xalq qarşısında elan edirəm ki, Gürcüstan Konstitusiyasını, ölkənin müstəqilliyini, bütövlüyünü və bölünməzliyini qoruyacaq, prezident vəzifəsini vicdanla yerinə yetirəcək, ölkəmin vətəndaşlarının təhlükəsizliyinə və rifahına, xalqımın və Vətənimin qüdrətinin dirçəlməsinə qayğı göstərəcəyəm".

2. Birinci bənddə nəzərdə tutulmuş mərasim prezident seçkilərindən sonra üçüncü bazar günü keçirilir.

Maddə 72

Gürcüstan prezidenti eyni zamanda başqa vəzifə tuta bilməz, sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz, hər hansı digər fəaliyyətinə görə əmək haqqı, yaxud digər daimi mükafat ala bilməz.

Maddə 73

1. Gürcüstan prezidenti:

a) xarici dövlətlərlə beynəlxalq müqavilələr və sazişlər bağlayır, danışıqlar aparır; parlamentin razılığı ilə Gürcüstan səfirlərini və digər diplomatik nümayəndələri vəzifəyə təyin və vəzifədən azad edir. Xarici dövlətlərin və beynəlxalq təşkilatların səfirləri və digər diplomatik nümayəndələri onun yanında vəkil edilir;

b) parlamentin razılığı ilə hökumət üzvlərini -nazirləri təyin edir;

v) nazirləri vəzifədən azad etməyə səlahiyyətlidir;

q) nazirlərin və qanunla müəyyən edilmiş digər vəzifəli şəxslərin istefasını qəbul edir, yeni hökumət yaradılanadək onlara öz xidmət vəzifələrini yerinə yetirmələrini tapşırmağa səlahiyyətlidir;

ğ) parlament komitələri ilə əsas göstərici və istiqamətləri razılaşdırdıqdan sonra Gürcüstan dövlət büdcəsinin layihəsini parlamentə təqdim edir;

d) Konstitusiya, yaxud qanunla müəyyən edilmiş hallarda və qaydada vəzifəli şəxsləri parlamentə təqdim edir, vəzifəyə təyin və vəzifədən azad edir;

e) Gürcüstana silahlı hücum edildiyi hallarda hərbi vəziyyət elan edir, müvafiq şərait olduqda sülh bağlayır, 48 saatdan gec olmayaraq həmin qərarı parlamentin təsdiqinə verir;

ə) müharibə, yaxud kütləvi iğtişaş zamanı, ölkənin ərazi bütövlüyü pozulduqda, hərbi çevriliş, yaxud hərbi qiyam, ekoloji fəlakət, yaxud epidemiya baş verdikdə və dövlət hakimiyyəti orqanları öz Konstitusiya səlahiyyətlərini normal həyata keçirmək imkanından məhrum olduqda bütün ərazidə, yaxud onun hər hansı hissəsində fövqəladə vəziyyət elan edir və 48 saatdan gec olmayaraq bu qərarı parlamentin təsdiqinə verir. Fövqəladə vəziyyət zamanı qanuni qüvvəsi olan dekretlər verir, həmin dekretlər fövqəladə vəziyyət qurtaranadək fəaliyyət göstərir; fövqəladə tədbirlər görür. Dekretlər parlamentin öz işinə başlaması ərəfəsində ona təqdim olunur. Fövqəladə səlahiyyətlər yalnız bu bənddə göstərilmiş əsaslar üzrə fövqəladə vəziyyət elan edilmiş əraziyə şamil edilir;

c) əgər hərəkətləri ölkənin suverenliyi, ərazi bütövlüyü üçün dövlət orqanları tərəfindən öz Konstitusiya səlahiyyətlərinin həyata keçirilməsi üçün təhlükə törədirsə, parlamentin razılığı ilə səlahiyyətli yerli özünüidarəetmə orqanlarının və ərazi vahidlərinin fəaliyyətini dayandırmaq, yaxud buraxmaq hüququna malikdir;

z) Konstitusiya və qanun əsasında fərmanlar və sərəncamlar verir;

i) Konstitusiyada müəyyən edilmiş qaydada qanunları imzalayır və edir;

y) vətəndaşlıq, habelə sığınacaq verilməsi məsələlərini həll edir;

g) dövlət mükafatları ilə təltif edir, yüksək diplomatik dərəcələr verir;

k) mühakimə olunanların bağışlanmasını həyata keçirir.

2. Prezident qanunla müəyyən edilmiş qaydada parlament və digər səlahiyyətli orqanların seçkilərini təyin edir.

3. Prezident ona hesabat verən icra hakimiyyəti orqanlarının aktlarını ləğv etmək hüququna malikdir.

4. Gürcüstan prezidenti Gürcüstan Silahlı Qüvvələrinin ali baş komandanıdır. O, Milli Təhlükəsizlik Şurasının üzvlərini təyin edir, onun iclaslarında sədrlik edir, hərbi rəisləri vəzifəyə təyin və vəzifədən azad edir.

5. Gürcüstan prezidenti xalqa və parlamentə müraciət etmək hüququna malikdir. Prezident ildə bir dəfə ölkənin vəziyyətinin mühüm məsələləri üzrə parlamentə məruzə təqdim edir.

6. Prezident Konstitusiya və qanunlarla müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

Maddə 74

1. Parlamentin, 200.000 seçicinin tələbi, yaxud öz təşəbbüsü ilə Gürcüstan prezidenti həmin tələbi aldığı gündən sonra 30 gün ərzində Konstitusiya və orqanik qanunla müəyyən edilmiş məsələlər üzrə referendum təyin edir.

2. Qanunun qəbul olunması və ləğv edilməsi üçün, amnistiya və yaxud bağışlama, beynəlxalq müqavilə və sazişlərin təsdiq və ləğv edilməsi məsələləri üzrə, habelə insanın əsas Konstitusiya hüquqlarını və azadlıqlarını məhdudlaşdıran referendum keçirilməsinə yol verilmir.

3. Referendumun təyin edilməsi və keçirilməsi ilə əlaqədar məsələlər orqanik qanunla tənzim olunur.

Maddə 75

1. Gürcüstan prezidenti toxunulmazdır. Vəzifədə olduğu dövrdə onun həbsə alınmasına, yaxud cinayət məsuliyyətinə cəlb edilməsinə yol verilmir.

2. Prezident tərəfindən dövlətə xəyanət edildiyi, digər cinayətlər törədildiyi, yaxud Konstitusiyanın pozulduğu hallarda parlament Konstitusiyanın 63-cü maddəsində və orqanik qanunla müəyyən edilmiş qaydada Gürcüstan prezidentini vəzifədən kənar edə bilər, əgər;

a) Konstitusiyanın pozulması Konstitusiya Məhkəməsinin qərarı ilə təsdiq edilmişdirsə;

b) dövlətə xəyanət, yaxud digər cinayət tərkibli əlamətlər Ali Məhkəmənin rəyi ilə təsdiq edilmişdirsə.

Maddə 76

1. Gürcüstan prezidentinin səlahiyyətlərinin vaxtından əvvəl dayandırıldığı, yaxud onun öz səlahiyyətlərini həyata keçirmək bacarığı olmadığı hallarda prezident vəzifəsini parlamentin sədri, parlament sədrinin səlahiyyətlərini isə onun müavinlərindən biri həyata keçirir.

2. Prezident vəzifəsinin icraçısının 73-cü maddənin "j" və "f" bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərdən, habelə 74-cü maddənin birinci bəndində nəzərdə tutulmuş səlahiyyətlərdən istifadə etmək hüququ yoxdur.

3. Prezident seçkiləri onun səlahiyyətləri dayandırıldığı vaxtdan sonra 45 gün ərzində keçirilir və onların keçirilməsini parlament təmin edir.

Maddə 77

1. And içdikdən sonra Gürcüstan prezidenti hökumətin istefasını qəbul edir və hökumətin yeni tərkibi yaradılanadək ona öz vəzifələrini icra etməsini tapşırmaq hüququna malikdir. Prezident iki həftə ərzində hökumət yaratmağa və onu parlamentə təqdim etməyə borcludur. Müvafiq komitələrdə müzakirə olunduqdan sonra parlament siyahı tərkibinin çoxluğu ilə onu təsdiq edir.

2. Müzakirə zamanı hökumətin rədd cavabı almış, yaxud səsvermə zamanı təsdiq olunmamış üzvlərinin məsələsini prezident həll edir. Onun bu və ya digər namizədi yenidən təqdim etmək hüququ vardır. Eyni namizəd yalnız iki dəfə təqdim oluna bilər. Təkrar təqdimat qaydası qanunla müəyyən edilir.

3. Nazir vəzifədən azad edildikdə, sonrakı namizədi prezident iki həftə ərzində parlamentə təqdim edir.

Maddə 78

1. Gürcüstan prezidentinin təklifi ilə parlament icra hakimiyyəti orqanlarının strukturunu və fəaliyyət qaydasını təsdiq edir.

2. Silahlı Qüvvələrin, dövlət təhlükəsizliyi və polis xidmətlərinin bir idarəyə daxil olması, yaxud başqa cür birləşdirilməsi qadağandır.

Maddə 79

1. Hökumət üzvləri Gürcüstan prezidenti qarşısında məsuldurlar.

2. Hökumət üzvləri prezident qarşısında öz səlahiyyətlərindən əl çəkirlər.

Maddə 80

1. Hökumət üzvü partiya vəzifəsindən başqa digər vəzifə tuta bilməz, sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz, hər hansı digər daimi mükafat ala bilməz.

2. Hökumət üzvü qanunla müəyyən edilmiş qaydada istefaya çıxmaq hüququna malikdir.

3. Hökumət üzvü Gürcüstan perzidentinin fərmanı ilə, yaxud Konstitusiyanın 64-cü maddəsində müəyyən edilmiş qaydada parlament tərəfindən vəzifədən azad edilə bilər.

Maddə 81

1. Nazirliklər dövlət həyatının və yaxud ictimai həyatın müəyyən sahələrində dövlətin idarə olunmasının təmin edilməsi məqsədi ilə qanun əsasında yaradılır.

2. Nazirliyə nazir rəhbərlik edir, o öz səlahiyyətlərinə aid olan məsələlər üzrə müstəqil qərarlar qəbul edir. Nazir qanun əsasında və ona əməl etməklə əmrlər verir.

3. Dövlət naziri hökumətin tərkibinə daxildir, o, hökumətin dəftərxanasına rəhbərlik edir və prezidentin göstərişi ilə onun ayrı-ayrı tapşırıqlarını yerinə yetirir.

V FƏSİL
MƏHKƏMƏ HAKİMİYYƏTİ

Maddə 82

1. Məhkəmə hakimiyyəti Konstitusiya nəzarəti, ədalət məhkəməsi vasitəsilə və qanunla müəyyən edilmiş digər formalarda həyata keçirilir.

2. Məhkəmə orqanlarının aktları ölkənin bütün ərazisində, bütün dövlət orqanları və fiziki şəxslər üçün məcburidir.

3. Məhkəmə hakimiyyəti müstəqildir və ancaq məhkəmələr vasitəsi ilə həyata keçirilir.

4. Məhkəmələr Gürcüstan adından qərarlar çıxarırlar.

Maddə 83

1. Gürcüstanın Konstitusiya Məhkəməsi Konstitusiya nəzarətinin məhkəmə orqanıdır. Konstitusiya məhkəməsinin salahiyyətləri, yaradılması və fəaliyyəti qaydası Konstitusiya və orqanik qanunla müəyyən edilir.

2. Ədalət məhkəməsi ümumi məhkəmələrlə həyata keçirilir. Onların sistemi və məhkəmə icraatı qaydası qanunla müəyyən edilir.

3. Hərbi məhkəmələrin təsis edilməsinə ancaq müharibə şəraitində və ancaq ümumi məhkəmələr sistemində yol verilir.

4. Fövqəladə və xüsusi məhkəmələr yaradılmasına yol verilmir.

Maddə 84

1. Hakimlər öz fəaliyyətlərində müstəqildirlər və ancaq Konstitusiyaya, qanuna tabedirlər. Hakimlərə hər hansı təsir göstərilməsi, yaxud qərar qəbul etməsinə təsir göstərmək məqsədi ilə onun fəaliyyətinə müdaxilə edilməsi qadağandır və qanunla cəzalandırılır.

2. Hakimin işə baxmaqdan kənar edilməsinə, vaxtından əvvəl azad olunmasına, yaxud digər vəzifəyə keçirilməsinə ancaq qanunla müəyyən edilmiş hallarda yol verilir.

3. Konkret iş üzrə hakimdən hesabat tələb etməyə heç kəsin hüququ yoxdur.

4. Hakimin müstəqilliyini məhdudlaşdıran hər hansı akt etibarsızdır.

5. Məhkəmənin qərarının ləğv edilməsi, dəyişdirilməsi, yaxud dayandırılması ancaq qanunla müəyyən edilmiş qaydada məhkəmə tərəfindən həyata keçirilə bilər.

Maddə 85

1. Məhkəmədə işə baxılması açıqdır. Yalnız qanunla nəzərdə tutulmuş hallarda işin qapalı iclasda dinlənilməsinə yol verilir. Məhkəmənin qərarı aşkar elan edilir.

2. Məhkəmə icraatı dövlət dilində aparılır. Məhkəmə dilini anlamayan şəxsə tərcüməçi verilir. Əhalinin dövlət dilini bilmədiyi rayonlarda dövlət dilinin və məhkəmə icraatının öyrənilməsi ilə əlaqədar məsələlərin həlli təmin edilir.

3. Məhkəmə tərəflərin bərabər hüquqluluğu və mübahisəsi əsasında aparılır.

Maddə 86

1. 30 yaşına çatmış, ali hüquq təhsili və ixtisası üzrə ən azı 5 il təcrübəsi olan Gürcüstan vətəndaşı hakim ola bilər.

2. Hakim ən azı on il müddətinə vəzifəyə təyin olunur, yaxud seçilir. Hakimlərin seçilməsi, vəzifəyə təyini, vəzifədən azad edilməsi qaydası qanunla müəyyən edilir.

3. Hakimin vəzifəsi pedaqoji fəaliyyətdən başqa hər hansı digər vəzifə və ödənişli fəaliyyətlə bir araya sığmır. O, siyasi partiyanın üzvü ola bilməz, siyasi fəaliyyətdə iştirak edə bilməz.

Maddə 87

1. Hakim toxunulmazdır. Gürcüstan Ali Məhkəməsi sədrinin razılığı olmadan onun cinayət məsuliyyətinə cəlb edilməsi, tutulması, yaxud həbsə alınması, üstünün, iş yerinin, maşınının, yaşadığı evin axtarılması yolverilməzdir. Cinayət yerində tutulma istisna təşkil edir, bu barədə təxirəsalınmadan Gürcüstan Ali Məhkəməsinin sədrinə məlumat verilir. Əgər sədr razılıq verməzsə, tutulmuş, yaxud həbsə alınmış hakim dərhal azad edilməlidir.

2. Dövlət hakimin və onun ailəsinin təhlükəsizliyini təmin edir.

Maddə 88

1. Gürcüstanın Konstitusiya Məhkəməsi Konstitusiya məhkəmə icraatı qaydasında məhkəmə hakimiyyətini həyata keçirir.

2. Gürcüstan Konstitusiya Məhkəməsi Konstitusiya Məhkəməsinin üzvü olan doqquz hakimdən ibarətdir. Məhkəmənin üç nəfər üzvünü Gürcüstan prezidenti təyin edir, üç nəfər üzvünü siyahı tərkibinin ən azı beşdə üç hissəsi ilə parlament seçir, üç nəfər üzvünü isə Ali Məhkəmə təyin edir. Konstitusiya Məhkəməsi üzvlərinin səlahiyyət müddəti 10 ildir. Konstitusiya Məhkəməsi öz tərkibindən 5 il müddətinə Konstitusiya Məhkəməsinin sədrini seçir. Eyni şəxsin bir dəfədən artıq sədr seçilməsinə yol verilmir.

3. Əvvəllər bu vəzifəni tutmuş olan şəxs Konstitusiya Məhkəməsinin üzvü ola bilməz.

4. 35 yaşına çatmış, ali hüquq təhsili olan Gürcüstan vətəndaşı Konstitusiya Məhkəməsinin üzvü ola bilər. Konstitusia Məhkəməsi üzvlərinin seçilib-tapılması, təyin edilməsi, seçilməsi, səlahiyyətlərinin dayandırılması, habelə Konstitusiya Məhkəməsi icraatının digər məsələləri və Konstitusiya Məhkəməsinin fəaliyyəti məsələləri qanunla müəyyən edilir.

5. Konstitusiya Məhkəməsinin üzvü toxunulmazdır. Konstitusiya Məhkəməsinin razılığı olmadan onun cinayət məsuliyyətinə cəlb edilməsinə, tutulmasına, yaxud həbs olunmasına, üstünün, yaşadığı evin, maşınının, iş yerinin axtarılmasına yol verilmir. Cinayət üstündə tutulma istisna təşkil edir və bu barədə təxirə salınmadan Konstitusiya Məhkəməsinə məlumat verilir. Əgər Konstitusiya Məhkəməsi razılıq verməsə, Konstitusiya Məhkəməsinin tutulmuş, yaxud həbsə alınmış üzvü dərhal buraxılmalıdır.

Maddə 89

1. Gürcüstan prezidentinin, parlament üzvlərinin beşdə bir hissəsinin, məhkəmənin, Abxaziya və Acarıstanın ali mötəbər orqanlarının, xalq müdafiəçisinin və vətəndaşların şikayəti, yaxud təqdimatı əsasında Gürcüstanın Konstitusiya Məhkəməsi orqanik qanunla müəyyən edilmiş qaydada:

a) prezidentin, Abxaziya və Acarıstanın ali hakimiyyət orqanlarının qanunlarının, normativ aktlarının Konstitusiyaya uyğunluğu haqqında qərar qəbul edir;

b) dövlət orqanları arasında səlahiyyətlərə həddqoyulması üzrə mübahisələrə baxır;

v) vətəndaşların siyasi birliklərinin yaradılmasının və fəaliyyətinin Konstitusiyaya uyğunluğu məsələsinə baxır;

q) referendum və seçkilər keçirilməsinin Konstitusiyaya uyğunluğu ilə əlaqədar mübahisələrə baxır;

ğ) beynəlxalq müqavilələrin və sazişlərin Konstitusiyaya uyğunluğu məsələlərinə baxır;

d) vətəndaşların şikayəti əsasında Gürcüstan Konstitusiyasının ikinci fəslində nəzərdə tutulmuş məsələləri tənzim edən normativ aktların Konstitusiyaya uyğunluğunu müzakirə edir;

e) Gürcüstan Konstitusiyası və orqanik qanunla müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

2. Konstitusiya Məhkəməsinin qərarı qətidir. Konstitusiyaya uyğun hesab olunmayan normativ akt, yaxud onun bir hissəsi Konstitusiya Məhkəməsinin müvafiq qərarı edildiyi vaxtdan hüquqi qüvvəsinin itirir.

Maddə 90

1. Gürcüstan Ali Məhkəməsi müəyyən edilmiş prosessual formada Gürcüstanın ümumi məhkəmələrində məhkəmə icraatına nəzarət edir, birinci pilləli məhkəmə sifəti ilə qanunla müəyyən edilmiş işlərə baxır.

2. Gürcüstan Ali Məhkəməsinin sədrini və Ali Məhkəmənin hakimlərini Gürcüstan prezidentinin təqdimatı ilə siyahı tərkibinin çoxluğu ilə parlament ən azı 10 il müddətinə seçir.

3. Gürcüstan Ali Məhkəməsinin səlahiyyətləri və fəaliyyəti qaydası, Ali Məhkəmə üzvlərinin səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması qaydası qanunla müəyyən edilir.

4. Gürcüstan Ali Məhkəməsinin sədri və üzvləri toxunulmazdır. Ali Məhkəmənin sədrinin və üzvlərinin cinayət məsuliyyətinə cəlb olunmasına, tutulmasına, yaxud həbsə alınmasına, üstünün, yaşadığı evin, maşınının, iş yerinin axtarılmasına yalnız parlamentin razılığı ilə yol verilir. Yalnız cinayət yerində tutulmaq istisnadır və bu barədə təxirəsalınmadan parla-

mentə məlumat verilməlidir. Əgər parlament razılıq verməsə, tutulan, yaxud həbs olunan dərhal azad edilməlidir.

Maddə 91

1. Gürcüstan Prokurorluğu cinayət-hüquq təqibini həyata keçirən, istintaqa, cəzanın icrasına nəzarət eden, habelə dövlət ittihamını dəstəkləyən məhkəmə hakimiyyəti idarəsidir.

2. Gürcüstan Prokurorluğu vahid mərkəzləşdirilmiş sistemdir. Baş prokuroru Gürcüstan prezidentinin təqdimatı ilə siyahı tərkibinin çoxluğu ilə beş il müddətinə parlament təyin edir. Aşağı pilləli prokurorları baş prokuror təyin edir.

3. Prokurorluğun səlahiyyətləri, təşkili və fəaliyyət qaydası orqanik qanunla müəyyənləşdirilir.

VI FƏSİL
DÖVLƏT MALİYYƏSİ VƏ NƏZARƏT

Maddə 92

1. Gürcüstan parlamenti siyahı tərkibinin çoxluğu ilə hər il Gürcüstan prezidentinin imzaladığı dövlət büdcəsi haqqında qanun qəbul edir.

2. Gürcüstanın dövlət büdcəsinin tərtib olunması və qəbul edilməsi qaydası qanunla müəyyən edilir.

Maddə 93

1. Büdcə layihəsini parlamentə təqdim etməyə yalnız Gürcüstan prezidenti səlahiyyətlidir.

2. Prezident cari büdcə ili başa çatanadək üç aydan gec olmayaraq gələn ilin büdcə layihəsini parlamentə təqdim edir. Büdcə layihəsi ilə birlikdə prezident cari ilin büdcəsinin yerinə yetirilməsinin gedişi haqqında məruzə təqdim edir. Büdcə ili başa çatdıqdan sonra üç aydan gec olmayaraq prezident parlamentə dövlət büdcəsinin yerinə yetirilməsi haqqında hesabat təqdim edir.

3. Prezidentin razılığı olmadan büdcə layihəsində düzəlişlər edilməsi yolverilməzdir. Ödənilmə mənbələri göstərilən

təqdirdə prezident parlamentdən əlavə dövlət xərcləri tələb edə bilər.

4. Əgər parlament yeni büdcə ili başlananadək yeni büdcə qəbul edə bilməzsə, dövlət tərəfindən əvvəllər götürülmüş təəhhüdlərin yerinə yetirilməsi üçün xərclər ötən ilin büdcəsi üzrə ödənilir.

Maddə 94

1. Hamı qanunla müəyyən edilmiş miqdarda və qaydada vergi və rüsum verməyə borcludur.

2. Vergi və rüsumların strukturu və tətbiqi qaydası yalnız qanunla müəyyən edilir.

3. Vergi verməkdən azad edilməsinə, habelə dövlət xəzinəsindən ödənilər verilməsinə yalnız qanun əsasında yol verilir.

Maddə 95

1. Gürcüstanın maliyə-kredit sisteminin fəaliyyətini Gürcüstan Milli Bankı təmin edir.

2. Gürcüstan Milli Bankı parlamentin müəyyən etdiyi əsas istiqamətlərə uyğun olaraq pul-kredit və valyuta siyasətini işləyib hazırlayır və həyata keçirir.

3. Milli Bank Gürcüstan hökumətinin banklar bankı, bankiri və xəzinə agentidir.

4. Milli Bank öz fəaliyyətində müstəqildir. Milli Bankın hüquq və vəzifələri, fəaliyyət qaydası və müstəqillik təminatları orqanik qanunla müəyyən edilir.

5. Pulların və pul vahidinin adı qanunla müəyyən edilir. Yalnız Gürcüstan Milli Bankının pul emissiyası hüququ vardır.

Maddə 96

1. Gürcüstan Milli Bankının ali orqanı Milli Bank Şurasıdır, onun üzvlərini Gürcüstan prezidentinin təqdimatına əsasən yeddi il müddətinə siyahı tərkibinin çoxluğu üzrə parlament seçir. Şuranın üzvlərinin vəzifədən azad edilməsinə yalnız 64-cü maddəyə müvafiq olaraq parlamentin qərarı ilə yol verilir.

2. Milli Bankın prezidentini Milli Bank Şurasının təqdimatı ilə Bank Şurası üzvlərindən Gürcüstan prezidenti təyin və vəzifədən azad edir.

3. Milli Bank parlament qarşısında məsuldur və hər il öz fəaliyyəti barədə ona hesabat verir.

Maddə 97

1. Dövlət vəsaitlərindən və dövlətin digər maddi sərvətlərindən istifadə olunmasına və xərjlənməsinə nəzarəti Gürcüstan Nəzarət Palatası həyata keçirir. Onun digər dövlət maliyyə-təsrrüfat nəzarəti orqanlarının fəaliyyətini yoxlamaq, vergi qanunvericiliyinin təkmilləşdirilməsi üzrə parlamentə təkliflər vermək hüququ vardır.

2. Nəzarət Palatası öz fəaliyyətində müstəqildir və parlamentə hesabat verir. Nəzarət Palatası sədrini beş il müddətinə Gürcüstan prezidentinin təqdimatına əsasən siyahı tərkibinin çoxluğu ilə parlament təyin edir. Onun vəzifədən azad edilməsi Konstitusiyanın 64-cü maddəsinə uyğun olaraq parlamentin qərarı əsasında mümkündur.

3. Nəzarət Palatası ildə iki dəfə parlamentə büdcənin yerinə yetirilməsi haqqında ilkin və son hesabatların müzakirəsi zamanı hökumətin hesabatı ilə əlaqədar məruzə, ildə bir dəfə isə öz fəaliyyəti haqqında hesabat verir.

4. Nəzarət Palatasının səlahiyyətləri, təşkili, fəaliyyət qaydası və müstəqillik təminatları orqanik qanunla müəyyən edilir.

5. Digər dövlət nəzarəti orqanları qanuna uyğun olaraq yaradılır.

VII FƏSİL
DÖVLƏTİN MÜDAFİƏSİ

Maddə 98

1. Müdafiə müharibəsi Gürcüstanın suveren hüququdur.

2. Ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi məqsədilə, habelə beynəlxalq təəhhüdlərinin yerinə yetirilməsi üçün Gürcüstanın Silahlı Qüvvələri vardır.

3. Silahlı Qüvvələrin növləri və tərkibi qanunla müəyyən edilir. Silahlı Qüvvələrin strukturunu Gürcüstan prezidenti, miqdarını Milli Təhlükəsizlik Şurasının təqdimatına əsasən, siyahı tərkibinin çoxluğu ilə parlament təsdiq edir.

Maddə 99

1. Ölkənin hərbi quruculuğunu və müdafiəsini təşkil etmək üçün Gürcüstan prezidentinin başçılıq etdiyi Milli Təhlükəsizlik Şurası yaradılır.

2. Milli Təhlükəsizlik Şurasının tərkibi, səlahiyyətləri və fəaliyyət qaydası orqanik qanunla müəyyən edilir.

Maddə 100

1. Gürcüstan parlamentinin razılığı olmadan fövqəladə vəziyyət vaxtı, yaxud beynəlxalq təəhhüdləri yerinə yetirmək üçün Silahlı Qüvvələrdən istifadə olunması yolverilməzdir.

2. Xüsusi və qanunla müəyyən edilmiş hallarda dövləti müdafiə etmək məqsədilə digər dövlətlərin Silahlı Qüvvələrinin ölkəyə gətirilməsi, onlardan istifadə olunması və yerləşdirilməsi haqqında qərarı Gürcüstan prezidenti qəbul edir. Qərar təxirəsalınmadan parlamentin təsdiqinə verilir və onun razılığı ilə qüvvəyə minir.

Maddə 101

1. Gürcüstanı müdafiə etmək onun hər bir vətəndaşının borcudur.

2. Ölkənin müdafiəsi, hərbi mükəlləfiyyətin ödənilməsi Gürcüstanın bunun üçün yararlı olan bütün vətəndaşlarının borcudur. Hərbi mükəlləfiyyət keçmək forması qanunla müəyyənləşdirilir.

VIII FƏSİL
KONSTİTUSİYAYA YENİDƏN BAXILMASI

Maddə 102

1. Aşağıdakıların Konstitusiyaya ümumi, yaxud qismən yenidən baxılması haqqında qanun layihəsi təqdim etmək hüququ vardır: a)Gürcüstan prezidenti; b)parlament üzvlərinin ümumi sayının yarısından çoxu; v)ən azı iki yüz min seçici.

2. Konstitusiyaya yenidən baxılması haqqında qanun layihəsi Gürcüstan parlamentinə təqdim olunur və paralment onu ümümxalq müzakirəsi üçün dərc edir.

3. Parlamentdə qanun layihəsinin müzakirəsinə o, dərc olunduqdan bir ay sonra başlanır.

4. Əgər Gürcüstan parlamentinin tam tərkibinin ən azı üçdə iki hissəsi tərəfdar çıxmışdırsa, Konstitusiyaya yenidən baxılması haqqında qanun layihəsi bəyənilmiş sayılır.

5.Konstitusiyaya yenidən baxılması haqqında qanunu Konstitusiyanın 68-ci maddəsində müəyyən edilmiş qaydada Gürcüstan prezidenti imzalayır və dərc edir.

Maddə 103

Fövqəladə və yaxud hərbi vəziyyətin elan edilməsi Konstitusiyaya yenidən baxılmasını fövqəladə və yaxud hərbi vəziyyət ləğv edilənədək dayandırır.

IX FƏSİL
KEÇİD MÜDDƏALARI

Maddə 104

1. Gürcüstan Konstitusiyası yeni seçilmiş Gürcüstan prezidentinin və parlamentinin səlahiyyətlərinin tanındığı gündən qüvvəyə minir.

2. Konstitusiyanın 49, 50 və 70-ci maddələri Konstitusiya dərc olunduğu gündən qüvvəyə minir.

Maddə 105

1. Qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş, təşəbbüsü ən azı əlli min seçicinin imzası ilə təsdiq

edilmiş, yaxud Konstitusiya qəbul olunan günədək parlamentdə öz nümayəndəsi olan vətəndaşların siyasi birlikləri 1995-ci il seçkilərində iştirak etmək hüququna malikdirlər.

2. Proporsional sistem üzrə seçkilər vahid partiya siyahıları üzrə keçirilir.

3. Siyasi birliklər, seçki blokları macoritar seçki dairəsində parlament üzvlüyünə namizəd təqdim etmək, eyni zamanda onu partiya siyahısı ilə də irəli sürmək hüququna malikdirlər.

4. Mojaritar seçki dairəsində səslərin ən çoxunu, habelə səsvermədə iştirak edən seçicilərin ən azı üçdə bir hissəsinin səsini qazanmış namizəd seçilmiş sayılır.

5. Əgər parlament üzvü birinci turda seçilmişdirsə, ikinci tur keçirilir, həmin turda ən yaxşı nəticələri olan iki namizəd iştirak edir. Ən çox səs qazanmış namizəd seçilmiş sayılır.

6. Konstitusiyanın bu maddəsi Konstitusiya dərc olunduğu vaxtdan qüvvəyə minir və yeni seçilmiş parlamentin səlahiyyətləri tanınanadək qüvvədə qalır.

Maddə 106

1. Konstitusiya qüvvəyə minəndən sonra yalnız Konstitusiyaya zidd olmayan hüquqi aktlar, yaxud aktların bir qismi fəaliyyət göstərir.

2. Konstitusiya qüvvəyə mindikdən sonra iki il ərzində Gürcüstan prezidenti və Gürcüstan parlamenti Konstitusiya qüvvəyə minənədək qəbul olunmuş normativ aktların dövlət qeydiyyatını, onların Konstitusiyaya və qanuna müvafiq şəklə salınmasını təmin edirlər.

3. Konstitusiya qüvvəyə mindikdən sonra iki il ərzində Gürcüstan parlamenti Konstitusiyada nəzərdə tutulmuş orqanik qanunları qəbul etməli, yaxud bu sahədə mövcud olan normativ aktların qanuna uyğunluğunu təsdiq etməlidir.

Maddə 107

1. Məhkəmə quruluşu haqqında Konstitusiyaya uyğun olan orqanik qanun qəbul edilənədək mövcud qanunvericilik qüvvədə qalır.

2. Konstitusiyanın 18-ci maddəsinin 2-ci və 3-cü bəndləri müvafiq cinayət-prosessual qanunvericilik aktları qəbul edildikdən sonra qüvvəyə minir.

3. Konstitusiya Məhkəməsi haqqında orqanik qanun 1996-cı il fevralın1-dək qəbul edilməlidir.

Maddə 108

Gürcüstanın bütün ərazisində onun yurisdiksiyası bərpa edildikdən sonra Konstitusiyanın 102-ci maddəsinin 2-ci bəndində istisna halında müvafiq dəyişikliklər, yaxud əlavələr edilməsinə ümumxalq müzakirəsi üçün qanun layihəsi dərc edilmədən yol verilir.

Maddə 109

1. Müvafiq qaydada qəbul edilmiş Konstitusiyanı Gürcüstanın Dövlət başçısı imzalayır və dərc edir.

2. Gürcüstan parlamentinin və Konstitusiya komissiyasının üzvləri Konstitusiyanın mətni altında imza edirlər. Konstitusiyanın mətni onun məzmunu ilə əhalinin tanış ola bilməsi üçün Gürcüstanın bütün yerli orqanlarında ən azı bir il müddətində açıq saxlanmalıdır.

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" 20.07.1999-cu il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Gürcüstan parlamenti qərara alır:

Gürcüstan konstitusiyasının 50-ci maddəsinin 2-ci bəndinə sonrakı dəyişiklik və əlavə edilsin:

"2.Mandat keçrilən seçkilərdə iştirak edən seçicilərin 7 faiz səsini alan siyasi birliklər və seçki blokları arasında bölüşdürülür".

Gürcüstan Prezidenti
Eduard Şevardnadze
Tbilisi, 20 iyul 1999-cu il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" 20.07.1999-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Gürcüstan parlamenti qərara alır:

1.Gürcüstan konstitusiyasının 70-ci maddəsinin 10-cu bəndindəki "şərtlər" sözündən sonra "habelə seçkilərdə namizəd kimi iştirak edənin mümkünlüyü" sözü əlavə edilsin.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Eduard Şevardnadze
Tbilisi, 20 iyul 1999-cu il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" 20.04.2000-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Gürcüstan parlamenti qərara alır:

1.Gürcüstan konstitusiyasına sonrakı dəyişiklik və əlavə edilsin:

1. 3-cü maddəyə sonrakı məzmunda 3-cü bənd əlavə edilsin:

"3. Acarıstan Muxtar Respublikasının statusu "Acarıstan Respublikasının statusu haqqında" Gürcüstan konstitusiya qanununa müvafiq təmin edilsin.

2. 4-cü maddənin 3-cü bəndindəki "Acarıstanda" sözü "Acarıstan Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

2. 55-ci maddənin birinci bəndindəki "Acarıstanda" sözü "Acarıstan Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

4. 67-ci maddənin birinci bəndindəki "Abxaziya və Acarıstanda" sözü" Abxaziya və Acarıstan Muxtar Respublikalarında " sözü ilə əvəz edilsin.

5. 89-cü maddənin birinci bəndindəki "Abxaziya və Acarıstan" sözü "Abxaziya və Acarıstan Muxtar Respublikalarında " sözü ilə, həmin bənddəki "A" yarımbəndindəki "Acarıstan" sözü isə "Acarıstan Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

11. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Eduard Şevardnadze
Tbilisi
20 aprel, 2000-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" 30.03.2001-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Gürcüstan parlamenti qərara alır:

1. Gürcüstan konstitusiyasına sonrakı dəyişiliklər və əlavə edilsin:

1. 6-cı maddənin 2-ci bəndində "konstitusiya" sözündən sonra "konstitusiya razılığı" sözü əlavə edilsin.

2. 9-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 9

1.Dövlət tam din və ibadət azadlığı verir. Bununla belə Gürcüstan avtokafel müqəddəs kilsəsinin Gürcüstanın tarixində və onun dövlət müstəqilliyindəki xüsusi rolunu tanıyır.

2. Gürcüstan dövləti və Gürcüstan kilsəsinin əlaqələri konstitusiya razılaşdırılması ilə tənzimlənir. Konstitusiya razılaşdırılması beynəlxalq hüquqla tanınmış prinsip və normalara, xüsusən insan hüquqlarına və əsas azadlıq prinsiplərinə tam uyğun olmalıdır."

3.66-cı maddəyə 11-ci bəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"11. Konstitusiya razılaşdırılması parlamentin tam tərkibinin ən azı üçdə beşinin səs çoxluğu ilə təsdiq edilmiş sayılır."

4. 73-cü maddənin birinci bəndinin "A1" yarımbəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"A1) Gürcüstan dövləti adından Gürcüstan kilsəsi ilə konstitusiya razılaşması bağlayır"

5. 89-cu maddənin 1-ci bəndinin "A" yarımbəndindəki "konstitusiya" sözündən sonra "konstitusiya razılığı" sözü əlavə edilsin.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Eduard Şeverdnadze
Tbilisi, 30 mart 2001-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
10.10.2002-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına sonrakı dəyişiklik və əlavə edilsin:

1. 3-cü maddəyə sonrakı məzmunda 4-cü bənd əlavə edilsin:

"3. Abxaziya Muxtar Respublikasının statusu "Abxaziya Respublikasının statusu haqqında" Gürcüstan konstitusiya qanununa müvafiq təmin edilsin.

2. 4-cü maddənin 3-cü bəndindəki "Abxaziya" sözü "Abxaziya Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

3. 8-ci maddənin birinci bəndindəki "Abxaziya" sözü "Abxaziya Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

4. 55-ci maddənin birinci bəndindəki "Abxaziya" sözü "Abxaziya Muxtar Respublikası" sözü ilə əvəz edilsin.

5. 67-ci maddənin birinci bəndindəki "Abxaziya" sözü " Abxaziya Muxtar Respublikası və " sözü ilə əvəz edilsin.

6. 89-cu maddənin birinci bəndi və həmin bəndin "A" yarımbəndinəki "Abxaziya " sözü "Abxaziya Muxtar Respublikası və " sözü ilə əvəz edilsin.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Eduard Şevardnadze
Tbilisi
10 oktyabr 2002-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
23.07.2003-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasının 35-ci maddəsinin 3-cü bəndinə sonrakı dəyişiklik və əlavə edilsin:

"3. Məktəbəqədər təlim-tərbiyəni dövlət təmin edir. İbtidai və baza təhsili məcburidir. Vətəndaşların qanunvericiliklə nəzərdə tutulan qaydada və müəyyən edilmiş hüdudlar daxilində dövlət məktəblərində pulsuz orta, peşə və ali təhsil almaq hüququ var".

Maddə2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Eduard Şevardnadze
Tbilisi, 23 iyun 2003-cü il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
02.06.2004-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668, səhifə 6.) sonrakı dəyişiklik və əlavə edilsin:

Maddə 1.Gürcüstan konstitusiyasının 35-ci maddəsinin 3-cü bəndinə sonrakı dəyişiklik və əlavə edilsin:

Maddə 1. 2-ci maddənin 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"4.Gürcüstan vətəndaşlarının yerli əhəmiyyət daşıyan işlərini dövlət suverinenliynə əməl etməklə yerli özünüidarəetmə orqanları nizama salır. Yerli özünüidarəetmə və icra orqanları nümayəndələri vəzifəyə seçki yolu ilə seçilirlər. Yerli özünüidarəetmə orqanlarının formalaşdırılması qaydası, səlahiyyətləri və dövlət orqanları ilə əlaqələri qanunla müəyyən edilir."

Maddə 2. 12-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Bu bəndlə müəyyən olunmuş hal istisna olmaqla Gürcüstan vətəndaşı eyni vaxtda başqa dövlətin vətəndaşı ola bilməz. Gürcüstan prezidenti tərəfindən Gürcüstan qarşısında xüsusi xidməti olana Gürcüstan vətəndaşı və ya dövlət marağından çıxış edərək Gürcüstan vətəndaşlığı xarici ölkə vətəndaşına verilə bilər."

Maddə 3. 46-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Əgər ölkənin bütün ərazisində fövqəladə vəziyyət və ya hərbi vəziyyət elan edlibsə, Gürcüstan prezidentliyinə, Gürcüstan parlamentinə,başqa nümayəndəli orqanlara seçki fövqəladə vəziyyət ləğ edildikdən sonra keçrilir. Ölkənin hər hansı bir hissəsində fövqaladə vəziyyət elan edildiyi təqdirdə ölkənin qalan ərazisində seçki keçirmək haqqında qərarı Gürcüstan parlamenti qəbul edir."

Maddə 4. "4. Dövlət büdcəsindən ötən ilin büdcə vəsaitinin miqdarı ilə müqayisədə parlament üçün nəzərdə tutulan cari xərclərin azaldılması yalnız parlamentin öncədən razılığı ilə ola bilər. Dövlət büdcəsindən onlar üçün ayrılan vəsaitin miqdarını parlamentin özü qərarlaşdırır."

Maddə 5. 1.50-ci maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Parlamentə növbəti seçki, onun səlahiyyətinin bitməsinə azından 15 gün qalmış keçirilir. Əgər seçki vaxtı fövqaladə və ya hərbi vəziyyətə düşürsə, seçki bu vəziyyətin ləğvindən 60 gündən az olmayaraq sonra keçirilir. Seçkinin tarixini Gürcüstan prezidenti seçkiyə ən azı 60 gün qalmış elan edir. Parlamentin vaxtından əvvəl buraxılması təqdirdə prezident parlamentin vaxtından əvvəl buraxılması haqqında əmrin qüvvəyə minməsindən 45 və ya 60 gündən gec olmayaraq növbədənkənar parlament seçkisini elan edir."

2.50-ci maddəyə 31-cü bəndi sonrakı redaksiyada əlavə edilsin:

"31 Prezident parlamenti buraxmaq haqqında sərancam verdikdə parlament həmin andan fəaliyyətini dayandırır. Parlamentin buraxılması haqqında prezident sərancamınından sonra, yeni seçilmiş parlamentin ilk iclasına qədər buraxılmış parlament yalnız prezident tərəfindən fövqəladə və ya hərbi vəziyyət elan edəcəyi təqdirdə fövqəladə və ya hərbi vəziyyəti təsdiq etmək və ya fövqəladə və ya hərbi vəziyyətin davam etməsini uzatmaq məsələlərini həll etmək üçün yığıla bilər. Əgər parlament 5 gün ərzində yığışmazsa və prezidentin fövqəladə vəziyyətin elan edilməsi (uzadılması) sərəncamını təsdiq etməzsə, fövqəladə vəziyyətin elan edilməsi (uzadılması), parlamentin yığışmasından 48 saat ərzində hərbi vəziyyətin təsdiq və ya uzadılması haqqında prezidentin sərəncamı qüvvədən düşür. Fəaliyyəti buraxılmış parlamentin üzvlərinin vəzifəsinə və maaşlarının artırlmasına görə parlamentin yığışması nəzərdə tutulmur. Parlamentin fəaliyyətinin dayandırılması ilə yuxarıda qeyd edilən məsələlərlə bağlı qərar qəbul edilir."

Maddə 6. Konstitusiyaya 511-ci maddəsi əlavə edilsin:

Parlament Gürcüstan prezidenti tərəfindən yalnız konstitusiya ilə nəzərdə tutulan qaydada buraxıla bilər, yalnız aşağıdakılar istisna olmaqla:

a) Parlament seçkisindən keçən altı ay müddətində;

b) Parlament tərəfindən konstitusiyanın 63-cü maddəsində nəzərdə tutulan səlahiyyətlərin yerinə yetirilməsi üçün;

q) Fövqəladə və hərbi vəziyyət vaxtı;

d) Gürcüstan prezidentinin səlahiyyətləri müddətinin son 6 ayı ərzində;

Maddə 7.59-cu maddə sonrakı redaksiyada verilsin:

Maddə 59.

"1. Parlament üzvünün parlament qarşısında hesabat verməyə borclu olan orqana, hökumətə, hökumət üzvünə, şəhər merinə, bütün növ ərazi vahidi icra edici orqanının rəhbərinə, dövlət müəssisələrinə sual vermək və onlardan cavab almaq səlahiyyəti var.

2. Parlament üzvləri, cəmi on nəfərlik qrupla, parlament fraksiyası kimi parlament qarşısında hesabat verməyə borclu olan orqanlara, hökumətə, hökumətin ayrı-ayrı üzvünə sual verməyə, onları parlament qarşısında hesabat verməyə çağırmaq, parlament müzakirəsi pretmetinə çevirmək səlahiyyətinə malikdir.

3. Parlament parlament üzvlərinin tam tərkibinin çoxluğu ilə baş nazirin qarşısında hökumətin ayrı-ayrı üzvünün vəzifəsi ilə bağlı cavabdehlik məsələsini qoymağa səlahiyyətlidir. Əgər baş nazir bu halda hökumət üzvünü işdən azad etmirsə, onda iki həftə müddətində parlament öz əsaslandırılmış qərarını ortaya qoyur."

Maddə 8. 60-cı maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Parlament tərəfindən seçilmiş, təyin və təsdiq edilmiş hökumət üzvü və ya vəzifəli şəxs səlahiyyətlidir, ancaq tələbat olduqda parlamentə gəlməyə, onun komitəsində və komitə iclaslarında iştirak etməyə, iclasda verilən suallara cavab verməyə və məşğul olduğu fəaliyyətlə bağlı hesabat verməyə borcludur. Bu cür vəzifəli şəxs tələbat yarandığı təqdirdə parlamenti və ya komissiyanı dinləməlidir.

Maddə 8. 67-cı maddə sonrakı redaksiyada verilsin:

"Maddə 67

1. Xüsusi hallarda Gürcüstan prezidentinin, hökumətin, parlament üzvünün, parlamentin fraksiyasının, parlamentin komissiyasının, Abxaziya Muxtar Respublikası və Acarıstan

Muxtar Respublikası Ali nümayəndəlikləri orqanlarının 30000 seçicinin səsi ilə qanunvericilik təşəbbüsü ilə çıxış etmək var.

2. Gürcüstan prezidenti və ya hökuməti tərəfindən təqdim edilən qanun layihəsi parlametdə növbədənkənar müzakirəsi xahiş edilə bilər.

3. Əgər hökumət tərəfindən qiymətləndirilmə və müzakirə üçün parlamentə təqdim edilən qanun layihəsi qanunla nəzərdə tutulan müddətdə müzakirə edilməzsə, qanun layihəsi dövlət tərəfindən keçmiş sayılır."

Maddə 10. 68-ci maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Parlament tərəfindən qəbul edilən qanun layihəsi 7 gün müddətində Gürcüstan prezidentinə verilir."

Maddə 11. 69-cı maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Gürcüstan prezidenti Gürcüstan dövlətinin rəhbəridir."

Maddə 12. 1.70-ci maddənin 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"4. Seçicilərin yarısınından çoxunun səs verdiyi namizəd seçilmiş hesab edilir."

2. 70-ci maddənin 6-cı bəndi sonrakı redaksiyada verilsin:

"6. İkinci turda seçkinin birinci turunda yaxşı nəticələri olan iki namizəddən ən çox səs toplayanı seçilmiş sayılır."

Maddə 13. 72-cı maddə sonrakı redaksiyada verilsin:

"Maddə 72

Gürcüstan prezidentinin partiya işi istisna olmaqla, istehsal fəaliyyəti və başqa fəaliyyətə görə başqa şəxsdən maaş almaqla başqa vəzifə tutma hüququ yoxdur."

Maddə 14. 1.73-ci maddənin birinci bəndinin "B", "Q", "D", "E" yarımbəndləri sonrakı redaksiyada verilsin:

"b) Baş nazirin təqdimatı və razılığı ilə hökumət üzvü nazir təyin edilir.

q) Öz təşəbbüsü ilə və ya konstititsiyada nəzərdə tutulan başqa hallarda hökumət buraxılımasında, Gürcüstan daxili işlər naziri, müdafiə naziri və dövlət təhlükəsizlik nazirini vəzifədən azad etməkdə səlahiyyətlidir;

d) hökuməti, hökumət üzvünü təşkil etməkdə hökumət salahiyyətlidir və qanunla müəyyən edilən qaydada vəzifəli şəxsi başqa yerə dəyişməkdə, hökumət üzvündən yeni hökumətin tərkibini təşkil olunana qədər və ya hökumətin yeni üzvü təyin edilənə qədər vəzifəsini icra etməyi həvalə etməyə səlahiyyətlidir;

e) hökumətin parlamentə Gürcüstan dövlət büdcəsinin layihəsini təqdim etməsinə razılıq verir."

2. 73-ci maddənin birinci bəndinin "P", "J", "R", "S" yarımbəndləri sonrakı redaksiyada verilsin:

"p) Parlamentdən konstitusiya ilə müəyyən olunmuş hallarda və qaydada azad edilir;

j) Gürcüstan Ədliyyə Nazirliyi Şurasına sədrlik edir, konstitusiya, habelə qanunla nəzərdə tutulan qaydada hakim vəzifəsinə təyin və azad edilir;

r) Parlament buraxıldıqdan, yeni parlamentin ilk yığıncağına qədər, xüsusən vergi və büdcə məsələlərindən sorumludurlarsa qanuni qüvvəyə malik akt-dekret, əgər yeni seşilmiş parlament birinci iclasından bir ay ərzində onu təsdiq etməsə, qüvvədən düşmüş hesab edilir;

s) 511 -ci maddəsinin "A", "D" yarımbəndləri ilə nəzərdə tutulan hallarda parlament tərəfindən konstitusiya ilə müəyyən olunmuş müddətdə hökumətin tərkibinə irəli sürülənlərə etimadsızlıq göstərilməsi halında baş naziri təyin etməyə və ona nazirləri təyin etmək razılığını verməyə səlahiyyətlidir. Yuxarıda qeyd edilən halları sona çatdırdıqdan bir ay müddətində ptezident yenidən hökumətin tərkibini etimad göstərilməsi üçün parlamentə təqdim edir.

3. 73-cü maddənin 3-cü və 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Gürcüstan prezidentinin, hökumətin və ya icraedici hakimiyyət müəssisəsinin aktlarını Gürcüstan konstitusiyası, beynəlxalq müqavilələr və razılaşmalarla uyğun gəlmədiyi və qanunçuluq və prezidentin normativ aktları ilə uyğun gəlmədiyi təqdirdə dayandırmaq və ya ləğv etmək səlahiyyəti var.

4. Gürcüstan prezidenti Gürçüstan hərbi qüvvələrinin ali baş komandanıdır. O milli təhlükəsizlik şurasına üzvləri təyin edir, Gürcüstan hərbi qüvvələrinin baş qərargah rəisi vəzifəsinə və başqa yüksək hərbi vəzifələrə təyin edir."

Maddə 15. 7-ci maddənin birinci və 2-cü bəndi sonrakı redaksiyada verilsin:

"1. Gürcüstan prezidenti tərəfindən, öz səlahiyyətlərini gerçəkləşdirməsi mümkün olmadıqda və ya Gürcüstan prezidentinin səlahiyyətləri vaxtından əvvəl dayandırıldığı təqdirdə, Gürcüstan prezidentinin səlahiyyətlərini gerçəkləşdirə bilmədikdə, habelə parlament buraxıldığı təqdirdə Gürcüstan prezidentinin vəzifəsini baş nazir icra edir. Parlamentin sədri vəzifəsini, parlamentin sədrinin tapşırığı ilə parlament sədrinin müavinlərindən biri yerinə yetirir. Baş nazir tərəfindən Gürcüstan prezidentinin vəzifəsi yerinə yetirildiyi dövrdə baş nazirin vəzifəsini baş nazirin müavini vəzifəsində olan və baş nazirin müavini səlahiyyəti olan hökumət üzvü yerinə yetirir.

2. Prezident vəzifəsini icra edənin səlahiyyətinə 73-cü maddənin birinci bəndinin "Q" və "İ" yarımbəndlərində və 76-cü maddənin birinci bəndi ilə nəzərdə tutlan hüquqlar, habelə parlamenti buraxmaq hüququ daxil deyil"

Maddə 16. Konstitusiyaya sonrakı məzmunda 761maddəsi əlavə edilsin:

"Maddə 761

Gürcüstanın Baş prokurorunu parlamentin təyin etməsi üçün Gürcüstan prezidenti öz namizədini təqdim edir. Gürcüstan prokurorunun səlahiyyətləri və fəaliyyət qaydası qanunla müəyyən olunur."

Maddə 17. 77-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 77.

Gürcüstan prezidenti öz səlahiyyətlərini həyata keçirmək məqsədi üçün Gürcüstan Prezidentinin Adminastirasiyasını təşkil edir. Gürcüstan prezidenti adminastriya rəhbəri vəzifəsinə təyin və azad edir, adminastrasiyanın strukturunu və fəaliyyət qaydasını müəyyən edir."

Maddə 18. Konstitusiyanın 77-ci maddəsinə dördüncü fəsil, 78-ci, 80-ci və 81-ci maddələr yeni redaksiyada formalaşdırılksın və bu fəslə 811 və 812 maddələri əlavə edilsin:

"DÖRDÜNCÜ FƏSİL

Gürcüstan hökuməti

Maddə 78

1. Hökumət Gürcüstan qanunvericiliyinə müvafiq olaraq icra hakimiyyətin vasitəsi ilə ölkənin daxili və xarici siyasətini həyata keçirir. Hökumət Gürcüstan və parlament qarşısında cavabdehlik daşıyır.

2. Hökumət baş nazirdən və nazirlərdən təşkil olunur. Hökumətin tərkibində dövlət naziri ola bilər (Dövlət naziri). Baş nazir hökumətin bir üzvünə baş nazirin müavini vəzifəsini icra etməyi həvalə edir. Hökumət və hökumət üzvləri səlahiyyətlərinə görə Gürcüstan prezidentinin qarşısında məsuldurlar.

3. Hökumət konstitusiyanın, qanunların və prezidentin normativ aktları əsasında baş nazirin imzaladığı qərar və sərəncamları yerinə yetirir.

4. Gürcüstan prezidenti xüsusi dövlət məsələləri ilə bağlı hökumətin iclasını çağırmağa və ona sədrlik etməyə səlahiyyətlidir. İclasda qəbul edilmiş qərar prezident aktı ilə formalaşdırılır.

5. Hökumətin strukturu, səlahiyyətləri və fəaliyyəti qaydası konstitusiya ilə hökumətin prezidentlə razılaşdırdığı qanun layihəsini parlamentə təqdim etməklə gerçəkləşdirilir.

6. Hökumət öz qərarı ilə istefa vermək səlahiyyətinə malikdir.

7. Hökumətin işi konstitusiya ilə müəyyən edilmiş qaydada və istisna hallarda hökumət üzvlərinin təyin edilməsindən başlayır.

Maddə 79.

1. Hökumətin sədri baş nazirdir.

2.Baş nazir hökumətin fəaliyyətinin istiqamətlərini müəyyən edir, hökumətin fəaliyyətini təşkil edir, hökumət üzvlərinin fəaliyyətini kordinasiya və ona nəzarət edir, hökumətin

fəaliyyəti barədə Gürcüstan prezidentinə hesabat verir və hökumətin fəaliyyəti iə bağlı Gürcüstan prezidentinin və parlamentin qarşısında cavabdehlik daşıyır.

3. Baş nazir parlamentin xahişi ilə hökumət proqramının necə yerinə yetirilməsi ilə bağlı hesabat verir.

4. Baş nazir öz səlahiyyətləri daxilində fərdi hüquqi aktları-əmrləri, nəşr edir, habelə hökumət binalarında inzibati funksiyaları yerinə yetirir.

5. Baş nazir prezidentin razılığı ilə hökumətin başqa üzvlərini vəzifəyə təyin və azad edir.

6. Baş nazir qanunla nəzərdə tutulan hallarda və qaydada başqa vəzifəli şəxsi vəzifəyə təyin və azad edir.

7. Baş nazirin istefası və ya onun səlahiyyətlərinin dayandırılması hökumətin başqa üzvlərinin səahiyyətlərinin dayandırılmasıdır. Hökumətin başqa üzvünün istefası və ya vəzifədən azad edilməsi halında baş nazir Gürcüstan prezidentinin razılığı ilə iki həftə müddətində hökumətin yeni üzvünü təyin edir.

Maddə 80.

1. Hökumətin Gürcüstan prezidentinin qarşısında and içməsi qəbul edildikdən sonra Gürcüstan prezidentinin qarşısında hökumətin səlahiyyətləri götürülür. Prezident onların istefasını, səlahiyyətlərinin dayandırılmasını qəbul edir və yeni hökumət təyin edilənə qədər onların vəzifəsini icra etməsini həvalə edə bilər.

2. Gürcüstan prezidenti hökuməti dəyişəndə, buraxanda və ya səlahiyyətləri əlindən alınana qədər 7 gün ərzində parlament fraksiyaları ilə məsləhətləşmədən sonra baş nazir namizədliyi seçilir, yalnız baş nazir namizədi Gürcüstan prezidenti ilə razılaşdıqdan 10 gün sonra hökumət üzvləri ilə razılaşdırılır. Bu bəndin birinci cümləsində nəzərdə tutulan prosuduranın bitməsindən 3 gün müddətində Gürcüstan prezidenti hökumətin tərkibinə etimad göstərilməsi üçün parlamentə göndərir.

3. Parlament Gürcüstan prezidenti tərəfindən hökumətin tərkibi təqdim edildikdən bir həftə ərzində hökumətin tərkibini və hökumət proqramına etimad elan edilməsini müzakirə edir.

Parlamentin etimad göstərməsi üşün parlamentin tam tərkibinin onu dəstəkləməsi lazımdır. Onlara etimad göstərilməsi elan edildikdən üç gün ərzində hökumət üzvləri təyin edilirlər. Parlament hökumətin tərkibinə etimad göstərməməyə və habelə ayrı-ayrı hökumət üzvlərini tərkibdən çıxarmaq məsələsini qaldırmağa səlahiyyətlidir. Prezident tərəfindən ayri-ayri şəxsin tərkibdən çıxarılması barədə parlament qərarı göndərildiyi təqdirdə onun yerinə ötən hökumətin tərkibində işdən azad edilmiş və ya istefaya çıxmış şəxsin təyin edilməsi yol verilməzdir.

4. Əgər hökumətin tərkibi və onun hökumət proqramına parlament etimad göstərməsə, Gürcüstan prezidenti bir həftə ərzində hökumətin eyni və ya yeni tərkibini təqdim edir. Parlament bu maddənin 3-cü bəndində nəzərdə tutulan proseduranı gerçəkləşdirir.

5. Əgər hökumətin tərkibinə və ya hökumət proqramına dalbadal üç dəfə parlament tərəfindən etimad göstərilməsə, Gürcüstan prezidenti 5 gün ərzində yeni baş nazirin namizədliyini irəli sürür və ya parlamentin razılığı olmadan 5 gün ərzində baş naziri, baş nazir isə Gürcüstan prezidentinin razılığı ilə nazirləri təyin edir. Bu cür hallarda Gürcüstan prezidenti parlamenti buraxır və növbədənkənar seçkilərin keçirilməsini elan edir.

6. Bu maddə ilə nəzərdə tutulan proseduraların tətbiqi ilə Gürcüstan prezidentinin impeçment qaydası ilə vəzifəsindən azad edilməsi yol verilməzdir.

Maddə 81.

1. Parlament hökumətin tam tərkibinə etimadsızlıq göstərməkdə səlahiyyətlidir. Etimadsızlıq elan edilməsi məsələsində parlamentin tam tərkibinin üçdə birinin səs çoxluğu ilə hüququ var. Hökumətə qarşı etimadsızlıq elan edildikdən sonra Gürcüstan prezidenti hökuməti buraxır və ya parlamentin qərarını bölüşmür. Əgər parlament 90 gündən tez və 100 gündən gec hökumətə etimad göstərməsə, Gürcüstan prezidenti hökuməti və ya parlamenti buraxır və yeni növbədənkənar seçkinin keçirilməsini elan edir. 511-ci maddənin "A", "D"

yarımbəndləri ilə nəzərdə tutulan halların mövcud olduğunu nəzərə alaraq etimadsızlıq elanı edilməsinə səbəb olan hallar aradan qaldırıldıqda 15 günədək təkrar müzakirə aparılmaıdır.

2. Parlament hökumət üçün şərtsiz etimadsızlıq elan edilməsi məsələsini qərarla qəbul etməyə səlahiyyətlidir. Əgər qərar qəbul edildikdən 15 gün tez, 20 gündən gec olmayaraq parlament tam tərkibdə beşdə bir çoxluğun əksəriyyəti ilə hökumətə etimadsızlıq göstərərsə, prezident hökuməti buraxır. Əgər parlament hökumətə etimadsızlıq göstərmirsə, hökumət etimasıslıq məsələsini sonrakı 6 ay müddətində qoya bilər.

3. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan qaydada hökümətin buraxılması baş verərsə, Gürcüstan prezdenti hökümətin cari tərkibinə eyni şəxsin baş nazir və ya eyni şəxsin yenidən baş nazir namizədliyinin irəli sürülməsinə görə məsuliyyət daşımır.

4. Baş nazir hökümətə etimad məsələsini müzakirə etmək üçün parlamentdə, dövlət büdcəsində, vergi kodeksində və hökümət strukturunda dəyişiklik edilməsi məsələsini, səlahiyyətlərin və fəaliyyətin qaydaları haqqında qanun layihələrini qaldırmağa səlahiyyətlidir. Parlament tam tərkibi və çoxluğu ilə hökümətə etimad göstərir. Əgər parlament hökumətə etimad göstərmirsə, Gürcüstan prezdenti bir həftə ərzində hökuməti və ya parlamenti buraxır və növbədənkənar seçkilərin keçirilməsini təyin edir.

5. Etimad elan edilməsi ilə əlaqədar bu məsələ qoyulandan 15 gün ərzində müzakirə keçirilməlidir. Bu müddətdə müzakirənin keçirilməsi etimad elan edilməsi sayılır.

6. Parlament tərəfindən hökumətə etimad elan edilməsinə müvafiq qanun layihəsi qəbul edilmiş sayılır.

7.Bu maddə ilə nəzərdə tutulan proseduranın gerçəkləşdirilməsi Gürcüstan prezdentinin inpiçment qaydası ilə vəzifəsindən çıxarılması yolverilməzdir.

Maddə 81.1

1. Parlament tərəfindən hökumətə və hökümət proqramına etimad elan edilməsindən sonra hökümət ilkin tərkibinin üçdə biri ilə, beş üzvdən az olmamaq şərti ilə bir həftə ərzində

hökümətin tərkibi haqqında parlamentin etimadını Gürcüstan prezidentinə təqdim edilir.

2.Parlament tərəfindən hökümətin tərkibinə etimad edilməsi konustitusiyanın 80-ci maddəsi ilə müəyyən edilmiş qaydada olur.

Maddə 82.2

1. Nazirliklər dövlət və ictimai həyatla müəyyən edilmiş sahədə dövlət idarə etməsini və dövlət siyasətini həyata keçirməyi təmin edirlər.

2. Nazirliyin rəhbərliyi öz fəaliyyəti sahəsində müstəqil qərar qəbul edən nazirdir. Nazir qanunun, prezdentin normativ aktları və ya hökümətin sərəncamları əsasında və onun yerinə yetirilməsi ilə əlaqədar əmrlər verir.

3. Dövlət naziri konustitusiya ilə müəyyən edilmiş qaydada xüsusi əhəmiyyət daşıyan dövlət əhəmiyyətli işləri yerinə yetirmək üçün təyin edilir.

4. Dövlət üzvünün elmi, pedaqoji, yaradıcılıq işi ilə məşğul olması istisna edilməklə, partiya, istehsal sahəsi təsis etmək, istehsal sahəsi ilə məşğul olmaq, başqa fəaliyyətdən maaş almaq, başqa vəzifə tutmaq hüququ yoxdur.

5. Hökümət üzvünün istefa vermək hüququ var."

Maddə 19. 82-ci maddəyə sonrakı məzmunda 5-ci bənd əlavə edilsin:

"5. Ümumi idarələrdə işlər andlı məhkəmə tərəfindən qanunla nəzərdə tutlmuş hallarda və qaydada araşdırılır."

Maddə 20. 89-cu maddənin 1-ci cümləsi və 1-ci bəndinin "A" yarımbəndi sonrakı redaksiyada verilsin:

"1.Gürcüstan Konustitusiya Məhkəməsi Gürcüstan prezidentinin, hökümətin, parlamentin üzvlərinin beşdə birinin, məhkəmənin, Abxaziya Muxtar Respublikasının və Acarıstan Muxtar Respublikasının ali təmsilçilik oqanlarının, xalq müdafiəçisinin və vətəndaşların şikayəti və təqdimatı əsasında qanunla müəyyən edilmiş qaydada:

a) Konustitusiya ilə bağlı qərar qəbul edir, konustitusiya razılaşmaları, qanun, prezdent, hökumət, Abxaziya Muxtar Respublikasını və Acarıstan Muxtar Respublikasının hakimiyyətinin ali orqanlarının normativ aktlarının uyğunluğu məsələsinə baxır."

Maddə 21. 91-ci maddə götürülsün.

Maddə 22. 93-cü maddə sonrakı redaksiyada verilisin:

"Maddə 93.

1. Yalnız Gürcüstan hökuməti parlamentin komitələri ilə əsas məlumatları və istiqamətləri razılaşdırdığdan sonra prezidentin razılığı ilə dövlət büdcəsinin layihəsini parlamentə təqdim etməyə səlahiyyətlidir.

2. Hökumət gələn ilin büdcə layihəsini parlamentə büdcə ilinin qurtarmasına 3 ay qalmışdan gec olmayaraq təqdim etməlidir. Büdcə layihəsi ilə birgə hökumət keçən ilin büdcəsinin yerinə yetirilməsi vəziyyəti ilə bağlı hesabatı da parlamentə təqdim edir. Hökumət dövlət büdcəsinin yerinə yetrilməsi barədə hesabatı parlamentə təsdiq etmək üçün büdcə ilinin qurtarmasına 3 aydan gec olmayaraq təqdim edir. Əgər parlament dövlət büdcəsinin yerinə yetirilməsi barədə hesabatı təsdiq etməsə, Gürcüstan prezidenti hökumətin cavabdehlik məsələsini qaldırır və bir ay müddətində özünün sübut olunmuş qərarı ilə parlamenti tanış edir.

3. Konstitusiyanın 511maddənin "A"-"D" yarımbəndləri ilə nəzərdə tutlan hallarda parlament tərəfindən konstitusiyada müəyyən edilmiş müddətdə dövlət büdcəsindəsinin təsdiq edilməsi üçün prezident dövlət büdcəsi dekretini təsdiq edir.

4. Hökumətin razılığı olmadan büdcə layihəsində dəyişikliklər edilməsi yol verilməzdi. Hökumət qapamanın mənbəyini tapdığı halda parlamentdən əlavə dövlət xərclərini açmağı xahiş edə bilər.

5. Parlament hökumət tərəfindən dövlət büdcəsindən vəsaitin qanuna uyğun xərclənməsinə nəzarət etməyə və pozuntu aşkarlandığı təqdirdə Gürcüstan prezidentinə büdcə vəsaitinin xərclənməsini dayandırmağı xahiş etmək səlahiyyətinə malikdir. Büdcə vəsaitlərinin qeyri-qanuni xərclənməsi təsdiqini tapdığı təqdirdə prezident müvafiq qərar qəbul edir.

6. Əgər parlament bu maddənin 2-ci bəndi ilə qorunan büdcənin qəbulunu üç ay müddətində yerinə yetirməsə,

Gürcüstan prezidenti hökuməti və ya parlamenti buraxmağa və növbədənkənar seçkilər təyin etməyə səlahiyyətlidir.

7. Dövlət büdcəsinin təsdiq edilməməsi və parlamentin buraxılması halında prezidentin dekreti ilə dövlət büdcəsi təsdiq edilir və yeni parlamentin səlahiyyətlərinin tanınmasından bir ay sonra təsdiq üçün ona təqdim edilir.

8. Cari ilin dövlət büdcəsinin xərclərinin artımını, gəlirin azalmasını və ya dövlət tərəfindən yeni maliyyə öhdəliklərinin alınmasını özündə əks etdirən qanun layihəsini parlament yalnız gələcək illərlə bağlı yuxarıda qeyd edilən qanun layihəsini-hökumət tərəfindən parlamentlə razılaşdırılmış dövlət büdcəsinin əsas parametrlərinin çərçivəsi daxilində qəbul edir."

Maddə 23. 97-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilisin:

"2. Nəzarət palatası öz fəaliyyətində müstəqildir. O parlamentin qarşısında hesabat verməyə borcludur. Nəzarət palatasının sədri Gürcüstan parlamenti tərəfindən 5 il müddətinə siyahı tərkibinin çoxluğu ilə sədirliyə təqdim edilən şəxslər arasından seçilir.

Maddə 24. 100-ci maddə sonrakı redaksiyada verilisin:

"Maddə 100

1. Hərbi qüvvələrdən istifadə qərarını Gürcüstan prezidenti verir və 48 saat ərzində onu təsdiq üçün parlamentə təqdim edir. Bununla büynəlxalq öhdəlikləri yerinə yetirmək üçün Gürcüstan parlamentinin razılığı olmadan hərbi qüvvələrdən istifadə etmək yol verilməzdir.

2. Dövləti müdafiə etmək məqsədi ilə və qanunla nəzərdə tutulan hallarda ölkəyə başqa hərbi qüvvələrin gətirilməsi və yerləşdirilməsi qərarını Gürcüstan prezidenti verir. Qərar təcili parlamentə təsdiq üçün göndərilir və təsdiq edildikdən sonra qüvvəyə minir."

Maddə 25. Keçici və son əsasnamələr

1. Bu qanunu fəaliyyətə başlamasından 15 gün müddətində Gürcüstan konstitusiyasının 80-ci maddəsinin 1-ci və 2-ci bəndi ilə nəzərdə tutulan proseduralar gerçəkləşdirir.

2. Hökumətin köhnə tərkibinin səlahiyyəti, hökumətin yeni tərkibi konstitusiya ilə nəzərdə tutulan qaydada təyin edildikdən sonra dayandırılır.

3. Bu qanun fəaliyyətə başladığdan 2 il müddətinə Gürcüstan parlamenti, prezidenti və hökumət bu qanunun fəaliyyət göstərdiyi müddətə qədər hüquqi aktların konstitusiya ilə uyğun gəlməsini, habelə bu qanunla nəzərdə tutulan aktların qəbul edilməsini təmin etməlidirlər.

4. Gürcüstan prezdenti bu qanunun fəaliyyətinin dayandırılmasından sonra yeni seçilmiş parlamentin qarşısında hökümətin etimad məsələsini qoymağa borcludur.

5.Bu qanunun 1-ci bəndi yalnız müvafiq qanunun fəaliyyətindən sonra qüvvəyə minir. Yerli özünü idarəetmə və idarəetmə orqanları arasındakı sərhədlər qanunla tənzimlənir.

6."İcraedici hakimiyyət strukturları və onların fəaliyyəti qaydaları haqqında" Gürcüstan qanunu hökümət strukturlarının, səlahiyyətlərinin və fəaliyyət qaydaları haqqında fəaliyyətindən 5 gün müddətində Gürcüstan prezdenti tərəfindən parlamentə təqdim edildikdən sonra qüvvədən düşür.

7. Bu qanun dərc edilən kimi qüvvəyə minir.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 6 fevral 2004-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
23.04.2004-cı il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1. Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) 52-ci maddənin 2-ci bəndi sonrakı dəyişiklik və əlavə edilsin:

"2. Parlament üzvünün evinin, maşınının, iş yerinin saxlanması və həbsi və ya şəxsi şikayəti yalnız parlamentin razılığı ilə ola bilər. Cinayətin sübutu parlamenti qane etməlidir. Əgər parlament razılıq verməsə, tutulmuş və ya həbs olunmuş parlament üzvü təcili azad edilməlidir."

Maddə2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 23 aprel 2004-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668, səhifə 6) sonrakı dəyişiklik və əlavə edilsin:

"V1) "Acarıstan Muxtar Respublikasının statusu haqqında" Gürcüstan konstitusiya qanununun pozulması ilə bağlı mübahisələri araşdırır.

Maddə 2. Bu qanun nəşr edildikdən qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 1iyul 2004-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
23.02.2005-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri,1995,1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 49-cü maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Parlament səsvermə ilə, mütanasib və birbaşa seçki hüququ əsasında açıq müzakirə ilə, dörd il müddətinə, proporsional sistemlə seçilmiş 100 və mojoritor sistemlə seçilmiş 50 parlament üzvündən ibarətdir".

2. 58-cu maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Parlamentin üzvləri parlament fraksiyasında birləşə bilər. Fraksiya üzvlərinin sayı yeddi nəfərdən az olmamalıdır."

3. Yeddinci maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"Maddə 1041

1. Konstitusiyanın 49-cu maddəsinin birinci bəndi və 58-ci maddəsinin birinci bəndi "Gürcüstan Seçki Kodeksi" Gürcüstan qanununa müvafiq əlavələr və dəyişikliklə birlikdə fəaliyyət göstərsin."

2. 2004-cü ildə seçilmiş Gürcüstan parlamentinin səlahiyyətləri dayandırılana qədər onun tərkibi, habelə fraksiyaların formalaşdırılması üçün lazım olan parlament üzvlərinin sayı bu parlamentə seçkilər vaxtı qüvvədə olan qanunvericiliyə müvafiq təmin edilir."

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 23 fevral 2005-ci il.

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
23.12.2005-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 25-ci maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Hərbi qüvvələr və daxili işlər nazirliyinin tərkibində olan şəxslər istisna olmaqla hamının irəlicədən icazə almadan silahsız, kütləvi şəkildə içəridə və bayırda yığışmaq hüququ var."

2. 26-cı maddənin 5-ci bəndi sonrakı redaksiyada verilsin:

"5. Hərbi qüvvələr və daxili işlər nazirliyinin tərkibində, məhkəmə tənzimləyicisi və ya prokror olan şəxslərə parlament birliyi üzvü olmaq yasaqdır."

3. 73-cü maddənin birinci bəndinin "Q" yarımbəndi sonrakı redaksiyada verilsin:

"Q) Şəxsi təşəbbüsü ilə və ya konstitusiyada nəzərdə tutulan başqa hallarda hökumətdən, vəzifədən, Gürcüstan Müdafiə və daxili işlər nazirliyindən azad ola bilər"

Maddə2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 23 dekabr 2005-ci il.

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
27.12.2005-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1. Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 86-cı maddə:

a) Birinci bənd sonrakı redaksiyada verilsin:

"1. Əgər ali hüquqi savadı və peşəsinə görə 5 illik təcrübəsi varsa, Gürcüstan vətəndaşı 28 yaşından hakim ola bilər."

b) 3-cü bənd sonrakı redaksiyada verilsin:

"3. Pedaqoji və elmi fəaliyyətlə məşğul olan şəxslər istisna olmaqla, hər hansı başqa vəzifədə çalışan və başqa fəaliyyətlə məşğul olan, siyasi partiya üzvü olan, siyasi fəaliyyətldə iştirak edən şəxs hakim vəzifəsinə uyğun deyil."

2. 88-ci maddənin 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"4) Ali hüquqi savadı olan Gürcüstan vətəndaşı 30 yaşından konstitusiya məhkəməsinə seçilə, təyin edilə, seçə və səlahiyyətləri ləğv edilə, habelə konstitusiya qanunvericiliyi və məhkəmənin fəaliyyətinin başqa məsələləri ilə qanunla nəzərdə nəzərdə tutulan qaydada məşğul ola bilər" .

3. 89-cü maddənin birinci bəndi:

a) "D" yarımbəndi sonrakı redaksiyada verilsin:

"d) Referendum və seçkini tənzimləyən normalar və bu normaları yerinə yetirən və ya seçkini (referendumu) keçirən konstitusiyaya uyğunluqla bağlı mübahisələrə baxır";

b) "V" yarımbəndi sonrakı redaksiyada verilsin:

"V) Birinci şikayətlə bağlı normativ aktların konstitusiyaya uyğunluğu Gürcüstan konstitusiyasının ikinci fəsli ilə qəbul edilmiş insan hüquqlarının, əsas hüquqlarının və azadlıqlarının qorunmasına müvafiq olaraq baxılmalıdır."

4. 90-cı maddənin birinci bəndi sonrakı redaksiyada verilsin:

"1. Gürcüstan Ali Məhkəməsi Ali Kassasiya məhkəməsidir".

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 27 dekabr 2005-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
27.12.2006-cı il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668, səhifə 6) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 50-ci maddə:

a) 2-ci maddəyə 21-ci bəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"21.Parlamentin növbəti seçkisi parlamentin səlahiyyətləri müddətinin bitməsi təqvim ilinin oktyabrında keçirilir. Seçkini Gürcüstan prezidenti seçkiyə 60 gündən az qalmamış təyin edir.";

B)

a) 3-cü maddə sonrakı redaksiyada verilsin:

"3. Əgər seçkilərin vaxtı fövqəladə və ya hərbi vəziyyət elan edilən dövrə düşərsə, seçki həmin vəziyyətlər ləğv olunandan altmış gün sonra keçrilir. Seçkinin tarixini Gürcüstan prezidenti fövqəladə və ya hərbi vəziyyət ləğv ediləndən sonra təyin edir. Parlamentin vaxtından əvvəl buraxılması halında parlamentin növbədənkənar seçkisi parlamentin buraxılması haqqında əmrin verilməsi fəaliyyətə düşdüyündən altmış gün sonra, yalnız növbədənkənar seçkiinin tarixini prezident tərəfindən parlamentin vaxtından əvvəl buraxılması əmrinin fəaliyyətə düşdüyü vaxtdan təyin edilir."

2. 70-ci maddə:

a) 5-ci bənd sonrakı redaksiyada verilsin:

"5. Əgər seçkinin birinci turunda heç bir namizəd səslərin lazımı miqdarını toplamayibsa, birinci turun nəticələri rəsmi

olaraq elan ediləndən iki həftədən sonra seçkinin ikinci turu keçrilir.";

b) 7-ci bənd sonrakı redaksiyada verilsin:

"7. Əgər seçkilərin birinci turunda yalnız bir namizəd iştirak edərsə və o, səslərin lazımi sayını toplamayıbsa və ya ikinci turda prezident seçilməyibsə, seçki günündən iki ay müddətində yenidən seçki keçrilir.";

q) 9-cu bənd sonrakı redaksiyada verilsin:

"9. Prezidentliyə növbəti seçki prezidentin səlahiyyət müddəti başa çatdığı təqvim ilinin oktyabrında keçrilir. Seçkinin tarixini Gürcüstan prezidenti seçkiyə qədər 60 gün gec olmayaraq təyin edir".

3. 73-cü maddənin birinci bəndi:

a) "A" yarımbəndi sonrakı redaksiyada verilsin:

"a) Beynəlxalq müqavilələr və razılaşmalar bağlayır, xarici dövlətlərlə danışıqlar aparır; parlamentin razılığı ilə Gürcüstan səfirlərini və digər diplomatik nümayəndilikləri təyin edir və başqa diplomatik nümayəndəliklərin akreditasiyasını gerşəkləşdirir";

b) "J" yarımbəndi çıxarılsın.

4. 83-cü maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Ədaləti ümumi məhkəmə gerçəkləşdirir. Onların sistemi orqanik qanunla müəyyən edilir";

5. 86-cı maddəyə 861-ci bəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"Maddə 861

1. Hakim vəzifəsinə təyin edir, hakim vəzifəsindən azad edir və başqa məsələləri həll etmək məqsədi ilə Gürcüstan Ali Ədliyyə Şurası yaradılır.

2. Gürcüstan Ali Ədliyyə Şurasının tərkibinin yarıdan çoxunu hakimlərin özünüidarəetmə orqanı tərəfindən seçilən üzvlər təşkil edir. Gürcüstan Ali Ədliyyə Şurasına Gürcüstan Ali Məhkəməsinin sədri sədrlik edir.

3. Gürcüstan Ali Ədliyyə Şurasının səlahiyyətləri və tərkibinin formalaşdırılması qaydası orqnik qanunla tənzimlənir."

6.1041-ci maddəyə 3-cü bəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"3.2004-cü il seçilmiş Gürcüstan prezidenti və və Gürcüstan parlamentinin növbəti seçkisi 1 oktyabr 2008-ci ildən 31 dekabr 2008-ci ilə qədər keçirilməlidir. Seçkinin tarixini Gürcüstan prezidenti təyin edir."

Maddə 2. Bu qanun, birinci maddənin 3-cü maddəsinin "B" yarımbəndi və həmin maddənin 5-ci bəndindən savayı, dərc edildikdən dərhal sonra qüvvəyə minir. Bu qanunun 1-ci maddəsinin 3-cü bəndin "B" yarımbəndi və həmin maddənin 5-ci bəndinə orqanik qanunun müvafiq məsələləri nizama salındıqdan sonra şamil edilir.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 27 dekabr 2006-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
27.12.2006-cı il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 3-cü maddənin birinci bəndinə "O" yarımbəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"O) Təhsi müəssisələrinin akreditasiyası, akademik dərəcə haqqında qanunvericilik;"

2. 35-ci maddənin 2-ci və 3-cü bəndləri sonrakı redaksiyada verilsin:

"2. Dövlət ölkədə təhsil sisteminin beynəlxalq təhsil sistemi ilə harmoniyasını təmin edir.

3. Dövlət məktəbəqədər təlim-tərbiyəni qanunla müəyyən edilmiş qaydada təmin edir .İbtidai və baza təhsili məcburidir. Ümum təhsil qanunla müəyyən edilmiş qaydada tam dövlət tərəfindən maliyyələşir. Qanunla müəyyən edilmiş qaydada vətəndaşların dövlət maliyyələşməsi ilə peşəkar və ali təhsil almaq hüququ var.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 27 dekabr 2006-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
27.12.2006-cı il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1. Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) 73-cü maddənin 4-cü bəndinə dəyişiklik edilməklə sonrakı redaksiyada verilsin:

"4. Prezident Gürcüstan Hərbi qüvvələrinin baş komandanıdır. O, Milli Təhlükəsizlik Şurasının üzvlərini təyin edir, Gürcüstan birləşmiş qüvvələrinin qərargah rəisini və digər iri çinli hərbiçiləri vəzifəyə təyin və azad edir.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 27 dekabr 2006-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
27.12.2006-cı il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995-ci il, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 15-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2.Ölüm cəzası qadağan edilib."

2. 17-ci maddəyə 3-cü bənd əlavə edilərək sonrakı redaksiyada verilsin:

"3. Tutulmuş və ya başqa səbəbdən azadlığı məhdudlaşdırılmış şəxsə fiziki, psixoloji məcburiyyət yol verilməzdir.

3. 18-ci maddənin 4-cü bəndi çıxarılsın.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 27 dekabr 2006-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"
11.03.2008-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1.76-cı maddənin 1-ci bəndi sonrakı redaksiyada verilsin:

"1.Gürcüstan prezidenti tərəfindən öz səlahiyyətlərini həyata keçirməsi mümkünsüz olduqda və ya Gürcüstan prezidentinin səlahiyyətləri vaxtından əvvəl dayandırıldıqda Gürcüstan prezidentinin vəzifələrini parlamentin sədri, əgər parlament sədrinin prezidentin səlahiyyətlərini gerçəkləşdirməsi mümkün olmadığı halda, habelə əgər parlament buraxılmışsa, Gürcüstan parlamentinin vəzifələrini baş nazir yerinə yetirir. Parlamentin sədri tərəfindən Gürcüstan prezidentinin vəzifələrinin yerinə yetirildiyi dövrdə parlament sədri vəzifəsini, parlament sədrinin tapşırığı ilə parlament sədrinin müavinlərindən biri icra edir. Baş nazir tərəfindən Gürcüstan prezidentinin vəzifələrinin yerinə yetirilməsi dövründə baş nazirin vəzifələrini baş nazirin birinci müavini və ya baş nazirin müavini səlahiyyətinə malik hökümət üzvü yerinə yetirir.

2. 78-ci maddənin:

a) 2-ci bənd sonrakı redaksiyada verilsin:

"2. Hökümət baş nazirdən və nazirlərdən təşkil edilir. Hökümətin tərkibində dövlət naziri ola bilər (dövlət naziri). Baş nazir hökümət üzvlərindən birinə birinci baş nazirin müavini, habelə birinə və bir neçə üzvə baş naizirin müavini vəzifələrini tapşıra bilər. Hökümət və hökümət üzvü Gürcüstan prezdenti qarşısında məsuliyyət daşıyır"

b)2-ci bəndə 21 bəndi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"21. baş nazirin birinci müavini və baş nazirin müavini vəzifələrinin təyin edilməsi qaydası və səlahiyyətləri qanunla tənzimlənir."

3. Konustitusiyaya sonrakı məzmunda 813 maddəsi əlavə edilsin:

"Maddə 813

1. Gürcüstan prezdentini və hökümət nümayəndəliklərini Gürcüstanın inzibati-ərazi vahidlərinin dövlət nümayəndəsi-qubernator təmsil edir.

2. Dövlət nümayəndəsi-qubernator qanunla müəyyən edilmiş qaydada yerli özünü idarəetmə orqanlarının fəaliyyətini və qanunla müəyyən edilmiş başqa səlahiyyətləri yerinə yetirir.

3. Dövlət nümayəndəsi-qubernator vəzifəsinə təyinat və işdən azad edilmə qanunla tənzimlənir.

4.1041 maddəsinin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. 2008-ci il Gürcüstan parlamentinin növbəti seçkisi may ayında keçirilsin. Seçkinin vaxtını Gürcüstan prezdenti seçkiyə ən azı altmış gün qalmış təyin edir.

Maddə 2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 11 mart 2008-ci il

" GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" 12.03.2008-ci il

"GÜRCÜSTAN KONSTİTUSİYASINA ƏLAVƏLƏR, DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ"

Maddə 1.Gürcüstan konstitusiyasına (Gürcüstan parlamentinin xəbərləri, 1995, 1131-33, maddə 668) sonrakı dəyişiklik və əlavə edilsin:

1. 49-cu maddənin 1-ci bəndi sonrakı redaksiyada verilsin:

"1.Gürcüstan konistiusiyasının 4-cü maddəsində nəzərdə tutulmuş halların yaradılmasına qədər parlament daimi, mütənasib və bir başa seçki hüququ əsasında açıq müzakirə ilə, 4 il müddətinə, proporsianal sistemlə seçilmiş 75 və mojaritar seçki ilə seçilmiş 75 üzvdən ibarətdir.

2. 50-ci maddənin 1-ci və 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"1. Qanunla müəyyən edilmiş qaydada tərəfdarlarının seçkidə imzaları ilə təsdiq etdiyi və ya seçki təyin olunana qədər parlamentdə nümayəndəsi olan vətəndaşların qeydiyyatdan keçmiş siyasi birliyinin orqanik qanuna uyğun qaydada seçkidə iştirak etmək hüququ var. Seçicilərin orqanik qanunla müəyyən edilmiş qaydada imzalarının sayı seçicilərin 1%-dən az olmamalıdır. Mojaritar sistemlə seçkilərdə iştirak qaydası və şərtləri seçki qanunvericiliyi ilə müəyyən edilir.

2. Proporsional sistemlə keçrilən seçkilərin nəticəsində parlament üzvlərinin mandatı seçicilərin səslərinin 5%-ni toplayan siyasi birliklər və seçki blokları arasında bölüşdürülür. Mojaritar sistemlə keçrilən seçkilərdə parlament üzvlərinə mandatın paylanma qaydası seçki qanunvericiliyi ilə müəyyən edilir.

3. 70-ci maddənin 3-ci bəndi sonrakı redaksiyada verilsin:

"3.Vətəndaşların siyasi birlikləri və qrupları prezidentliyə namizəd irəli sürə bilər. Prezidentliyə namizəd orqanik qanunla müəyyən olunmuş qaydada, seçicilərin təsdiq olunmuş imzalarının təqdim olunması ilə irəli sürülə bilər. Orqanik qanunla müəyyən edilmiş seçicilərin sayı 1%-dən artıq olmamalıdır.

Maddə2. Bu qanun nəşr edildikdən sonra qüvvəyə minsin.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 12 mart 2008-ci il

ÜMUMTƏHSİL HAQQINDA GÜRCÜSTAN QANUNU

1-ci hissə.

ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Ümumi təhsil haqqında Gürcüstan qanunvericiliyi və qanunun fəaliyyət sahəsi

1. Ümumi təhsil sahəsi Gürcüstan qanunvericiliyi, Gürcüstan konstitusiyası, konstitusiyada təsbit edilmiş şərtlərlə, beynəlxalq müqavilər və razılaşdırmalarla, bu və digər qanunlarla və qanunvericilik aktları ilə tənzimlənir.

2. Bu qanun Gürcüstanda ümumtəhsil fəaliyyətinin gerçəkləşdirilməsi şərtlərini, ümümi təhsilin idarə edilməsi və maliyyələşdirmə prinsiplərini, qaydalarını, bütün ümumtəhsil müəssisələrinin statsunu (təşkilatı-hüquqi formaya əsasən), onların təsis edilməsini, fəaliyyətini, yenidən qurulmasını və ləğv edilməsini, lisenziyalaşmasını və akkreditasiya qaydasını müəyyən edir.

Maddə 2. Terminlərdən istifadə

Bu qanunda işlədilən terminlərin sonrakı mənası var:

a) Akreditasiya-ümümtəhsil müəssisələrində cari təhsil prosesi ümum təhsilin milli məqsədləri sənədlərlə, milli təhsil planı və Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş ümümtəhsil müəssisələrinin normativlərinə müvafiq gəlməsini təsdiq edir. Əgər ümumtəhsil müəssisəsini mövcud akkreditasiya şərtləri tam qane etmirsə, müəyyən dövr ərzində akreditasiyanın şərtləri tam onu qane edənə qədər şərti akkreditasiya götürür;

b) Əlavə fərdi iş aparmaq-milli və məktəb təhsil planı ilə müəyyən edilmiş dərslərdən (saatlardan) başqa, müəllimlərin milli təhsil planının məqsədlərini yüksəltmək;

q) Fənlərin yerləşdirilməsi-ümümtəhsil müəssisəsinin daxili qaydalarla müəyyən edilmiş qaydalarının ləğvi;

d) Fənlərin tərtib edilməsi-ümumtəhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlərdə eyniliyi təmin etmək,

burada məqsəd sagird və ya müəllimlər tərəfindən fənlərin necə yerləşdirilməsini aşkara çıxarmaqdır.

e) Fənlərin saxlanması-ümumtəhsil müəssisəsinin daxili qaydası ilə müəyyən edilmiş fənlərin yerləşdirilməsi üçün təsir ölçüsüdür;

v) Milli təhsil planı-ümumtəhsilin bütün mərhələlərində saatların bölüşdürülməsi, təhsil mühitinin təşkili şərtlərini və tövsiyələri, şagirdlərin vacib və maksimal yüklənməsini, məqsədlərə çatmaq (qabiliyyət-vərdiş və bilik) da daxil olmaqla, şagirdin bütün mərhələni başa vurmağı bacarması və qabiliyyət-vərdiş və bilik alması imkanlarını əldə etməsi haqqında sənədidir.

z) Milli təhsil planında nəzərdə tutulan əlavə təhsil xidməti-açıq məktəblər tərəfindən təhsil planında müəyyən olunmuş, milli təhsil planında nəzərdə tutulan fənlərin saatlarının maksimal sayı çərçivəsində göstərilən xidmətdir;

t) Milli təhsil planı ilə nəzərdə tutulan əlavə təhsil və təlim xidməti-mümitəhsil məktəblər tərəfindən məktəb təhsil planı ilə müəyyən olunan, tərbiyə və milli təhsil planı ilə nəzərdə tutulan fənləri seçməklə təhsil və tərbiyə xidmətidir;

i) Milli qiymətləndirmə sistemi-dövlət tərəfindən şagirdin inkişafına milli təhsil planları ilə qarşıya qoyulmuş səviyyə və bu səviyyəyə çatmağın nə dərəcədə real olub-olmamasını müəyyən edən sistemdir.

k) Ekstern- müstəqil olaraq ümumtəhsil proqramını mənimsəyən və ümumtəhsil müəssisəsində attestasiyadan keçmək imkanına malik olan şəxslər tərəfindən ümum təhsili təsdiq edən dövlət sənədini almaq qaydasıdır;

l) Vauçer-dövlət tərəfindən şagird üçün verilən maliyyə kartıdır, bu maddi baxımdan, eləcə də qeyri-maddi forma ilə şagirin ümumi təhsil almasına imkan verən maliyyələşmədir;

m) Ümumitəhsil-Gürcüstan vətəndaşını tərbiyə etmək, hazırlamaq ümumitəhsilin sonrakı peşə və cəmiyyətdə yaşamasını təmin etmək məqsədi daşıyan təhsildir. Gürcüstanda tam ümum təhsil 12 ilə verilir;

n) Ümumtəhsilin milli məqsədləri sənədi-bu qanuna müvafiq müəyyən edilən ölkələrdə mövcud olan ümumitəhsil sisteminin məqsədi olan sənəddir. Ümumtəhsilin milli məqsədi sənədi milli təhsil planını və ümumitəhsil sisteminin fəaliyyətinin əsas göstəricisidir. Ümumtəhsilin milli məqsədi sənədini Gürcüstan Elm və Təhsil nazirinin simasında Gürcüstan hökuməti öz üzərinə götürür və təsdiq üçün parlamentə təqdim edir.

o) Ümumtəhsil mərhələsi-Gürcüstanda tam ümumi təhsilin üç mərhələsi var: ibtidai (6 il), baza (3 il) və orta (3 il);

p) Ümumtəhsil sistemi-milli və məktəb təhsili planlarının, onları gerçəkləşdirəcək ümumtəhsil müəssisələrinin, dövlət orqanlarının və mülki məhkəmənin təsdiq etdiyi hüquqi şəxslərin ümumtəhsil vermək üçün birgə səyləridir;

j) Ümumtəhsil müəssisələri/məktəbləri-ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin və ya istehsalla məşğul olan xüsusi hüquqi şəxsin, ümumtəhsil fəaliyyəti ilə milli təhsil planına müvafiq və tam ümumitəhsilin bir mərhələsini gerçəkləşdirməsidir;

r) Ümumtəhsil müəssisəsinin inzibati və maliyyə muxtariyyəti - bu cür mövcudluğu halında ümumtəhsil müəssisəsinin özünüidarəsini nəzərdə tutur ki, onun subyektləri qəyyumlar şurası, direksiya, pedaqoji şura, şagirdlərin özünüidarəetmə, nizam-intizam komitəsi, apeliyasiya komitəsidir;

S) Ümumtəhsil fəaliyyətinin lisenziyalaşdırılması-dövlət tərəfindən verilən sənəddir və bu sənəd xüsusi məktəbin maddi-texniki, praqram və insan resurslarınınm Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş ümumtəhsil müəssisələrinin normativləri bir-birinə uyğun gəlməsini təsdiq edən sənəddir;

t) Özünü qiymətləndirmə-məktəb tərəfindən cari təhsil prosesinin umumitəhsilin milli məqsədləri sənədi ilə, milli təhsil planı ilə və Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunan ümumtəhsil müəssisəsinin normativlərinə uyğun gəlib-gəlməməsini araşdırmaqdır. Özünü qiymətləndirmə

prosesində məktəbin müəllimləri, şagirlər və valideynlər iştirak edir;

u) İnküliziv təhsil-məhdud imkanlı şagirdlərin başqa şagirdlərlə birgə ümumtəhsil prosesinə qoşulmasıdır.

p) Kapital xərclər-keçiddir və məqsədi kapital aktivlərini, strateji və xüsusi markanın, malın, torpağın, qeyri-material aktivlərin tapılması, tikinti-artırmaların, maşın, nəqliyyat və başqa əsas vasitələrin tapılması, kapital təmiri, inşaatı və yenidənqurmasıdır;

k) Xüsusi məktəb-xüsusi məhkəmənin təsdiq etdiyi şəxs qismində təsis olunmuş ümümtəhsil müəssisəsidir;

g) Sinif-ümumtəhsil müəssisəsi şagirlərinin müvəqqəti olaraq, milli təhsil proqramında verilən tövsiyələrə uyğun tərtib edilmiş və həmin müəssisənin nizamnaməsinə əsasında bir yerdə birləşən şagirdlərin hansısa ümümtəhsil proqramını cəmi bir təhsil ili müddətində almasıdır;

ğ) Modifikasiyalı təhsil planı-Milli təhsil planının tərkib hissəsidir, bu xüsusən fərqli təhsil planı alması vacib olan şagirdlər üçündür;

ş) Valideyn-şagirdin valideyni və ya onun qanuni nümayəndəsi;

ç) Az kontingetli məktəb-yerli şəraitə görə az şagirdi olan məktəbdir. Az şagirdli məktəbin normativlərini Gürcüstan Elm və Təhsil Nazirliyi hazırlayır.

ts) Pedaqoq-ali təhsili olan və qanunvericiliklə nəzərdə tutulan qaydada serfikatı olan çəxsdir;

Dz) Pedaqoji fəaliyyət-müəllimlərin şagirlər üçün verdiyi dərs və əlavə fərdi işləməsidir.

C) Pilotlaşdırma-milli təhsil planınında nəzərdə tutulan məqsədlərə çatmaq üçün məktəblərin seçilməsidir;

C) Məktəb vaxtı - milli təhsil planı ilə müəyyən edilmiş proseslərin, habelə məktəb tərəfindən yaradılan, təşkil edilən, maliyyələşdirilən, habelə onların sponsorları tərəfindən keçirilən hər hansı tədbirin keçirilmə vaxtıdır;

x) Məktəb təhsil planı-konkret ümumtəhsil müəssisəsinin milli təhsil planınıda verilən yükün vacib maksimum yükləmə

çərçivəsində dəqiqləşdirməsi; milli təhsil planında nəzərdə tutulan əlavə ümumtəhsil xidmətini və tərbiyə xidmətini, habelə məktəbdə cari təhsil tədbirlərini gerçəkləşdirən təhsil planıdır;

c) İctimai məktəb - ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində təsis etdiyi ümumtəhsil müəssisəsidir;

h) Məktəb direksiyası-məktəbin direktoru, onun müavini/müavinləri və mühasibatdır;

h1) Məktəbin Pedaqoji Şurası-məktəb müəllimlərindən ibarət bərabərhüquqlu orqan;

h2) Məktəbin Qəyyumlar Şurası-məktəbin özünüidarəetməsinin ali orqanı;

h3) Axtarış-fənlərin yerləşdirilməsi məqsədi-fənlərin yerləşdirilməsi qaydası ilə ardıcıllığının qopmamasını, maddi və mənəvi dəyərlərə çatmaq üçün lazımı fənlərin yerləşdirilməsini tələb edən və onları nizamlayan fəaliyyətdir.

Maddə 3. Ümumtəhsil sahəsində dövlət siyasətinin əsas məqsədləri

1. Gürcüstanda ümumtəhsil sahəsində dövlət siyasətinin əsas məqsədləri:

a) Şagirdə mövcud milli və ümumtəhsil dəyərlərini mənimsəmək, azad şəxsiyyət kimi formalaşdırmaq üçün lazımi şərait yaratmaq;

b) Şagirlərin əqli və fiziki qabiliyyətinin inkişafı, lazımi biliyin alınmasına qayğı, həyatını sağlam qaydada qurmaq, dəyərləri-demokratik dəyərlərlə birgə vətəndaş yetkinliyini formalaşdırmaq, şagird tərəfindən mədəni dəyərlərə hörmət, ailənin, cəmiyyətin, dövlətin və ətrafındakılara qarşı vəzifə və hüquqlarını bilmək və bunları gerçəkləşdirmək.

2. Bu maddənin birinci bəndində nəzərdə tutulan məqsədə çatmaq üçün dövlət aşağıdakıları təmin edir:

a) Ümumtəhsilin şəffaflığını və təhsilin həyatı boyu hamı tərəfindən bərabər şəkildə almasının mümkünlüyünü;

b) Gürcüstan ümumtəhsil sisteminin beynəlxalq təhsil məkanına qoşulmasını;

q) İctimai məktəbin dini və siyasi birliklərdən müstəqilliyini, yalnız xüsusi məktəblərin siyasi birliklərə qarşı müstəqillliyini təmin etmək;

d) Milli dəyərlərin milli təhsil planına müvafiq gəlməsini və akkreditasiya sistemini formalaşdırmaq, burada təhsilin keyfiyyəti və qiymətləndirmə vasitəsi ilə ümumtəhsil prosesini planlaşdırma və idarəetmə nəzərdə tutulur;

e) Ümumtəhsil müəssisəsinin funksyasını yerinə yetirməsi üçün lazımi maddi-texniki, proqram və insani resursların normativlərini müəyyən etmək və onlardan ayrı xüsusi məktəblərin lisenziyalaşma sistemini işləyib hazırlamaq;

v) Ümumtəhsil müəssisəsinin inzibati və maliyyə muxtariyyətini;

z) Ümumtəhsil müəssisələrində zorakılığın qarşısını almaq;

t) İnklüziv təhsilə əsaslanmaq

Maddə 4. Təhsil dili

1. Ümumtəhsil müəssisələrində təhsil dili gürcü dili, habelə Abxaziya Muxtar Respublikasında gürcü, ya da abxaz dilidir.

2. Abxaziya Muxtar Respublikasının ümumtəhsil müəssisələrinin birində tədris hər iki dövlət dilindən birində aparılırsa, onda burada ikinci dövlət dilini öyrənmək məcburidir.

3. Ana dili gürcü dili olmayan Gürcüstan vətəndaşları milli təhsil planına müvafiq, qanunvericiliklə müəyyən edilmiş qaydada öz ana dillərində tam təhsil almaq hüququna malikdirlər. Bu cür təhsil müəssisələrində dövlət dilini, Abxaziya Muxtar Respublikasında isə hər iki dövlət dilini öyrənmək məcburidir.

4. Gürcüstanda beynəlxalq müqavilələr və razılaşmalarla nəzərdə tutulan hallarda bəzi ümumtəhsil müəssisələrində təhsil xarici dildə keçirilə bilər. Bu cür ümumtəhsil müəssisələrində dövlət dilinin, Abxaziya Muxtar Respublikasında isə hər iki dövlət dilinin tədrisi məcburudir.

Maddə 5. Milli tədris planı

1. Bu qanunun 3-cü maddəsində nəzərdə tutulan məqsədlərə çatmaq üçün dövlət özündə ümumtəhsilin mərhələlərinə görə lazımi fənləri, predmetli qrupları, fənlərə görə saatları, onların bölünməsini, bərabər səviyyəliyini və vacibliyini

və maksimal yüklənmənin sayını, predmetləri və predmetli qrupların təhsil alması üçün lazımi minimal saatların sayını, təhsil şəraitinin təşkilini və tövsiyələri özündə əks etdirən milli tədris planını işləyib hazırlayır.

2. Milli təhsil planı ilə müəyyənləşdirilmiş bu məqsədə çatmaq (vərdiş, qabiliyyət və bilik) üçün şagird bütün fənlər üzrə, əgər fənlər üzrə müəyyənləşdirilmiş qrup sinifi varsa o da daxil olmaqla, ya da bir mərhələni bitirdiyi təqdirdə, ya da sinifi qurtaranadək hər bir fənni mənimsəməklə milli təhsil planını bitirmiş sayılır. Habelə milli təhsi proqramında modifikasiyalı təhsil planları ilə lazım gələn şagirdlərə xüsusi təhsil də nəzərdə tutulur.

3. Milli təhsil planı sonrakı predmetləri və problemli qrupları nəzərdə tutur:

a) Gürcü dili və ədəbiyyatını (Abxaziya Muxtar Respublikasında abxaz və gürcü dilini);

b) Gürcüstan tarixi, Gürcüstan coğrafiyası və digər ictimai elmləri;

q) Riyaziyyat;

d) Təbiətşünaslıq elmləri;

e) Xarici dillər;

v) Fiziki əmək və estetik tərbiyə

4. Bu maddənin 3-cü bəndinin "A" və "B" yarımbəndləri ilə nəzərdə tutulan fənlər və problemli qruplar bu qanunun 4-cü maddəsinin 3-ci bəndinə uyğun olaraq gürcü dili və ədəbiyyatı, Gürcüstan tarixi, Gürcüstan coğrafiyası və ictimai elmləri gürcü dilində, ancaq Abxaziya Muxtar Respublikasında -gürcü dilində ya da abxaz dilində dərs keçilən ümumtəhsil müəssisələrində təhsil alırlar.

5. Milli Təhsil planını tamamlamaq hər bir ümumtəhsil müəssisəsi üçün məcburidir.

6. Milli və məktəb təhsil planları ilə nəzərdə tutulan fənlərin öyrənilməsi akedemik, obyektiv, neytral və priual olmalıdır.

Maddə 6. Ümumtəhsil

1. Tam ümumi təhsil almaq ümumtəhsilin hər üç mərhələsinin milli təhsil planı ilə müəyyən edilmiş yüksəklik səviyyəsinə çatmaq və onlara veriləcək müfaviq sənədlərin dövlət tərəfindən təsdiqlənməsinin nəzərdə tutulması deməkdir. Dövlət sənədlərinin nümunələri və onların verilmə qaydaları Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

2. Ümumtəhsil proqramını sürətlə keçmə yalnız xüsusi hallarda, şagirdin fərdi imkanlarını nəzərə almaqla, Gürcüstan Elm və Təhsil Nazrliyi tərəfindən müəyyən edilmiş qaydada gerçəkləşdirilir.

3. Şagirdin və ya onun valideyninin xahişi olduğu təqdirdə müəssisə şagirdin fənləri keçməsini təsdiq edən arayışı Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən işlənib hazırlanmış forma əsasında verməyə borcludur.

4. Şagirdin baza təhsil mərhələsini keçmədən ümumtəhsil sisteminin sonrakı mərhələsinə keşməsi yol verilməzdir.

5. Ümumtəhsilin hər hansı mərhələsini keçməni təsdiq edən sənədi olan hər bir şəxsin Gürcüstanın bütün ərazisində sonrakı mərhələdə təhsilini davam etdirmək hüququ var.

6. Ümumtəhsilin ibtidai mərhələsində təhsil almaq üçün minimal həddi 6 yaşdır. Gürcüstan Elm və Təhsil Nazirliyi bu həddi çatmadığı təqdirdə onu artıra bilər.

Maddə 7. Ümumtəhsil almaq

1. Dövlət hər bir şagirdin yaşadığı yerə görə və maksimal yaxınlıqdakı yerdə dövlət və ya ana dilində ümumtəhsil almağı təmin edir.

2. Əgər bu maddənin birinci bəndində verilən hüquqların standart vauçerə uyğunlaşdırılması mümkün deyilsə, dövlət bu cür şagirdləri maliyyə baxımından yüksək vauçerlə təmin edir.

3. Bu maddənin birinci bəndi ilə verilən hüquqlar az kontingentli kütləvi məktəblərdə, xüsusi, korrektə olunmuş və ya linqivist azlığı olan məktəbdə və ya sinif çərçivəsində gerçəkləşdirilərsə və əgər ibtidai mərhələdə 3, baza mərhələsində 6 və orta mərhələdə 21 şagird olarsa onda həmin müəssisənin şagirdlərinə atırılmış vauçer təmin edilməldir.

II FƏSİL
ŞAGİRDİN,VALİDEYNİN VƏ MÜƏLLİMLƏRİN ƏSAS HÜQUQ VƏ AZADLIQLARI

Maddə 8. Əsas zəmanətlər

1. Şagirdlərin, valideynlərin və müəllimlərin, habelə onların birliklərinin bərabər şəraitdə, diskriminasiyaya məruz qalmadan, müəyyən olunmuş qaydada, məktəb vaxtında və ya məktəb ərazisində, məktəb tərəfindən qəbul edilən hüquq və azadlıqlardan, habelə məktəbin bütün resurslarından istifadə etmək hüququ var.

2. Məktəbin dərs vaxtı və ya məktəb ərazisində kənar şəxsləri diskriminasiya etmədən onların məktəb ərazisinə daxil olmasını məhdudlaşdırmaq hüququ var.

3. Bu qanunla nəzərdə tutulan nizamnaməyə müvafiq olaraq, dərs vaxtı və ya məktəb ərazisində şagirdin, valideynin və müəllimin və onları özündə birləşdirən birliklərin səlahiyyətlərini və azadlıqlarını diskriminasiya etmədən və neytral məhdudlaşdırma qaydası ilə, onlara irəlicədən xəbərdarlıq etməklə hüquqları aşağıdakı kimi məhdudlaşdıra bilər:

a) Sağlamlığın, yaşamağın və mülkiyyətin təhdidi baş verdikdə;

b) Narkotik, alkoqol və tənbəkidən istifadə etdikdə, ya da qanunsuz hərəkət etdikdə;

q) Xoşagəlməz hallara və ya güc tətbiqinə, etnik, ya da dini zəmində dava salmağa, cinayətə, ya zorakılığa yol verildikdə;

d) Tədris prosesini pozduqda, məktəbin fəaliyyətinə, ya da məktəbin ərazisində azad hərəkətə mane olduqda;

4. Şagirdin, valideynin və müəllimlərin hüquq və azadlıqlarının istənilən məhdudiyyəti, ağıllı, proporsional, minimal və müəyyən olunmuş qaydalar əsasında, etik normalara tam riayət etməklə, yazılı və ədalətli prosedura çərçivəsində gerçəkləşdirilməlidir.

5. Şagirdin, valideynin və müəllimin hüquqlarının və azdlıqlarının eyni dərəcədə bərabərləşdirilməsi və məhdudlaşdırılması yol verilməzdir. Hər hansı qadağa və ya buna bənzər

hallar, onların hüquq və azadlıqlarının gerçəkləşmə yerindən, vaxtından və formasından asılıdır. Bu cür qadağa geniş informasiya vermək və ya informasiya yaymaqla yox, daha effektli və alternativ yollarla gerçəkləşdirilməlidir.

6. Bu qanunu qəbul edən şagird, valideyn və müəllimlərin hüquqlarından və azadlıqlarından istifadə onların qanunu səlahiyyətidir. Onlar haqqında qaldırılan hər hansı iddia zamanı onların hüquq və azadlıqlarından istifadə etməsinin qanuna zidd olması barədə iddia qadağanı irəli sürən təşəbbüskardan asılıdır.

7. Məktəb tərəfindən bu cür tədbirin maliyyələşdirilməsi yol verilməzdir, çünki bu qanunun məqsədləri ilə ziddiyyət təşkil edir.

8. Bu qanun burada izah edilməyən və hamı tərəfindən qəbul edilmiş hüquqları və azadlıqları inkar etmir, ancaq bu halda hər şey Gürcüstan qanunvericiliyindən çıxış edərək gerçəkləşdirilir.

Maddə 9. Təhsil almaq hüququ

1. Hər bir kəsin şəxsi və ictimai həyatda uğur qazanması, öz şəxsiyyətini, bacarıq-qabiliyyətini, biliyini göstərməsi üçün bərabər səviyyədə ümumtəhsil almaq hüququ var. İbtidai və baza təhsili almaq məcburidir.

2. Dövlət ümumtəhsil sistemi və müvafiq sosial-iqtisadi baza yaratmaqla ümumi təhsil almaq təminatını öz üzərinə götürür.

3. Təhsil sistemini idarəedən orqanlar məhdud imkanlı, habelə uzunmüddətli müalicəyə ehtiyacı olan şagirdlər üçün xüsusi və korreksiyalı xarakter daşıyan təhsil müəssisələri, proqramları yaratmaqla belə uşaqların tərbiyəsi, oxuması, müalicəsi və ictimai həyata adaptasiyası və cəmiyyətə inteqrasiyasını gerçəkləşdirir və bu cür şagirdlərin maliyyələşməsi qayğısına qalır.

4. Ekstern formada ümum təhsil almaq mümkündür. Gürcüstan Elm və Təhsil Nazirliyi ekstern formada təhsil almaq qaydalarını və şərtlərini müəyyən edir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq olaraq çagirdin yaş xüsusiyyətini, əmək və ailə şəraitini nəzərə alaraq ümumtəhsilin alternativ formada alınması təmin edilə bilər.

6. Dövlət ümumtəhsili seçməkdə şagirdə və valideynə müstəqillik verir. Valideynin ümumtəhsil seçiminin azadlığına şamil deyil:

a) Məcburi təhsili özünün müəyyən etməsi hüququ;

b) bu qanunun məqsədlərinə çatmağa mane olan təhsil.

7. Məktəb şagirdin biliyini qiymətləndirməyi təmin etmək üçün bütün lazımi ölçüləri tətbiq etməyə borcludur. Şagirdin nizam-intizamına görə akademik qiymətləndirilməsi yol verilməzdir.

8. Şagirdin qeyri-müvafiq rəftardan, qeyri-qənaətbəxş münasibətdən və təhqirdən müdafiə olunmaq hüququ var.

9. Məktəb məktəb vaxtı, eləcə də məktəbin həyətində və həndəvərində sağlamlığa, həyata və mülkiyyətə təhlükəsiz şərait yaratmağa borcludur.

10. Məktəb dərs vaxtı bütün ölçüləri götürməklə, habelə məktəbin, ya da onun həndəvərindəki ərazidə şagirdin, valideynin və müəllimlərin hüquq və azadlıqlarını yazılı müdafiə etməyə, pozuntuları bəri başdan aradan qaldırmağa borcludur.

11. Məktəbdən qovulmuş şagirdin başqa məktəbdə təhsilini davam etdirmək hüququ var.

12. Şagirdin Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq olaraq bir məktəbdən digər məktəbin ümümtəhsil mərhələsinə keçmə hüququ var.

Maddə 10. Öz hüquqları və azadlıqları haqqında məlumat almaq hüququ.

1. Şagirdin, valideynin və müəllimlərin bütün hüquqları və azadlıqları barədə, habelə onlar barədə seçilən məhdudiyyətlər barədə məlumat almaq hüququ var.

2. Məktəb hər yeni şagirdə, valideynə, müəllimə onların hüquq və azadlıqlarını başa salmağa borcludur.

3. Məktəb hüquq və azadlığını məhdudlaşdırdığı şagirdə, valideynə və müəllimə bu qadağanın hansı səbəbdən seçilməsi barədə təcili məlumat verməyə borcludur.

Maddə 11. Məktəbin idarə edilməsində iştirak etmək hüququ

1. Şagirdin, valideynin və müəllimin şəxsən və seçilmək yolu ilə məktəbin idarə edilməsində iştirak etmək hüququ var.

2. Şagirdin, valideynin və müəllimin şəxsi sirdən başqa, məktəbdə mövcud olan hər hansı informasiyanı almaq hüququ var.

3. Şagirdin, valideynin və müəllimin məktəblə əlaqədar və məsələlərin həlli barədə çıxarılan qərarları məktəbdən tələb etmək, bu məsələlərin müzakirəsi vaxtı onların fikrini dinləməyi tələb, müzakirədə adi qaydada və nümayəndəlik qismində iştirak etmək hüququ var.

4. Şagirdə qarşı seçilən hər hansı tədbir onun marağı müdafiə olunmaqla gerçəkləşdirilməlidir.

Maddə 12. Şikayət hüququ

1. Şagirdin, valideynin və müəllimin öz hüquqları və azadlıqlarının müdafiəsi üçün müəllimlərin və məktəbin qeyri-qanuni və başqa, bəraəti mümkün olmayan hərəkətlərdən, həmçinin dəyən zərəri ödətmək tələbi ilə şikayət etmək hüququ var.

2. Məktəb şikayıti müstəqil şəkildə və müzakirəsi qadağan olunmayan effektli vasitələrlə seçməyə borcludur.

Maddə 13. Neytrallıq və diskriminasiyaya məruz qalmaq

1. Ümumtəhsil müəssisələrində təhsil prosesinin siyasiləşməsi yolverilməzdir.

A) İctimai məktəbin təhsil prosesində dini indektrina, prozelitizm və ya məcburi assimilyasiya yolverilməzdir. Bu norma kütləvi məktəbdə dövlət bayramlarının və tarixi günlərin qeyd ediləməsini, habelə milli və ümumbəşəri dəyərlərə yiyələnməyi istisna etmir.

2. Məktəbdə hər hansı diskiriminasiyanın tətbiqi yolverilməzdir. Bu norma müsabiqələrdə, peşə sənəti və idman hazırlığı və təhsili verən təhsil müəssisələrinə şamil edilir.

3. Məktəbin öz səlahiyyətləri və resurslarından birbaşa və ya dolayısı ilə istifadə etməklə şagird, valideyn və müəllimi, habelə onların birliyini diskiriminsiya etməsi yolverilməzdir.

4. Hər hansı ədalətsiz və bilərəkdən hər bir şəxsin və qrupun azad inkişafı və bərabər imkanlarını müəyyənləşdirmək və ya çatışmazlıq üzündən diskiriminasiya yolverilməzdir.

5. Məktəb şagird, valideyn və müəllimlər arasında onların sosial, dini, linqvistik və haralı olmasına görə sıxışdırılmasının qarşısını almağa və onların hüququnu qorumağa borcludur.

6. Məktəb bərabər səviyyəlilik əsasında azlıqda qalan üzvlərinin fərdi və kollektiv hüququnu, ana dilindən müstəqil istifadəsini, mədəni mənsubiyyətini mühafizə edir.

Maddə 14. Özünüifadə azadlığı

1. Şagirdin, valideynin və müəllimin qanunla müəyyən olunmuş qaydada məktəb vaxtı və ya məktəb ərazisindən bəyəndiyi, gördüyü, yenisini yaratmaqla, saxlamaqla, onun üzərində işləməklə və ya informasiyanı yaymaq, yeni ideyalar axtarmaq, qəbul etmək, habelə məktəb resursundan istifadə ilə informasiyaları Gürcüstan qanunvericiliyi ilə, habelə bu qanunla müəyyən edilmiş məhdudiyyətləri nəzərə alaraq əldə etmək, istifadə etmək, yaratmaq, saxlamaq, üzərində işləmək və ya yaymaq hüququ var.

2. Şagirdin öz fikrini ifadə etmək və ona qarşı hörmətlə yanaşılmasını tələb etmək hüququ var.

3. Məktəb nəşrlərinin redaksiya müstəqilliyinə və məktəb kitabxanasınadakı kitablara senzura qoymaq yol verilməzdir. Bu norma azyaşlı şagirdlərin yaşlarına görə ədəbiyyat seçməsindəki bəzi qadağalara görə onların diskriminasiyaya məruz qalması deyil və bu yaşa görə ədəbiyyatın əks təsirinin qarşısını almaq üçün nəzərdə tutulan neytral məhdudlaşdırmadır.

4. Şagirdin, valideynin və müəllimin müəyyən edilmiş qaydada məktəbin fəaliyyətini könüllü yoxlama hüququ var.

5. Şagirdin və müəllimin təhsilin və tədqiqatların milli təhsil məqsədləri ilə ziddiyyət təşkil etdiyi təqdirdə,ondan imtina edərək, müəyyən olunmuş məqsədlərə çatmaq üçün akademik təhsil alma azadlıqlığı var.

6. Məktəbin hər hansı qadağadan kənar, şagirdin və müəllimlərin azadlığını ifadə etməsinə şərait yaratmaq hüququ var. Şagirdin və müəllimin sübut edilmiş şəkildə məktəbin formasının seçilməsini rədd etmə hüququ var.

7. Məktəbin formasının təsis edilməsində məktəb şagirdin maliyyə imkanlarını nəzərə almalıdır və əgər onlar formanı tapa bilmirlərsə, məktəb bu formanın tapılmasını təmin etməlidir.

Maddə 15. Toplaşmaq azadlığı

1. Şagirdin, valideynin və müəllimin ilkin razılaşma ilə, qanula müəyyən edilmiş qaydada məktəbin ərazisində toplaşmaq azadlığı var.

2. Məktəbin şagirdin və müəllimlərin arzusuna zidd olaraq, onların icazəsi olmadan toplaşmasını qadağan etməsi və ona nəzarət etməsi, qulaq asması yol verilməzdir. Məktəb vacib bildiyi təqdirdə şagirlərin, valideynlərin, müəllimlərin toplantıda iştirak etmək hüququ var.

3. Kənar şəxslərin şagirdlərin toplantısında onların dəvəti ilə iştirak etmə hüququ var.

Maddə 16. Birləşmə azadlığı

1. Şagirdin, valideynin və müəllimin qanunla müəyyən edilmiş qaydada birləşmək azadlığı var.

2. Məktəbin şagirdin, valideynin, müəllimin birliyinə qanunla nəzərdə tutulan hallardan baqa qarışması yol verilməzdir.

Maddə 17. Şəxsi həyat toxunulmazlığı

1. Şagirdin, valideynin və müəllimin şəxsi həyatı toxunulmazdır. Onlardan şəxsi həyatı barədə informasiya verməsini xahiş etmək olmaz.

1. Məktəb şagird, valideyin və müəllim haqqında şəxsi məlumatları qanunla və Gürcüstan ümumi inzibati kodeksinə müvafiq əldə etməyə, toplamağa və saxlamağa borcludur.

2. Şagirdin dərsi akademik qavraması barədə məlumat onun intizamlılığı ilə bağlı məlumatlarından ayrı yığılıb saxlanılmalıdır.

3. Məktəbin şagirdin və müəllimin alkoqola və narkotik vasitələrə, həmçinin xəstəliyə tutuilub-tutulmamasını öyrənmək üçün tibbi yoxlamadan keçirmək hüququ var.

4. Şagirdin və müəllimin şəxsi həyatına, şəxsi istifadəsinə verilən xüsusi komunikasiya vasitələrinə, habelə məktəbin mülkiyyətində olan vasitələrə öz başına toxunmaq yol verilməzdir.

Maddə 18. Dini azadlıq.

1. Şagirdin, valideynin və müəllimin qanunla müəyyən olmuş qaydada dini, ibadət və vicdan azadlığı var, onlar hər hansı dini dünyagörüşü öz istəyi ilə seçmə və dəyişmə hüququna malikdirlər.

2. Şagirdin, valideynin və müəllimin onların dini ilə ziddiyyət təşkil edən ibadət və vicdan azadlığına əks olan öhdəlikləri üzərlərinə götürürsə, xüsusən bu başqasının hüquqlarını pozursa və milli təhsil planında nəzərdə tutulan səviyyəyə mane olursa, belə hallar yol verilməzdir.

3. İctimai məktəbin ərazisində dini simvolların yerləşdirilməsi qeyri-akademik məqsədlərə xidmət etməməlidir.

4. Əgər bunlar dini təhsil almağa xidmət edirsə, ictimai məktəbin şagirdlərinin məktəb vaxtından azad vaxtlarında öz istəkləri ilə dini öyrənmək, ya da dini ritualları icra etmək hüququ var.

Maddə 19. Nizam-intizam.

1. Məktəb nizam-intizamı şagirdin və müəllimin azadlıq və ləyaqət hissinə hörmət aşılayan metodlarla təşkil olunmalıdır.

2. Məktəbin daxili qaydaları ilə müəyyən olunmuş tələblər, nizam-intizam tərtibi və onun icrası mütanasib olmalıdır.

3. Şagirdin dərsdən buraxılması, məktəbi tərk etməsi və başqa nizam-intizam tətbiqi məktəbin daxili qaydalarına uyğun olmalıdır.

4. Nizam-intizamın yoxlanılması yalniz məktəbin daxili qaydaları ilə və müəyyən edilmiş qaydalarla, yazılı və ədalətli prosedura ilə gerçəkləşdirilə bilər.

5. Müəllim tərəfindən şagirdə nizam-intizamı pozmas ilə bağlı irad tutulduqda və o nizam-intizama riayət etmədiyi təqdirdə məktəb şagirdə bunun mahiyyəti ilə bağlı izahat xarekterli müraciət etməyə borcludur.

6. Şagirdə qarşı nizam-intizam tətbiq etməklə bağlı seçilən tədbirin yönəldildiyini, habelə onun nizam-intizama riayət etmədiyini valideyninə təxirəsalmadan bildirmək lazımdır.

7.Məktəb nizam-intizama görə şagirdə tətbiq edilən elə tələblər seçməyə borcludur ki, bunlar şagirdin tədris prosesinin mahiyyətini pozmasın.

8. Şəxsiyyətin hörmətini və ləyaqətini aşağı salan sərt və ya buna bənzər nizam-intizam tədbirinin seçilməsi yol verilməzdir.

9. Şagirdin sikayət etməsi yol verilməzdir, yalnız konkret şəxs haqqında təkzibedilməz faktlar və sübutların mövcud olması gümanı varsa, bununla bağlı şikayət emək məktəbin daxili qaydaları ilə nəzərdə tutulan qaydada ola bilər. Şagirdin şikayətini yalnız məktəb tərəfindən müvafiq səlahiyyətə malik şəxs gerçəkləşdirə bilər. Şagirdlərin kollektiv şikayəti yol verilməzdir.

10. Şagird və ya müəllimin məktəb vaxtında və məktəbdən kənar nizam-intizama görə izlənməsi, yalnız məktəbin təkzibedilməz sübutu olması və marağı istisna olmaqla, yol verilməzdir.

11. Şagirdin və müəllimin nizam-intizam təqibinə görə dindirmədə susmaq hüququ var. Susmaq hüququ şagird və müəllimi nizam-intizam cavabdehliyindən azad etmir.

12. Müəllimin şagirdi dərsdən qovmaq qərarını qəbul etmək hüququ var. Yalniz şagirdin 5 gün ərzində dərsdən qovulmaq səlahiyyəti direktorun qərarı ilə ola bilər, 5-10 gün

ərzində dərsdən qovulmaq və ya məktəbdən qovulmaq hüququ nizam-intizam komitəsinin geniş müzakirəsindən sonra ola bilər.

13. Qanunla nəzərdə tutulan və vacib hallar istisna olmaqla, dərs vaxtı, ya məktəb ərazisində şagirdlə əlaqəyə girənə qədər polis əməkdaşları və ya xüsusi xidmət işçiləri bu əlaqəyə girmənin məqsədi, işin halları barədə məktəbi tanış etməli və onlar vasitəsi ilə şagirdlə əlaqəyə girməlidirlər. Məktəb şagirdə hüquqlarını başa salmalı və baş verənlər barədə təxirə salmadan onun valideynlərinə xəbər verməlidir.

Maddə 20. Zorakılığın yolverilməzliyi

Məktəbdə şagirdlərə və ya hər hansı bir şəxsə qarşı zorakılıq yol verilməzdir. Fiziki və ya sözlə təhqiretmə halları baş verdikdə məktəb buna qanunvericilikdə nəzərdə tutulan qaydada reaksiya verməyə borcludur.

Maddə 21. Şagirdin başqa hüquqları.

1. Ümumtəhsil müəssisələrində şagirdin aşağıdakı hüquqları var:

a) Müəssisənin işləməsi üçün lazımi şəraitin yaradılmasını tələb etmək;

b) Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər əsasında işləmək;

q) İxtisasını artırmaq ;

d) Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək;

2. Şagirdin əməklə məşğul olması tam iş həftəsi olduğu təqdirdə bu, Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş kütləvi xidmətin minimal maaşından az olmamalıdır.

3. Ümumtəhsil müəssisələrinin və şagirdin əməklə məşğul olması əmək müqaviləsi, Gürcüstan qanunvericiliyi ilə müəyyən olunmuş müddətə və qaydalarla uyğun olmalıdır.

4. Şagirdin əməklə məşğul olması ictimai məktəbin büdcəsinin artması ilə birgə artır.

III FƏSİL
ÜMUMİTƏHSİLİN MALİYYƏLƏŞMƏSİ

Maddə 22. Dövlət tərəfindən ümumtəhsilin maliyyələşdirilməsi

1. Dövlət tam ümumtəhsil almağı təmin edir. Şagirdin təhsil alması üçün dövlət ümumtəhsilini 12 il ərzində maliyyələşdirir.

2. Dövlət təhsilə ayrılan xərcləri ibtidai təhsil və ya baza və ya orta ümumtəhsil proqramlarına malik dövlət təhsil müəssisələri üçün ayırır. Özəl məktəbdə təhsil almaq üçün bir şagirdə nəzərdə tutulan maliyyə normativi müvafiq vauçerlə, dövlət onun bu barədə müvafiq akreditasiyası olduğu halda maliyyələşdirir.

3. Dövlət tərəfindən şagirdin təhsilinin maliyyələşməsi mərkəzi büdcədən bir şagird üçün nəzərdə tutulan vauçer əsasında və ümumtəhsil müəssisəsinin kapital xərclərinə daxil edilmədən həyata keçirilir. Standart və artırılmış vauçerin həcmi milli təhsil planı ilə nəzərdə tutulan səviyyəyə çatmaq üçün maksimal yükə görə, başqa vəziyyətdə olan şagird üçünsə maliyyə imkanlarına görə, təhsil almada mütənasibliyi təmin etmək prinsipini müdafiə etmək üçün gerçəkləşdirilir.

4. Hər bir valideynin bu maddənin 2-ci bəndində nəzərdə tutulan qaydada təhsil müəssisəsində məktəb yaşına çatmış uşağının təhsilini maliyyələşdirməsi üçün vauçer almaq hüququ var. Dövlət bu bəndlə nəzərdə tutulan qaydada, şagird başqa təhsil müəssisəsinə keçdiyi təqdirdə maliyyələşməni gücləndirir.

5. Kütləvi məktəbin kapital xərclərini dövlət və yayerli özünüidarəetmə orqanı həyata keçirir.

6. Hər bir azkontingentli kütləvi məktəb milli təhsil planını yerinə yetirmək xərclərini, bir şagird üçün nəzərdə tutulan maliyyə normativini Gürcüstan Elm və Təhsil Nazirliyinin qərarı əsasında mərkəzi büdcədən əlavə artırılmış vauçer şəklində almaq hüququna malikdir.

7. Bu maddə ilə nəzərdə tutulan maliyyələşmə Gürcüstan vətəndaşlarına şamil edilir. Xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslər tərəfindən ümumi təhsil almaq hüququ Gürcüstanın qoşulduğu beynəlxalq müqavilələr və razılaşdırılmalar əsasında gerçəkləşdirilir. Beynəlxalq müqavilələr və ya razılaşdırmalarla ümumtəhsili, almaq hüququ qaydaya salınmamış ölkələrin vətəndaşlarını Gürcüstan dövləti fərdi prinsip əsasında maliyyələşdirir. Gürcüstan dövlətinin fərdi prinsiplə maliyyələşmə əsasında ümumtəhsilini almaq istəyən bu cür dövlətlərin vətəndaşları Gürcüstan Elm və Təhsil Nazirliyinə, Gürcüstan Xarici İşlər Nazirliyinə bu barədə məlumat verməklə təhsil alırlar.

Maddə 23. Əlavə ümumtəhsil və tərbiyə xidmətinin maliyyələşdirilməsi.

1. Əgər ümumtəhsil müəssisəsində 12 illik təhsildən sonra şagird baza mərhələli milli və ya modifikasiyalı təhsil planı ilə məyyən edilən səviyyəyə çatmayıbsa, qəyyumlar şurası müvafiq yerli özünüidarəetmə orqanına bu şagirdin təhsilini davam etdirməsi üçün maliyyələşməni davam etdirməyi xahiş edə bilər. Malyyələşmə şagird tərəfindən baza mərhələli təhsil səviyyəsinə çatana qədər davam edə bilər. Əgər şagir bu səviyyəyə çata bilmirsə, ictimai məktəb şagirdə ümumtəhsil almağın alternativ formalarını təklif etməyə borcludur.

2. Əgər şagird 3 il ərzində ümumtəhsilin orta mərhələsini bitirə bilmirsə, qəyyumlar şurası onun müraciəti əsasında yerli özünüidarəetmə orqanına şagirdin təhsil almsını davam etdirə bilməsi üçün maliyyələşdirməni davam etdirməyi xahiş edə bilər.

3. Qəyyumlar şurasının xahişi əsasında yerli özünüidarəetmə orqanı əlavə təhsil və tərbiyə xərclərini ödəyə bilər. Dövlət və yerli özünüidarəetmə orqanları xüsusi məqsədli təhsil proqramını maliyyələşdirə bilər.

IV FƏSİL
ÜMUMİTƏHSİLİN İDARƏETMƏ SİSTEMİ

Maddə 24. Ümumtəhsil sahəsində Gürcüstan parlamentinin səlahiyyətləri

1. Ümumtəhsil sahəsində Gürcüstan parlamentinin səlahiyyətləri

Gürcüstan parlamenti:

a) Ümumtəhsil sahəsində dövlət siyasətini və idarəetmənin əsas istiqamətlərini müəyyən edir, müvafiq qanunvericilik aktlarını işləyib hazırlayır;

b) Gürcüstan hökuməti tərəfindən qəbul edilmiş ümumtəhsilin milli məqsədlər sənədini 1 ay müddətinə təsdiq edir;

q) Mütəmadi olaraq ümümtəhsil sahəsində dövlət siyasətinin həyata keçməsi, maliyyə məsələləri, milli və regional proqramların yerinə yetirilməsi barədə Gürcüstan Elm və Təhsil nazirinin hesabatını dinləyir.

Maddə 25. Gürcüstan hökumətinin ümumtəhsil sahəsindəki səlahiyyətləri.

1. Ümumtəhsil sahəsində dövlət siyasətini Gürcüstan hökuməti gerçəkləşdirir.

2. Gürcüstan hökuməti:

a) Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumtəhsilin milli məqsədləri sənədini qəbul edir, 1 ay müddətində Gürcüstan parlamentinə təsdiq edilmək üçün göndərir;

b) Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi təqdimatla bir şagird üçün nəzərdə tutulan maliyyə normativini müvafiq standartla və artırılmış vauçer həcmində təsdiq edir;

3. Gürcüstanın baş naziri Gürcüstan Elm və Təhsil Nazirliyinin təqdimatı ilə təhsil planını və Qiymətləndirmə Mərkəzinin direktorunu təsdiq edir.

Maddə 26. Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumtəhsil sahəsində səlahiyyətləri

1. Gürcüstan Elm və Təhsil Nazirliyi ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyi-Gürcüstan konstitusiyası,

konstitusiya razılaşdırması, beynəlxalq müqavilələr və razılaşdırmaları, bu qanunla, başqa qanunlarla və qanun yaradıcılığı aktları əsasında:

a) Ümumtəhsil sahəsində vahid siyasət həyata keçirir:

b) Ümumtəhsil haqqında milli məqsədlər sənədi hazırlayır və onu Gürcüstan hökumətinə təqdim edir;

q) Təhsil sistemində indiqatorların bu cür əsas sənədlərini işləyib hazırlayır;

d) Milli təhsil planını və Qiymətləndirmə Mərkəzinin nizamnaməsini işləyib hazırlayır və qəbul edir;

e) Gürcüstan baş nazirinin təsdiq etməsi üçün milli təhsil planını və Qiymətləndirmə Mərkəzinin direktorluğuna namizədi təqdim edir;

v) Milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzinin təklifləri əsasında milli təhsil planını təsdiq edir;

z) Ümumtəhsil müəssisəsinin maddi-texniki, proqramlı və insan resurslarının normativlərini işləyib hazırlayır, habelə bunların ictimai məktəblərdə necə icra edilməsini yoxlayır, özəl məktəblər tərəfindən lisenziya şərtlərinin yerinə yetirilməsinə nəzarət edir;

t) Özəl məktəblərin lisenziya almasını həyata keçirir və lisenziyanın şərtlərinin yerinə yetirilməsinə nəzarət edir, lisenziya şərtlərinin pozulması hallarında verilmiş lisenziyanın fəaliyyətini dayandırmağa, ya da onu ləğv etməyə səlahiyyətlidir. Lisenziya verilməsinin lazımi şərtlərinin olması, müəssisənin maddi-texniki bazasının, proqramının, insan resurslarının Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş normativlərə uyğun olub-olmamasını yoxlayır;

ı) Ümumtəhsil müəssisələrinin dövlət akkreditasiya xidmətinin təqdimatı ilə ümumtəhsil müəssisəsinin akkreditasiyası nizamnaməsini təsdiq edir;

k) Ümumtəhsil müəssisəsinin tikintisinin inşaat standartlarına uyğun olub-olmamasına müvafiq sahə nazirlikləri və idarələr ilə birlikdə qiymət verir;

l) Vauçerin verilməsini və verilmə qaydasını Gürcüstan Maliyyə Nazirliyi ilə birgə icra edir;

m) Xüsusi təhsil almağa məcbur olan, habelə məktəbdən kənarlaşdırılmış şagirdlərin təhsil alması daxil olmaqla hər bir şagirdlə bağlı ölçülər götürür; ekstern təhsil almağın sertifikatlaşması üçün nizamnamə işləyib hazırlayır; ümumtəhsil müəssisələrindən başqa ümumtəhsil müəssisəsinə keçməyi və yaalternativ təhsil nizamnaməsini işləyib hazırlayır;

n) Ümumtəhsil müəssisəsini hüquqi şəxs-ictimai məktəb qismində təsis edir və onun nizamnaməsini təsdiq edir; onun yenidən qurulmasında və ləğv edilməsində iştirak etmək səlahiyyətinə malikdir. Abxaziya və ya Acarıstan muxtar respublikalarında bu bənddə nəzərdə tutulan fəaliyyətlər müvafiq muxtar respublikalarının təhsil nazirliklərinin təqdimatı əsasında gerçəkləşdirilir;

o) İctimai məktəb direktorunun seçilmə müsabiqəsini təşkil edir və qəyyumlar şurasının direktor seçilmək üçün namizədlərin üç nəfərdən artıq olmamasını təmin edir;

p) Qəyyumlar şurası tərəfindən kütləvi məktəbə seçilən direktoru və qəyyumlar şurasının üzvlərini qeydiyyata alır;

j) Əgər qəyyumlar şurası məktəb direktorunu qanunsuz olaraq işdən azad edibsə və bu məhkəmənin müvafiq qərarı ilə təsdiqini tapıpsa, onun qəyyumlar şurasını buraxmaq səlahiyyəti var;

r) Kütləvi məktəbin dalbadal iki dəfə akkreditasiyasının ləğv edildiyi və ona dalbadal iki dəfə şərti akkreditasiya verildiyi təqdirdə, habelə bu qanunun 49-cu maddəsinin 7-ci bəndi ilə nəzərdə tutlan hallarda qəyyumlar şurasının və ya direktorun vaxtının tamam olana qədər saxlanmasını xahiş etməyə səlahiyyətlidir;

s) Xaricdə təhsil almış şəxsin ümumtəhsil almasını təsdiq edən sənədlərin tanınması qaydalarını və şərtlərini işləyib hazırlayır;

t) Milli qiymətləndirmənin keçirilməsini təsdiq edir;

u) Keyfiyyəti yoxlamaq üçün beynəlxalq təşkilatlarla, başqa ölkələrin təhsil müəssisələri ilə və təminat sahəsində əməkdaşlıq edir;

p) Milli təhsil planları və Qiymətləndirmə Mərkəzinin təqdimatı əsasında tövsiyə edilən dərsliklərin qrif vermə qaydasını təsdiq edir;

k) İctimai məktəblərin dövlət nəzarətini və ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetrilməsini həyata keçirir. Bu məqsədlə qanunvericiliklə nəzərdə tutulan qaydada nazirlik bu məktəblərdə maliyyəni yoxlamağa səlahiyyətlidir;

g) İctimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində məktəbdənxaric təhsil və məktəbdənxaric tərbiyə müəssisələri təsis edir;

ğ) Məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin-ümum təhsil müəssisələrinin, habelə ümumtəhsil müəssisələrinin akkrediasiyasını aparmaq məqsədi ilə təhsil müəssisələrinin dövlət akkreditasiya xidmətini yaradır;

ş) İctimai məktəbin direktorunun və müəllimlərin müsabiqə yolu ilə seçilməsi qaydasını, qəyyumlar şurası üzvlərinin seçilməsi, onların səlahiyyət qaydalarını və şərtlərini hazırlayır. Müsabiqə qaydası ilə bir neçə məktəb direktorluğuna namizədlərin eyni vaxtda seçilməsi mexanizmini hazırlayır;

ç) İctimai təşkilatların təqdimatı ilə məşvərətçi səslə ictimai məktəbin qəyyumlar şurasına üzv təyin etmək səlahiyyəti var;

ts) İctimai məktəblərdə il ərzində təhsil günlərinin minimal və maksimal sayını, minimal və maksimal davamlılığını müəyyən edir;

dz) Ümum təhsil müəssisələrinin Dövlət Akkreditasiya Xidmətinin təqdimatı ilə təhsil müəssisələrinin akkreditasiyasının rüsum həddini təsdiq edir.

c) İctimai məktəbin direktorunun və seçkili orqanları üzvlərinin qeydiyyatı qaydasını hazırlayır;

c) Müəllimlər arasında əmək bölgüsünün minimal həcmini və şərtlərini müəyyən edir.

ş) Həmkarlar İttifaqının iştirakı ilə ictimai məktəb şagirdlərinin işləməsi ilə bağlı minimal həcmi və şərtləri

hazırlayır, məktəblər tərəfindən müəllimlərlə bağlanmış əmək müqaviləsinin məcburi şərtlərini hazırlayır;

x) Müəllimlərin ixtisasını artırmaq üçün peşəkar ittifaqlarla əməkdaşlığını planlaşdırır;

c) Müəllimlərin peşəkar hazırlığını, hazırlanmasını və yaixtisasını artırmasının, onların akkreditasiyasını artıran, onların akkreditasiyasının şərtlərinə nəzarət, hüquqi şəxslərə akkreditasiyanın verilməsi, nizamnamənin, akkreditasiya şərtlərinin pozulması təqdirdə ləğv edəndən sonra akreditisiya verilənə qədər şərti akreditasiya verilməsi və ya bu məqsədlərin onlar tərəfindən təsis edilməsi, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin vasitəsi ilə gerçəkləşdirilir;

H) Ümumtəhsil almağı təsdiq edən dövlət sənədinin formasını təsdiq edir;

H1) İctimai məktəblərin nömrələrini və onlara ad verilməsi qaydasını hazırlayır;

H2) Zəmanətlər və xüsusi istedadı olan şagirdlərə həvəsləndirmə məqsədi ilə təqaüd təsis etməyə səlahiyyəti var;

H3) Şagirdin və müəllimin şəxsi göstəricilərini qeydiyyata almağı və onların qeydiyyata alma qaydalarını gerçəkləşdirir;

H4) Müəllimlərin məşğulluğunu uyğunlaşdırmaq mexanizmlərini işləyib hazırlayır;

H5) Gürcüstan qanunvericiliyi və nazirliyin qərarları ilə nəzərdə tutulan digər funksiyaları yerinə yetrir;

2. Bu maddənin birinci bəndində nəzərdə tutulan səlahiyyətlərin həyata keçməsi "Gürcüstan hökumətinin strukturu, səlahiyyətləri və fəaliyyət qaydaları haqqında" Gürcüstan qanununa müvafiq olaraq, Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən Gürcüstanın bütün ərazisini əhatə edir, yenidənqurma aktları ilə öz ərazi orqanlarını yaradır və onların nizamnaməsini təsdiq edir, vəzifələrini müəyyənləşdirir və bu orqanların rəhbərlərini və müavinlərini vəzifədən azad edir. Elm və Təhsil Nazirliyinin ərazi orqanları dövlət büdcəsindən maliyyələşir.

3.Gürcüstan Elm və Təhsil Nazirliyi ümumtəhsil, məktəbdənkənar təhsil və məkdəbdəndənkənar tərbiyə müəssisələrinin

reyesterini hazırlayır, kütləvi məktəblərin direktorlarını, direktorların səlahiyyətlərini yerinə yetirmələrinin mümkün olmadığı halda onların öhdəliklərini yerinə yetirən müavinlərini, bu öhdəlikləri yerinə yetirən digər şəxsləri, Qəyyumlar şurasının üzvlərini Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada, aşağıdakı şərtlərə əməl etmək şərti ilə qeydiyyatdan keçirir:

a) Məlumatlar təqdim edilməndən sonra onların 15 gün ərzində qeydiyyata götürülməsini;

b) Əgər məlumatlar bu qanuna və ümumtəhsil sahəsində qüvvədə olan qanuni aktların tələblərinə uyğun gəlmirsə, həmin sənədlər qeydiyyata alınmır;

q) Əgər Gürcüstan Elm və Təhsil Nazirliyi 15 gün ərzində təqdim olunmuş məlumatlarda qanun pozuntusu aşkar etməyibsə və qanun pozuntusu barədə məlumat verməyibsə, məlumat qeydiyyatdan keçmiş hesab olunur;

d) Əgər məlumatlar Abxaziya və Acarıstan muxtar respublikaları ərazisindəki təhsil müəssisələri ilə əlaqəlidirsə, Elm və Təhsil Nazirliyi muxtar respublikaların müvafiq nazirliklərinin təqdimatı əsasında qeydiyyat aparır.

Maddə 27. Gürcüstan nazirliklərinin ümumtəhsil sahəsindəki səlahiyyətləri

1. Peşəkar sənət və idman hazırlığını ümutəhsillə birgə həyata keçirərkən ümumtəhsil müəssisələri sahə nazirliklərinin Gürcüstan Elm və Təhsil Nazirliyinə müvafiq təqdimatı əsasında, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində təsis edilir. Bu müəssisələr Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada akkreditasiyadan keçir. Milli təhsil planı yuxarıda qeyd edilən peşəkar sənət və idman hazırlığı və təhsili, həmçinin ibtidai və baza mərhələli təhsil verən bu cür müəssisələr sahə nazirlikləri və yayerli özünüidarəetmə orqanları tərəfindən maliyyələşdirilir.

2. Milli təhsil planı yuxarıda göstərilən peşəkar sənət və idman ümumtəhsil proqramları sahə nazirlikləri tərəfindən qanunvericiliklə nəzərdə tutulan qaydada həyata keçrilir.

Maddə 28. Milli təhsil planları və Qiymətləndirmə Mərkəzi

1. Milli təhsil planları və Qiymətləndirmə Mərkəzi ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsdir.

2. Milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzinin funksiyalarına daxildir:

a) Milli təhsil planını hazırlamaq, pilotlaşdırma və onun tətbiqi;

b) İctimai məktəblərdə cari təhsil prosesinin milli qiymətləndirmə sistemini işləyib hazırlamaq, seçmək, milli və başqa qiymətləndirmələri gerçəkləşdirmək;

q) Dərsliklərin milli təhsil planı ilə uyğunluğunu təmin etmək və tövsiyə edilən dərsliklərə qrif vermək;

Maddə 29. Abxaziya və Acarıstan respublikalarının təhsil nazirliklərinin ümumtəhsil sahəsindəki səlahiyyətləri

1. Abxaziya Muxtar Respublikasının Təhsil Nazirliyi, Acarıstan Muxtar Respublikası Təhsil Nazirliyi muxtar respublikaların müvafiq ərazilərində:

a) Öz ərazisində ümumtəhsilin idarə edilməsi sahəsində, ümumtəhsil sahəsində vahid dövlət siyasəti aparır;

b) Ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetirilməsini təmin edir;

q) Milli təhsil planını tətbiq etməyi təşkil etməkdə, milli təhsil planlarına və Qiymətləndirmə Mərkəzində milli qiymətləndirməni gerçəkləşdirir;

d) Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş nizamnamələrin bütün ümumtəhsil müəssisələrində Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən etdiyi normativlərə uyğun gəlməsini təmin edir;

e) Lisenziya şərtlərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirir, lisenziya şərtlərinin pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi təqdim edilən məktəbə xəbərdarlıq edir, verilən lisenziyanın dayandırılmasını və ləğv edilməsini təmin edir;

v) Ümumtəhsil müəssisələrinin qiymətləndirilməsini Gür-

cüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada həyta keçirir;

z) Ümumtəhsil, məktəbdənkənar təhsil və tərbiyə müəssisələrinin nizamnaməsini təsdiq üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə təqdim edir;

t) Ümumtəhsil, məkdəbdənkənar təhsil və məktəbdənkənar tərbiyə müəssisələrinin reyestrini keçirir, ümumtəhsil məktəblərinin direktorlarını qeydiyyatdan keçirir, direktor öz səlahiyyətlərini yerinə yetirə bilmədiyi təqdirdə onun vəzifəsini icra edən müavinlərinin, qəyyumlar şurasının üzvlüyünün bu qanunla və ümum təhsil sahəsində qüvvədə olan qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada qeyd edilən məlumatları təkrar qeydiyyat üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə göndərməyi yerinə yetirir. Elm və Təhsil Nazirliyi məlumatların qeydiyyatını və onların qüvvəyə minməsini təmin edir;

İ) Bu qanula nəzərdə tutulan qaydada ümümtəhsil müəssisələrinin maliyyələşdirilməsini gerçəkləşdirir;

K) İctimai məktəbin direktorunun seçilməsi müsabiqəsini keçirir və qəyyumlar şurasının direktoru seçməsi üçün üç nəfərdən az olmamaq şərti ilə namizədlərini irəli sürür;

L) Əgər qəyyumlar şurası qanunsuz şəkildə direktoru işdən azad edərsə və bu məhkəmə qərarı ilə öz təsdiqini taparsa, qəyyumlar şurasını buraxmağa səlahiyyətlidir;

m) İctimai məktəb tərəfindən dalbadal iki dəfə akkreditisiyanın ləğv edildiyi və ona dalbadal iki dəfə şərti akkreditasiya verildiyi təqdirdə, qəyyumlar şurasının və ya direktorun vaxtı tamam olana qədər saxlanmasını xahiş etməyə səlahiyyətlidir;

N) Gürcüstan qanunvericiliyini və lisenziya şərtlərini yerinə yetirmək üçün, bunların yerlərdə məktəb tərəfindən öyrənilməsi üçün məsələləri və informasiyaları xahiş edib alır;

o) Məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin və lisenziya şərtlərinin pozulduğu təqdirdə onlara yazılı xəbərdarlıq etməyə səlahiyyətlidir;

p) Əgər məktəb deyilən vaxta qədər yazılı xəbərdarlıq alıbsa və bu pozuntunu düzəltməyibsə və ya da məktəb 1 il ərzində 2 yazılı xəbərdarlıq alıbsa, müddətinə görə səlahiyyətləri ləğ edilmiş direktoru işdən azad etməyə və qəyyumlar şurasını buraxmağa səlahiyyətlidir.

J) Cürcüstan qanunvericiliyinin necə yerinə yetirilməsi barədə Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq olaraq ictimai məktəbin ötən ilin fəaliyyəti, təhsil prosesi və maliyyə fəaliyyəti barədə hesabat verir;

r) Gürcüstan qanunvericiliyini, habelə bu qanunla nəzərdə tutulan başqa səlahiyyətləri gerçəkləşdirir.

n) Müvafiq yerli idarəetmə orqanları ilə birgə təhsilin qanunda nəzərdə tutulmuş qaydada maliyyələşməsini həyta keçirir;

2. Abxaziya və ya Acarıstan muxtar respublikalarının təhsil nazirlikləri bu maddənin birinci bəndində nəzərdə tutulan səlahiyyətlərin həyata keçməsini, yenidən qurulmasını və ləğv etməsini muxtar respublikaların ərazi orqanları vasitəsi ilə öz ərazilərində gerçəkləşdirir, onların nizamnaməsini təsdiq edir, vəzifəyə təyin edir və onların rəhbərlərini və müavinlərini vəzifədən azad edir.

3. Əgər Acarıstan və Abxaziya muxtar respublikaları haqqında Gürcüstan və müvafiq muxtar respublikaların qanunvericiliyində təhsil nazirliyinin mövcudluğu nəzərdə tutulmayıbsa, bu maddənin birinci və 2-ci bəndlərində nəzərdə tutulan səlahiyyətləri Gürcüstan Elm və Təhsil Nazirliyi bu qanunda müəyyən edildiyi qaydada həyata keçirir.

Maddə 30. Ümumtəhsil sahəsində yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri

1. Yerli özünüidarəetmə orqanı:

a) Məktəbin bu qanunla nəzərdə tutulan fəaliyyətini effektli yerinə yetirmək üçün və ya qanunvericiliklə nəzərdə tutulan ölçüləri məqsəd kimi üzərinə götürür, yerli büdcədən məktəb təhsil planının gerçəkləşdirilməsi üçün lazımi əlavə maliyyə vəsaitinin miqdarını müəyyən edir;

b) İctimai məktəblərdə məktəb təhsil planı ilə nəzərdə tutulan milli təhsil planı ilə yuxarıda nəzərdə tutulan ümumtəhsil və tərbiyə proqramlarının gerçəkləşdirilməsinə əl qoyur;

q) Şagirdlərin sosial və tibb xidmətinin kordinasiyasının qayğısına qalır;

d) Məktəbdən xaric edilmiş şagirdlərin ümumtəhsil alması üçün tədbirlər görür;

e) Xəstəlik və ya başqa üzürlü səbəbə görə ümumtəhsil prosesində iştirak edə bilməyən şagirdlərin ümumtəhsil alması üçün tədbirlər görür;

v) Qanunvericiliklə nəzərdə tutulan hallarda şagirdin nəqliyyatla təmin olunmasının qayğısına qalır;

z) Qanunvericiliklə nəzərdə tutulan hallarda şagirdin dərsə davamiyyətinin təmin olmasının qayğısına qalır;

t) Yerli büdcədən ayrılmış maliyyə istiqrazları barədə bütün məlumatları almaq səlahiyyətinə malikdir;

i) Bu maddənin "A" yarımbəndi nəzərdə tutulan çərçivədə maliyyə pozuntusu hallarında məktəbin qəyyumlar şurasına müraciət edib direktorun səlahiyyətlərini ləğv etmək məsələsini qaldırmağa səlahiyyətlidir, ancaq qəyyumlar şurasının fəaliyyətsizliyi təqdirdə, Gürcüstan Elm və Təhsil Nazirliyinə qəyyumlar şurasının buraxılması və yadirektorun səlahiyyətlərinin vaxtından əvvəl ləğv edilməsi təklifi irəli sürmək səlahiyyətinə malikdir ;

k) Ərazidə mövcud məktəblərdəki qəyyumlar şurasına məşvərətçi səslə üzv təyin etməyə səlahiyyətlidir;

l) Gürcüstan qanunvericiliyini, habelə bu qanunla nəzərdə tutulan başqa səlahiyyətləri gerçəkləşdirir.

V FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏETMƏ ƏSASINDA FƏALİYYƏTİ

Maddə 31. Ümumtəhsil müəssisəsinin təşkilati-hüquqi forması

1. Ümumtəhsil müəssisəsi/məktəb "İctimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs haqqında" Gürcüstan qanununun əsasında kütləvi, məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs və ya xüsusi məhkəmənin təsdiq etdiyi istehsalla məğul olan və ya da qeyri-istehsalla məşğul olmayan hüquqi şəxsdir.

2. Özəl məktəbin lisenziya almasını, ümumtəhsil müəssisəsi ibtidai təhsil mərhələsini və ya baza və yaorta mərhələsini təmin edir.

3. Özəl məktəbin lisenziya almasını Gürcüstan Elm və Təhsil Nazirliyi gerçəkləşdirir. Lisenziya verilməsi Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya və normativə müvafiq gerçəkləşdirilir.

4. Ümumtəhsil müəssisəsi tərəfindən gerçəkləşdirilən ibtidai və baza ümumtəhsil proqramlarının dövlət tərəfindən tanınması üçün müvafiq akreditasiyadan keçməsi vacibdir. İctimai məktəbin akkreditasiya xərclərini dövlət, özəl məktəbin akreditasiya xərclərini isə maraqlı şəxs çəkir. Akreditasiyanın dəyərini Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi birgə müəyyənləşdirir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydaya müvafiq akreditasiyadan keçmiş özəl məktəb bu qanunla müəyyən edilən qaydada dövlət tərəfindən maliyyə almaq səlahiyyətinə malikdir.

6. Bu qanunun I, II, III, IV,V və X11 fəsillərindəki müvafiq qaydalar özəl məktəblərə şamil edilir.

Maddə 32. Ümumtəhsil müəssisələrinin akkreditasiyası

1. Ümumtəhsil müəssisələrinin ümumtəhsilin milli məqsədlərl sənədinə və milli təhsil planına uyğunluğu məqsədi

ilə dövlət akreditasiya təmin edir. Dövlət yalnız akreditasiyadan keçmiş ümumtəhsil müəssisəsi tərəfindən verilmiş sənədi tanıyır.

2. Ümumtəhsil proqramını həyata keçirən bütün ümumtəhsil müəssisələri akreditasiyadan keçməyə borcludur. Yeni təsis olunmuş ümumtəhsil müəssisəsinin birinci akreditasiyası bu müəssisənin fəaliyyətə başlaması günündən sayılır.

a) 3 il sonra-əgər o ibtidai ümumtəhsili gerçəkləşdirirsə;

b) 2 il sonra-əgər o baza və yaəgər o ibtidai proqramdan kənar orta ümumtəhsil proqramını gerçəkləşdirirsə.

3. Akreditsiyadan keçməyi təmin etmək məqsədi ilə Gürcüstan Elm və Təhsil Nazirliyi ictimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs - Təhsil Müəssisələrinin Dövlət Akreditasiya Xidmətini yaradır. (Sonradan Dövlət Akreditasiya Xidməti).

4. Dövlət Akreditasiya Xidməti öz fəaliyyətində müstəqildir və öz işini bu qanunla, Gürcüstan Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnaməyə uyğun qurur.

5. Dövlət Akreditasiya Xidməti ümumtəhsil müəssisələrinin akreditasiyasını həyata keçirir, akreditasiyanın şərtlərinin yerinə yetirilməsinə nəzarət edir, akreditasiya şərtlərinə əməl edilmədiyi təqdirdə verilmiş akreditasiyanı ləğv etmək səlahiyyətinə malikdir.

6. Dövlət Akreditasiya Xidmətinə rəhbər vəzifəyə təyin və vəzifədən azad etmə hüququ Gürcüstan baş nazirinin səlahiyyətinə daxildir.

7. Konkret akreditasiyanı keçirmək üçün Dövlət Akreditasiya Xidməti ekspertlər qrupunun sədrliyinə namizədi seçki yolu ilə, əksər səs çoxluğu qazandığı təqdirdə təyin edir. Razılaşma prosedurası Dövlət Akreditsaiya Xidmətinin əsasnaməsinə müvafiq gerçəkləşdirilir.

8. Ekspertlər qrupunun sədri qrupun üzvlüyünə namizədlərin adlarını açıqlayır.

9. Əgər ictimai məktəbin akreditasiya almağa iddialının istəyini təmin etmək barədə razılığı varsa, ekspertlər qrupunun

sədri bu rəyi təsdiq etmək üçün Akreditasiya Xidmətinin rəhbərinə təqdim edir.

10. Akreditasiya Dövlət Akreditasiya Xidməti tərəfindən ilkin olaraq bəyənilmiş formalara görə akreditasiya almaq istəyən tərəfindən keçirilən özünüqiymətləndirmə şərtləri əsasında gerçəkləşdirilir.

11. Ekspertlər qrupu öz işini qurtarandan sonra 1 həftə ərzində Dövlət Akreditasiya Xidməti akreditasiyanın keçməsi haqqında nəticəni təqdim edir.

12. Ekspertlər qrupunun çıxardığı nəticə əsasında Akreditasiya Xidmətinin rəhbəri fərdi akt - əmr verir.

13. Ümumtəhsil müəssisəsinin akrelitasiyası barədə qərar Dövlət Akreditasiya Xidmətinin rəhbərinin fərdi aktı - əmri ilə Gürcüstan Elm və Təhsil Nazirliyinin ümumtəhsil müəssisələrinin reyesrtində və qanunveriliklə müəyyən olunmuş qaydada qeydiyyatdan keçib dərc olunur.

14. Ümumtəhsil müəssisələrinin akreditasiyadan keçməsi haqqında qərar 4 növdə olur:

a) Akreditasiya vermək haqqında;

b) Akreditasiya verməkdən imtina etmək haqqında;

q) Şərti akreditasiya vermək haqqında;

d) Akreditasiyanı ləğv etmək haqqında.

15. Şərti akreditasiya verilməsinə razılıq olduğu təqdirdə bu əmrdə akreditasiyanın şərti verilməsi öz əksini tapmalı və akreditasiyanın şərti verilməsi qaydalarına müvafiq icra olunmalıdır.

16. Ümutəhsil müəssisəsinə şərti akreditasiya 6 il müddətindən az olmayaraq verilir.

17. Şərti akreditasiyanın verildiyi təqdirdə sonrakı akreditasiya aradan 1 il keçməməklə gerçəkləşdirilir. Akreditsiyanın verilmə müddəti Dövlət Akreditasiya Xidmətinin rəhbərinin əmri ilə təyin edilir.

18. Əgər ictimai məktəb sahə nazirliyinin təqdimatı ilə yaradılıbsa, akreditasiya şərtləri bu sahə nazirliyi ilə razılaşdırılır; bu cür ümumtəhsil müəssisələrinin akreditasiyasında ekspertlər qrupu ümumtəhsil müəssisəsinin təhsil planı ilə

nəzərdə tutulan peşəkar, ya da xüsusi sənətlər, ifaçılıq, idman hazırlığı, ya da təhsil proqramı ekspertləri iştirak edir; bu halda ekspertlər qrupunun üzvünün namizədliyi akreditsiya almaq istəyənlə razılaşdırılmalıdır; əgər akreditasiya almaq istəyən iki dəfə təklif edilən namizədi rədd edərsə, ekspertlər qrupunun sədri razılaşdırma olmadan akreditasiya almaq istəyənin rədd etmədiyi eksperti qrupun üzvünü təyin etməyə səlahiyyətlidir.

19. İctimai məktəbin akreditasiyasını keçirmək, habelə ekspertlər qrupunun əməyinin ödənilməsi xərclərini dövlət, özəl məktəbin akretitasiya xərclərini isə ümumtəhsil müəssisəsi öz üzərinə götürür.

20. Dövlət Akreditasiya Xidməti ümumtəhsil müəssisəsinə akreditasiya ilə bağlı ortaya çıxam məsələlərdə ədalətli kömək etməyə borcludur. Dövlət Akreditasiya Xidməti akreditsiya məsələləri ilə bağlı hər il tövsiyələr işləyib hazırlayır.

21. Dövlət yalnız o ümumtəhsil müəssisəsinin ümumtəhsil almasını təsdiq edən sənədini tanıyır ki, bu sənəd dövlət akreditasiyası almış ümumtəhsil müəssisəsi tərəfindən verilib.

22. Akreditasiyası və şərti akreditasiyası olan özəl məktəb dövlət tərəfindən maliyyə ala bilər .

23. Akreditasiyası kütləvi məktəb tərəfindən azından iki dəfə zərərsizləşdirilmiş, ya da azından iki dəfə şərti akreditasiya almış ümumtəhsil müəssisəsinin qəyyumlar şurası özünü buraxmalı və ya direktorun səlahiyyətini vaxtından tez ləğv etməli və /ya ümumtəhsil müəssisəsini yenidən qurmalı və ya ləğv etməlidir.

24. Akreditasiyası və ya şərti akreditasiyası olan özəl, habelə kütləvi məktəbi qurtarmasını təsdiq edən sənədin sahibi olan şagird vahid milli imtahanda iştirak edə bilər.

25. Bu maddənin 23-cü bəndində nəzərdə tutulanların baş verəcəyi təqdirdə Gürcüstan Elm və Təhsil naziri müəyyən edilmiş vaxt ərzində öz nümayəndəsini təqdim etməyə səlahiyyətlidir-direktorun vəzifələrini icra edən bu şəxs müəssisənin cari fəaliyyətini əlaqələndirməli və müəssisənin sonrakı fəaliyyətinin məqsədyönlü inkişafına və bu müəssisənin şagirdlərinin başqa ümumtəhsil müəssisələrinə

yerləşdirmək imkanları barədə tövsiyələr işləyib təqdim etməlidir.

26. Ümumtəhsil müəssisəsinin akreditasiyasının ləğvi, ya da akreditasiya ala bilməməsi bu maddənin 21-ci və 24-cü bəndində nəzərdə tutulan şərtlər elə ümumtəhsil müəssisəsinə və o şagirdlərə şamil olunur ki, onların təhsil aldığı orta ümümtəhsil proqramına görə təhsil müəssisələrinin akreditasiyası ləğv edlib, ya da akretitasya ala bilməyənə qədər onlar burda təhsil alıblar;

27. Ümumtəhsil müəssisəsi üçün akkreditasiyanın ləğvi, ya da verilməməsi təqdirində burada təhsil alanlar ümumtəhsil müəssisəsinin sinif mərhələsi nəzərə alınmaqla təhsil aldıqları ana qədər oranın şagirdləri hesab olunurlar;

Maddə 33. Ümumtəhsil müəssisələrinin öhdəlikləri və səlahiyyətləri

1.Ümumtəhsil müəssisəsi borcludur:

a) Sağlam həyat, demokratiya və mütənasiblik prinsiplərindən çıxış edərək şagirdlərə müasir tələblərə uyğun milli, və bəşəri dəyərlər formalaşdıran təhsil verməyə;

b) Təhsil prosesinin davam etməsi üçün lazım olan bütün şəraiti yaratmağa;

q) Ümumtəhsil müəssisələri üçün müəyyən edilmiş milli təhsil planını müdafiə etməyə;

d) Milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzi tərəfindən tövsiyə edilmiş/ qrif almış dərsliklərlə təhsil fəaliyyətini gerçəkləşdirməyə;

e) Gürcüstan Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi və yerli özünidarəetmə orqanları ilə birgə sağlamlığı müdafi etmə tədbirlərini gerçəkləşdirməyə;

v) Şagirdin yaş xüsusiyyətlərini müvafiq, mərhələli, başqa şagirdlərdən ayrı ümumtəhsil alması üçün alternativ formaların yaradılmasına;

z) Məhdud imkanlı şagirdləri müəyyən edib, onların təhsil və tərbiyəsi üçün lazımi şərtlərin yaradılması üçün güzəştlərin yaradılmasına;

t) Qeyri-elmi dünyagörüşün və ya nəzəriyyənin və faktın tətbiqi ilə təhsilin aparılmasına yol verməməyə;

i) Özünü qiymətləndirmə sisteminin olmasına;

k) Məktəb vaxtında məktəbin ərazisində olan şagirdin təhlükəsizliyini təmin etməyə;

2. Ümumtəhsil müəssisələrinin səlahiyyətidir:

a) İmkan daxilində müstəqil şəkildə dərsə gəlmək və getmək imkanı olmayan şagirdlərin nəqliyyatla təmin olunması;

b) Bu müəssisənin şagirlərindən, başqa əməkdaşlardan, müəllimlərdən və şagirdlərin valideynlərindən Gürcüstan qanunvericiliyinə və müəssisənin nizamnaməsindən irəli gələn tələblərə əməl olunmasını tələb etmək;

q) İnklüziv təhsil almağa şərait yaratmaq;

d) Bu qanunun məqsədlərinə çatmaq üçün başqa məktəblərlə və ictimai təşkilatlarla əməkdaşlıq etmək;

e) Məktəb ərazisində şagirdin sağlamlığını müdafiə etmək və tibbi cəhətdən tam inkişaf etməsi üçün və habelə onlara psixoloji cəhətdən kömək etmək, qidalandırmanın mövcudluğunu təmin etmək;

v) Fikir plüralizmini və şagirdin hərtərəfli inkişafı üçün onlar tərəfindən ölkənin özünəməxsusluğunu, milli və ümumbəşəri dəyərlərə və mədəniyyətin çoxtərəflilyinin təmini üçün şagirdi məktəb kitabxanası ilə təmin etmək;

3. Açıq məktəbin milli təhsil planı ilə nəzərdə tutulan əlavə ümumtəhsil xidmətini şagirdə o vaxt təklif edir ki, əgər:

a) şagird bu xidmətə görə əlavə haqq ödəmirsə;

b) bu xidmətin dərslə əlaqəsi yoxdursa;

q) bu xidmət şagirdin valideyininin razılığı ilə verilirsə;

d) bu xidmət şagird üçün pulsuz verilirsə.

4. İctimai məktəbin şagirdələrə milli təhsil planında nəzərdə tutulan əlavə təhsil və təlim-tərbiyə, habelə pullu xidmət təklif etmək səlahiyyəti var. Kütləvi məktəb bu cür xidmətin müəssisənin hər bir şagirdi üçün əlverişli, bərabər səviyyəli olmasını təmin etməyə borcludur.

Maddə 34. Ümumtəhsil müəssisələrinin yenidən qurulması və ləğvi

1. İctimai məktəbin yenidən qurulması, ya da ləğv edilməsi onun təsisçiləri tərəfindən gerçəkləşdirilir:

a) Əgər müəssisənin fəaliyyəti konstitusiyaya ziddirsə;

b) Əgər müəssisənin fiziki və yainsan resursları nikbinliyə əsas vermirsə;

q) Əgər müəssisə bütövlükdə istehsal fəaliyyətinə keçibsə;

d) Bu qanunun 32-ci maddəsinin 23-cü bəndində nəzərdə tulan hallarda;

e) Gürcüstan qanunvericiliyində nəzərdə tutulan başqa hallarda;

2. Özəl məktəbin yenidənqurulması və ləğv edilməsi Gürcüstan qanunvericiliyinə müvafiq gerçəkləşdirilir.

VI FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PRİNSİPLƏRİ

Maddə 35. Cavabdehlik və struktur.

1. Ümumtəhsil müəssisəsi tərəfindən milli təhsil planı və ümumtəhsil sahəsində Gürcüstan qanunvericiliyinin yerinə yetirilməsində, təlim-tərbiyə prosesində və maliyənin məqsədyönlü xərclənməsində müəssisənin direktoru cavabdehlik daşıyır.

2. Ümumtəhsil müəssisəsinin strukturunu Pedaqoji Şura, Qəyyumlar şurası, direktorluq, müəllimlərin özünüidarəetməsi və intizam komitəsi təşkil edir. İntizam Komitəsinin qərarlarından şikayət etmək məqsədi ilə nizamnamədə apelyasiya komitəsiniun yaradılması nəzərdə tutula bilər.

3. Peşəkar sənət təhsili və hazırlığı verən ümümtəhsil müəssisələrinin nizanamnaməsində bədii rəhbər vəzifəsinin mövcudluğu nəzərdə tutula bilər, bu qanun və müəssisənin nizamnaməsi ilə, seçilmə və yatəyin olunmaqla gerçəkləşdirilə bilər.

4. İctimai məktəbin idarə edilməsi açıqlıq və şəffaflıq prinsipləri əsasında gerçəkləşdirilir.

Maddə 36. Maraqlar kompleksi

1. İctimai məktəbdə maraqlar münaqişəsinin toqquşmasını başdan aradan qaldırmaq məqsədi ilə qəyyumlar şurası valideynlər arasından özünün şəxsi namizədini seçə bilər, bu valideynin məktəbdə pedaqoji fəaliyyətlə, ya bunlarla bağlı direktorun, ya da məktəbin inzibati, ya da texniki personalının nümayəndələrinin iştirakı ilə keçrilən müzakirələrdə iştirak etmək hüququ yoxdur.

2. Ümumtəhsil proqramını yerinə yetirən ictimai və özəl hüquqi şəxslər ali və ya ali və peşə təhsil proqramı ilə ümumtəhsili həyata keçirən digər müəssisə ilə bir binada fəaliyyət göstərə bilməz.

3. İctimai məktəb tərəfindən bağlanan sazişdə, yalnız əmək müqaviləsi istisna olmaqla, məktəbin direktoru, direksiyanın başqa üzvləri, qəyyumlar şurasının üzvü və ya bu şəxslərin yaxın qohumu ikinci tərəf ola bilməz. Bu qanunun məqsədləri üçün "yaxın qohum" kimi "İctimai Xidmətdə maraqların təmin edilməsi və korrupsiya haqqında" Gürcüstan Qanunun 4-cü maddəsinin "B" bəndində nəzərdə tutulan şəxslər ehtiva edilir.

4. İctimai məktəbin direktorunun onun yaxın qohumu ilə aralarında bağladıqları əmək müqaviləsi qəyyumlar şurasının razılığı olmadan gerçəkləşdirə bilməz. Əgər qəyyumlar şurasının üzvü saziş tərəfinin yaxın qohumudursa, o, müzakirələrdə iştirak etmir.

5. İctimai məktəbin qəyyumlar şurası, intizam komitəsi və apellyasiya komitəsinin üzvləri bir-biri ilə yaxın qohum ola bilməz. Qanun çatışmazlığının aradan qaldırılması Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı ilə azkontigentli məktəblərdə ola bilər.

VII FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN QƏYYUMLAR ŞURASI

Maddə 37. Qəyyumlar şurası

1. Qəyyumlar şurası valideyn və pedaqoji şura tərəfindən hərəsi 1 nəfərdən ibarət olan özünüidarəetmə məqsədi ilə bərabər səviyyədə 3 il müddətinə seçilmiş 6, ya da 12 nümayəndədən formalaşdırılır. Yerli özünüidarəetmə orqanları qəyyumlar şurasına 1 üzv təyin etmə səlahiyyətinə malikdir. Məhdud kontingentli məktəblər üçün qəyyumlar şurası üzvlərinin sayı çatmasa, bu Gürcüstan Elm və Təhsil və Elm Nazirliyi ilə razılaşdırılır. Valideynlərdən seçilmiş üzvlərin sayı ibtidai, baza və orta pillələrdə bərabər olmalıdır. Qəyyumlar şurasının üzvü ən azı iki dəfə seçilə bilər.

2. Qəyyumlar şurasının valideynlərdən və prdaqoji şuradan seçilən üzvlərinin sayı məktəbin nizamnaməsi ilə müəyyən olunur.

3. Gürcüstan Elm və Təhsil Nazirliyinin qəyyumlar şurasına məşvərətçi səslə öz nümayəndəsini göndərmək hüququ var.

4. Gürcüstan Elm və Təhsil Nazirliyinin, yerli özünüidarəetmə orqanının istənilən vaxt öz nümayəndələrini qəyyumlar şurasından geri çağırmaq hüququ var.

5. Qəyyumlar şurasının rəhbəri şuranın sədridir, o, şuranın iclasını çağırmağa, onun gedişini yönəltməyə səlahiyyətlidir. O, məktəb direktoru ilə əlaqəni gerçəkləşdirir. Şuranın sədri dəyişmək yolu ilə şuranın tərkibini, səlahiyyət müdətlərini nəzərə almaqla valideynlərdən və pedaqoji şuradan seçilmiş üzvlərdən formalaşdırır. Qəyyumlar şurasınınnın üzvləri - şagirdlərin özünüidarəetmə təşkilatının nümayəndəsi, yerli özünüidarəetmə orqanının nümayəndəsi qəyyumlar şurasının sədri seçilə bilməz.

6. Səslər bərabər bölündüyü təqdirdə qəyyumlar şurasının sədrinin səsi həlledicidir.

7. Qəyyumlar şurası təhsil ilində heç olmasa 3 dəfə, hər dəfə ayın 13-də yığışır.

Maddə 38. Qəyyumlar şurasının funksiyaları

1. Qəyyumlar şurası:

a) Bu qanunun 42-cü maddəsində nəzərdə tutulan qaydada səs çoxluğu ilə seçilən direktorun Gürcüstan Elm və Təhsil Nazirliyindən qeydiyyatdan keçməsi məqsədi ilə səsvermənin nəticəsini tərtib edir;

b) Məktəb direktorunun təqdimatı ilə məktəbin büdcəsi və direktor tərəfindən hazırlanmış illik hesabatı təsdiq edir və onun şəffaflığın, təmin edir;

q) Məktəb direktorunun təqdimatı ilə məktəbin daxili nizamnaməsini təsdiq edir, burada nizam-intizam qaydalarının nüsxəsi, və onlar üçün nəzərdə tutulan intizam məktəbdən qovulma şərtləri öz əksini tapır;

d) Pedaqoji şura tərəfindən işlənmiş məktəb təhsil planının və milli təhsil planlarının və Qiymətləndirmə Mərkəzi tərəfindən tövsiyə edilən/ qrif verilən dərsliklərin pedoqoqlar tərəfindən seçilməsini, təhsil ili müddətində nəşr olunan nüsxələri barədə razılığını bildirir;

e) Məktəb direktoru tərəfindən maliyyənin xərclənməsinə və mülkiyyətdən istifadə olunmasına nəzarət edilir;

v) Əmək müqaviləsi bağlamağa, Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan tələblərin pozulması təqdirdə məktəb direktoru ilə bağlanan müqaviləni ləğv etməyə səlahiyyətlidir;

z) Qəyyumlar şurasında valideyn və pedaqoji şuraya seçilən nümayəndələrin bülletenlərini və aktlarını qeydiyyatdan keçirir və saxlayır;

t) Məktəb nizamnaməsində nəzərdə tutulan qaydada şikayətləri araşdırır və müvafiq ölçülər götürür;

i) Milli təhsil planına müvafiq olaraq milli təhsil planının necə yerinə yetrilməsi məqsədi ilə tədris ilini bitirənlərin iillik imtahanını keçirmək üçün milli imtahan mərkəzinə müraciət etmək və onlarla müvafiq müqavilə bağlamaq səlahiyyətinə malikdir;

k) Müqavilə şərtləri pozulduqda məktəb direktorundan müəllimlə bağladığı əmək müqaviləsini alıb araşdırmağa və təlim-tərbiyə fəaliyyətində nisbi iş törənərsə və qanunvericiliklə nəzərdə tutulan başqa hallar baş verərsə, müqaviləni ləğv etməyə səlahiyyətlidir;

l) Nizam-intizamın tədbirini müzakirə etmək məqsədi ilə məktəb nizamnaməsində nəzərdə tutulan qaydalara müvafiq nizam-intizam komitəsi seçilir, onun tərkibi seçki yolu ilən bərabər sayda müəllim, valideyin, orta mərhələdə təhsil alan şagirdlərdən formalaşdırılır. Qəyyumlar şurası nizamnamədə nəzərdə tutulan qaydada nizam-intizam komitəsinin qərarı barədə şikayəti özü araşdırır, həmçinin bunları apelasiya komitəsi araşdırmağa səlahiyyətlidir, habelə qəyyumlar şurası nizam-intizamla bağlı direktor tərəfindən seçilən tətbiqetmə qərarını müzakirə edir. Nizam-intizam komitəsinin və ya apelyasiya komitəsinin tərkibini konkret hallarda araşdırmaq məqsədi ilə iclas çağırılması yol verilməzdir;

m) Məktəb direktoru tərəfindən təqdim edilən məktəb nizamnaməsinin layihəsini razılaşdırır.

3. Bu maddənin birinci bəndinin "A", "B", "Q", "D", "K", "M" yarımbəndlərində nəzərdə tutulan qərarları qəyyumlar şurası siyahıda səs çoxluğu, ancaq "V"yarımbəndində nəzərdə tutulan qərarları siyahı ilə tərkibin üçdə ikisinin səs çoxluğu ilə qəbul edir.

Maddə 39. Qəyyumlar şurasına seçilmə qaydası

1. Qəyyumlar şurasına bərabər sayda valideynlər və pedaqoji şuranın nümayəndələri, habelə şagirdlərin özünüidarəetmə təşkilatının nümayəndəsi olan orta mərhələnin şagirdi seçilir.

2. Qəyyumlar şurasına seçilmək qaydasını Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir. Seçki mütanasiblik əsasında, açıq müzakirələrlə, şəffaf və mərhələlərə görə şagirdlərin valideynlərinin bərabər nümayəndəliyinin prinsiplərinin qorunması ilə keçirilir.

3. Bu maddənin 2-ci bəndi ilə nəzərdə tutulan qaydanın pozulması barədə qəyyumlar şurasına və yaməhkəməyə şikayət vermək olar.

4. Qəyyumlar şurasına seçkinin nəticələri Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada qeydiyyatdan keçdiyi andan qüvvəyə minir.

Maddə 40. Qəyyumlar şurası üzvlərinin və qəyyumlar şurası üçün səlahiyyətlərin dayandırılması

1. Qəyyumlar şurasının üzvünün səlahiyyəti dayandırılır:

a) Əgər pedaqoji şura öz nümayəndəsinin səlahiyyətini şurasında və qəyyumlar şurasında dayandırırsa;

b) Valideynlərin səs çoxluğunun sayı əsasında çıxarılan qərara əsaslanaraq Gürcüstan Elm və Təhsil Nazirliyinin qərarı ilə;

q) Nümayəndə sayılan şagird bu məktəbdə təhsil almırsa, ya da sonrakı mərhələyə keçibsə, ya da pedaqoji şuranın nümayəndəsi bu məktəbin müəllimi deyilsə;

2. Seçkidə iştirak edən digər namizəd şurada kifayət qədər səs almadıqda qəyyumlar şurasının üzvü olan valideyn və ya pedaqoji şuranın üzvü boş yeri tuta bilər.

3. Qəyyumlar şurası üzvünün boş qalmış yerini sonrakı müddət üçün o şəxslər, valideyn və ya pedaqoji şuranın üzvü tuta bilər ki, onlar müvafiq seçkilərdə başqa namizədlərdən daha artıq səs yığıb, ancaq bu səslər həmin vaxt şuraya seçilmək üçün yetərli olmayıb.

4. Qəyyumlar şurası üzvünün və qəyyumlar şurasının səlahiyyətlərinə son vermək qərarı Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən qeydiyyata alınandan qüvvəyə minir.

VIII FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN DİREKTORLUĞU

Maddə 41. Direktorluq

1. Məktəb direksiyası məktəb direktorundan, direktorun müavinindən/müavinlərdən və mühasibdən təşkil olunur.

2. Məktəb direktoru bu qanuna müvafiq olaraq, ali təhsili olan, 3 illik əmək stacına malik, 65 yaş həddinə qədər Gürcüstan vətəndaşından seçilir. Direktor 6 il müddətinə seçilir. Məktəbdə eyni bir şəxs yalnız iki dəfə direktor seçilə bilər.

3. Direktor seçkidən sonrakı 2 həftə ərzində direktor müavini/müavinləri, habelə direktorun səlahiyyətlərini icra etmə halı olduqda direktorun vəzifəsini həyata keçirən şəxs haqqında məlumatları qeydiyyat üçün Gürcüstan Elm və Təhsil Nazirliyinə göndərir.

4. Direktor səlahiyyətini həyata keçirə bilmədiyi təqdirdə onun vəzifəsini direktorun müavini, bu qanunla müəyyən olunmuş qaydada Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatdan keçirdikdən sonra icra etməyə başlayır. Yeni direktorun seçilməsi direktor müavini/müavinlərinin səlahiyyətləri həll olunduqdan sonra başlayır.

5. Ümumtəhsil müəssisəsində hər hansı başqa bir fəaliyyət növü ilə məşğul olmaq direktor vəzifəsi və məktəb fəaliyyəti ilə bir araya sığışmaz hesab edilir. Müəllim kadrı çatışmazlığı olduğu təqdirdə direktorun, əgər onun Gürcüstan qanunvericiliyinə əsasən pedaqoji fəaliyyətlə məşğul olmağa hüququ varsa, qanunla müəyyən edilmiş qaydada peraqoji fəaliyyətlə məşğul olmağa, müəllimlərin ümumi dərs yükünün üçdə birini yerinə yetirmək üçün müəllim kimi işləməyə hüququ var. Yüksək dağlıq regionlarında və məhdud kontingentli məktəblər üçün kadr çatışmazlığı olduqda və ya digər vacib səbəblərin mövcud olduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı ilə direktorun dərs deməsinə yol verilə bilər.

6. Peşəkar sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrində, müəssisənin bədii rəhbəri direktorun səlahiyyətlərini gerçəkləşdirə bilər.

Maddə 42. Məktəb direktorunun seçilməsi qaydası

1. Gürcüstan Elm və Təhsil Nazirliyi ictimai məktəbə direktor seçilməsini həmin vəzifəyə namizədlər arasından, nazirlik tərəfindən müəyyən edilmiş qaydalara uyğun, açıq müsabiqə qaydası ilə, şəffaf, balanslı, ədalətli musabiqə keçirilmək prinsiplərini əldə rəhbər tutmaqla həyata keçirir.

2.Gürcüstan Elm və Təhsil Nazirliyinin direktorluğa namizədlər arasında keçirdiyi açıq müsabiqənin üç nəfərdən az olmayan namizədləri arasından ümumtəhsil müəssisəsinin qəyyumlar şurası təqdim edilən proqrama uyğun, siyahı üzrə səs çoxluğu ilə, açıq müzakirə, azad və mütanasib seçki əsasında direktor seçir.

3. Əgər direktorluğa namizəd qəyyumlar şurasının üzvüdürsə, o müzakirələrdə iştirak etmir. Qəyyumlar şurasının bir namizədi təkrar təqdim etməsi yol verilməzdir.

4. Qəyyumlar şurası direktor seçkisinin aktlarını və qəyyumlar şurasının qəbul etdiyi qərarların surətini Gürcüstan Elm və Təhsil Nazirliyinə qeydiyyat üçün təqdim edir. Seçkilərin nəticəsi qeyd edilən sənədlər nazirlikdə qeydiyyatdan keçən andan qüvvəyə minir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən qeydiyyatdan keçmiş direktorla qəyyumlar şurası nazirlik tərəfindən təsdiq edilmiş müqavilənin şərtlərinə müvafiq əmək müqaviləsi bağlayır.

6. Əgər qəyyumlar şurası Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təqdim edilən heç bir namizədi seçməyibsə, Elm və Təhsil Nazirliyi yeni müsabiqə keçirir; qəyyumlat şurası təkrar irəli sürülən namizədlərin heç birini seçmədiyi təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi yeni direktor seçkisinə qədər direktorun vəzifəsini icra edən bir şəxsi təyin etmək səlahiyyətinə malikdir. Nazirlik qəyyumlar şurası tərəfindən təkrar seçkiyə namizədliyi irəli sürülən və qəyyumlar şurasının seçmədiyi səxsi direktor təyin edə bilməz.

7. Az kontingentli məktəbdə müsabiqənin üç dəfə pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi direktor vəzifəsini müvəqqəti icra etmək üçün yaşı 65-ə qədər olan şəxsi direktor təyin etməyə səlahiyyətlidir, qəyyumlar şurası həmin şəxslə qanunla müəyyən edilmiş müddətdə müqavilə imzalayır.

Maddə 43. Direktorun funksiyaları

1. Məktəbin direktoru:

a) Məktəbin idarəetməsini gerçəkləşdirir;

b) Bu qanunla və məktəbin nizamnaməsində nəzərdə tutulan hallarda məktəbi üçüncü bir şəxslə əlaqə qurmaq üçün təmsil edir;

q) Ümumtəhsil müəssisəsinin daxili qaydalarını, məktəbin büdcəsini təsdiq üçün qəyyumlar şurasına təqdim edir;

d) Ştat cədvəlinin üzərində işləyir;

e) Pedaqoji şura tərəfindən hazırlanan məktəb təhsil planı üzərində işləməkdə iştirak edir;

v) Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş şərtlərə və qaydalara müvafiq olaraq müəllimlər və məktəbin başqa əməkdaşları ilə əmək müqaviləsi bağlayır;

z) Müəllimlə bağlanmış müqavilənin şərtlərinin pozulması təlim-tərbiyə fəaliyyətinin ləngiməsinə gətirib çıxararsa, əməli və ya qanunvericiliklə nəzərdə tutulan qaydada ixtisasa uyğun gəlməyən hallar baş verdiyi təqdirdə müqaviləni ləğv etmək səlahiyyəti var;

t) Hər ili dekabrın 10-da məktəbin qəyyumlar şurasına maliyyə fəaliyyəti və təhsil prosesinin vəziyyəti barədə hesabat verir;

i) Gürcüstan qanunvericiliyi ilə qadağan olunmuş və məktəb nizamnaməsi ilə qəyyumlar şurasının və ya nəzarəti həyata keçirən orqanın razılığı olmadığı hallar istisna olmaqla məktəbin mülkiyyəti haqqında saziş bağlamağa səlahiyyətlidir;

k) Məktəb nizamnaməsində nəzərdə tutulan qaydada şikayətləri müzakirə etməyə və müvaviq ölçülər götürməyə hüququ var;

l) Məktəbdə baş verən təlim-tədris prosesinə nəzarət etməyə;

m) Qəyyumlar şurası ilə razılaşdıraraq məktəbin nizamnaməsi layihəsini işləyib hazırlayır və şura ilə razılaşdırılmış layihəni təsdiq üçün Gürcüsan Elm və Təhsil Nazirliyinə təqdim edir;

n) Gürcüstan qanunvericiliyi və məktəb nizamnaməsində nəzərdə tutulan başqa fəaliyyətləri gerçəkləşdirir;

2. Direktor Gürcüstan qanunvericiliyi və məktəb nizamnaməsi ilə nəzərdə tutulan qaydada fərdi hüququ aktları nəşr edir.

3. Peşəkar sənət təhsili və hazırlığı gerçəkləşdirən ümumtəhsil müəssisələri nizamnaməsində direktorun bu maddənin birinci bəndinin "Q","D" və "E" yarımbəndində nəzərdə tutulan səlahiyyətləri bədii rəhbərlə birlikdə gerçəkləşdirməsi nəzərdə tutula bilər.

Maddə 44. Direktorun səlahiyyətlərinin dayandırılması.

1. İctimai məktəbin direktorunun səlahiyyətləri səlahiyyətli orqan tərəfindən, qanunvericiliklə və ya müqavilə ilə nəzərdə tutulan hallarda, müəyyən olunmuş qaydada, habelə 65 yaşı tamam olanda, bu qanunun 42-ci maddəsinin 7-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla dayandırılır.

2. Direktorun səlahiyyəti müvafiq qərarın Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatdan keçdiyi andan dayandırılır.

3. Yeni direktorun seçilməsinə qədər direktorun səlahiyyətlərini bu qanunun 41-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan qaydada, yalnız bu maddənin 32-ci maddəsinin 23-cü bəndi, 42-ci maddənin 6-cı bəndi və 49-cu maddənin 7-ci bəndi ilə nəzərdə tutulan hallar istisna olmaqla, digər şəxs həyata keçirir.

IX FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN PEDAQOJİ ŞURASI

Maddə 45. Pedaqoji Şura

1. Pedaqoji şuranın hər bir üzvü bərabər səviyyəli səs hüququna malikdir. Şuranın iclası üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

2. Qəyyumlar şurası nümayəndəsini dinləmək üçün şuranın üçdə birinin istədiyi vaxt pedaqoji şuranın iclasını çağırmaq hüququ var.

3. Pedaqoji şuraya onun 3 illiyə səs çoxluğu ilə seçilmiş sədri rəhbərlik edir. Pedaqoji şuranın sədri iclası çağırır və onu açır.

4. Pedaqoji şuranın səlahiyyətlərinə daxil olan ayrı-ayrı məsələləri şuranın tapşırığı ilə yaradılan işçi qrupu yerinə yetirir və onun qarşısında hesabat verir.

5. Pedaqoji şuranın qərarı səs çoxluğu və üstəgəl üç səs artıqlığı ilə qəbul edilir.

6. Peşəkar sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrində pedaqoji şuranın səlahiyyətlərini bədii şura həyata keçirə bilər. Bədii şuraya seçilmiş və yanizamnaməyə müvafiq qaydaya uyğun təyin edilən bədii rəhbər başçılıq edir.

Maddə 46. Pedaqoji Şuranın funksiyaları

Pedaqoji Şura:

a) Direktor milli təhsil planına müvafiq olaraq təhsil planını qəyyumlar şurası ilə razılaşdıraraq işləyib təsdiq edir;

b) Qəyyumlar şurası ilə razılaşdıraraq mərhələləri və fənləri müvafiq milli təhsil planları və qiymətləndirmə mərkəzi tərəfindən tövsiyə edilən/ pedaqoqlar tərəfindən təqdir edilən və qrif almış dərslikləri seçir, təhsil ili ərzində çap olunmuş dərslikləri təsdiq edir;

q) Öz nümayəndəsini qəyyumlar şurasına seçir;

d) Lazım bildiyi müddətdə nümayəndəsini qəyyumlar şurasında müdafiə etmək səlahiyyətlinə malikdir.

X FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNİN ŞAGİRD ÖZÜNÜİDARƏETMƏ ORQANLARI

Maddə 47. Şagird birlikləri

1. Şagirdlərin özünüidarəetmə təşkilatı bu qanunla və məktəb nizamnaməsinə uyğun olan seçkili orqandır.

2. Baza və orta mərhələ şagirdləri öz idarəetmə orqanlarını yaradırlar.

3. Şagirdlərin özünidarəetmə orqanı seçki ilə, açıq müzakirə ilə, şəffaflıqla və siniflərə görə, şagirdlərin nümayəndələrinin bərabərlik prinsipinin qorunması ilə seçilir;

4. Şagird özünüidarəetməsi orqanına özünüidarəetmə orqanı tərəfindən seçilən sədr rəhbərlik edir.

Maddə 48. Şagirdlərin özünüidarəetmə orqanının funksiyaları

Şagird özünüidarəetmə orqanı:

a) Məktəbin daxili qaydaları barədə tövsiyələr hazırlayır;

b) Qəyyumlar şurasında məktəb üçün önəm daşıyan bütün məsələlərlə bağlı təkliflər verməyə səlahiyyətlidir;

q) Öz nümayəndəsini qəyyumlar şurasına seçir;

d) Məktəb nizamnaməsi ilə müəyyən edilən qaydada və Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan qaydada qrantlar ala bilər;

e) Üzvlərinin birə beş səs çoxluğu ilə məktəb klubunu yaradır.

X FƏSİL
ÜMUMTƏHSİL MÜƏSSİSƏSİNƏ DÖVLƏT NƏZARƏTİ, MÜLKİYYƏT, MALİYYƏLƏŞMƏ, HESABLAŞMA VƏ MÜHASİBAT HESABLAŞMALARI

Maddə 49. Dövlət nəzarəti

1.Məktəbdə dövlət nəzarətini Gürcüstan Elm və Təhsil Nazirliyi, qanunvericiliklə nəzərdə tutulan digər dövlət nəzarət orqanları, habelə Abxaziya və Acarıstan muxtar respublikalarında təhsil nazirlikləri-Gürcüstan qanunvericiliyi, habelə bu qanunda nəzərdə tutulan tələblərə uyğun şəkildə həyata keçirilir.

2.Dövlət nəzarəti dedikdə ümumtəhsil müəssisəsi tərəfindən Gürcüstan qanunvericiliyi və lisenziya şərtlərinin yerinə yetirilməsi nəzərdə tutulur.

3. İctimai məktəb hər ilin 1 mayından gec olmayaraq Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstan Elm və Təhsil Nazirliyinə keçən tədris ilindəki fəaliyyəti, təhsil prosesi və maliyə fəaliyyəti barədə hesabat verir. Hesabatın təqdim edilmə formasını Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir.

4. Bu qanunla nəzərdə tutulan nəzarətin gerçəkləşdirilməsinin məqsədi Gürcüstan Elm və Təhsil Nazirliyinin bu məsələlər haqqında təsəvvürünün olması və ya yerində məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin və lisenziya şərtlərinin necə yerinə yetirilməsi barədə informasiyaya malik olmaqdır.

5. Məktəb Gürcüstan Elm və Təhsil Nazirliyi tələb etdiyi informasiyanı 15 gün ərzində təqdim etməlidir.

6. Məktəb Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş lisenziya şərtlərinin pozduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi ona yazılı şəkildə xəbərdarlıq edir.

7. İctimai məktəb yazılı xəbərdarlıq aldıqdan sonra deyilən vaxtda bu pozuntunu aradan qaldırmayıbsa və ya 1 il ərzində 2 yazılı xəbərarlıq alıbsa, Gürcüstan Elm və Təhsil Nazirliyi qəyyumlar şurasını buraxmaq və yavaxtından əvvəl məktəb

direktorunun vəzifəsini ləğv etmək, onu direktorun vəzifələrini icra edəcək digər şəxsə dövr etmə səlahiyyətinə malikdir.

8. Əgər özəl məktəb yazılı xəbərdarlıq alıbsa və deyilən vaxta pozuntu faktlarını aradan qaldırmayıbsa və ya məktəbə 1 il ərzində 2 yazılı xəbərdarlıq olubsa, Gürcüstan Elm və Təhsil Nazirliyi lisenziyanın fəaliyyətini dayandırmaq səlahiyyətinə malikdir.

Maddə 50. İctimai məktəbin mülkiyyəti

1. İctimai məktəbin tikintisi və müvafiq torpaq sahəsi dövlət mülkiyyətidir və məktəbə müddətsiz vaxta və pulsuz, əvəsiz müqavilə ilə Gürcüstan qanunvericiliyi ilə müəyyən edilən qaydada verilir.

2. İctimai məktəb dövlət tərəfindən ona verilən mülkiyyətdən Gürcüstan Elm və Təhsil Nazirliyinin razılığı əsasında, qanunvericiliklə nəzərdə tutulan qaydada istifadə edir.

Maddə 51. Ümumtəhsil müəssisəsinin maliyələşməsi

1. Məktəbin əsas maliyələşməsi bu qanunla və müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada dövlət tərəfindən vauçer verməklə, habelə bu qanunun 22-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

2. İctimai məktəb Gürcüstan qanunvericiliyi ilə, icazə verilmiş başqa maliyə vəsaiti ilə, habelə sağlamlığa təhlükə törətməyən və ya şagirdin fiziki və əqli qabiliyyətinə pis təsir etməyən iqtisadi fəaliyyətlə maliyələşir. Alınmış vəsait qanunvericiliyə müvafiq olaraq yalnız məktəbin məqsədlərini və funksiyalarını gerçəkləşdirmək üçün istifadə edilir.

3. Məktəbin bütün gəliri və xərcləri onun büdcəsinə daxil edilir

4. Məktəbin müstəqil bank hesabı və möhürü var.

Maddə 52. Ümumtəhsil müəssisəsinin hesablaşma və mühasibat qeydiyyatı

1. Direktor tərəfindən məbləğin ayrılması qəyyumlar şurası tərəfindən təsdiq edilmiş büdcə əsasında istifadə edilir.

2. Direktor vacib gəldiyi təqdirdə qəyyumlar şurasının razılığı olmadan büdcəsinin bir maddəsinin vəsaitlərini 10% - dən artıq olmadan ikinci maddəyə uyğun dəyişə bilər. Bu

dəyişiklik müəllimlərin maaşının azalmasına gətirib çıxarmamalıdır. Direktor tərəfindən təklif edilən məktəb büdcəsini qəyyumlar şurası təsdiq etdiyi təqdirdə əvvəlki ilin büdcəsi fəalliyyətini dayandırır.

3. Qəyyumlar şurası bu cür sazişə gəlməyə, dəyərin 5% artmasına razılıq verməlidir.

4. Məktəbdə maliyə-iqtisadi fəaliyyətin hesabat-qeydiyyat sənədləri Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılır.

XII FƏSİL
KEÇİCİ VƏ NƏTİCƏ ƏSASNAMƏSİ

Maddə 53. Qanunun qüvvəyə minməsi ilə əlaqədar normativ aktların qüvvədən düşmüş elan edilməsi

1. Bu qanun qəbul ediləndən 27 iyun 1997-ci ildə qəbul edilmiş "Təhsil haqqında" Gürcüstan qanununu 4-cü maddəsinin 5-ci bəndi; 11-ci maddənin 2-ci bəndi; 18-ci maddənin 4-cü bəndinin "O","P","J" və"S" yarımbəndləri; 20-ci maddənin "K", "L"və "N" bəndləri; "21-ci maddə; 22-ci maddənin 2-ci bəndi; 23-cü maddənin 3-cü bəndinin "A", "Q" və "A", "D" yarınbəndləri; 24-cü maddənin 6-ci bəndi; 29-cu maddənin 3-cü bəndi; 40-cı maddənin 3-cü bəndi; 44-cü maddənin 4-cü və 5-ci bəndi, habelə qeyd edilən qanunun bu qanunla uyğun gəlməyən digər normativ normaları, bu qanunla fərqli cəhətlər qüvvədən düşür.

2. 25 fevral 2003-cü il Gürcüstan Elm və Təhsil nazirinin 16 N-li əmri "Dövlət ümumtəhsil müəssisələrində tipik qərarların təsdiqi və tədbirlər haqqında" və dövlət idarəetmə orqanları tərəfindən "Normativ aktlar haqqında" Gürcüstan qanununa uyğun olaraq qəbul edilmiş normativ akt, ya onun bu qanunda nəzərdə tutulan əlaqələrlə ziddiyyət təşkil edən bir hissəsi qüvvədən düşür.

Maddə 54. Hazırlanan qanun layihəsi

1. Gürcüstan Elm və Təhsil Nazirliyi, 2007-2008-ci dərs ili başlayanadək "Təlim-tərbiyə fəaliyyəti haqqında" və "Peşəkar təhsil haqqında", "Pedaqoji fəaliyyət haqqında" və "Ümumtəhsil müəssisələri və proqramların akreditasiyası haqqında" qanun layihəsi hazırlasın.

2. Bu qanunun 30-cu maddəsinin "Z" bəndinin işlək olması üçün 2006-2007-ci tədris ili başlayanadək "Gürcüstan inzibati hüquqpozuntusu haqqında Kodeksində dəyişikliklər və əlavələr edilməsi haqqında" qanun layihəsi hazırlayıb Gürcüstan hökumətinə təqdim edilsin.

3. Gürcüstan hökuməti və Gürcüstan Parlamenti 2007-2008-ci ilin başlanğıcına qədər müvafiq qanunvericilik aktlarında dəyişikliklər və əlavələr etmək barədə layihələr, ümumtəhsil müəssisələri üçün yeni statusun-gəlirsiz hüquqi şəxsin statusunu hazırlasın.

Maddə 55. Tərbiyəvi, ümumtəhsil-tərbiyə müəssisələri

1. Tərbiyəvi və ümum təhsil-tərbiyəvi müəssisələri özəl, ya da xüsusi və ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs formasında mövcud ola bilər.

2. Gürcüstan Elm və Təhsil Nazirliyi tərbiyəvi və ümumtəhsil-tərbiyəvi müəssisələri ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin təsisçiliyi timsalında onun nizamnaməsini təsdiq edir,ona dövlət nəzarətini təmin edir, onu yenidən qurur və ləğv edir.

3. Tərbiyəvi və təhsil-tərbiyəvi müəssisələri, məktəbəqədər tərbiyə müəssisəsindən başqa, ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs qismində təqdim olunan, dövlətim mərkəzi büdcəsindən və qanunvericiliklə nəzərdə tutulan başqa gəlirlərlə maliyələşir.

Maddə 56. Məktəbdən xaric sənət və idman ümumtəhsil müəssisələri

Ümumtəhsil müəssisələrindən kənar, qanunvericiliklə müəyyən edilmiş qaydada, yalnız sənət və idman proqramlarını gerçəkləşdirən, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsin təsisçiliyi qismində, öz təşəbbüsü ilə və ya özünidarəetmə orqanının təqdimatı əsasında təsis edilən və Gürcüstan Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyi tərəfindən dövlət nəzarətini həyata keçirən müəssisələr məktəbdən kənar sənət və idman ümumtəhsil müəssisələridir.

Maddə 57. Orta peşə təhsili müəssisələri

1. Orta peşə təhsili müəssisəsi ictimai, ya da özəl ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs formasında mövcud ola bilər.

2. Gürcüstan Elm və Təhsil Nazirliyi orta peşə təhsili müəssisəsini ictimai məhkəmə tərəfindən təsdiq edilmiş hüquqi şəxs tərəfindən müvafiq nizamnamənin təsdiqindən, dövlət nəzarətini həyata keçirməklə onu təsis edə, yenidən qura və ləğv edə bilər.

3. Orta ümumtəhsil verməklə yanaşı peşəkar sənət və idman təhsili və hazırlığı verən, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs tərəfindən təsis edilən, Gürcüstan Elm və Təhsil Nazirliyi sahə nazirliklərinin təqdimatı əsasında yaradılan orta peşə təhsili müəssisələri; yalnız peşə sənəti, idman hazırlığı və təhsili ilə məşğul olan, ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində sahə nazirlikləri təsis edən peşə təhsili müəssisələri.

4. Mərkəzi büdcədən, ya da büdcədən və ya qanunvericiliklə icazə verilən başqa gəlirlərdən maliyyələşən və ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxs olan orta peşə təhsili müəssisəsiləri.

5. Orta peşə almaq baza təhsili aldıqdan sonra ola bilər. Orta peşə ümumtəhsil müəssisəsinin standartı mütləq ümumtəhsil məktəblər üçün müəyyən edilmiş milli təhsil planına uyğun gəlməlidir.

6. Orta peşə təhsili müəssisələri akkreditasiyadan keçir. Akkreditasiya qaydası, şərtləri və peşə təhsil müəssisələrinin standartlarını Gürcüstan Elm və Nazirliyinin müvafiq sahə nazirliyi ilə razılaşmaqla, dövlət akkreditasiya xidmətinin təqdimatı əsasında müəyyən edir.

7. Orta peşə təhsil hüdudunda ümumtəhsil proqramı bu qanunla müəyyən olunan qaydada maliyyələşir. Ancaq özəl

peşə təhsil müəssisəsi mərkəzi büdcədən və qanunla qadağan edilməyən başqa gəlirlər əsasında maliyyələşir.

Maddə 58. Ümumtəhsil müəssisəsinin kütləvi məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs kimi təsis etməsini təmin etmək

1. Gürcüstan Elm və Təhsil Nazirlyi 2005-ci ilin 1 avqustuna kimi Gürcüstan ümumtəhsil müəssisələrinin ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs tərəfindən təsis edilməsi qayğısına qalmalı, habelə mövcud açıq məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxsin yeni nizamnaməsini bu qanuna müvafiq şəkildə təsdiq etməlidir.

2. İctimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsə verilən normalar ictimai və ya xüsusi məhkəmənin təsdiq etdiyi hüquqi şəxslər olmadıqda və dövlət büdcəsindən maliyyələşdirilən ümümtəhsil, təlim-tərbiyə müəssisələrinə də şamil edilir.

3. Bu maddənin birinci bəndində nəzərdə tutulan müəssisələr üçün Gürcüstan Elm və Təhsil Nazirliyi nizamnaməsinin vahid nümunəsini təsdiq edir. Bunun əsasında həmin müəssisələr təsis edilir. Elm və Təhsil Nazirlyi nizamnamənin nümunəsini nəşr edir və muvafiq olaraq ümumtəhsil müəssisəsinin təsisçisinin nizamnaməsi və planı ilə uuyğun gəlməsini təmin edir.

4. Gürcüstan Elm və Təhsil Nazirliyi, iqtisadi inkişaf, ədliyyə və maliyyə nazirlikləri bu qanun qəbul olunduqdan 1 ay müddətinə Gürcüstan dövlətinə Gürcüstan ümumtəhsil müəssisələrinin ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs kimi təsisçi olan müəssisənin lazımi fəaliyyətinin maliyə və hüquqi təminatı planını təqdim edir.

5. Bu qanunun 5-ci maddəsinin 4-cü bəndi 2010 - 2011-ci təhsil ilindən mərhələli halda qüvvəyə minir.

6. Bu qanunun 36-cı maddəsinin 2-ci bəndi 2007-2008-ci təhsil ilinin başlanğıcından qüvvəyə minir.

Maddə 59. Ümumtəhsil müəssisəsi idarəetmə orqanlarına ilk seçki keçirilməsini təmin etmək

1. Gürcüstan Elm və Elm Nazirliyi 2006-2007-ci təhsil ilinin sonuna qədər ictimai məktəblərin qəyyumlar şurasının

birinci seçkisinin keçirilməsini təmin etməlidir. İlk seçkilər Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş sıra və qayda ilə keçrilə bilər.

2. Bu qanunun qüvvəyə minməsi bütün ictimai məhkəmənin təsdiq etdiyi hüquqi şəxsə şamil olunur, onlar proqramın heç olmasa bir mərhələsində, direktorun işdən azad edilməsi əsasında, bu qanunun Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən formalaşdırılan əmri əsasında gerçələşməsini təmin etməlidir. Bu qanuna müvafiq olaraq direktor seçiminə qədər Gürcüstan Elm və Təhsil və Elm Nazirlyi tərəfindən ümumtəhsil müəssisəsinin direktorunun vəzifəsini icra edəni şəxsi seçki vaxtına qədər işdən azad etmək səlahiyyətinə malikdir.

3. Bu qanunun qüvvədən düşməsi ictimai məktəbdə mövcud olan qəyyumlar şurası üzvlərinin səlahiyyətlərinin ləğvindən başlanır.

4. Bu qanunun əsasında ilk dəfə seçilmiş direktorun səlahiyyətləri, Gürcüstan Elm və Təhsil Nazirliyində qeydiyyatından və ümumtəhsil müəssisəsinin direktorunun səlahiyyətlərini və administrasiyanın direktor vəzifəsini icra edən şəxslərin səlahiyyətləri ləğv edildikdən başlanır.

5. İlk dəfə seçilən direktor qeydiyyatının birinci ayı ərzində müəssisəinin bütün müəllimləri ilə əmək müqaviləsi bağlamağı təmin edir.

6. İctimai məktəbin akkreditasiyadan keçməsi 2011-2012-ci tədris ilindən hesablanır. Bu vaxta qədər Gürcüstan Elm və Təhsil Nazirliyi bu ümumtəhsil müəssisələrinə Dövlət Akreditasiya Xidməti tərəfindən sonrakı akreditasiya verilməsini təmin edir.

7. Lisenziya almış özəl məktəbin akreditasiyası 2010-2011-ci tədris ilinin başlanğıcından tədris proqramının sona çatmasına qədər gerçəkləşdirilir.

8. 2010-2011-ci təhsil ilindən bu qanuna müvafiq olaraq Gürcüstan Elm və Təhsil Nazirlyi tərəfindən akreditasiyaya alınmış ümumtəhsil müəssisələrində müəllim kimi yalnız ali təhsili olan, professional hazırlıq proqramı keçmiş akreditasiya

almaq imkanına malik, müvafiq sertifikat imtahanı vermiş şəxs ola bilər.

9. İctimai məktəblərin qəyyumlar şuraları birinci seçkinin nəticələri barədə Gürcüstan Elm və Təhsil Nazirliyinə şikayət edə bilərlər.

Maddə 60. Təhsil proqramlarında ümumtəhsil mərhələləri ilə uyğunluğunun təmin edilməsi

Gürcüstan Elm və Təhsil Nazirliyi 2006-2007-ci təhsil ilinin başlanmasına qədər bütün ümumtəhsil müəssisələrində təhsilin milli təhsil planına müvafiq olmasını təmin etməlidir.

Maddə 61. Pedaqoq

"Pedaqoq fəaliyyəti haqqında" Gürcüstan qanununun qəbul edilməsi ilə əlaqədar qanunda nəzərdə tutulan qaydaya müfaviq bu qanunun 2-ci maddəsinin "Ç" yarımbəndinə şamil edilsin

Maddə 62. Ümumtəhsil müəssisələrinin maliyələşməsi

1. Bu qanunun 22-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq ümumtəhsil mərkəzinin büdcədən maliyələşməyə keçməsi mərhələli şəkildə, 2007-2008-ci illərdən gec olmayaraq gerçəkləşdirilir. Bu vaxta qədər isə ümumitəhsil yerli idarəetmə orqanları tərəfindən maliyələşir. Heç bir rayonun tərkibinə daxil olmayan şəhərlər, habelə yeli idarəetmə orqanları mövcud olmayan yerlərdə ümumtəhsil müəssisələrini yerli özünüidarəetmə orqanları maliyələşdirir. Dövlət yerlərin fərqliliyini nəzərə alıb yerli idarəetmə /özünüidarəetmə orqanları tərəfindən verilən maliyəni və bir şagird üçün nəzərdə tutulan maliyə normativləri arasındakı fərqi təmin etməlidir.

2. Bu qanunun 22-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq ümumtəhsil mərkəzi büdcədən maliyələşməyə keçənə qədər yerli idarəetmə/özünüidarəetmə orqanlarının nümayəndələri qəyyumlar şurasında həlledici səs hüququ ilə iştirak edirlər.

3. Bu qanunun 21-ci maddəsinin 2-cü bəndinə müvafiq olaraq 2005-2006-cı il tədris ilinin başlanğıcına qədər qüvvədədir.

Maddə 63. 12 illik ümumtəhsilə keçmə

1. Gürcüstan Elm və Təhsil Nazirliyi 2006-2007-ci tədris ilindən ümumtəhsil müəssisələrində mərhələli şəkildə 12 illik təhsilə keçməyi təmin edir.

2. 12 illik ümumtəhsil 2006-2007-ci ilin başlanğıcında 11-ci sinifdə olan şagirdlərə şamil edilmir.

3. Bu qanunun 28-cı maddəsində nəzərdə tutulan milli təhsil planları və Qiymətləndirmə Mərkəzinin nizamnaməsi 2006-2007-ci tədris ilinin başlanğıcınadək təsdiq olunmalıdır.

4. Milli Təhsil Planları və Qiymətləndirmə Mərkəzi yaradılına qədər onun funksiyalarını Gürcüstan Elm və Təhsil Nazirliyi və ictimai məhkəmə tərəfindən təsdiq olunmuş hüquqi şəxs-Qiymətləndirmə və İmtahanların Milli Mərkəzi birgə həyata keçirir.

Maddə 64. Qanunun qüvvəyə minməsi

Bu qanun nəşr ediləndən sonra fəaliyyət göstərir.

Prezident Mixail Saakaşvili.
Tbilisi, 8 aprel 2005-ci il

"ÜMUMİ TƏHSİL HAQQINDA" GÜRCÜSTAN QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏRİN DAXİL EDİLMƏSİ HAQQINDA

17.03.2006

"ÜMUMİ TƏHSİL HAQQINDA" GÜRCÜSTAN QANUNUNA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏRİN DAXİL EDİLMƏSİ HAQQINDA

Maddə 1. "Ümumi təhsil haqqında" Gürcüstan qanununa (Gürcüstan qanunvericiliyi aktı N 20, 04.05.2005-ci il, maddə 143) sonrakı dəyişikliklər və əlavələr edilsin:

1. Birinci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Bu qanun Gürcüstanda ümumtəhsil fəaliyyətinin şərtlərini həyata keçirir, unümumtəhsilin idarə edilməsi və maliyələşmə prinsiplərini və qaydalarını, bütün təhsil müəssələrinin statusunu (təşkilatı formaya görə) bərpa edir, onun təsisçilərini, fəaliyyətini, yenidən qurulmasını, ləğv edilməsini və akreditasiya qaydalarını müəyyən edir.

2. 2-ci maddə:

a) "K" bəndi sonrakı redaksiyada formalaşdırılsın:

"K) Ekstrenat-ümumtəhsili təsdiq edən dövlət sənədinin o şəxslər tərəfindən almasının qaydasıdır ki, həmin şəxslər təhsili müstəqil başa vururlar";

b) "S" bəndi çıxarılsın.

3. 3-cü bəndin 2-ci bəndinin "e" bəndi sonrakı redaksiyada verilsin.

"E) Ümumtəhsil müəssiəsinin akreditasiyası, maddi, texniki, proqramlı və insan resursları normativləri əsasında müəyyən edilsin.

4. 9-cu maddənin 4-cü bəndi sonrakı redaksiyada verilsin:

"4. Eksterni formada ümumtəhsil almaq olar. Eksternat formasında təhsil almaq qaydaları və şərtlərini Gürcüstan Elm və Təhsil Nazirliyi müəyyən edir. Ekstern formada ümumtəhsil alma təqdirində ümumtəhsil almağı təsdiq edən sənəd

Gürcüstan Elm və Təhsil Nazirliyi sisteminə daxil olan vahid əsasda verilə bilər. Ekstern formalı tam ümumtəhsili təsdiq edən akreditasiyadan keçmiş ümumtəhsil müəssiəsi tərəfindən verilən tam ümumtəhsili təsdiq edən sənədlə birlikdə qüvvədədir."

5.13-cü maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Məktəbə qəbulla bağlı hər hansı növ diskriminasiya yolverilməzdir. Bu norma peşəkar sənətkarlar və idmançılar hazırlayan və təhsil verən, tərkibi seçkili konkursla müəyyənləşən ümumtəhsil müəssiələrinə şamil edilmir.

6.19-cü maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Məktəbin daxili qaydaları ilə, qanunvericilkilə müəyyən edilmiş cavabdehlik ölçülərindən başqa şagirdi dərsdən çağırmaq nəzərdə tutula bilər, məktəbi müvəqqəti tərketmə və başqa fənləri buraxmağa icazə verilir. Şagirdi məktəbdən müvəqqəti buraxılmasının səbəblərini şagirdin valideynlərinə izah etmək lazımdır. Şagirdin dərslərindən çətinlik çəkməsi təqdirdə məktəb və şagirdlərin təhsili müvəqqəti tərk etməsi təqdirdə onu öz təminatından kənar qoymamalıdır.

7. 22-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Dövlət ibtidai və yabaza və yaorta ümumtəhsil proqramını gerçəkləşdirən məktəblər üçün vəsait ayırır. Bir şagird üçün xüsusi və kütləvi məktəbdə təhsil almaq üçün verilən maliyə normativi müvafiq vauçerlə dövlət maliyələşdirir. Bu, təhsil müəsisəsi və ya onun nümayəndəsi bu qanunun 32-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş ümumtəhsil müəsisəsini yeni təsisçilər kimi akredasiyaya malik olduğu təqdirdə baş verir".

8. 26-cı maddə:

a) 1-ci bənd:

a.a) "Z" və "T" bəndləri sonrakı redaksiyada verilsin:

z) Ümumtəhsil müəsisəsinin maddi, texniki kreditləşməsi, proqram və dominatlı resurslarının normativləri.

t) Ümumtəhsil müəsisəsinin lisenziyalaşması gerçəkləşdirilir.

a.b) "c" bəndi çıxarılsın;

a.q) "H" bəndi sonrakı redaksiyada verilsin:

"H5) Ümumitəhsil müəssisəsinin şagirdinin çıxardılması üçün lazım olan sənədlərin nüsxələri.

b) H5 bəndi əlavə ilə birlikdə məzmunu H6 bəndində:

H6) Gürcüstan qanunvericiliyi ilə başqa səlahiyyətlər gerçəkləşdirilsin.

9. 27-ci maddə sonrakı redaksiyada verilsin

"Maddə 27. Ümumtəhsil sahəsində Gürcüstan nazirliklərinin səlahiyyətləri

1. Ümumtəhsil almaqla birlikdə profil sənət və idman hazırlığı və təhsil verən ümumtəhsil müəssisələri Gürcüstan Elm və Təhsil Nazirliyi müvafiq sahə nazirliklərinin təqdimatı ilə kütləvi məhkəmənin təsdiq etdiyi hüququ şəxs tərəfindən bu cür müəssisələri təsis edirlər. Qeyd edilən müəssisələr Gürcüstan Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada akreditasiyadan keçirlər. Milli təhsil planının yuxarı profilli sənədləri və idman hazırlığı və təhsili, habelə onların arasında ibtidai və baza mərhələli təhsil müəssisələri sahə nazirlikləri və yayerli özünüidarəetmə orqanları tərəfindən maliyələşdirilirlər.

2. Milli təhsil planının yuxarı profili sənət və idman təhsili proqramını qanunvericiliyə uyğun olaraq yuxarıda qeyd edilən sahə nazirlikləri gerçəkləşdirirlər.

10. 29-cu maddənin 1-ci bəndi:

a) "E" bəndi götürülsün;

b) "N" və "O" bəndləri sonrakı redaksiyada verilsin:

o) "Kütləvi məktəb tərəfindən Gürcüstan qanunvericiliyi pozulduğu təqdirdə ona yazılı xəbərdarlıq etmək səlahiyyətinə malikdir."

11. 31-ci maddə:

a) 1-ci bənddən sonra 11 bəndi sonrakı məzmunda əlavə edilsin:

"11. Xüsusi məhkəmənin təsdiq etdiyi hüququ şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada başqa qeyri-hüququ şəxs olmadan ümumtəhsil fəaliyyətini gerçəkləşdirməyə səlahiyyətlidir.";

b) 3-cü, 4-cü və 5-ci bəndlər sonrakı redaksiyada verilsin:

"3.Ümumtəhsil müəssisəsinin lisenziyalaşdırılması Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir."

"4. Ümumtəhsil müəssisəsi tərəfindən yaradılan ibtidai, baza, orta ümumtəhsil proqramının dövlət tərəfindən qəbul edilməsi üçün qanunvericilik qaydasında qeydiyyatdan keçməsi vacibdir. Kütləvi məktəbin akreditasiya xərcləri dövlət, ancaq xüsusi məktəbinin maliyyələşməsini isə bu işdə maraqlı tərəf öz üzərinə götürür. Akreditasiyanın dəyərini Gürcüstan Elm və Təhsil Nazirliyi, Gürcüstan İqtisadi İnkişaf Nazirliyi və Gürcüstan Maliyyə Nazirliyi ilə müəyyən edir.

5. Gürcüstan Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydaya müvafiq olaraq akreditasiyadan keçmiş, habelə bu qanunun 32-ci madəsinin 2-ci bəndində nəzərdə tutulan yeni təsisçilər tərəfindən təşkil edilən xüsusi məktəb bu qanunla müəyyən edilmiş qaydada dövlətdən maliyə almağa səlahiyyətlidir.."

12. 32-ci maddə:

a) 1-ci və 2-ci bəndlər sonrakı redaksiyada verilsin:

"1. Ümumtəhsil müəssisəsi ümumtəhsilin milli məqsədləri sənədi ilə və milli təhsil proqramının müvafiq təminat məqsədi ilə dövlətin öz tərəfindən akretisayadan keçirir. Dövlət akreditasiyadan keçmiş ümumtəhsil müəssiəsi tərəfindən verilən ümumtəhsil almağı təsdiq edən sənədi, habelə bu maddənin və eksternes əlavə təminat olduqda qanunvericiliklə müəyyən edilmiş qaydada verilən sənədi tanıyır.

2. Akreditasiyadan keçmə bütün ümumtəhsil müəssisələri üçün məcburidir. Yeni təsisçilərin lisenziya almış ümumtəhsil müəssisəsi bu bəndin "A" və "B" bəndlərində nəzərdə tutulmuş qeydiyata alındığı bir il müddətindən gec olmayaraq akreditasiya almalıdır. Bundan sonra o yeni təsis edilmiş ümumtəhsil müəssisəsi statusunu itirir. Ümumtəhsil müəssisəsinin birinci akreditasiyası bu müəssisəsinin fəaliyyətə başlaması müddətindən sayılır:

a) 3 ildən sonra - əgər o ibtidai ümumtəhsil proqramını gerçəkləşdirirsə;

b) 2 ildən sonra - əgər o baza və yaorta ümumtəhsilin ibtidai ümumtəhsilin proqramından kənar gerçəkləşdirirsə";

q) 18-ci bənd sonrakı redaksiyada verilsin:

"18. Əgər kütləvi məktəb sahə nazirliyinin təqdimatı ilə yaradılıbsa, akreditasiya alan şəxslər bu sahə nazirliyi ilə razılaşdırırlar; bu cür ümumtəhsil müəssisələri akreditasiya ekspertləri qrupundan məcburi ümumtəhsil müəssisələrin təhsil proqramında nəzərdə tutulan profillə, ya xüsusi sənəd, ifaçılıq, idman hazırlığı, ya da təhsil proqramının ekspertinin iştirakı ilə; bu hallarda ekpertlər qrupu üzvün namizədliyini akreditasiya almaq istəyənlə razılaşdırmalıdır; əgər akreditasiya almaq istəyən iki dəfə təklif edilən başqa-başqa namizədlər tərəfindən rədd cavabı alıbsa, ekspertlər qrupunun sədrinin razılığı olmadan qrupun üzvlərindən birini təyin etmək səlahiyyəti var. Bu şəxs akreditasiya almaq istəyən şəxs tərəfindən arzu olunmayan şəxs olmamalıdır.

q) 21-ci və 22-ci bəndlər sonrakı redaksiyada verilsin:

"21. Ümumtəhsilin akreditasiyası olan ümumtəhsil müəssisələri və bu maddənin 2-ci-bəndində nəzərdə tutulan yeni ümumtəhsil müəssisəsinin yeni təsisçiləri tərəfindən, habelə ekstern qaydanın tətbiqini verən ümumtəhsil almağı təsdiq edən sənədi dövlət tanıyır."

22. Xüsusi məktəb dövlət tərəfindən o halda maliyə alır ki, o akreditasiya alıb, şərti akreditasiya alıb və ya o bu maddənin 2-ci bəndində nəzərdə tutulan ümumtəhsil müəssisəsinin yeni təsisçisidir."

d) 24-ci bənd sonrakı redaksiyada verilsin:

"24. Xüsusi, eləcə də kütləvi məktəbi qurtarmasını, yəni, əgər o ümumtəhsil müəssisəsinə akreditasiyası verilən, şərti akreditasiyadan keçən, ya da o bu maddənin 2-ci bəndində nəzərdə tutulan ümumtəhsil müəssisəsinin yeni təsisçi olan müəssisənin, habelə ekstern yolu ilə ümumtəhsili təsdiq edən sənədin sahibi olan şagirdlər vahid milli imtahanda iştirak edirlər.";

e) 27-ci bənd sonrakı redaksiyada verilsin:

"27. Ümumtəhsil müəsisəsinin akreditasiyası ləğv edilərsə və yamüəssisənin şagirdləri ümumtəhsili bu sinifdə olmaq istəmədiyi təqdirdə, əgər bu sinif mərhələsi bitməmişdirsə - onlar olduğu mərhələ sayılmaqla müəsisəsinin akreditasiyası ləğv edilirsə və yaonlar bu mərhələni bitirdiyi anda akreditasiya verilməyibsə şagirdlər həmin mərhələnin sinif şagirdi hesab edilirlər.

13. 35-ci maddənin 3-cü bəndi sonrakı redaksiyada verilsin:

"3. Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələri nizamnamədə nəzərdə tutulan bədii rəhbər vəzifəsi seçilməyibsə/onda bu təyinat yolu qanuna müvafiq və müəssisənin nizamnaməsi qaydası çərçivəsində gerçəkləşdirilir";

14.38-ci maddənin birinci bəndinin "İ" bəndi sonrakı redaksiyada verilsin:

i) Milli təhsil plnına müvafiq təhsil ilini bitirən imtahan vermək məqsədi ilə Milli İmtahan Mərkəzinə müraciət etmək və o da müvafiq müqavilə bağlamaqla bu işi direktora tapşırmaq səlahiyyətinə malikdir.

14. 41-ci maddənin 6-cı bəndi sonrakı redaksiyada verilsin:

"6.Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin bədii rəhbərləri direktorun səlahiyyətini gerçəkləşdirə bilər.";

16.43-cü maddə:

a) Birinci maddənin:

a.a.) "T" bəndi sonrakı redaksiyada verilsin:

"T) Məktəbin təsərrüfat şurası hər ilin 10 dekabrına qədər təhsil prosesinin vəziyyəti barədə hesabat verir, ancaq maliyə fəaliyyəti barədə hesabat Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə gerçəkləşdirilir.";

a.b.) "N" bəndi sonrakı redaksiyada verilsin:

"N) Təsərrüfat Şurasının tapşırığı ilə milli təhsil planına müvafiq olaraq təhsil ilinin bitirən imtahandan keçmək məqsədi ilə milli imtahan mərkəzinə müraciət edir və onlarla müvafiq müqavilə bağlayır.";

a.q.) "N" bəndinə "o" bəndi əlavə edilməklə sonrakı məzmunda verilsin:

O) Gürcüstan qanunvericiliyini və məktəbin nizamnaməsində nəzərdə tutulan başqa fəaliyyəti gerçəklişdiri.";

Q) 3-cü bənd sonrakı redaksiyada verilsin:

"3. Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin nizamnaməsidə direktorun bu maddə ilə nəzərdə tutulan səlahiyyəti bədii rəhbərlə birlikdə həyata keçirlə bilər".

17. 45-ci maddənin 6-cı bəndi sonrakı redaksiyada verilsin:

"6. Profil sənət təhsili və hazırlığı verən ümumtəhsil müəssisələrinin pedaqoji şurasının səlahiyyətini bədii şura həyata keçirlə bilər. Bədii şuranın rəhbəri bəddi şura tərəfindən seçilir və nizamnamədə nəzərdə tutulan qaydada təyin edilir."

18. 49-cu maddə:

a) 2-ci, 3-cü və 4-cü bəndlər sonrakı redaksiyada verilsin:

"2. Dövlət nəzarəti ümumtəhsil müəssisəsi tərəfindən Gürcüstan qanunvericiliyinin tələblərinə yerinə yetirməsini nəzərdə tutur.

3. Kütləvi məktəb cari təhsil ili başlayana qədər ötən ilin fəaliyyəti və təhsil prosesi haqqında Gürcüstan qanunvericiliyinə müvafiq olaraq və təhsil prosesi haqqında Gürcüstan Elm və Təhsil Nazirliyinə hesabat verir. Hesabat formalarda və vaxtın müəyyən edilmiş qaydasında Elm və Təhsil Nazirliyinə verilir.

4.Bu qanunda nəzərdə tutulan nəzarətin məqsədi Gürcüstan Elm və Təhsil Nazirliyinin tələb etdiyi məsələlər və məlumatları və yayerində məktəb tərəfindən Gürcüstan qanunvericiliyinin tələblərinin necə yerinə yetirilməsini yoxlamaq məqsədi daşıyır.

b) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6.Məktəb tərəfindən Gürcüstan qanunvericiliyi pozulduğu təqdirdə Gürcüstan Elm və Təhsil Nazirliyi ona yazılı xəbərdarlıq etmək səlahiyyətinə malikdir.";

q) 8-ci bənd sonrakı redaksiyada verilsin:

19) 52-ci maddə:

a) 1-ci və 2-ci bəndlər sonrakı redaksiyada verilsin:

"1. Kütləvi məktəbin direktorunun məbləği bölüşdürməsi təsərüfat şürası tərəfindən formalaşdırılmış məktəb büdcəsinə görə olur.

2.Direktor məsələnin təcili həll edilməsi gərəkən an himayədarlar şurasının razılığı olmadan büdcənin bir maddəsinin istiqrazlarının 10% -dən çox olmadan ikinci maddəyə görə paylaşdıra bilmək səlahiyyətlərinə malikdir. Bu dəyişiklik müəllimlərin maaşlarının azaldılmasına gətirib çıxarmamalıdır. Məktəbin büdcəsinin təsdiq edildiyi təqdirdə direktor hər ay ötən il büdcəsində verilən məbləğdən 1/12-həcmindən az olmayaraq verməyə məsuldur."

b) 4-cü bənd sonrakı redaksiyada verilsin:

"4. Kütləvi məktəbin iqtisadi-maliyyə hesabatı sənədləri Gürcüstan qanunvericiliyi ilə müəyən olunmuş qaydada həyata keçrilir.

20.55-ci maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Gürcüstan Elm və Təhsil Nazirliyi təlim-təhsil müəssisələrini kütləvi məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində maliyələşdirir, onun nizamnaməsini təsdiq edir, ona dövlət nəzarətini təmin edir, onun yenidən qurulmasını, ləğv edilməsini, müəssisənin rəhbər vəzifəsinə təyin və azad edir.

21. 56-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 56. Məktəbdənkənar sənət və idman təhsil müəssisələri o təhsil müəssisələrindən kənardır ki, onlar yalnız sənət və idman proqramlarını ümumtəhsil proqramından kənar, qanunvericiliklə nəzərdə tutulan qaydada, kütləvi məhkəmənin təsdiq etdiyi hüquqi şəxs qismində, öz təşəbbüsləri, ya da yerli özünüidarəetmə orqanlarının təqdimatı ilə, Gürcüstan Mədəniyyət Nazirliyinin, Abidələrin Mühafizəsi və İdman Nazirliyi təsisçiliyi əsasında, onlara dövlət nəzarətini həyata keçirmək şərti ilə, onları yenidən qurmaq və ləğv etmək hüququ ilə, onların nizamnaməsini təsdiq etməklə, ona rəhbər təyin etmək və vəzifədən azad etməklə yaradılır.

22. 57-ci maddə:

a) Birinci bənddən sonra 1/1 bəndinə sonrakı məzmun əlavə edilsin:

"1/1. Xüsusi hüquqi şəxs başqa hüquqi şəxsdən kənar qanunvericiliklə müəyyən olunmuş qaydada orta peşə təhsil fəaliyyəti ilə məşğul olmağa səlahiyyətlidir.

b) 3-cü bənd sonrakı redaksiyada verilsin:

"3.Peşəkar sənət və idman orta təhsili və hazırlığı verən təhsil müəssisələri kütləvi hüquqi şəxs qismində sahə nazirliyi tərəfindən onların nizamnaməsini təsdiq etməklə, direktorunu təyin etməklə, ona dövlət nəzarətini həyata keçirməklə, onu yenidən qurma və ləğv etmə hüququ ilə öz fəaliyyətlərini gerçəkləşdirirlər.

q) 5-ci bənd sonrakı redaksiyada verilsin:

"5. Orta peşə təhsili baza təhsili aldıqdan sonra mümkündür. 2005-2006-cı təhsil ilinin axrına qədər ümumtəhsil proqramını gerçəklişdirən və dövlətin 100% iştirakı ilə təsisi xüsusi hüquqi şəxs-orta peşə təhsili müəssisələri ümum təhsil almağı təsdiq edən sənədi 2005-2006-cı təhsil ilinin sonuna kimi proqram maliyəsi çərçivəsində maliyəşən ümumtəhsil proqramları əsasında və 2 il müddətində orta peşə ümumtəhsili müddətində təhsil alan şagirdə verməyə səlahiyyətlidir".

d) 5-ci bənddən sonra 5/5 bəndə aşağıdakı məzmun əlavə edilsin :

"5./1 Lisenziyaya malik xüsusi hüquqi şəxs-orta peşə təhsil müəssisələri, yalniz orta peşə təhsili almağı təsdiq edən diplomdan xaric, ümumtəhsil proqramını bitirməyi təsdiq edən, ümumi təhsiliə müvafiq mərhələli təhsil almağı təsdiq edən sənədi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verir.

Maddə 2. Bu qanun çap olunduğu gündən qüvvəyə minir.

Gürcüstan Prezidenti
Mixail Saakaşvili
Tbilisi, 17 mart, 2006-cı il

KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQ ÜZƏRİNDƏ MÜLKİYYƏT HAQQINDA GÜRCÜSTAN QANUNU

I FƏSİL
ÜMUMİ QAYDALAR

Maddə 1. Qanunun məqsədləri

1. Qanunun məqsədləri:

a) torpaqdan səmərəli istifadə edilməsi və aqrar strukturun yaxşılaşdırılması əsasında təşkil olunmuş təsərrüfatın hüquqi cəhətdən təmin edilməsi;

b) torpaq sahələrinin parçalanmasının və onlardan qeyri-səmərəli istifadə olunmasının qarşısının alınması.

2. Qanun aşağıdakıları müəyyən edir:

a) torpaq sahələrinin və torpaq təsərrüfatlarının əldə edilməsi və özəlləşdirilməsi qaydasını;

b) kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə əlaqədar münasibətlərin qaydaya salınmasında dövlətin iştirakını.

Maddə 2. Qanunun təsir sahəsi

1. Bu qanunun təsiri kənd təsərrüfatı torpaqlarına aiddir.

2. Qanunun təsiri həmçinin aşağıdakılara da aiddir:

a) əgər sahələr və sahələrin bir hissəsi yaşayış məntəqələrində yerləşmişsə və torpaq təsərrüfatına aiddirsə;

b) təyinat məqsədi dəyişdirilməmiş tikinti zonasındakı sahələrə;

v) meşə fondunun torpaqları hesabına artmış kənd sakinlərinin torpaq sahələrinə.

Maddə 3. Kənd təsərrüfatı torpaq sahəsi anlayışı

1. Təsərrüfat və yardımçı tikililəri olan, yaxud olmayan torpaq kitabında (ümumi reyestrdə) kənd təsərrüfatı torpaq sahəsi kimi qeydə alınmış bitkiçilik və heyvandarlıq məhsulları istehsalı üçün istifadə olunan torpaq kənd təsərrüfatı torpaq sahəsi sayılır.

2. Aşağıdakılar da kənd təsərrüfatı torpaq sahəsi sayılır:

a) kəndə, icmaya, hüquqi şəxslərə məxsus olan otlaqların, biçənəklərin, meşələrin ərazisində həyətin (ailənin) mülkiyyət payı;

b) ayrıca hüquq obyekti ola bilən kənd təsərrüfatı torpaqlarının bir qismi.

Maddə 4. Torpaq (fermer) təsərrüfatı anlayışı

1. Üzərində müvafiq yaşayış və təsərrüfat tikintiləri, habelə müvafiq emal sənayesi və avadanlığı obyektləri olan, kənd təsərrüfatı istehsalının əsasını təşkil edən kənd təsərrüfatı torpaq sahələrinin cəmi torpaq (fermer) təsərrüfatı sayılır.

2. Əgər bağçılıq və bostançılıq yoldaşlıqları sahələrindən və yaylaq sahələrindən əldə edilən gəlir ailənin gəlirinin yarısından çoxunu təşkil edirsə, həmin sahələr də torpaq (fermer) təsərrüfatı sayılır.

3. Torpaq (fermer) təsərrüfatı kənd (kəndli, fermer təsərrüfatı) və kənd təsərrüfatı üzrə hüquqi şəxs halında mövcud ola bilər.

4. Kənd təsərrüfatı, bu maddənin birinci bəndində müəyyən edilmiş bir fiziki şəxsin, yaxud ər-arvadın və ailənin digər üzvlərinin birgə istifadəsində olan torpaq (fermer) təsərrüfatıdır.

5. Kənd təsərrüfatı torpaq kitabında (ümumi reyestrdə) qeydə alınmalıdır. Əgər bu təsərrüfat ər-arvadın, yaxud ailənin digər üzvlərinin ümumi mülkiyyətini təşkil edirsə, onlardan hər biri torpaq kitabında (ümumi reyestrdə) şərikli mülkiyyətçi sifəti ilə qeydə alınmalıdır.

Üçüncü şəxslərə münasibətlərdə kənd təsərrüfatı adından qalan mülkiyyətçilərin səlahiyyət vermiş olduqları şəriklərdən biri çıxış edir. Həmin şəxs torpaq kitabına (ümumi reyestrə) kənd təsərrüfatının başçısı kimi daxil edilir.

6. Qatışıq fəaliyyətlə məşğul olan hüquqi şəxs gəlirin yarısından çoxunu kənd təsərrüfatı fəaliyyətindən əldə edirsə, torpaq (fermer) təsərrüfatı sayılır.

Maddə 5. Kənd işçisi anlayışı

1. Kənd təsərrüfatı ilə məşğul olan, əsas gəliri (bütün gəlirin yarısından çoxunu) həmin fəaliyyətdən əldə edən və

torpaq təsərrüfatını müstəqil idarə edən fiziki, yaxud hüquqi şəxs kənd təsərrüfatı torpaq sahəsinin mülkiyyətçisi olub-olmamasından, yaxud həmin sahəni müqavilə üzrə götürüb-götürməməsindən asılı olmayaraq kənd işçisi sayılır.

2. Kənd təsərrüfatı təyinatlı torqpaq ancaq Gürcüstan vətəndaşının mülkiyyətinə verilir. Gürcüstan vətəndaşlığı olmayan şəxsə və xarici dövlətin vətəndaşına kənd təsərrüfatı təyinatlı torpaq ancaq icarəyə verilir.

3. Torpaq kitabında (ümumi reyestrdə) qeydəalma nəticəsində Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən fiziki və hüquqi şəxslərə kənd işçisi statusu verilir.

4. Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin torpaq kitabında (ümumi reyestrində) qeydiyyatın təzələnməməsi əsasında kənd işçisinin statusu ləğv edilir.

5. Kənd işçisi statusunun verilməsi, təzələnməsi və ləğv edilməsi, qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

II FƏSİL
KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQLARLA ƏLAQƏDAR MÜNASİBƏTLƏRİN ŞƏXSİ-HÜQUQİ (MÜLKİ-HÜQUQİ) MƏHDUDİYYƏTLƏRİ

Maddə 6. Kənd təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi hüququ

1. Gürcüstanda kənd təsərrüfatı tayinatlı torpaqların özgəninkiləşdirilməsinə aid qaydada, habelə xüsusi icazə əsasında ümumi məhdudiyyətlərlə yol verilir.

2. Kənd işçisi statusuna malik olan fiziki və hüquqi şəxslər arasında sövdələşmə bağlanarkən özəlləşdirmə üçun icazə tələb olunmur.

Maddə 7. Varislik

1. Kənd təsərrüfatında varislik ailənin sonuncu üzvünün ölümü ilə əlaqədar olaraq açılır.

2. Əgər kənd təsərrüfatı bir nəfər şəxsin mülkiyyətidirsə, sahibkar onu vəsiyyətlə kənd təsərrüfatı torpağının mülkiyyətçisi üçün nəzərdə tutulan şərtləri ödəməli və onun üçün bu qanununla müəyyən edilmiş öhdəlikləri yerinə yetirməli olan digər şəxsə verə bilər.

3. Bu qanunun dördüncü maddəsinin dördüncü bəndində xatırlanan kənd təsərrüfatı mülkiyyətçilərinin biri öldüyü halda miras olan əmlak mərhumun varisinə keçir.

4. Əgər bu maddənin 3-cü bəndində nəzərdə tutulmuş zəminlər mövcud deyildirsə və kənd təsərrüfatı bir nəfər şəxsin mülkiyyətidirsə, onun öldüyü təqdirdə həmin təsərrüfat aşağıdakı növbəliliklə verilir:

Əgər bir neçə varis kənd təsərrüfatını miras kimi almağı arzu edərsə, onlardan aşaığdakına üstünlük verilir:

a) son beş il ərzində miras verənlə birlikdə torpaq (fermer) təsərrufatını idarə edənə və varislik açılan vaxtda həmin fəaliyyətlə məşğul olmaqda davam edənə;

b) miras verənin sağlığında torpaq (fermer) təsərrüfatını idarə etməmiş, lakin təcrübəsi və təsərrüfatı idarəetmə qabiliyyəti olan şəxsə. Əgər bu cür varislər bir neçə nəfərdirsə, bu halda varislik açılan vaxtda həmin kənd təsərrüfatında yaşayana üstünlük verilir:

2) Miras verənin həyat yoldaşına;

3) Əgər kənd təsərrüfatını valideynlərindən almış, yaxud valideynlərinin hesabına əldə etmişdirsə, miras verənin valideynlərinə;

4) Birinci növbədə varislər üçün nəzərdə tutulmuş qaydada miras verənin bacılarına, qardaşlarına və onların uşaqlarına.

5. Əgər miras verənin varisləri həddi-buluğa çatmamış oğul (qız) olarsa, o, həddi-buluğa çatanadək təsərrüfatı idarəetmək vəzifəsi onun qəyyumlarına həvalə edilir. Həddi-buluğa çatdıqdan sonra varis təsərrüfatı müstəqil idarə etmək məsələsini həll edir.

6. Əgər varisliyi xarici dövlətin vətəndaşı, yaxud vətəndaşlığı olmayan şəxs alırsa, miras keçmiş torpaq sahəsini bu qanunda müəyyən edilmiş qaydada onlar özəlləşdirirlər.

7. Varislik açılan vaxtadək torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi icarəyə verilmişdirsə, bu halda təsərrüfatı özü idarə etməyi arzulayan və buna qadir olan varis bir il əvvəl bu barədə icarədarı xəbərdar edə və onun razılığı olduğu təqdirdə icarə haqqında müqaviləni poza bilər.

8. Torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi miras almamış şəxslərin ödənj tələb etmək hüququ vardır. Ödəncin növünü və həcmini qarşılıqlı razılaşma əsasında varislər muəyyən edirlər. Mübahisəli hallarda ödənc haqqında məhkəmə qərar çıxarır.

Ödənçin həcmi müəyyən edilərkən onun kənd təsərrüfatının həyat qabiliyyəti üçün təhlükə törətməməsi vacibdir.

Maddə 8. Özəlləşdirmənin ümumi məhdudiyyətləri

Dördüncü bəndində göstərilmiş şəxlərlə birlikdə torpaq təsərrüfatını idarə edən mülkiyyətçi kənd təsərrüfatı torpaq sahəsini və ya torpaq (fermer) təsərrüfatını, yaxud ümumi, mülkiyyətdən öz payını ancaq həmin şəxslərin razılığı ilə özgəninkiləşdirə bilər. Razılıq notarial qaydada təsdiq olunmalıdır. Sahibkar bu cür razılıq ala bilməzsə, məhkəməyə müraciət etmək hüququna malikdir.

Maddə 9. Müqavilə üzrə girovdan çıxarma hüququ

Özəlləşdirməni həyata keçirən şəxs torpaq əldə edənin torpağı becərməkdən əl çəkdiyi təqdirdə torpaq sahəsini girovdan çıxarmaq hüququ haqqında torpaq sahəsini əldə edənlə razılığa gələ bilər. Özəlləşdirməni həyata keçirən şəxs öldükdə və torpaq sahəsini almış şəxs torpağı becərməkdən əl çəkdikdə torpaq becərmək arzusunda olan özlləşdirməni həyata keçirmiş şəxsin varisi müstəqil olaraq girovdan çıxarmaq hüququndan istifadə edə bilər.

Maddə 10. İcarədarın girovdan çıxarmada üstün hüququ

1. Torpaq (fermer) təsərrüfatının özgəlləşdirilməsi zamanı on il ərzində həmin təsərrüfatı özu idarə etmiş icarədarın girovdan çıxarmada üstün hüququ vardır.

2. Kənd təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsi zamanı icarədar artıq digər torpaq (fermer) təsərrüfatının

sahibidirsə, yaxud belə təsərrüfatı idarə edirsə və icarəyə götürdüyü torpaq sahəsi onun təsərrüfatına bitişik ərazidə yerləşirsə, ona üstünlük verilir.

Maddə 11. Ümumi mülkiyyətdən payı girovdan çıxarmada üstünlük hüququ

1. Torpaq (fermer) təsərrüfatı üzərində ümumi mülkiyyətdən pay özəlləşdirilərkən təsərrüfatı özu idarə etmək arzusunda olan şərikli mülkiyyətçilərdən hər hansı biri girovdan çıxarmada üstün hüquqa malikdir.

2. Kənd təsərrüfatı torpaq sahəsi üzərində ümumi mülkiyyətdən pay özəlləşdirilərkən torpaq (fermer) təsərrüfatının mülkiyyətçisi olan, yaxud belə təsərrüfatı idarə edən və əldə etdiyi sahə onun təsərrüfatına bitişik ərazidə yerləşən hər bir şərik girovdan çıxarmada üstün hüquqa malikdir.

Maddə 12. Dövlətin girovdan çıxarmada üstün hüququ

1. Dövlət Torpaq fondunun vasitəsi ilə yüksək şərt daxilində torpağı satmaq hüququna malikdir.

2. Aşağıdakı hallarda dövlət girovdan çıxarmada üstün hüquqdan istifadə etmir:

a) sahibkarın oğlu (qızı) torpaq (fermer) təsərrüfatını qəbul edib, onu müstəqil idarə etmək arzusunda olduğunu bildirərsə;

b) sahibkar ölmüşdürsə və onun varisi torpaq (fermer) təsərrüfatını müstəqil idarə etmək arzusundadırsa;

j) əgər torpaq (fermer) təsərrüfatı, yaxud kənd təsərrüfatı torpaq sahəsi sahibi tərəfindən dövlət ehtiyacları, yaxud ictimai ehtiyaclar üçün özəlləşdirilmişdirsə və ya məcburi qaydada müsadirə edilmişdirsə.

3. Əgər mülkiyyətçilərin əmək qabiliyyəti olmayan varisləri qalmışlarsa, varisin təsərrüfatı müstəqil surətdə idarə etmək qabiliyyətinə malik olması müəyyən edilənədək girovdan çıxarma hüququndan istifadə etməsinə yol verilmir.

Maddə 13. Girovdan çıxarmada üstünlük hüququnun müddəti

Səlahiyyətli şəxsin mülkiyyətçinin təsərrüfatı idarə etməni dayandırdığını bildiyi, yaxud bilməli olduğu gündən sonra bir

ay müddətində girovdan çıxarmada üstünlük hüququ ləğv edilir.

Maddə 14. Özəlləşdirmə zamanı kənd təsərrüfatı təyinatlı torpağın dəyəri

Kənd təsarrüfatı təyinatlı torpağın qiyməti onun girovdan çıxarma vaxtı rəsmi qeydə alınmış qiymətdən artıq olan, yaxud ona bərabər olan bazar qiyməti ilə müəyyən edilir.

III FƏSİL
KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQLARLA ƏLAQƏDAR MÜNASİBƏTLƏRİN KÜTLƏVİ-HÜQUQİ (İNZİBATİ-HÜQUQİ) TƏNZİMLƏNMƏSİ

Maddə 15. Gerçəkliyin tanınması üçün xüsusi icazə lazım olan sövdələşmələr

1. Kənd təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsi və torpaq sahəsinin müqavilə əsasında digər şəxsə verilməsi üçün aşağıdakı hallarda xüsusi icazə tələb olunur:

a) kənd təsərrüfatı təyinatlı torpaqlardan qeyri-kənd təsərrüfatı məqsədləri üçün (məqsədli istifadənin dəyişdirilməsi) istifadə olunduqda;

b) torpaq sahəsi kənd təsərrüfatı üçün istifadə olunmayacaq tikinti zonasına verildikdə.

2. Aşağıdakılar torpaq sahəsinin özəlləşdirmə, tarazlaşdırılması .

a)torpaq sahəsi üzərində ümumi mülkiyyətin bir hissəsinin başqasına güzəşt edilməsi, yaxud onun özəlləşdirilməsi;

b) torpaq sahəsinin uzufrukt (ömürlük istifadə - red.) hüququ ilə yüklənməsi. Uzufrukt qaydası Gürcüstanın mülki məcəlləsi ilə müəyyən edilir.

3. Özəlləşdirmə məqamının başlanmasının həlledici şərtləri bunlardır:

a) bağlanmış müqaviləyə əsasən mülkiyyətin onu əldə edənə keçməsi;

b) torpaq sahəsinin müsadirə olunmasına başlanması;

v) məqsədli istifadənin dəyişdirilməsi əsasında səlahiyyətli şəxsə torpaqdan qeyri-kənd təsərrüfatı məqsədləri üçün istifadə etməyə icazə verən sövdələşmə, yaxud mülkiyyətçinin sahədən məqsədli istifadə olunmasını dəyişdirməsinə səbəb olan hərəkəti;

q) kənd təsərrüfatı torpaq sahəsinin tikinti zonasına verilməsinə başlanması.

Maddə 16. Özəlləşdirməyə icazə verən orqan. Ərizə ilə müraciət etmək hüququ olan şəxslər

1.Məsələnin məhkəməyə aid olmadığı hallarda müvafiq dövlət torpaq xidməti özəlləşdirməyə icazə verilməsi haqqında qərar qəbul edir.

2.Müqavilənin iştirakçısı olan tərəflərin və bu müqavilənin onun xeyrinə bağlanan şəxsin icazə almaq barədə ərizə ilə müraciət etmək hüquqları vardır.

Maddə 17. İcazə verilməsi haqqında qərar qəbul edilməsi

1. Ərizə daxil olan gündən sonra bir ay müddətində icazə vermək haqqında qərar qəbul olunmalıdır. Əgər bu qanunun 16-cı maddəsinin 1-ci bəndində xatırladılan orqan həmin müddət ərzində ərizəni yoxlayıb qərar qəbul etməmişdirsə, o, ərizəçiyə bu barədə izahat verməli və müddətin daha bir ay uzadıldığını bildirməlidir.

2. Əgər həmin müddət keçdikdən sonra da icazə verilməsi haqqında qərar qəbul edilməzsə, bu halda icazə verilmiş sayılır və müqavilənin tərəf müqabilləri müqavilədə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirə bilərlər.

3. İcazə verilməsinə rədd cavabı barədə qərar qəbul edilən gündən bir ay müddətində məhkəməyə şikayət etmək olar. Müqavilənin iştirakçısı olan tərəflərin və həmin müqavilənin onun xeyrinə bağlandığı şəxsin şikayət etmək hüququ vardır.

4. Əgər icazə verən orqandan yuxarı orqan verilmiş icazə ilə razı deyildirsə, o da icazəni dəyişdirmək, yaxud ləğv etmək tələbi ilə bir ay müddətində məhkəməyə müraciət edə bilər.

5. Əgər bu maddənin 3-cü və 4-cü bəndlərində xatırladılan şəxslər şikayət etmək hüququndan istifadə etmirlərsə,

şikayətdən bir ay keçdikdən sonra qərar qüvvəyə minmiş sayılır.

Maddə 18. Torpaq kitabında (ümumi reyestrdə) özəlləşdirmənin və icazənin qeydə alınması vəzifəsi

Özgəninkiləşdirmə üçün əsasa çevrilən sövdələşmə ilə yanaşı, icazə də torpaq kitabına (ümumi reyestrə) daxil edilir. İcazə torpaq kitabına (ümumi reyestrə) ancaq şikayət müddəti keçdikdən və icazə vermək haqqında qərar qüvvəyə mindikdən sonra yazılır.

Maddə 19. İcazə verilərkən məhdudiyyətlər

1. İcazə verilməsindən aşağıdakı hallarda imtina edilir:

a) əgər ərazi baxımından bir-birilə əlaqəli olan torpaq sahələri özəlləşdirmə nəticəsində ən azı beş hektar azalırsa;

b) sahədən kənd təsərrüfatı məqsədləri üçün istifadə olunmayacaqsa;

2. Qanunla bilavasitə nəzərdə tutulmuş hallar istisna olmaqla kənd təsərrüfatı torpaq sahəsindən qeyri-kənd təsərrüfatı təyinatı üçün istifadə olunması qadağandır.

3. İcazə verilməsinə qadağa aşağıdakı hallarda şamil edilmir;

a) müvafiq dövlət orqanları tərəfindən həyata keçirilən torpaqdan səmərəli istifadəyə şərait yaradıldığı hallarda;

b) müsadirə edildikdə;

j) məcburi icra zamanı.

Maddə 20. Torpaq becərilməsinə görə sanksiyalar

1. İki il dalbadal torpağı becərməyən, torpaqdan istifadəyə görə müəyyən olunmuş vergini ödəməyən, təsərrüfatı idarə etməyən və bu halda onu digər şəxsə icarəyə verməyən mülkiyyətçi barəsində vergi qanunvericiliyində nəzərdə tutulmuş sanksiyalar tətbiq olunur.

2. Torpaq sahəsi alan şəxsin üzərinə də bu qanunla torpaq təsərrüfatı, yaxud torpaq sahəsi mülkiyyətçisinin üzərinə qoyulmuş təəhhüdlər qoyulur.

Maddə 21. Sövdələşmələrin mülki və inzibati-hüquqi nəticələri

1. 19-cu maddənin tələblərinə, yaxud bu qanunda nəzərdə tutulmuş özəlləşdirmə haqqında sövdələşmələrin şərtlərinə cavab verməyən sövdələşmələr etibarsız sayılır.

2. İcazə vermiş orqan, əgər bu icazə torpaq sahəsini əldə edənlər tərəfindən təqdim olunmuş saxta göstəricilər əsasında verilmişdirsə, özünün verdiyi icazəni ləğv edə bilər.

Əgər torpaq kitabında (ümumi reyestrdə) sövdələşmənin qeyd olunduduğu gündən on il keçmişdirsə, icazə verən orqanın onu ləğv etmək hüququ yoxdur.

3. Əgər torpaq kitabında (ümumi reyestrdə) sonralar etibarsız sayılmış sövdələşmə qeydə alınmışdırsa, icazə verən orqanın torpaq kitabında (ümumi reyestrdə) düzəlişlər olunmasını tələb etmək hüququ vardır. Düzəliş keçirildikdən sonra icazə ləğv edilir.

4. Torpaq (fermer) təsərrüfatından, yaxud kənd təsərrüfatı torpaq sahələrindən müvafiq olaraq girov, yaxud mərc qaydasında istifadə olunması Gürcüstan qanunvericiliyində müəyyən olunmuş qaydalara uyğun olaraq tənzimlənir.

5. Bu qanunla müəyyən edilməmiş qaydalar Gürcüstan mülki məcəlləsi ilə tənzimlənir.

Gürcüstan prezidenti Eduard Şevardnadze
Tbilisi, 22 mart 1996-cı il.

"KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAQ ÜZƏRİNDƏ MÜLKİYYƏT HAQQINDA" QANUNUN QÜVVƏYƏ MİNMƏSİ BARƏDƏ

Gürcüstan parlamentinin qərarı

Gürcüstan parlamenti QƏRARA ALIR:

1. "Kənd təsərrüfatı təyinatlı torpaq üzərində mülkiyyət haqqında" Gürcüstan qanunun bu qərarın 6-cı bəndində nəzərdə tutulmuş qanun qəbul edildikdən, 10 və 11-ci bəndlərdə nəzərdə tutulmuş tədbirlər həyata keçirildikdən sonra qüvvəyə minsin.

2. Gürcüstan Respublikası Nazirlər Kabinetinin 18 yanvar 1992-ci il tarixli 48 N-li, 6 fevral 1992-ci il tarixli128 N-li , 10 mart tarixli 290 N-li, 22 sentyabr 1922-ci il tarixli 949 N-li, 16 yanvar 1993-cü il tarixli 503 N-li, 29 noyabr 1994-cü il tarixli 815 N-li, 10 mart 1995-ci il tarixli 129 N-li qərarlarının, Gürcüstan Respublikası Dövlət Şurasının 21 oktyabr 1992-ci il tarixli dekretinin, Gürcüstan Dövlət başçısının 30 dekabr 1994-cü il tarixli 249 N-li sərəncamının, Gürcüstan prezidentinin 22 fevral 1995-ci il tarixli 54 N-li fərmanının, yenə də onun 16 fevral 1996-cı il tarixli 166 N-li fərmanının tələblərinə müvafiq olaraq Gürcüstan vətəndaşlarına verilmiş həyətbaşı, ailə üçün torpaq sahələri, həmçinin 1992-ci ilədək onların qanuni istifadəsində olan bağ, bostan, yaylaq, məskənsalma sahələri, həyətyanı sahələr onların xüsusi mülkiyyəti elan edilir və onların barəsində "Kənd təsərrüfatı təyinatlı torpaq üzərində mülkiyyət haqqında" qanun tətbiq olunur.

3. Bu qanunun 2-ci bəndində nəzərdə tutulmuş normativ aktlara müvafiq olaraq həyətlərə (ailələrə) məxsus olan, ancaq müəyyən edilmiş qaydada və ölçüdə sahiblərinə verilməmiş torpaq sahələri bu qanunun qəbul edildiyi tarixdən sonra bir il ərzində pulsuz olaraq mülkiyyətə verilir.

4. Kənd yerlərində yaşayan və tibb, maarif, mədəniyyət sahələrinə daxil olan işçilərin həyətləri (ailələri) kənddə yaşayan və kənd təsərrüfatı ilə məşğul olanlara bərabər tutulur

və imkan daxilində onlara birinci kateqoriya ilə müəyyən edilmiş norma üzrə müvafiq inzibati vahiddə torpaq sahələri ayrılır.

5. Yuxarıda göstərilmiş normativ aktlar pozulmaqla əldə edilmiş (mənimsənilmiş) hər hansı torpaq sahəsinə həmin həyətlərin mülkiyyət hüququ verilmir.

6. İkinci bənddə nəzərdə tutulmuş normativ aktlar müvafiq olaraq kənd təsərrüfatı təyinatlı torpaq sahələri vətəndaşların mülkiyyətinə verildikdən sonra torpaqdan istifadə və qalan kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində mülkiyyət münasibətləri müvafiq qanunla tənzim edilir. Gürcütan parlamentinin aqrar məsələlər komitəsinə tapşırılsın ki, həmin qanun layihəsini 1996-cı il avqustun 1-dək parlamentin müzakirəsinə versin.

7. Sərhədyanı, sahilyanı zolaqda və sərhədyanı zonada kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə rejimi xüsusi qanunla müəyyən edilir.

8. Tarix, arxeologiya, şəhər tikintisi və arxitektura, monumental incəsənət abidələrinin mühafizəsinin təmin edilməsi məqsədi ilə müəyyən edilmiş zonalarda, habelə Gürcüstan pravoslav kilsəsinə verilmiş torpaq sahələrində kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə rejimi qanunla tənzim edilir.

9. Gürçüstan ərazisinin bir hissəsinə müvəqqəti olaraq nəzarət edən separatçı qurumlar tərəfindən əldə edilmiş torpaqların hüquq statusu ilə əlaqədar aktlar etibarsızdır.

10. Gürcüstan hökuməti 1996-cı il sentyabrın 1-dək bu qanunun icrası üçün vacib olan maliyyə, təşkilati və metodoloji tədbirlərin həyata keçirilməsini təmin edir.

11. Parlamentin tabeliyində olan torpaq fondu yaradılsın.

12. Aqrar məsələlər komitəsinə tapşırılsın ki, 1996-cı il iyunun 1-dək bu qanunun qəbul edilməsi ilə əlaqədar olaraq "Girov haqqında" Gürcüstan Respublikası qanununda edilmiş dəyişiklik və əlavələri Gürcüstan parlamentinin müzakirəsinə versin.

13. Kənd təsərrüfatı təyinatlı torpaqların xüsusi mülkiyyətə verilməsi torpaq üzərində mülkiyyətçilərin uçotu və qeydə

alınmasına, torpaq kadastrı xidmətinin hazırlığına müvafiq olaraq ayrı-ayrı bölgələr üzrə həm eyni vaxtda, həm də mərhələlərlə həyata keçirilə bilər. Bununla yanaşı, torpaq üzərində mülkiyyəti təsdiq edən sənədin qəbul olunması üçün mülkiyyətçi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş Gürcüstan vətəndaşı bəyannaməsini qəbul etdiyini təsdiqləməkdən ötrü onun altından imza etməlidir.

Gürcüstan parlamentinin sədri,
Zurab Jvaniya.
Tbilisi, 22 mart 1996-cı il.

Maddə 1. Ümumi müddəalar

1. "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanunu Gürcüstan Respublikasının "İcarə haqqında" qanununa müvafiq olaraq işlənib hazırlanmışdır və kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi qaydasını, müddətini, icarə haqqını, tərəflərin hüquq və vəzifələrini və icarənin digər şərtlərini müəyyən edir.

2. Kənd təsərrüfatı icarəsi qanunvericilikdə nəzərdə tutulmuş məqsədlə təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün müqavilə əsasında kənd təsərrüfatı təyinatlı, yaxud kənd təsərrüfatı təyinatı üzrə istifadə etmək üçün mövcud qaydaya müvafiq olaraq icazə verilmiş torpağa (bundan sonra "kənd təsərrüfatı təyinatlı torpağa") bina və tikililərə, qurğu və dəzgahlara, digər maddi əmlaka müddətli və satınalma yolu ilə sahib olunması və istifadə edilməsi deməkdir. İcarəçi təsərrüfat fəaliyyətini müstəqil surətdə həyata keçirir.

Maddə 2. Kənd təsərrüfatı üzrə icarə obyektləri

Kənd təsərrüfatı üzrə icarə obyektləri aşağıdakılardır:

a) kənd təsərrüfatı təyinatlı torpaqlar (əkinəyararlı, çoxillik bitkilərin tutduğu sahələr, becərilən sahələr, təbii biçənək və otlaqlar);

b) mövcud qaydaya müvafiq olaraq kənd təsərrüfatı təyinatı üzrə istifadə olunmuş, yaxud istifadə etməyə icazə verilmiş su fondunun və meşə fondunun torpaqları;

v) bağ, bostan və yaylaq sahələri;

q) mövcud qaydaya müvafiq olaraq kənd təsərrüfatı üzrə istifadə olunmuş, yaxud istifadə oluna bilən sənaye, nəqliyyat, rabitə və digər qeyri kənd təsərrüfatı təyinatlı torpaq sahələri;

d) məqsədli təyinatları hələlik dəyişdirilməmiş və mövcud qaydaya müvafiq olaraq onlardan kənd təsərrüfatı məqsədi ilə istifadə olunmasına icazə verilmiş kənd, rayon mərkəzi və şəhər hüdudlarındakı torpaq sahələri;

e) kənd təsərrüfatı məqsədi ilə torpaqdan icarə yolu ilə istifadə olunması ilə əlaqədar yaşayış və təsərrüfat bina və tikililəri, qurğu və dəzgahlar, təsərrüfat inventarı və kənd təsərrüfatı məqsədi ilə istifadə oluna bilən digər əmlak.

Maddə 3. Kənd təsərrüfatının icarə subyektləri

1. Kənd təsərrüfatının icarə subyektləri aşağıdakılardır :

a) icarədar - kənd təsərrüfatı təyinatlı torpağın mülkiyyətçisi, yaxud ona səlahiyyəti çatan şəxs

b) içarəçi - kənd təsərrüfatı torpağını icarəyə götürən fiziki şəxs, fiziki şəxslər qrupu, yaxud hüquqi şəxs.

2. Şəhər idarəetmə orqanı idarə heyəti ərazisi hüdudlarındakı dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinə səlahiyyəti olan şəxs müvafiq şəhər idarəetmə orqanı, yaxud onun səlahiyyət verdiyi şəxsdir.

3. Şəhər idarəetmə orqanı idarə heyətinin ərazisi hüdudlarından kənarda mövcud olan rayon sərhədlərindəki dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinə səlahiyyəti olan şəxs müvafiq rayon idarəetmə orqanı, yaxud onun səlahiyyət verdiyi şəxsdir.

Maddə 4. Kənd təsərrüfatı icarəsi müqaviləsi, onun qanuni şəklə salınması və qeydiyyatdan keçirilməsi qaydası

1. İcarəçi müqavilə əsasında torpaqdan istifadə etmək hüququ qazanır. İcarə müqaviləsi icarədarla icarəçinin icarə münasibətlərini müəyyən edən sənəddir və bu, müəyyən müddətə könüllülük və tərəflərin razılığı əsasında, yazılı formada, bu

qanuna və Gürcüstanın digər normativ aktlarına müvafiq olaraq bağlanır.

2. İcarə haqqında müqavilədə aşağıdakılar nəzərdə tutulmalıdır:

Torpaqdan başqa digər icarə əmlakının tərkibi və dəyəri, icarə müddəti, torpaqdan və digər əmlakdan istifadə etmək üçün icarə haqqının həcmi və ödənməsi qaydası, tərəflərin hüquq və vəzifələri, məsuliyyəti, icarə müddəti keçdikdən sonra icarə obyektlərinin geri qaytarılması şərtləri, icarəyə götürülmüş obyektlərin qorunması və onlardan istifadə olunması şərtləri. İcarə münasibətləri başlayanadək və qurtardıqdan sonra tərəflər icarəyə göturülmüş torpağın və digər obyektlərin həcmini və vəziyyətini birlikdə əks etdirir və əmlakın əks edirilməsi protokolunda qeydə alırlar.

3. İcarəyə götürülmüş torpağın planı kənd təsərrüfatı icarəsi müqaviləsinin ayrılmaz hissisidir, onu torpaq ehtiyatlarının və torpaq kadastrının müvafiq rayon (şəhər) xidməti müəyyən edir.

4.Toxumçuluq, tingçilik, cinsçilik, cins-sınaq (heyvandarlıq, quşçuluq, arıçılıq, balıqçılıq), elmi-tədqiqat müəssisələrinin sınaq-seleksiya təsərrüfatları və cins-sınaq stansiyaları, təlimtəcrübə təsərrüfatları və sahələri, iri heyvandarlıq kompleksləri və istixana kombinatları tərəfindən istifadə olunmuş, yaxud istifadə edilməli olan dövlət mülkiyyəti torpaqları həmin strukturlarla razılıq və icazə əsasında icarəyə verilir. Həmçinin dağaran otlaq və biçənəkləri də icazə əsasında icarəyə verilir. Həmin icazəni Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi verir. Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikalarının) Meşə Departamentinin müvafiq yerli xidməti dövlət meşə fondunda mövcud olan biçənək və otlaqlardan icarə yolu ilə istifadə olunmasına icazə verir.

Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaqlar ancaq Gürcüstan Dövlət torpaqdan istifadə və mühafizə komissiyasının icazəsi ilə Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi və Meşə

Departamenti ilə (meşə fondu torpaqları üzrə) razılıq əsasında 10 ildən artıq müddətə icarəyə verilir.

Aşağıdakı hallarda icazə verən orqanın icarə müqaviləsinin bütünlüklə, yaxud qismən dəyişdirilməsini tələb etmək hüququ vardır:

a) İcarə haqqı mövcud qaydadan yan keçməklə müəyyən edilmişdirsə;

b) torpağın icarəyə verilməsi torpaqdan istifadənin inhisarlaşdırılmasına, parçalanmasına, tam istifadəsinə mane olan şərtlərin ortaya çıxmasına, müəyyən olunmuş istifadə rejiminin pozulmasına səbəb olursa.

İcazə verən orqan torpağın icarəyə verilməsi haqqında sorğunu aldığı gündən sonra bir ay müddətində içarəçiyə məlumat verməlidir. Əgər icazə verən orqan göstərilən müddətdə müqavilənin pozulması, yaxud onda dəyişiklik edilməsi və ya icazə verilməməsi barədə icarəçinin qarşısında tələb qoymamışdırsa, icazə verilmiş sayılır. Həmçinin icazə verilməsinə görə məsuliyyət bütünlüklə bu orqanın üzərinə qoyulur. İcazə verilməsi qaydasının pozulması ilə əlaqədar mübahisəli məsələlər mövcud ümumi qaydalara müvafiq olaraq həll edilməlidir.

Bu bənddə göstərilmiş hallarda icazə icarə müqaviləsinin qeydiyyatdan keçirilməsi (yaxud reestrə daxil edilməsi) üçün əsasdır; bütün digər hallarda icarə müqaviləsinin qeydiyyatdan keçirilməsi üçün icazə tələb olunmur.

Notarial qaydada təsdiq edilmiş kənd təsərrüfatı icarəsi müqaviləsi müvafiq şəhər və rayon torpaq ehtiyatları və torpaq kadastrı xidmətləri tərəfindən qeydə alınır. Əgər müqavilədə hazırkı vəziyyət nəzərəə alınmamışdırsa, müqavilə qeydiyyat günündən qüvvəyə minir.

5. Kənd təsərrüfatı icarəsinin müddəti icarədarla icarəçinin razılığı əsasında və bu qanunun tələbinə müvafiq olaraq müəyyən edilir; icarə müddəti icarə müqaviləsində qeyd edilməlidir.

Kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinin əsaslandırılmış layihələri olduqda və onların həyata keçirilməsi nəticəsində nəzərəçarpaçaq nəticələr gözləndikdə və tərəflər icarənin müddətləri barədə razılığa gələ bilmədikdə torpaqların

icarəyə verilməsi müddətlərini icarəyə icazə verən mərkəzi orqan müəyyən edir.

6. Kənd təsərrüfatı icarəsi müqaviləsi Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin təsdiq etdiyi forma üzrə bağlanılır.

7. Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpaq aşağıdakı qaydada icarəyə verilir:

Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpağı icarəyə götürmək arzusunda olan fiziki və hüquqi şəxs bu Qanunun 3-cü maddəsinin 2-ci və 3-cü bəndlərində göstərilmiş, nəzdində Gürcüstan (Abxaziya və Acarıstan muxtar respublikaları) Kənd təsərrüfatı və Ərzaq nazirliyinin, Dövlət Torpaq Ehtiyatları Torpaq Kadastrı Departamentinin, dövlət əmlakının idarə edilməsi, maliyyə və hüquq xidmətlərinin nümayəndələrindən ibarət ərizələrə baxan daimi fəaliyyət göstərən komissiya yaradılmış orqana ərizə ilə müraciət edirlər. Hər bir konkret halda olduğu kəndin (kəndlərin) nümayəndələri komissiya tərkibinə daxil edilir.

Komissiya icarəyə verilən əmlak haqqında məlumatların dərc olunmasını təşkil edir, ərizələri qəbul edib, qeydiyyatdan keçirir, ərizələrinin baxılmağa qəbul edilib-edilməməsi barədə ərizəçilərə yazılı şəkildə məlumat verir.

Komissiyanın hər üzvünün bir səs hüququ vardır.

Əgər komissiya üzvlərinin əksəriyyəti iştirak edirsə, komissiyanın iclası səlahiyyətlidir.

Mübahisəli məsələlər üzrə qərarlar iclasda iştirak edən komissiya üzvlərinin qərarının çoxluğu ilə qəbul edilir. Səslərin yarı bölündüyü halda komissiya sədrinin səsi həlledicidir. Komissiya qərarı barədə protokol tərtib edilir və komissiyanın bütün üzvləri tərəfindən imzalanır. Komissiyanın qərarı rayon idarə heyəti tərəfindən təsdiq olunur.

Məlumat dərc edildikdən sonra komissiya əlaqədar olan bütün fiziki və hüquqi şəxslərə icarəyə verilən obyektlə əvvəlcədən tanış olmağa imkan verir.

Ərizələrin qəbulu komissiyanın iclasından üç gün əvvəl dayandırılır.

Komissiya ərizə daxil olduğu gündən sonra bir ay müddətində ərizəçiyə cavab verilməlidir.

8. Əgər torpağın icarəyə götürülməsi haqqında bir nəfərdən artıq adam muraciət edirsə və icarəçini müəyyən etmək mümkün deyilsə, 4-cü maddənin 7-ci bəndində göstərilən komissiya icarayə verməni müsabiqə qaydasında həyata keçirilir.

Müsabiqənin keçirilməsi qaydaları Gürcüstan parlamentinin "Dövlət əmlakının icarəyə verilməsi barədə əsasnamənin təsdiq olunması haqqında" 1994-cü il 20 sentyabr tarixli qararı ilə təsdiq olunmuş əsasnamənin 7-ci və 8-ci bəndləri ilə tənzimlənir.

Maddə 5. Kənd təsərrüfatı icarə haqqı və onun ödənilməsi qaydası

1. İcarəçi icarəyə götürdüyü torpaqdan və digər əmlakdan istifadəyə görə kənd təsərrüfatı icarə haqqı verir.

2. Kənd təsərrüfatı icarə haqqına torpağın icarəsinə görə ödənc və icarəyə verilmiş digər maddi əmlaka görə ödənc daxildir. Torpaqdan başqa digər əmlaka görə icarə haqqı icarə müqaviləsində ayrıca sətirlə göstərilir.

3. İcarəyə götürülmüş sahədə olan faydalı qazıntılardan, yeraltı sulardan, çoxillik bitkilərdən və orada mövcud olan digər maddi əmlakdan istifadəyə görə ödənc (yaxud amortizasiya ayırmaları) kənd təsərrüfatı torpaqlarının icarəsinə görə ödəncə daxil deyildir. Torpağa görə icarə haqqı icarə müqaviləsində ayrıca sətirlə göstərilir.

4. İcarə haqqının həcmi icarə müqaviləsi ilə müəyyən edilir. Bundan əlavə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsinə görə illlik ödənc həmin torpaqlardan istifadəyə görə mövcud qayda üzrə müəyyən edilmiş vergi sayılır.

5. Tərəflərin razılığı ilə kənd təsərrüfatı icarə haqqı dəyişdirilə bilər. Tərəflərdən biri kənd təsərrüfatı torpaqlarından və amortizasiya normalarından istifədəyə görə gəlir normalarını, dövlət tərəfindən tənzim olunan qiymət və tarifləri, habelə Gürcüstan qanunvericiliyində nəzərdə tutulmuş digər halların dəyişdirildiyi təqdirdə icarə haqqının həcminin dəyişdirilməsini tələb etmək hüququna malikdir.

Əgər kənd təsərrüfatı icarəsi haqqında müqavilə bağlandıqdan sonra müqavilədə nəzərdə tutulmuş təəhhüdlərə mane olan təəhhüdlər qarşıya çıxarsa, əlaqədar tərəf müqavilədə dəyişikliklər edilməsini tələb etmək hüququna malikdir. Bu qayda icarə müqaviləsnin müddətinə şamil edilmir.

6. İcarə haqqının verilməsi əgər mövcud icarə qanunvericiliyində və müqavilədə başqa bir şey nəzərdə tutulmamışdırsa, icarəçi Gürcüstan qanunvericiliyində nəzərdə tutulmuş digər vergilərdən azad edilmir.

7. İcarə haqqının ödənilməsinin müddəti və qaydası icarə müqaviləsi ilə müəyyən edilir.

8. İcarə obyektlərinin siyahıya alınması və icarəyə verilən sahələrin planının tərtib edilməsi, notariusun təsdiqi və icarə müqaviləsinin qeydə alınması üzrə xərcləri icarəçi çəkir.

Maddə 6. Əmlakın icarəyə verilməsi

İcarədar icarə obyektlərini icarəçiyə sahələrin planına, protokolda qeydə alınmış əmlakın siyahıya alınmasının vəziyyəti və miqdarına müvafiq olaraq təhvil verməyə borcludur. İcarəyə verilən obyektlər icarəçiyə icarə müqaviləsinin qeydə alındığı gündən etibarən tərəflər arasında razılaşdırılmış müddətə verilir. Bu qaydanın pozulduğu təqdirdə icarəçi icarə obyektlərinin ona verilməsini və onları vaxtında almaması nəticəsində çəkdiyi zərərin ödənilməsini, yaxud müqavilənin şərtlərinin yerinə yetirilməməsinə görə müqaviləni pozmaq və zərərin ödənilməsini tələb etmək hüququna malikdir. Fikir ayrılığının baş verdiyi halda mübahisə ümumi qaydalara müvafiq olaraq həll edilir.

İcarədar icarəyə verilmiş obyektlərin siyahıya alınması protokolunda qeyd edilmiş, yaxud icarədardan asılı olmayaraq vurulmuş zərərə görə məsuliyyət daşımır.

Maddə 7. İcarəyə verilmiş obyektlərin vasitəli icarəyə verilməsi

1.Vasitəli icarə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpağa şamil edilmir.

2.Əgər mövcud qanunvericilikdə, yaxud icarə müqaviləsində başqa bir şey nəzərdə tutulmamışdırsa, icarəçinin torpaqdan başqa icarəyə götürdüyü digər obyekti, yaxud onun bir hissəsini icarədarın icazəsi ilə vasitəli icarəyə vermək hüququna malikdir. Bu zaman icarə müqaviləsinə əsasən icarəçinin icarədar qarşısında məsuliyyəti dəyişilməz qalır.

İcarəçinin icarəyə götürdüyü sahədə onun mülkiyyəti olan bina və qurğuları icarəyə vermək hüququ vardır.

Maddə 8. İcarəyə götürülmüş obyektlərdən istifadə olunması və onların saxlanması

1. İcarədar təyinatına və müqaviləyə müvafiq olaraq kənd təsərrüfatı təyinatlı torpaqdan istifadə etməyə, icarəyə götürülmüş obyektlərə qulluq göstərilməsinin təmin olunmasına borcludur. İcarəçi icarə müqaviləsinə müvafiq olaraq öz fəaliyyətinin istiqamətini müstəqil olaraq müəyyən edir və özünün istehsal etdiyi məhsula, əldə etdiyi gəlirə sərəncam verir.

2. Əgər mövcud qanunvericilikdə və icarə müqaviləsində başqa şey nəzərdə tutulmamışdırsa, icarəçi icarəyə verilmiş bina və qurğuları, avadanlıq və dəzgahları, digər maddi vasitələri öz hesabına təmir etməyə səlahiyyətlidir. İcarəçinin icarə obyektlərini təmir etmək haqqında təəhhüdü icarə müqaviləsində əks etdirilir. İcarəçi müqavilədə nəzərdə tutulmuş, yaxud icarədarla razılaşdırılmış icbari təmiri həyata keçirmək və icarədardan bu zaman çəkilmiş xərjlərin ödənilməsini, yaxud onların icarə hesabına ödənilməsini tələb etmək hüququna malikdir.

3. İcarədar icarəyə verilmiş obyekti nəzərdən keçirmək hüququna malikdir, bu barədə icarəçiyə əvvəlcədən xəbərdarlıq edilməlidir.

4. İcarəçi icarədarın razılığı ilə icarə müddəti ərzində öz səlahiyyətlərini arvadına, yaxud həddi-buluğa çatmiş oğluna (qızına) vermək hüququna malikdir.

5. İcarəyə verilən torpağın, habelə yolların, arxların, suvarma kanallarının və hasarların (əgər bu təbii hadisələrin nəticəsi deyildirsə) təsərrüfatda istifadə üçün yararsız hala salındığı zaman icarəçi müqavilə müddəti keçənədək öz vəsaiti ilə zədələnməni aradan qaldırmağa və yaxud icarədarın zərərini ödəməyə borcludur.

Maddə 9. İcarə obyektləri üzərində mülkiyyət

1. İcarəyə verilmiş torpaq sahəsi icarədarın mülkiyyəti olaraq qalır.

2. İcarəyə götürülmüş obyektdən istifadə olunarkən yaradılmış məhsul və gəlir, habelə icarə müqaviləsində digər bir şey nəzərdə tutulmamışdırsa bu gəlirin hesabına əldə edilmiş əmlak icarəçiyə məxsusdur.

3. İcarədarın razılığı ilə icarəçinin girov qoyduğu, smetaya müvafiq olaraq icarəyə verilmiş sahədəki çoxillik bitkilər, habelə tikilmiş binalar və qurğular icarə müqaviləsində başqa şey nəzərdə tutulmadığı təqdirdə icarədara məxsusdur. Müqavilənin fəaliyyəti dayandırıldıqdan sonra icarəçi çoxillik bitkilərin, bina və qurğuların qalıq dəyərinin ödənilməsini təmin etmək hüququna malikdir.

İcarəyə götürülmüş sahədə icarədarın razılığı olmadan girov qoyulmuş çoxillik bitkilər, icarəçinin tikdiyi bina və qurğular icarədara məxsusdur.

4. İcarəyə götürülmüş obyektlərə zərər vurmadan ayrıla bilən öz təkmilləşdirmə vasitələri ilə həyata keçirilmiş bütün işlər icarəçinin mülkiyyətidir. Əgər icarəçi icarədarın razılığı ilə təkmilləşdirmə vasitələri hesabına icarəyə verilmiş obyektlər üçün zərər verməyən işlər görmüşdürsə, icarədar müqavilə müddəti keçdikdən sonra ayrılmaz təkmilləşdirmələrin dəyərini icarəçiyə edəməlidir. İcarəçinin icarədarın razılığı olmadan həyata keçirdiyi ayrılmaz təkmilləşdirmələrin dəyəri isə ödənilmir.

Maddə 10. İcarəyə götürülmüş obyektlərin girovdan çıxarılması

1.Torpaqdan başqa digər obyektlərin tam, yaxud qismən girovdan çıxarılmasına qanunvericilikdə nəzərdə tutulmuş qadağa icarə müqaviləsində əks etdirilir.

2.Digər kənd təsərrüfatı obyektlərinin satıldığı təqdirdə icarəçi onları girovdan çıxarmaq üçün üstün hüquqa malikdir; fiziki şəxs - icarəçi həmin hüququ həddi-buluğa çatmış uşaqlarına

və arvadına verə bilər. Əgər icarə obyektləri icarədarın uşaqlarının və arvadının xeyrinə özəlləşdirilirsə, yaxud dövlət və ya ictimai məqsədlər üçün onların məcburi özəlləşdirilməsinə yol verilirsə, girovdan çıxarmaq üçün üstünlük hüququ mövcud deyildir.

Maddə 11. İcarə müqaviləsinin təzələnməsi, dəyişdirilməsi, fəaliyyətinin dayandırılması və pozulması

1. İcarə müqaviləsinin müddəti keçdikdən sonra tərəflər onun təsir müddətini davam etdirmək hüququna malikdirlər.

Müqavilə təzələnərkən tərəflərin razılığı ilə müqavilənin şərtləri dəyişdirilə bilər.

Mövcud qanunvericilikdə, yaxud müqavilədə nəzərdə tutulmuş hallarda tərəflərdən birinin tələbi ilə müqavilədə nəzərdə tutulmuş şərtlər dəyişdirilə bilər.

2. Əgər icarə müqaviləsi müddəti keçdikdən sonra tərəflərdən heç biri müqavilənin təsirinin dayandırılması, yaxud şərtlərinin dəyişdirilməsi barədə ərizə verməzsə, bu həmin müddətə və həmin şərtlərlə uzadılmış sayılır. Əgər torpaq sahəsi, yaxud kənd təsərrüfatı istifadə üçün yararsızdırsa, icarə müqaviləsinin təsiri dayandırılmış sayılır. İcarəyə götürülmüş sahə mövcud qaydaya müvafiq olaraq müsadirə olunub dövlət ehtiyacları, yaxud ictimai ehtiyaclar üçün verilmişdirsə, habelə əgər icarədar icarəyə verilmiş sahə hüdudlarında icazəsi olmadan yerin təkindən istifadə etməyə başlamışdırsa, yaxud burada mühüm qazıntı ehtiyatları kəşf edilmiş, nadir arxeoloji abidə aşkara çıxarılmışdırsa, icarə müqaviləsinin təsiri dayandırılmış sayılır.

3. Tərəflərin razılığı ilə icarə haqqında müqavilə vaxtından əvvəl pozula bilər. Yalnız mövcud qanunvericiliyə müvafiq olaraq, yaxud müqavilədə nəzərdə tutulmuş hallarda tərəflərdən birinin tələbi ilə icarə haqqında müqavilənin vaxtından əvvəl pozulmasına yol verilir.

İcarəçinin müflisləşdiyi təqdirdə onun əmlakını satan şəxs əvvəlcədən icarə müqaviləsinin pozulmasını tələb etməyə borcludur.

Əgər icarəçi:

a) icarəyə götürdüyü obyektlərdən təyinatı üzrə istifadə etmir və müqavilənin şərtlərini pozursa;

b) qəsdən, yaxud səhlənkarlığı üzündən icarəyə götürdüyü obyektlərin vəziyyətini pisləşdirirsə;

j) ödənc müddəti keçdikdən sonra üç ay ərzində icarə haqqını ödəmirsə; əgər icarə haqqının verilməsi müddəti müqavilədə müəyyən edilməmişdirsə, təsərrüfat ilinin sonu onun ödənilməsi müddəti sayılır;

ç) icarə müqaviləsində onun vəzifəsinə daxil edilən icarə obyektlərini təmir etmirsə, icarədar müqavilənin vaxtından əvvəl pozulmasını tələb etmək hüququna malikdir.

Aşağıdakı hallarda icarəçinin müqavilənin vaxtından əvvəl pozulmasını tələb etmək hüququ vardır:

a) əgər icarədar icarə obyektlərinin təmiri, icarəçinin maddi ehtiyatla və xidmətlə təmin edilməsi üzrə müqavilədə nəzərdə tutulmuş təəhhüdləri yerinə yetirmirsə;

b) icarəyə göturülmüş torpaq sahəsi və digər icarə obyektləri icarəçinin məsuliyyət daşımadığı vəziyyətə görə istifadəyə yararsız olarsa;

j) icarəçi əlil olmuş, əmək qabiliyyətini itirmiş, yaxud törətdiyi cinayətə görə azadlıqdan məhrum olunmuş, onun barəsində digər cəza tədbiri görülmüş və buna görə icarə müqaviləsinin şərtlərini yerinə yetirə bilmirsə. Bu təqdirdə icarəçi ilə birlikdə yaşayan, yaxud onunla birlikdə işləyən onun ailə üzvləri yeni icarə müqaviləsi bağlamaqda üstün hüquqa malikdirlər.

İcarə müqaviləsinin təzələnməsi, dəyişdirilməsi, müqavilənin təsirinin dayandırılması və pozulması, yazılı formada həyata keçirilir.

4. İcarə müddəti keçəndək icarəyə verilmiş torpağı və digər icarə obyektlərini başqa şəxsə vermək arzusunda olan icarədar bu barədə bir il əvvəl, yaxud tərəflərin razılığa gəldiyi müqavilədəki müddətdə icarəçiyə məlumat verməyə borcludur.

Həmin bənddə göstərilmiş dəyişikliklər ancaq vacib şəraitdə - icarəçinin razılığı və tərəflərin son qarşılıqlı haqq-hesabının çəkildiyi zaman həyata keçirilə bilər.

5. İcarəyə verilmiş qeyri-kənd təsərrüfatı təyinatlı sahənin başqasına verildiyi, yaxud onun dövlət ehtiyacları və ictimai ehtiyaclar üçün məcburi surətdə özəlləşdirildiyi təqdirdə icarəçi müqavilənin təsirinin dayandırılması nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

Maddə 12. Mülkiyyətçinin əvəz edildiyi, yaxud icarəçinin öldüyü təqdirdə icarə müqaviləsinin təsiri

1.Torpaqdan başqa digər icarə obyektlərinin icarəçidən özgə şəxsin mülkiyyətinə keçməsi hüququ, habelə torpaq üzərində mülkiyyətçi olan fiziki şəxsin, yaxud torpağı icarəyə verməyə səlahiyyət qazanmış şəxsin hüququ icarə müqaviləsi şərtlərinin, dəyişdirilməsi, yaxud onun pozulması üçün əsas deyildir. Mülkiyyətçinin səlahiyyət verdiyi hüquqi şəxsin – icarədarın yenidən qurulduğu, yaxud ləğv edildiyi təqdirdə mövcud qanunvericilikdə başqa şey nəzərdə tutulmamışdırsa, onun hüquq və vəzifələri hüquqi varisinə keçir.

2.İcarəçinin öldüyü təqdirdə icarə müqaviləsində nəzərdə tutulmuş varisin icarəçi olmağa razılıq verdiyi və icarə müqaviləsində başqa bir şey nəzərdə tutulmadığı hallarda onun varisinə keçir. İcarədar müqavilənin bağlanmasının icarəçinin fərdi keyfiyyətləri ilə əlaqədar olduğu və icarə müqaviləsində əks etdirildiyi hallardan başqa bu cür şəxsə müqavilədə nəzərdə tutulmuş hüquq və vəzifələr verməkdən imtina etmək hüququna malik deyildir.

Maddə 13. Dövlət mülkiyyəti olan kənd təsərrüfatı təyinatlı torpağın icarəyə götürülməsi zamanı üstünlüklər və məhdudiyyətlər.

1. Dövlət mülkiyyətində olan kənd təsərrüfatı torpaqlarının icarədə istifadə etmək üçün alınması müsabiqəsində iştirak edərkən aşağıdakılar eyni şərtlərlə üstünlüklərə malikdirlər:

a) kənd, rayon (şəhər) ərazisində yerləşən və "İnhisarçılar haqqında" Gürcüstan qanunu ilə icazə verilmiş kənd təsərrüfatı

müəssisələri yaratmaq məqsədi güdən kənd təsərrüfatı müəssisələri, yaxud fiziki şəxslər;

b) sosial-iqtisadi səmərəyə nail olunması, yaxud mədəni floranın yerli (milli) genefondunun saxlanılması, qabaqcıl istehsalat texnologiyasının tətbiqi, aqrotexniki tədbirlərin səmərəli surətdə həyata keçirilməsi üçün əlverişli şəraitin nəzərdə tutulduğu torpağın icarəsi haqqında müqavilə layihəsi;

j) icarəyə verilmiş torpaqdan istifadə edənlər - kooperativ, yaxud dövlət kənd təsərrüfatı və ya "İnhisarçılar haqqında" Gürcüstan qanunu ilə icazə verilmiş kənd təsərrüfatı müəssisələri yaratmaq məqsədi güdən qeyri kənd təsərrüfatı müəssisələri, təşkilatları və idarələri;

ç) təbii fəlakətə və digər səbəblərə görə yığcam məskunlaşmış şəxslərin həyəti (təsərrüfat).

2. İcarəyə verilmiş torpaq sahəsində yerləşən binalar və kənd təsərrüfatı təyinatlı qurğular icarəyə verilərkən torpaqdan istifadə edənə və icarəçiyə üstünlük hüququ verilir.

3. İcarəyə verərkən torpaq sahələrinin mexanikləşdirmədən səmərəli istifadə edilməsinə və aqrotexniki tədbirlərin səmərəli surətdə həyata keçirilməsinə maneələr törətməyə qadir olan torpaq sahələrinin parçalanması qadağandır.

4. Faydalı qazıntıların və mühafizə olunan ərazilərin istifadəsiz qalması hüdudlarında nadir arxeoloji və tarixi abidələrin olduğu torpaqlar Gürcüstan Ətraf Mühitin və Təbii Ehtiyatların Mühafizəsi Nazirliyinin, Dövlət Geologiya Departamentinin, Gürcüstan EA Arxeoloji Tədqiqatlar Mərkəzinin və Abidələrin Mühafizəsi üzrə Baş İdarəsinin razılığı ilə icarəyə verilir.

Maddə 14. İcarə obyektlərinin icarədara qaytarılması

İcarə müqaviləsinin müddəti qurtardıqda icarəçi obyektləri icarədara müqavilədə nəzərdə tutulmuş vəziyyətdə qaytarmağa borcludur.

İcarəçi icarəyə götürdüyü torpağa və digər obyektlərə vurulmuş zərəri mövcud qanunvericiliyə müvafiq olaraq icarədara ödəməlidir.

Əgər icarəçi icarə münasibətləri başa çatdıqdan sonra icarəyə götürdüyü obyektləri qaytarmazsa, icarədar icarə obyekt-

lərinin qaytarılmasının ləngidilməsinə görə təyin edilmiş icarə haqqının ödənilməsini, habelə icarəçinin həmin müddət ərzində, yaxud icarəyə götürdüyü bütün il ərzində əldə etdiyi səmərəyə görə icarə haqqı verməsini tələb edə bilər. İcarədar digər zərərlərin ödənilməsini də tələb edə bilər.

Maddə 15. İcarə dövründə baş verən mübahisəli məsələlərə baxılması

İcarə dövründə müqavilənin yerinə yetirilməsi, şərtlərin dəyişdirilməsi, yaxud onun ləğv edilməsi üzrə icarədarla icarəçi arasındakı mübahisəli məsələlərə məhkəmə tərəfindən baxılır və həll edilir.

Maddə 16. İcarəçinin əmlak hüququnun müdafiəsi

İcarəçinin icarəyə götürdüyü obyektlər üzərində hüququ qanunla müdafiə edilir.

Tərəflər icarə münasibətləri dövründə icarə obyektlərinə vurulan zərəri icarə müqaviləsinə və mövcud qanunvericiliyə müvafiq olaraq ödəyirlər.

Gürcüstan prezidenti
Eduard Şevardnadze
Tbilisi, 28 iyun 1996-cı il.

"KƏND TƏSƏRRÜFATI TƏYİNATLI TORPAĞIN İCARƏYƏ VERİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNU BARƏDƏ GÜRCÜSTAN PARLAMENTİNİN QƏRARI

Gürcüstan parlamenti QƏRARA ALIR:

1) "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanunu dərc olunduğu vaxtdan qüvvəyə minsin.

2) "Respublikanın kənd təsərrufatında icarə münasibətləri haqqında" əsasnamə Gürcüstan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 1991-ci il tarixli, 22 nömrəli qərarına əsasən bağlanmış kənd təsərrüfatı icarəsi müqavilələri 1996-cı il dekabrın 31-dək "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gurcüstan qanununa müvafiq vəziyyətə salınsın, 1997-ci il yanvarın 1-dən bu qanuna uyğun olmayan müqavilələr ləğv edilsin.

3) Yerli idarəetmə orqanları Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi ilə birlikdə "Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsi haqqında" Gürcüstan qanununa müvafiq olaraq kənd təsərrüfatı icarəsi muqavilələrinin qeydiyyatdan keçirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsini təmin etsin.

4) Gürcüstan ərazisinin bir qismində müvəqqəti olaraq nəzarət edən separatçı qurumlar tərəfindən ələ keçirilmiş torpağın hüquq statusu ilə əlaqədar aktlar qüvvəsini itirmiş hesab edilsin.

5) Kənd təsərrüfatı təyinatlı torpağın icarəyə verilməsinin maksimum müddəti 49 təqvim ili müəyyən edilmişdir.

6) Bir hüquqi, yaxud fiziki şəxs tərəfindən icarəyə götürülmüş kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin hüdudlarını və rayonlar arasında kənd təsərrüfatı təyinatlı torpağı, o cümlədən qış və yay otlaqlarından istifadə məsələlərini Gürcüstan icra hakimiyyəti müəyyənləşdirir və tənzim edir.

Gürcüstan parlamentinin sədri Zurab Jvaniya
Tbilisi, 28 iyul 1996-cı il.

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA

09.06.1999-cu il

Gürcüstan parlamenti qərara alır:

Maddə1."Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri1 007, 30.04.96,səh.16) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.3-cü maddəyə sonrakı məzmunda 3-cü və 5-ci bəndlər əlavə edilsin:

"3.Yüksək dağlıq regionlarda torpaq xüsusi, icma və dövlət mülkiyyəti ola bilər.

4.Yüksək dağlıq regionlarının hələ də icma ənənələri olan kəndlərində otaracaqlardan istifadədə icma qaydaları fəaliyyət göstərir.

5.Yüksək dağlıq regionlarındakı otaracaqlar ümumu kənd və icma mülkiyyəti hesab olunur. Kəndlər arasında otaracaqların sərhədləri ənənəvi qaydada müəyən olunmuş hüdudlarla, bir-biri ilə sərhəd olan kəndlərin kənd məclislərinin razılaşdırılması əsasında müəyyən edilir. Razılaşma olmadığı təqdirdə mövcud mübahisə məhkəmə yolu ilə həll edilir. Biçənəklər icma mülkiyyətidir, ondan icmanın razılığına əsasən bölməklə istifadə edilir."

2. 5-ci maddəyə sonrakı məzmunda 6-cı,7-ci bəndlər əlavə edilsin:

"6.Kənddə keçmişdə daimi yaşamış şəxslərdən arzu edənlər və ya icma ona kəndə geri qayıtmaq imkanı verərsə, kənd-təsərrüfatı təyinatlı torpaqdan və biçin sahələrindən ayıra bilər. Boşalmış kəndlərə əhalinin məskunlaşması məsələsi Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada birgəyaşayış məntəqəsi və kənd özünüidarəetmə orqanı yaradılmaqla gerçəkləşdirilir.

7. Kənd məclisi yeni məskunlaşdırılanları yerli büdcədən və fonddan maliyyələşdirir, təbii resursların istismarından, otaracaqların icarəsindən, başqa-başqa istehsal fəaliyyəti ilə, büdcə və qeyri-büdcə vəsaitlərindən istifadə edirlər."

3. 6-ci maddəyə sonrakı məzmunda 3-cü, 4-cü bəndlər əlavə edilsin:

"3. Dedopliscğaro və Marneuli rayonlarının ərazilərindəki qış otaracaqlarının müəyyən edilmiş sahələri daimi istifadə üçün Axmeta, Tianeti, Duşeti və Kazbeki rayonlarına verilir. Müvafiq olaraq Axmeta, Tianeti, Duşeti, Kazbeki rayonlarının yüksək dağlıq regionları daimi olaraq yay otaracağı kimi Dedopliscğaro, Marneuli və Zalqa rayonlarına verilitr.

4. Yüksək dağlıq regionlarda mövcud olan erroziyalı torpaqların qorunması üçün dövlət məqsədyönlü razılıq verir.

4. Bu qanunun birinci maddəsinin birinci və 2-ci bəndləri Gürcüstan kənd-təsərrüfatı təyinatlı torpaqlar haqqında qanunvericiliyinə müvafiq olaraq icarəyə və xüsusi mülkiyyətə verilmiş torpaq sahələrinə şamil olunmur.

11. Bu qanun 1 yanvar 2000-ci ildən qüvvəyə minir.

Gürcüstan prezdenti
Eduard Şevardnadze
Tbilisi, 09 iyun 1999-cu il

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

14.06.2000-ci il

Gürcüstan parlamenti qərara alır:

Maddə 1."Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri1 007, 30.04.1996-cı il) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.1-ci maddənin 2-ci bəndinin "A" yarımbəndindəki "və dədə-baba təsərrüfatları" sözü götürülsün.

2.2-cü maddənin 2-ci bəndinin "A" yarımbəndi " dədə-babaya aid təsərrüfat" sözü "kənd təsərrüfatı ərzaqının istehsalı və ictimai reyestrdə kənd-təsərrüfatı torpaq sahəsi kimi qeydiyyatdan keçirilsin" sözü ilə əvəz edilsin.

3.3-ci maddənin 1-ci bəndindəki "yerli icma kitabında (ictimai reyestrdə)" sözü "ictimai reyestrdə" sözü ilə əvəzlənsin.

4. 4-cı bənd sonrakı redaksiyada verilsin:

"Maddə 4.Kənd-təsərrüfatı təyinatlı torpağın mülkiyyətə verilməsi

1. Kənd təsərrüfatı təyinatlı torpaq mülkiyyətə yalnız Gürcüstan vətəndaşına və Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsə verilə bilər.

2. Kənd təsərrüfatı təyinatlı torpaq mülkiyyəti hüquqi-fiziki şəxsə, icmanın və Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsə verilə bilər.

5.3-cü maddənin 3-cü, 5-ci bəndləri 4-cü maddənin 3-cü, 5-ci bəndlərinə sayılsın, ancaq 5-ci maddənin 6-cı və 7-ci bəndləri 4-cü maddənin 6-cı və 7-ci bəndlərinə sayılsın.

6. 5-ci bəndin 1-ci, 2-ci və 5-ci bəndləri çıxarılsın.

7. 6-cı maddənin:

a) Birinci bəndindən "xüsusi icazə əsasında verilmiş" sözü çıxarılsın.

b) 2-ci bənd çıxarılsın.

8. 8-ci bənd sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmədə xüsusi məhdudiyyət və ümumi mülkiyyət payının üstün satış hüququ

Xüsusi mülkiyyətdə olan kənd-təsərrüfatı təyinatlı torpağın hər bir həmpayı öz payına görə sərancam verə bilsin, ancaq torpaqdan istifadə sərancamında başqalarının fikrini bölüşsün və bu qərar birgə olsun. Pay satışa çıxarılanda onun başqası tərəfindən alınmaq hüququ var.

9.9-cu, 11-ci, 12-ci, 14-cü, 18-ci maddələr çıxarılsın.

10.10-cu maddədə:

a)Birinci maddə çıxarılsın;

b) 2-ci bənd sonrakı redaksiyada verilsin:

"2. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin özəlləşməsində icarədarın onu almaqda üstün hüququ var."

11. 13-cü maddənin başlığındakı və mətndəki "satış üçün" sözü "satış", "bir ay müddətinə" sözü isə "iki həftə" sözü ilə əvəzlənsin.

12. 19-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 19.Kənd-təsərrüfatı təyinatlı torpaqlardan istifadədə və özəlləşdirmədəki qadağalar

Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin qeyri-təsərrüfat təyinatı, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dəyişdirilə bilməz.

13. 20-ci maddənin 2-ci bəndi çıxarılsın.

14. 21-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 21. Hüquqi məhkəmənin nəticəsində sazişə gəlmək

1. Bu qanunun tələblərinə uyğun gəlməyən saziş olmuş sayılır.

2.Bu qanunla nəzərdə tutulan əlaqələr Gürcüstan Mülki Kodeksi ilə tənzimlənir."

15.22-ci maddədə "5-ci" sözü "4-cü" sözü ilə əvəz edilsin.

11. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

Gürcüstan prezdenti
Eduard Şevardnadze
Tbilisi, 14 iyun 2000-ci il

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

20.06.2003-cı il

Maddə1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri 1007,30.04.96,səh.16) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.4-cü bənd:

a) Birinci bənd sonrakı redaksiyada verilsin:

"1.Kənd təsərrüfatı təyinatlı topmağa sahib olmaq haqqı yalnız Gürcüstan vətəndaşının, ailənin, habelə Gürcüstan qanunvericiliyi ilə Gürcüstanda qeydiyyatdan keçmiş, fəaliyyətini əsasən kənd təsərrüfatı sahəsində gerçəkləşdirən hüquqi şəxsin ola bilər."

b) 2-ci bənd çıxarılsın.

q) 4-cü və 5-ci bəndlər sonrakı redaksiyada verilsin:

"4. Ailə təsərrüfatı torpaq sahəsi olan, onda yaşayış yeri və təsərrüfatı sahəsi olan, habelə istehsal işi obyekti və bir fiziki şəxsin mülkiyyətində və ya arvadı və ya ailə üzvlərinin ümumi mülkiyyətindən təşkil edilmiş vahiddir.

5. Ailə təsərrüfatı yerli kitabda (ictimai reyestrdə) qeydiyyatdan keçməlidir. Əgər bu təsərrüfat arvadın və ya ailənin başqa üzvlərinin ümumi mülküdürsə yerli kitabda (ictimai reyestrdə) onların hər biri ailə təsərrüfatının bərabərhüquqlu sahibi kimi qeydiyyatdan keçməlidirlər.

d) 5-ci bənə sonrakı məzmunda 51bəndi əlavə edilsin:

"51. Arsiani və Acara-İmereti dağ silsiləsində mövcud olan sup-alp və alp otaracaqları dövlət mülkiyyəti elan edilsin və onlar Gürcüstan Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi Acarıstan Muxtar Respublikası Nazirlər Şurası ilə razılaşdırılaraq aparıcı

olaraq 5-5 il müddətinə, müvafiq normativ aktlarla, müvəqqəti istifadə üçün o rayonlara, o ailələrə, qəsəbələrə və kəndlərə verilsin ki, onlar həmin ərazidə yerləşiblər və əvvəllər də bu otaracaqlardan istifadə ediblər.";

e) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6. Hər hansı üçüncü bir şəxslə əlaqədə ailə təsərrüfatının adı ilə bərabərhüquqlu mülkiyyətçilərdən biri geridə qalanların ona verdiyi səlahiyyətə müvafiq çıxış edir. Bu şəxs yerli kitabda (ictimai reyestrdə) ailə təsərrüfatının başçısı kimi qeyd olunmalıdır.";

v) 7-ci bənd çıxarılsın.

2. 6-cı maddənin 3-cü və 4-cü bəndləri çıxarılsın.

3. 8-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmədə ümumi məhdudiyyətlər

Yerli (ailə) təsərrüfatını arvadı və ya ailə üzvləri ilə birgə aparan mülkiyyətçi kənd təsərrüfatı torpaq sahəsini ya yerli (ailə) təsərrüfatında və ya ümumi mülkiyyətçilər öz payını özgələşdirməyə razılıq verdiyi təqdirdə o özəlləşdirilə bilər. Razılıq notarial qaydada təsdiq edilməlidir. Razılığı rədd etmək üçün mühüm səbəb mövcud olmalıdır. Əgər mükliyyətçi razılığı ala bilmirsə, o, məhkəməyə müraciət edə bilər.".

4.Qanuna sonrakı məzmunda 9-cu bənd əlavə edilsin:

"Maddə 9. Satış üçün müqavilə hüququ

Torpaq sahəsini satışla özəlləşdirən onu alanla o halda razılaşa bilər ki, satan bu torpağı özü işlətməkdən vaz keçsin. Əgər alan torpağı işlətməyə özəlləşdirənin vəfat etməsindən sonra başlasa, satış hüququnu müstəqil şəkildə öz xeyrinə istifadə etmək istəsə ögəlləşdirənin varisi torpağı özü işlətmək arzusunda olduğunu bildirməklə ondan istifadə edə bilər.

1.10-cu maddə sonrakı redaksiyada verilsin:

"Maddə 10. İcarəçi tərəfindən üstün alış hüququ

1. Əgər onun özü bundan istifadə edəcəksə, yerli (ailə) təsərrüfatın özəlləşdirilməsində icarədarın üstün alış hüququ var.

2.Kənd-təsərrüfatı torpaq sahəsinin özəlləşdirilməsində alış üçün icarədarın üstün hüququ var. İcarədar tərəfindən alışa

rədd cavabı verildiyi təqdirdə, bu sahə ilə sərhəd təşkil edən torpaq sahəsinin sahibinin və ya onun icarədarının bu torpaq sahəsini almağa üstünlüyü var.

6. Qanuna sonrakı məzmunda 11-ci və 12-ci maddə əlavə edilsin:

"Maddə 11.Ümumi mülkiyyətdə payı olanın alışda üstün hüququ

1.Yerli (ailə) təsərrüfatda ümumi mülkiyyət payı olanın özəlləşmədə bu təsərrüfatı almaq istəyənlə müqayisədə alıcı kimi üstünlüyü var.

2. Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin ümumi mülkiyyət payının özəlləşdirilməsində yeli (ailə) təsərrüfatda mülkiyyətçi olan hər bir mülkiyyətçinin və ya həmin təsərrüfat-la eyni ərazidə yerləşən və o təsərrüfatla sərhəddi olan təsərrüfatın alışda üstün hüququ var.

Maddə 12. Satışda dövlətin üstün hüququ

1. Gürcüstanda torpaq bazarını tənzimləmək, torpaqdan istifadə və müdafiə etmək, ondan səmərəli istifadə və mühafizə etmək proqramını maliyyələşdirmək üçün Gürcüstan dövlət büdcəsindən Gürcüstanın yerli fondu yaradılır. Yerli fondun vasitəsi ilə qanunvericiliklə nəzərdə tutulan qaydada və müəyyən edilmiş hallarda üstün alış hüququ var.

2. Dövlət tərəfindən üstün alış hüququna tətbiq olunmur, əgər:

a) Mülkiyyətçinin övladı dədə-baba (ailə) təsərrüfatını tam, sənədlərlə əsaslandırılmış şəkildə götürmək istədikdə;

b) Mülkiyyətçi dədə-baba (ailə) təsərrüfatını və ya kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini dövlət və ya ictimaiyyət üçün gərəkli olduqda və ya məcbur olub özgələşdirirsə.

3. Əgər mülkiyyətçi dəyişməz mülkiyyətçi kimi qalırsa, dövlət tərəfindən üstün satış hüququ ona o vaxta qədər tətbiq edilmir ki, onun mülkiyyətçi kimi təsərrüfatı müstəqil idarə etməsi müəyyən olunmayıb."

17.19-cu maddənin mətni birinci bənd kimi sayılsın və maddəyə sonrakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Özəlləşdirmə nəticəsində qalan sahə 5 hektardan az olduğu təqdirdə torpaq sahəsinin özgələşdirilməsi qadağan edilir.

Maddə 2. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

Gürcüstan prezdenti
Eduard Şevardnadze
Tbilisi, 20 iyun 2003-cü il

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA
26.11.2004-cü il

Maddə1. "Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri1 007, 30.04.96,səh.16) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.2 V FƏSİL və 22-ci maddənin başlığı sonrakı redaksiyada verilsin: "Keçici əsasnamələr"

2. 22-ci maddənin mətni birinci bənd kimi sayılsın və bu maddəyə sonrakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Acarıstan Muxtar Respublikasında yaşayan, qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahəsi olan, lakin verilməyən torpaq sahəsi qanunvericiliklə nəzərdə tutulan qaydada 31 dekabr 2006-ci ilədək icmalara(ailələrə) verilir".

Maddə 2. Gürcüstan hökuməti bu qanun qüvvəyə minəndən bir il ərzində qanunun fəaliyyət göstərməsi üçün lazım olan maliyyə, təşkilati və metodoloji tədbirlərin həyata keçməsini təmin edir.

Maddə 3.Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

Gürcüstan prezdenti
Mixail Saakaşvili
Tbilisi, 26 noyabr 2004-cü il

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA
08.12.2006-cı il

Maddə1."Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (Gürcüstan qanunvericiliyi aktları 142,29.07.2005-ci il,maddə 3003) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.3-cü maddəyə:

a)"B" bəndi sonrakı redaksiyada verilsin:

b) Kənd təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi-dövlət mülkiyyətində mövcud olan kənd-təsərrüfatı təyinatlı torpaqlar Gürcüstan vətəndaşları, ya da Gürcüstanda qeydiyyatdan keçmiş xüsusi hüquqi şəxslərə satmaq formasında, yalnız müqəddəs avtokefal kilsəsinə satmaq istisna olmaqla, xüsusi mülkiyyətə verilir;";

b) "E" bəndi sonrakı redaksiyada verilsin:

"E) Xüsusi auksion- iştirakçılar arasında mülkiyyətin satılma qiymətini bir dəfəyə yazılı şəkildə təklif edən auksion formasıdır. Bu formalı auksionda konkret inzibati vahidin - əhalinin (kənd, qəsəbə və şəhər əhalisi) və əhali birliklərinin (icmalar) ərazi sərhədləri icma kitabında qeydiyyatda olan və yaşəxsiyyət vəsiqəsi əsasında qeydiyyatı olan Gürcüstan vətəndaşlarının iştirak etmə hüququ var;";

q) "Z" bəndi sonrakı redaksiyada verilsin:

"z) Özəlləşdirmə planı-özəlləşdirmə torpaqları sahələri kadastrda planlaşdırılır, kadastr informasiyası, formaları, torpağın harda yerləşməsi, keyfiyyəti (yaxşı/qeyri məhsuldar) haqqında məlumatlar, bunun əsasında hesablanmış torpaq sahələrinin ilkin qiyməti və onun haqqında informasiya vahidləri hazırlanmasıdır.

c) "İ" bəndi sonrakı redaksiyada verilsin:

"İ) İcma kitabı-inzibati vahid-əhalinin (kəndin, qəsəbənin və şəhərin) ərazi sərhədlərində icmaların və konkret məskunlaşma məntəqələrində yaşayan şəxslərin və icma üzvlərinin olması faktını, orada yaşayan şəxslərin sayını özündə əks etdirən jurnaldır.

2.6-cı maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. İcarəyə verilən kənd-təsərrüfatı təyinatlı torpaq sahələrinin özəlləşdirmə məqsədi ilə xüsusi auksionunun təşkili və keçirilməsini Gürcüstan İqtisadi İnkişaf Nazirliyi müfafiq ərazi orqanları ilə birgə keçirir."

3. 8-ci maddə sonrakı redaksiyada formalaşdırılsın:

"Maddə 8. Torpaq sahəsinin hazırlanması və natural təqdimatı

İcarəyə verilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin hazırlanması və natural təqdimatı və kadastr xəritələrinin hazırlanmasını yerli özünüidarəetmə orqanlarının nümayəndələri Kütləvi Reyestrin Milli Agentliyinin müvafiq ərazi xidmətlərində mövcud informasiyanı daxil etməklə gerçəkləşdirilir. Kütləvi Reyestr Milli Agentliyinun müvafiq ərazi xidmətləri onların əlində olan məlumatın yayılması qayğısına qalmalıdır."

4.13-cü maddənin 2-ci bəndi sonrakı redaksiyada verilsin:

"2. Konkret inzibati vahidinin-məskunlaşmış əhalinin (kəndin, qəsəbənin və şəhərin) və məskunlaşmış əhali birliyinin (icmanın) ərazi sərhədlərində icma kitabında qeydiyyatda olan və yaşəxslərin şahidlik əsasında Gürcüstan vətəndaşı kimi qeydiyyatda olan şəxslərin xüsusi auksiyonda iştirak etmək hüququ var.

5. 14-cü maddə:

a) Başlıq sonrakı redaksiyada verilsin:

"İcarəyə verilən torpaqların özəlləşdirilməsində
Yerli özünüidarəetmə orqanının nümayəndəliyi
Orqan və Gürcüstan İqtisadi İnkişaf
Nazirliyi və onun ərazi orqanın öhdəlikləri

b) Birinci bəndi sonrakı redaksiyada verilsin:

1) İcarəyə verilən torpaq sahələrinin yerli özünüidarəetmənin nümayəndəlik orqanının öhdəlikləri :

a) Özəlləşdirilən torpaq sahəsinin seçilməsi və onun optimal ölçülü sahələrinə (3 hektardan az olmayaraq) bölmək (əgər sahə nin ölçüsü 3 hektardan azdırsa qeyd edilən məhdudiyyət fəaliyyət göstərmir.)

b) Özəlləşdirmə planı layihəsini tərtib edilməsi və Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanlarına təsdiq üçün göndərilməsi;

q) Satışa çıxarılan torpaq sahəsi barədə informasiyanın açıqlığını təmin etmək";

q) 2-ci maddə:

q.a.) "A" bəndi sonrakı redaksiyada verilsin:

"a) Özəlləşdirmə planını layihəsinin müzakirəsi, Gürcüstanın Ətraf Mühitin Müdafiəsi və Təbii Resurslar Nazirliyinin müvafiq ərazi orqanları ilə razılaşdırılması və təsdiq edilməsi.";

q.a.) "B" bəndindən sonra "B1" bəndi artırılaraq sonrakı redaksiyada verilsin:

"b1) Xüsusi auksionun təşkili və keçirilməsi, auksionda qalib gəlməni təsdiq edən aktının tərtib edilməsi və auksionda qalib gəlmiş şəxsə vermək;".

6. Qanuna 151 maddəsi əlavə edilərək sonrakı redaksiyada verilsin:

"Maddə 151. Xüsusi və açıq auksionda iştirak etmək şərtləri

1. Xüsusi və açıq auksionda iştirak etmək üçün maraqlanan şəxs "bes" torpaq sahəsinin özəlləşdirilməsinin ilkin satış qiymətinin 30%-ni ödəməyə borcludur.

2. Açıq və xüsusi auksionda iştirak baş tutduğu təqdirdə "bes" ödəmə Gürcüstan İqtisadi Nazirliyinin müvafiq ərazi orqanı tərəfindən müəyyən edilən hesabata keçirilməklə gerçəkləşdirilir.

3. Auksionda qalib gələn şəxs qalib gəlməsini təsdiq edən aktı imzalamaqdan imtina edərsə akt onun qalib statusunu geri alır və onun "bes" ödəməsi geri qaytarılmır.

4. Auksionda məğlub olmuş və auksiyondan kənar qalmış iştirakçılara "beh" ödənilməsini təsdiq edən qəbz təqdim edi-

ləndən sonra Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanının tapşırığı əsasında qaytarılır. Bank müəssisəsi "bes"i Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanının tapşırığı ilə beş təqvim günü gün ərzində qaytarır."

7. 16-cı maddənin 1-ci bəndi sonrakı redaksiyada verilsin:

"1.Xüsusi və açıq auksionda qalib gələn şəxs qələbəsini təsdiq edən aktı aldığı bir ay ərzində torpaq sahəsinin və ondan azad olmuş tərpənməz əmlakın haqqını ya haqqın tam 20 %-dən azını ödəyir və bunu Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin müvafiq ərazi orqanına təqdim edir. Auksionda qalib gəlmiş şəxsin ödədiyi "b" torpaq sahəsinə ödənilən haqq ödəməsi sayılır. Haqqın ödənilməsini təsdiq edən sənədin təqdimatından sonra torpağın və başqa tərpənməz əmlakın alınmasını təsdiq edən aktı kütləvi reyestrdə mülkiyyət hüququ qeydiyyatından keçirmək olar.

Ancaq haqqın hissə-hissə ödənilməsi təqdirdə torpağın və başqa tərpənməz əmlakın alınmasını təsdiq edən aktın verilməsi və ipoteka müqaviləsi bağlanmaqla kütləvi reyestrdə mülkiyyətin və ipoteka hüququnun qeydiyyatı üçün verilir. Əgər qalib gələn şəxs müəyyən edilmiş vaxtda haqqı ödəməyi təsdiq etməyən sənədi təqdim etməsə auksionun nəticələri ləğv olunmuş elan edilir və qalib şəxsə ödədiyi "beh" qaytarılmır.

8. 17-ci maddə sonrakı redaksiyada verilsin:

"Maddə 17. Mülkiyyət və ipoteka hüquqlarının qeydiyyatı

Bu qanunun əsasında özəlləşdirilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin mülkiyyət və ipoteka hüquqları kütləvi reyestrin qeydiyyat xidmətinə haqqın ödənilmədiyi o təqdirdə qeydiyyatdan keçə bilər ki, birgə və Gürcüstan Vegi Kodeksinin 217-ci və 275-ci maddələrində nəzərdə tutulan tələblərin yerinə yetirilməsi (etiraf olunması) haqqında vergi orqanları bu barədə və ipoteka hüququnda hər hansı dəyişiklərin olmamasını və ipoteka hüququnun ləğv edilməsini bilməyiblər."

9. 18-ci maddənin 5-ci bəndi sonrakı redaksiyada verilsin:

"5. Bu qanunun əsasında əşya əlaqələri Gürcüstan Mülki Kodeksinin 183-cü və 289-cu maddələrində nəzərdə tutulan

tərpənməz əşya hüquqlarını meydana gətirən notarial qaydada təsdiq sənədin mövcudluğunu vacib hesab edir."

Maddə 2. Bu qanun nəşr edildiyi gündən qüvvəyə minir.

Gürcüstan prezdenti
Mixail Saakaşvili
Tbilisi, 8 dekabr 2006-cı il

ƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-T
29.12.2006-cı il

Maddə1."Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununun (Gürcüstan qanunvericiliyi aktları 142, 29.07.2005-ci il, maddə 303) 2-ci maddəsinin 3-cü bəndinin "A" bəndi sonrakı redaksiyada verilsin:

a) Bu qanunu fəaliyyətə başlayana qədər dövət və ya yerli özünüidarəetmə orqanları (idarələr) tərəfindən müəyyən edilmiş qaydada verilən aktlarla xüsusi və hüquqi şəxslərə icarəyə verilən otlaq və biçənəklər, onların içərisində və həndəvərində-ki dövlət mülkiyyəti hesab olunan inşaat-tikinti sahələri olan otlaqlar uçota götürülmüşdür.

Maddə 2. Bu qanun dərc edilən gündən qüvvəyə minir.

Gürcüstan prezdenti
Mixail Saakaşvili
Tbilisi, 29 dekabr 2006-cı il

"DÖVLƏT MÜLKİYYƏTİ OLAN KƏND-TƏSƏRRÜFATI TƏYİNATLI TOPRPAQLARIN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA" GÜRCÜSTAN QANUNUNA ƏLAVƏLƏR VƏ DƏYİŞİLİKLƏR EDİLMƏSİ HAQQINDA
19.06.2000-ci il

Gürcüstan parlamenti qərara alır:

Maddə1."Dövlət mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaqların özəlləşdirilməsi haqqında" Gürcüstan qanununa (parlament xəbərləri1 007, 30.04.1996-cı il,səh.16) sonrakı əlavələr və dəyişikliklər edilsin:

1.4-cü maddəyə:

a) Birinci bənd sonrakı redaksiyada verilsin:

"1. Kənd təsərrüfatı təyinatlı torpaqların mülkiyyətçisi olmaq hüququ Gürcüstan vətəndaşının, icmanın, Gürcüstan qanunvericiliyinə müvafiq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsin, habelə bu bəndin 11,12 və 13-cü bəndləri ilə nəzərdə tutulan hallarda xarici vətəndaşın və xaricdə qeydiyyatdan keçmiş hüquqi şəxsin vəsiyyətnamə ilə götürdüyü kənd-təsərrüfatı təyinatlı torpaq sahələrində mülkiyyət hüququ var və xarici-bununla yanaşı kənd təsərrüfatı təyinatlı torpaq sahəsindən qanunauyğun, Gürcüstan vətəndaşı kimi istifadə edə bilər."

b)Birinci bənddən sonra 11,12 və 13-cü bəndlər əlavə edilsin:

"11. Xarici və xaricidə qeydiyyatdan keçmiş hüquqi şəxslər mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsini öz vaxtında Gürcüstan vətəndaşının, icmanın və ya Gürcüstan qanunvericiliyinə müvafiq olaraq Gürcüstanda qeydiyyatdan keçmiş hüquqi şəxsin adına özəlləşdirməlidir.

12. Bu maddənin 11 bəndində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi mümkün olmadığı təqdirdə xarici və xaricdə qeydiyyatdan keçmiş hüquqi şəxs məhkəmə qərarı və müvafiq dövlətin xeyrinə kompensasiya ödəməklə mülkiyyətində olan kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini geri qaytarır.

13. Kənd-təsərrüfatı təyinatlı torpaq sahəsinin geri verilməsi "Vacib ictimai tələbata görə mülkiyyətin geri verilməsi qaydası haqqında" Gürcüstan qanunu ilə müəyyən edilmiş normalara uyğun gerçəkləşdirilir."

Q) 6-cı bənd sonrakı redaksiyada verilsin:

"6. İcma təsərrüfatının adı ilə hər hansı üçüncü bir şəxslə əlaqəyə girən bərabərhüquqlu icma üzvü geridə qalan icma üzvlərindən bu səlahiyyət razılığını almalıdır."

1. 8-ci bənd sonrakı redaksiyada verilsin:

"Maddə 8. Özəlləşdirmənin ümumi məhdudiyyəti

Yerli (icma) təsərrüfatı arvadı və ya ailə üzvlərinin birgə idarə edən mülkiyyətçi kənd-təsərrüfatı təyinatlı torpaq sahəsini və ya yerli (icma) təsərrüfatı yalnız onun (onların) razılığı ilə özəlləşdirə bilər. Razılıq notarial qaydada təsdiq edilməlidir. Razılaşmaya mühüm səbəb üzündən yox deyilə bilər. Əgər mülkiyyətçi razılıq ala bilməsə, bununla bağlı məhkəməyə müraciət edə bilər."

3. 10-cu və 11-ci maddələr çıxarılsın.

4. 19-cu və 11-ci bəndlər çıxarılsın.

5. 20-cu maddə çıxarılsın.

Maddə 2. Bu qanun dərc ediləndən sonra qüvvəyə minir.

Gürcüstan prezdenti
Mixail Saakaşvili
Tbilisi, 19 iyun 2007-ci il

İçindəkilər

Öz söz.....3

I BÖLMƏ. ***Milli azlıqlarla bağlı beynəlxalq aktlar***

1. Avropa Şurasının Nizamnaməsi.....6
2. Avropa Sosial Xartiyası.....7
3. Bölgə Dilləri və Azlıqların Dilləri Haqqında Avropa Xartiyası.....8
4. Milli Azlıqların Müdafiəsi Haqqında Çərçivə Konvensiyası.....29
5. ATƏM-in insan ölçüsü konfransına dair Kopenhagen müşavirəsinin sənədi.....41
6. Yeni Avropa Üçün Paris Xartiyası.....47
7. ATƏM-in insan ölçüsü konfransına dair Moskva müşavirəsinin sənədi.....49
8. Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirə. 9-10 iyul 1992-ci il tarixli Helsinki zirvə görüşü, 1992-ci il Helsinki sənədi.....51
9. İctimai-siyasi Həyatda Milli Azlıqların səmərəli iştirakı haqqında Lund Tövsiyəsi.....56
10. Milli azlıqların ictimai-siyasi həyatda səmərəli iştirakı haqqında Lund tövsiyəsi üçün izahedici qeydlər.....69
11. Milli Azlıqların Təhsil hüququ üzrə Haaqa Tövsiyyələri.....91
12. Milli Azlıqların Dil Hüquqları Haqqında Oslo Tövsiyələri.....104
13. Birləşmiş Millətlər Təşkilatının nizamnaməsi.....130
14. İnsan Hüquqlarının Ümumi Bəyannaməsi.....132
15. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiya.....139
16. İrqi Ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi Haqqında Beynəlxalq Konvensiya.....158

17.Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt.....163
18.İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt 166
19.Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət məhkəməsinin icrasına aid minimal standart qaydaları ("Pekin qaydaları").....167
20.Uşaq hüquqları haqqında konvensiya.....168
21.Bütün mühacir zəhmətkeşlərin və onların ailə üzvlərinin hüquqlarının qorunması.....169
22.Milli, yaxud etnik, din və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında konvensiya.....170
23.Beynəlxalq cinayət məhkəməsinin Roma statutu 2-ci hissə. Yurisdiksiya, qəbul oluna bilmə və tətbiq edilə bilən hüquq.....175
24.Azlıqlara Mənsub Şəxslərin Hüquqlarını Təmin Etmək haqqında Konvensiya.....176

II BÖLMƏ. *Gürcüstan qanunvericiliyi*

1. Gürcüstan Konstitusiyası.....183
2. Konstitusiyaya əlavələr.....223
3. Ümumtəhsil haqqında Gürcüstan qanunu.....256
4. Ümumtəhsil haqqında Gürcüstan qanununa əlavələr.312
5. Kənd təsərrüfatı təyinatlı torpaq üzərində mülkiyyət haqqında Gürcüstan qanunu.....321
6. Torpaq qanununa əlavələr.....363

MİLLİ AZLIQLARIN HÜQUQLARI: BEYNƏLXALQ AKTLAR VƏ GÜRCÜSTAN QANUNVERİCİLİYİ

Kompyuter tərtibatçısı:
Rahilə Məmmədova

Çapa imzalanmışdır: 22.12.2008
Kağız formatı: 60x84 1/16
Həcmi: 23 ç.v.; Sifariş: 429; Sayı: 2000

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;
Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh.,Şərifzadə küçəsi, 202
Tel.: 433-00-43

X911
M62